Azərbaycan-Avrasiya Araşdırmaları Mərkəzinin
Türk Dünyası Filologiyası sırasından

Prof. Dr. MUSTAFA İSEN

TƏZKİRƏDƏN BİOQRAFİYAYA

və seçilmiş məqalələr

Baki
OSKAR-2012

Azəri türkcəsinə uyğnlaşdıran: **Narıngül Nadir qızı**

Elmi redaktorlar: Prof.Dr. **Kamil Vəli Nərimanoğlu**
Prof.Dr. **Nəsib Göyüşov**

*Azərbaycan - Avrasiya Araşdırmaları Mərkəzinin Türk Dünyası Filologiyası sırasının ilk nəşrini görkəmli alim, ictimai-siyasi xadim, Azərbaycan xalqının böyük dostu, həyatını və yaradıcılığını türk xalqlarının ədəbiyyat tarixinə həsr etmiş olan **Prof. Dr. Mustafa İsenin** yaradıcılığına həsr etmişik. Onun ayrı-ayrı araşdırmaları və bir sıra elmi konfranslardakı məruzələrindən ibarət olan "Təzkirədən Bioqrafiyaya" adlı əsərini və "Varayım Gideyim Urumeline" kitabından bir neçə məqaləni Azərbaycan türkcəsinə uyğunlaşdıraraq bu nəşrə daxil etmişik. Məqsədimiz görkəmli alimin yaradıcılığı haqqında daha dolğun məlumat vermək, onun araşdırmaları ilə Azərbaycan oxucusunu daha yaxından tanış etməkdir. Gələcəkdə bu seriyanı davam etdirərək F. Körpülüzadə, İ.V Stebleva, V.Jirmunski, X.Koroğlu, M.Ergin, Y.Akpınar, A.V.Dıbo, Q.Abdurahmanov, Ə.V.Əlcülasun, D. Vasilyev, Ə.S. Sibqatulina, N.A.Baskakov və başqalarının yaradıcılığına müraciət etməyi nəzərdə tutmuşuq. İnanırıq ki, bu seriyadan nəşr olunacaq əsərlərin yalnız Azərbaycan filologiyası, elm və təhsili üçün deyil, ümumi mədəniyyətimiz üçün də çox böyük əhəmiyyəti olacaqdır.*

*Bu böyük layihəni maddi və mənəvi cəhətdən dəstəkləyən fikir və iş adamı **Əli Polada** və nəşr işindəki diqqət və qayğısına görə **"Oskar"** nəşriyyatının müdiri **Namiq** bəyə öz təşəkkürümüzü bildiririk*

ISBN 5-86874-528-3

© Prof. Dr. Mustafa İsenin

Müəllimim prof. Dr. Haluq İpəkten (1926-1992) və
Behcət Necatigilin (1916-1979)
əziz xatirəsinə hörmət və ehtiramla

Kitablarda ölmək

Adı, soyadı
Açılır mötərizə.
Doğulduğu il cizgi, öldüyü il bitdi
Qapanır mötərizə.
O, indi kitablarda bir isim, bir soyaddı
Mötərizə içində doğum, ölüm ili
Ya səhifə altında, ya bir az irəlidə
Əsərləri, çap olunma illəri
Qısa, uzun bir vərəq
Kitab adları
Can çəkişən quşlar kimi əlimizdə.
Mötərizə içindəki cizgi
Nə varsa orada.
Ümidi, qorxusu, gözyaşı, sevinci
Nə varsa orada.
O indi kitablarda
Bir misralıq yerdə həbs
Hələmi yaşayır, qorunanmaz ki...
Öldürə bilərsiniz.

Behcət Necatigil

KİTABIN İÇİNDƏKİLƏR

Türk mədəniyyət və ədəbiyyat tarixinin
araşdırılmasına dəyərli örnək..... 6
Müəllifdən.....10

I HİSSƏ: TÜRK TƏZKİRƏ ƏNƏNƏSİ

XVI yüzilliyin sonuna qədər Osmanlılarda təzkirə ənənəsi.....15
Türkcə yazılmış şair təzkirələri.....35
Türk təzkiraçilik ənənəsində Əlişir Nəvainin yeri 44
Səhi Bəy və təzkirəsi.....51
Lətifi təzkirəsi.....62
Anadolu türk təzkiraçiliyində forma dəyişikliyi.....72
Türk təzkiraçiliyində antologiya tipli nümunələr.....78
Həsən Çələbi təzkirəsi.....83
Ədəbiyyat tarixində "Künhül-əxbar"ın yeri.....89
"Künhül-əxbar"ın şairlərə həsr olunan
hissəsinin qaynaqları.....100
Ədəbiyyat tariximizin qaynaqlarından
olan Övliya Çələbi «Səyahətnamə»si.....144

II HİSSƏ: TƏZKİRƏLƏR İŞIĞINDA DİVAN ƏDƏBİYYATI

Osmanlı mədəniyyətinə baxış.....153
Divan şairlərinin təsəvvüf və təriqət əlaqələri.....162
Divan şairlərinin sənət növləri.....170
Divan ədəbiyyatında eyni təxəllüslü şairlər.....179
Osmanlılar dövründə şəhər və mədəniyyət.....192
İstanbul klassik şeirin mərkəzi kimi.....198
Bolqarıstanlı divan şairləri 205
"Künhül-əxbar"a görə bugünkü Yuqoslaviya sərhədləri
içərisində doğulmuş şairlər.....212
Osmanlı mədəniyyətində Kiprin yeri və
Kiprli divan şairləri.....240

Osmanlı Türkiyəsinə köç etmiş azərbaycanlı
klassik ədəbiyyat təmsilçiləri.....246
Ankaralı divan şairləri.....258
Tokatın Osmanlı mədəniyyətində yeri və tokatlı şairlər.....264
Ərzurum şairləri və Nəfi.....272
Ədəbiyyat tariximizdə Bağdad.....280
Mədəniyyət tariximizdə Üsküp və
üsküplü divan şairləri.....287
Ədəbiyyat tarixində Priştinə və burada doğulmuş
divan şairləri.....296
Diyarbəkirli düşüncə və sənət adamları.....301
Klassik mədəniyyətdə Sakarya və onun əhatəsi.....306
Türk bioqrafiyasının çağdaş tənqidçiləri
Hammer və Behcət Necatigil.....312

“VARAYIM GİDEYİM URUMELİNE”

kitabından seçilmiş məqalələr

Ön söz.....321
Balkanlarda çağdaş türk ədəbiyyati.....324
İstifadə edilmiş ədəbiyyatlar 343

Türk mədəniyyət və ədəbiyyat tarixinin araşdırılmasına dəyərli örnək

Müsəlman Şərq xalqlarının Orta əsrlərdə yaranan zəngin elm və mədəniyyət tarixində sənət və ədəbiyyat önəmli yer tutur. Burada ədəbi proses dövrə xas ictimai-sosial və mədəni mühitin formalaşdırdığı dini-ideoloji, əqli-mənəvi və başqa dəyərlərlə sıxı surətdə əlaqədar olaraq inkişaf tapmışdır. Keçmişin ədəbi-mədəni həyatının və bədii-estetik düşüncə tərzinin elmi mənzərəsini yaratmaq üçün ilk növbədə ilkin qaynaqlarda toplanan məlumatlar əsasında araşdırma aparmaq və mülahizə söyləmək mümkündür və bu baxımdan tarix və mədəniyyətə aid ilkin yazılı qaynaqların, xüsusilə ədəbiyyat üzrə təzkirələrin tədqiqi olduqca əhəmiyyətli bir məsələ olaraq qarşımıza çıxır. Bu sahə üzrə görülən qiymətli və mühüm işlərin yekunu olaraq Türkiyə Cümhurbaşkanlığının baş katibi, Prof.Dr. Mustafa İsenin "Tezkireden Biografiye" adlı kitabını nümunə kimi göstərə bilərik. Müəllif Türkiyədə təzkiraçilik ənənələrinin elmi araşdırılması üzrə məktəb yaratmış və onun mədəniyyət və ədəbiyyat tarixinə göstərdiyi bu dəyərli xidməti yetişdirdiyi tələbələri – Prof.Dr. F. Kılıç, Doç. Dr. S. Solmaz, Doç. Dr. A. Eyduran, Doç. Dr. G. Zavodçu və digərləri davam etdirirlər.

Bəllidir ki, ədəbiyyat tarixi və ədəbi tənqidin keçmişini öyrənmək üçün ən dəyərli qaynaqlardan biri təzkirələrdir. Peyğəmbər sirəsindən formalaşmağa başlayan, sonra isə elmi simaların, övliyaların və müxtəlif mədəniyyət sahələrində xidmət göstərmiş şəxsiyyətlərin həyat və yaradıcılığı haqqında yığcam məlumatları bir qaynaqda toplayan təzkiraçilik ənənəsi ədəbiyyat tarixində özünə önəmli yer tutmuşdur. Öncə ərəbcə, sonra isə farsca yaranıb genişlənən bu ənənə daha sonralar türkcə yazılmağa başlamış və özündən əvvəl formalaşan üsul və qaydaları saxlamaqla yanaşı, bir sıra metodoloji yeniliklər və dəyişiklər gətirməklə özünəməxsus inkişaf yolu keçmişdir. Qeyd edək ki, ədəbi prosesin tarixi inkişaf yollarını, ədib və şairlərin həyat və yaradıcılığını izləmək üçün təzkirələrin əhəmiyyəti böyükdür. Maraqlı haldır ki, İran və Türkiyədə istər

ayrı-ayrı təzkirələrin tədqiqi və nəşri, istərsə də təzkirəçilik tarixinin araşdırılması üzrə mühüm işlər görülmüşdür. Lakin Azərbaycanda bu iş nisbətən geç başlanmış, bir neçə təzkirə işıq üzü görmüşdür. Bu sahədə ilk təşəbbüslərlərdən olan N. Qarayevin, M. Muradovanın, K. Məmmədovanın, A. Topalovanın tədqiqatlarını göstərmək olar. Təzkirəçilik ənənəsinin sistemli və ardıcıl tədqiqi isə Dr. Vüsalə Musalı tərəfindən aparılmaqdadır. 2006-ci ildə "XV-XVII əsrlər türk təzkirələrinin strukturu və spefikası" mövzusunda doktorluq işini başa çatdırran müəllif, hal-hazırda "Türk təzkirəçiliyinin inkişaf və təkamül mərhələri" mövzusu üzrə yüksək doktorluq səviyyəsində araşdırma aparmaqla məşğuldur. Onun "Osmanlı təzkirələrində Azərbaycan şairləri" adlı monoqrafiyası 2009-cu ildə, "Türk təzkirəçiliyi" (Biblioqrafiyası) kitabı isə 2011-ci ildə nəşr edilmişdir.

Ümumiyyətlə, klassik dövr üzrə ədəbiyyat tarixi, ədəbi tənqid, poetika və estetik fikir haqqında mükəmməl təsəvvür yaratmaq üçün müraciət edilməsi zəruri olan qaynaqları belə xülasə etmək olar:

1. Tarix və xronikalar;
2. Əruz və qafiyəyə dair qaynaqlar;
3. Bəlağətə aid əsərlər;
4. Təzkirələr.

Prof.Dr. Mustafa İsenin türk təzkirəçilik ənənələri üzərində apardığı ardıcıl və sistemli araşdırmalar təkcə Türkiyə coğrafiyasında deyil, Heratdan başlayarak Balkanlara qədər uzanan bir məkanda yetişən türk ədəbiyyatının tanınmış və tanınmamış simaları haqqında dolğun məlumat verir. Burada Türk təzkirəçilik ənənəsinin əsas cizgiləri və önəmli xüsusiyyətləri, eyni zamanda divan ədəbiyyatı ilə bağlı dəyərləndirmələr ayrı-ayrı məqalə və yazılar şəklində öz əksini tapmışdır. Farsca təzkirəçilik ənənəsi daha əvvəl yaransa da, burada ədəbi tənqid və dəyərləndirmə nisbətən zəif olmuşdur. Bu məsələni İran təzkirəçilik tarixini araşdıran Golçin Məani və başqa tanınmış müəlliflər də qeyd etmişlər. Buna bənzər şəkildə bir sıra Türk şairlər təzkirəsi də ədəbi tənqid və dəyərləndirmə baxımından zəifdir. Lakin bununla yanaşı, Osmanı dönəmində qələmə alınan Türk təzkirələri içərisində ədəbi tənqid baxımından böyük mühtəvası və öz elmi dəyərləndirməsi isə seçilən mühüm qaynaqlara da rast gəlinir ki,

bunlardan Lətifi, Mustafa Əli və Çələbininn əsərlərini özəlliklə qeyd etmək lazımdır. Prof. Dr. Mustafa İsen bütün bu məsələləri diqqətlə araşdırmışdır. Təzkirələrdə təriqət şairləri ayrıca məqalədə işıqlandırılır. Müəllif eyni zamanda Ankara, Tokat, Ərzurum, Bağdad, Üsküp, Diyarbəkir bölgələrində yetişən şairlər haqqında da ayrı-ayrı məqalələr şəklində bəhs edir.

Müəllifin kitaba daxil edilmiş məqalələrində mədəniyyət tarixinin bir çox önəmli məqamları təhlil edilir, şəhər mədəni mühitində yaranan və inkişaf edən divan ədəbiyyatının xüsusiyyətləri nəzərdən keçirilir. İstanbulun Qsmanlı dönəmində mühüm mədəniyyət mərkəzi kimi formalaşmasına təsir göstərən amillərin incələnməsi də diqqəti cəlb edən məqamlar sırasındadır. Kitabda yer alan ayrıca bir bölümdə isə müxtəlif səbəblərdən Türkiyəyə mühacirət etmiş Azərbaycan müəllifləri haqqında faydalı məlumatlar verilir. Orta çağlarda eyni sivilizasiya məkanında öz yaşamını davam etdirən Şərq xalqlarının yaratdığı elmi-fəlsəfi, dini-mənəvi, ədəbi-estetik və hətta milli dəyərlər olduqca yaxın və müştərək xarakterə malikdir və bu cəhətdən onların tədqiqi həmin dəyərləri paylaşanların hamısı üçün faydalıdır. Ona görə keçmişin elmi, mədəni, ədəbi və mənəvi mirasını araşdırarkən məsələyə dar və məhəlli təəsüb baxımından deyil, geniş və cahanşümul bir sivilizasiya məkanında formalaşan ortak dəyərlər bucağından yanaşmaq lazım gəlir və müəllif bu məsələlərə yüksək intellektual və elmi səviyyədə yanaşmışdır.

Onu da qeyd etmək yerinə düşər ki, Azərbaycan mədəniyyət və ədəbiyyat tarizxinin tədqiqində bəzi sahələr üzrə müəyyən boşluqlar vardır ki, buraya Orta çağlarda formalaşan islam mədəniyyət kateqoriyalarının universal xarakteri, başqa xalqlarla ortaq xüsusiyyətləri daşıyan təsəvvüf və sufi ədəbiyyatı, klassik divan ədəbiyyatının estetikası və təzkirəçilik ənənəsinin tədqiqi daxildir. Təzkirələrin akademik nəşrində də müəyyən boşluqlar və qeyri-peşəkar cəhətlər nəzərə çarpır ki, həmin problemlərin həlli baxımından Türk araşdırıcılarının bu sahədə gördüyü işlərdən faydalanmaq və qarşılıqlı elmi-nəzəri mübadilə əhəmiyyətli görünür. Bu baxımdan Prof.Dr. Mustafa İsenin kitabının Azərbaycan türkcəsi ilə yayınlanmasının elmi-mədəni ictimaiyyət üçün faydalı olacağı heç bir şübhə doğurmur.

Zənnimizcə, bu kitabda toplanan araşdırmalar istər mövzu və məzmun, istər daşıdığı məlumatlar və istərsə də elmi yanaşma metodu baxımından təkcə filoloqların deyil, tarixçilərin və mədəniyyətşünasların, ümumiyyətlə, elmi-mədəni elitanın maraq və diqqətini cəlb edəcək.

Kitab Azərbaycan türkcəsinə çevrilərkən onun elmi yönümünü və araşdırıcılar üçün nəzərdə tutulduğunu nəzərə alaraq qaynaklar və onlarda yer alan mətləblər, eyni zamanda bir sıra əski terminlər orijinalda saxlanmışdır.

Prof.Dr. Kamil Vəli Nərimanoğlu
Prof.Dr. Nəsib Göyüşov

Müəllifdən

Əlimizdəki kitabda dönə-dönə qeyd edildiyi kimi, bioqrafiya insan məfhumu yarandığı gündən onunla birlikdə meydana gələn elm sahəsidir. Hafizə sahibi olan insan oğlunun keçmişdə olan hadisələri öyrənməyə can atması ilə yanaşı bu hadisələri yaradan insanlara da maraq göstərməsi, hələ qədim tarixlərdən bioqrafiya növünün yaranmasına səbəb olmuşdur. Kitabın içində izah edildiyi kimi islam tarixinin özünəməxsus xüsusiyyətlərindən biri də, bioqrafiyanı özündə əks etdirməsi olmuşdur və bu növ daha çox islam tarixində inkişaf edərək təşəkkül tapmışdır. Məhz islam mədəniyyətinin öz varlığı ilə dünya mədəniyyətinə yeni çalar verdiyi və zənginləşdirdiyi sahələrdən biri də tarix yazıçılığı, xüsusilə də islam tarixinin alt qolu olan təzkirələrnin qələmə alınmasıdır.

İlk dəfə ərəb dünyasında yaranan bu növ, sonra farslara, ordan da türk tarixçiliyinə keçmişdir.Təzkirə növü ortaq bir mədəniyyətin daşıyıcısı olduğu üçün, öz ana xəttini saxlayaraq inkişafını davam etdirmişdir. XVI əsrdə ilk və mükəmməl nümunələrini ortaya qoymağa başlayan bioqrafiya növü əsasən elm və ədəbiyyat tarixi başda olmaqla, həyatın bütün sahələrinə nüfuz etmiş, XX əsrin əvvəllərinə qədər öz əhəmiyyətini itirməmişdir.

XX əsrin əvvəllərindən sonra isə bioqrafiyalar bir çox başqa növlər kimi qərb yazı modelində olan nümunələrə uyğunlaşaraq öz formasını dəyişmişdir.

Bu kitabda hələ həyatımın erkən çağlarından müraciət etdiyim bu ədəbiyyat növünün ayrı-ayrı çalışmalarını bir yerə toplayaraq, həmin sahə ilə maraqlananlara bir töhfə etmək istədim. Universitetdə təhsil aldığım illərdən başlayaraq bu günədək şairlərə aid təzkirələr ən çox diqqətimi çəkən sahə olub. Dünyasını dəyişmiş ustadım Haluk İpəkten Bəyin açdığı yolla irəliləyərək təxminən 35 ildir ki, bu mövzu ilə bağlı əsərlər yazıram. Böyük zövq və həvəslə yürüdüyüm bu yolda gördüklərimi ətrafdakılarla paylaşmaq, onları da bu zəngin və maraqlı tarixi irsin incəlikləri ilə tanış etmək üçün bu toplunu ərsəyə gətirməyi məqsədə uyğun bildim.

Burada yer alan məqalələrin əsas bir hissəsi akademik yazılardır. Bir hissəsi isə akademik çalışma olmaqla birlikdə, tənqid və araşdırma funksiyasını özündə əxz etmiş mətnlərdir.Yazılardakı eyni mövzulara müxtəilf vaxtlarda və fərqli qaynaqlardan istifadə etməklə baxıldığından, eyni zamanda, başqa-başqa auditoriyalar üçün nəzərdə tutulduğundan kitabda müəyyən təkrarların nəzərə çarpması da gözləniləndir. Bu təkrarçılıq, eyni zamanda eyni mövzuya məlum bir baxış bucağından yanaşmanın nəticəsindən yaranan məcburi haldır.

Kitabdakı əsasən bir mövzuya xidmət edən məqalələr yetmişinci illərin sonundan başlanaraq bu günə qədər davam edən yazıların toplusudur. Bunların üzərində kiçik müdaxilələr istisna olmaqla heç bir dəyişiklik edilməyib. Bu gün nəşr olunmuş bəzi əsərlərin kitabda qaynaq kimi istifadə olunması da bu üzdəndir.

Bəzi başlıqlar da (məsələn, "Künhül-əxbar"a görə bu günkü Yuqoslaviya ərazisində doğulan şairlər) zahiri dəyişikliklər olmasına baxmayaraq eyni qalmışdır. Təbii ki, bu məhsullar yazıldığı dövrləri əks etdirir.

Haluq İpəkten bəydən fərqli olaraq özünü görməsəm də, Behcət Necatigil də dəyərli şəxsiyyət kimi nümunə götürdüyüm və təsirləndiyim tədqiqatçılardandır. Onun məni ən çox özünə cəlb edən tərəfi isə təzkirəçiliyə göstərdiyi xüsusi diqqətidir.

Buna görə də kitabı bu iki dəyərli insana ithaf etdim və Necatigilin bu sahədə necə duyğulu və həssas olduğunu əks edirən bir şeiri ilə kitabımın ilk səhifəsinə incə bir naxış vurdum. Onun bir şair təxəyyülü ilə göstərdiyi kimi bir mötərizə içərisində tire şəklində təsvir olunan bu insan həyatları böyük romanlara mövzu olacaq qədər zəngindir.

Mən bu çalışmayla mədəni təməllərimizin köklərinin necə dərində olduğunu nəzərə çarpdırmaq və xalqımın necə bir bioqrafik zənginliyə malik olduğunu göstərmək istədim.

Bioqrafiya araşdırmalarıma başladığım 70-ci illərə dönüb baxdığımda bu sahə ilə bağlı bəzi işlərin görüldüyünün şahidi oluram. Ancaq bu sahədə hələ görülməli işlərin çox olmasını da xüsusi olaraq qeyd etmək istəyirəm. Əgər çalışmamla bu qədim

növün görünməyən zəngin tərəflərinə azacıq da olsa işıq sala bilmişəmsə, çox şad olardım.

Bu çətin və şərəfli işi yerinə yetirməkdə mənə vasitəçi olmuş "Kapı yayınları"na dərin təşəkkürümü bildirirəm.

Prof. Dr. Mustafa İsen
Ankara, 2010

I HİSSƏ
TÜRK BİOQRAFİYA ƏNƏNƏSİ

XVI YÜZİLLİYİN SONUNA QƏDƏR OSMANLILARDA TƏZKİRƏ ƏNƏNƏSİ*

Tanınmış adamların həyat hekayələrindən bəhs edən və ədəbiyyat tarixində ayrıca bir növ kimi səciyyə daşıyan təzkirə növü demək olar ki, insanlarla yaşıd olan bir elm sahəsidir. Başlanğıcında tarixin içində yer alan bu növ, bir müddətdən sonra müstəqil bir sahə kimi inkişaf edərək özünü təsdiqləmişdir. Bildiyimiz kimi tarix, bizdən əvvəl yaşamış olan insanların şahidi olduqları hadisələri və bu hadisələrin qəhrəmanlarını özündə əks etdirmişdir.

Məlumdur ki, tarixi yaradan şəxslərin həyat hekayələri də tarixi hadisələrin özləri qədər mühüm və maraqlıdır. Bu həyat hekayələrini əks etdirmək missiyası isə təzkirələrin üzərinə düşür. Buna görə də Qərb və Şərq tarixçilərinin əksəriyyəti tarixin içində bioqrafiyalara da müəyyən yer vermişlər.[1]

İslam dünyasında isə təzkirənin məzmunu bundan da o tərəfə keçərək daha böyük əhəmiyyət kəsb edir. Çünki İslam tarixçiliyi Hz.Peyğəmbərin həyat və fəaliyyətinin təsvir edilməsi ilə, yəni bioqrafiya ilə başlamışdır. İslam tarixinin qaynağını hədislərdə, xüsusilə də Hz.Peyğəmbərin müqəddəs şəxsiyyətini və dini etiqadını əks etdirən, qəzalarına aid hədislərin toplumunda axtarmaq gərəkdir.[2] Çünki bir hədisin dəyəri və doğruluğu islam etiqadının dürüstlüyünə və möhkəmliyinə də dəlalət edir. Bir hədisin nəql edilməsi, həm də onun doğruluğunun sənədidir. Get-gedə tarixçilər bu sahəni

[1] Adnan Adıvar,"Tarih ve bioqrafi"tarix jurnalı C.2, S.3,4 İstanbul 1952,S 2

[2] İslam Ensiklopediyası,Tarix Maddəsi, C.2, s.378; Hamilton ArGibb,"İslam medeniyyeti üzerine Araştırmalar", İstanbul 1991, s. 128; "Diyanet Vakfı İslam Ansiklopedisi "Arap Maddesi", C.III, s. 298; Franz Babinger "Osmanlı Tarih Yazarları ve Eserleri" (çeviren Çoşkun Üçok), Ankara 1982; Şəmsəddin Günaltay "İslamda Tarih ve Müverrihler" İstanbul, 1923-1925; Nəcib Asim "Osmanlı Tarih-nüvisleri ve Müverrihleri" TOEM, (1327); J.S. Robinson, "The Tezkere Genre in İslam, Journal jf Near Eastern Studies" Vol. 23, s.57; Şəhabəttin Təkindağ, "Osmanlı Tarih Yazıcılığı", Belleten XXXV/140, Ankara 1971; İlbər Ortaylı, "Osmanlı Tarih Yazıcılığının Evrimi Üstüne Düşünceler" Türkiyə Sosial və Elmi Araştırmalar Mərkəzi, 1986, s.419.

daha da genişləndirmişlər. Beləcə hədislərin nəql edilməsindən yaranan tarix elmi özünə xas ənənəvi təqdim tərzini mühafizə edərək, dilçilər tərəfindən toplanmış tarixi məhsullar toplusuna çevrilmişdir.[3] Bununla bərabər başda Hz.Peyğəmbər olmaqla islam tarixinin önəmli insanların cəmiyyətə nümunə olacaq şəxsiyyətlər kimi təqdim edilməsi də bioqrafiyanı gündəmdə saxlayan başqa bir əhəmiyyətli cəhətidir.

Buna ərəb ənənəsindən gələn kök-soyla öyünmək xüsusiyyətini də əlavə etmək gərəkdir. Buna görə də bioqrafiya islam tarixçiliyində həmişə əhəmiyyətli yer tutmuş, hətta vaxt keçdikcə tarixin başqa sahələrinə nisbətən daha zəngin mövzuya malik bir sahəyə çevrilmişdir.[4]

Tarixin siyasət sahəsində yer alan alim və mühəddislərin zaman keçdikcə yüksək vəzifə sahibləri ilə əvəz edilməsi nəticəsində, bioqrafiya sahəsi sərbəst tarixçilərin ixtiyarına verildi.

Tarixin hakimiyyətə görə dövrlərə bölünməsindən sonra bioqrafiya sahəsi alim və mühəddislərin gözündə daha böyük əhəmiyyət qazandı. Onlar dünyəvi, bəzən də dinsiz siyasi mətn yerinə, peyğəmbərin varisləri olan üləmanın həyatını anlatmağı əsas tarix olaraq diqqətdə saxladılar.[5]

Bu niyyətlə daha çox bir qrupa, yaxud da bir sinfə mənsub olan adamların bir topluda cəmlənməsindən ibarət əsərlər yazılmağa başlandı.

Əbu Nəim İsfəhaninin (v. 1038) "Hilyətü l-övliya"sı və Xətibi Bağdadinin (v 1071) tək bir bölgəylə bağlı böyük həcmli əsəri bunların ilk nümunəsidir.[6] Get-gedə bu çalışmalar dilçiləri, şairləri, həkimləri və digər sənət adamlarını da əhatə etməyə başladı. Şeir sahəsində bunların əldə olunan ilk nümunəsi Məhəmməd b. Sallam əl-Cumahinin (v. 865) "Təbəqatüş-şüəra" adlı əsəridir. Bu əsər vasitəsiylə qədim dövr islam mədəniyyəti haqqında məlumatlar əldə

[3] İslam Ensiklopediyası: həmin m., s.785.
[4] Franz Rosenthal, A History of Muslim Historiography, Leiden 1952, s. 101.
[5] Hamilton Gibb: həmin kitab, s. 138.
[6] Hamilton Gibb: həmin kitab, s.139.

edə bilirik.[7] İbn Kuteybənin "Kitabüs-şiir və şüəra"sı isə bu sahədə yazılmış ikinci əsərdir.Bu sahənin başqa bir nümunəsi Əbül-Fərəc Əl-İsfəhaninin (v. 967) "Kitabül-Ağani" adlı əsəridir. Əl Mərzubaninin (v. 990) "Mücəmüş-şüəra" adlı əsəri isə metod baxımından mühüm bir əsər hesab oluna bilər. Bu əsərdən başlanaraq şairlər əlifba sırası ilə sıralanmağa başlamışdır. Bunlara Səalibinin (v. 1038) "Yətimüd dəhrini" və Bahrazinin (v. 1075) buna əlavə olaraq yazdığı "Dumyetül-kəsr"ını əlavə etmək gərəkdir. Hazıri (v.1172) "Zinətü-d dəhr", İmaməddin Əl İsfahani (v. 1201) isə Haridətül-kasr" adlı əlavəsi ilə bu işi davam etdirmişlər. [8]

XII yüzillikdən etibarən illərin xronologiyasına əsaslanan tarix ənənəsi özünü təsdiqlədi. Belə əsərlərə bəşərin yaranması ilə başlanan ümumi tarix və ya islamın yüksəlişi ilə başlanan milli tarix də əlavə olunmağa başlandı. Bioqrafiyalar bu tarixlərin içində yer almağa davam etdi.[9] Birzalı (v. 1339) bioqrafiyaların yüzilliklərə görə tənzim olunması üsulunu yaradırkən, İbn Hacər Əskəlanı (v. 1449), bioqrafiyaların ölüm tarixi əsasında tərtib edilməsinə başlandı.[10]

XII əsrin sonlarına qədər ərəbcə yazılaraq davam edən bu ənənə, həmin yüzillikdən sonra yerini farsca olan nümunələrə verməyə başladı. Farsca təzkirənin ilk nümunəsi "Lübabül əlbab" (1221) adlı əsərlə Məhəmməd əl-Ovfi (v. 1232) tərəfindən yazıldı. Onun istifadə etdiyi üslub da özündən əvvəlki ərəbcə yazılan bioqrafiyalar kimiydi. Sonra bunu Molla Cami (v.1493) davam etdirmişdir. Səkkiz hissədən ibarət "Baharıstan" adlı əsərinin yeddinci hissəsi şair bioqrafiyalarına həsr olunmuşdur. Bu hissədə ümumilikdə 38 şairdən bəhs edilir.[11]

Ancaq ədəbiyyatın bu növündə əsl diqqət çəkən nümunə Dövlətşah b. Əlaüd-dövlə Səmərqəndi (v.1486) tərəfindən qələmə alınan "Dövlətşah Təzkirəsi"dir. (1487). Dövrünün tanınmış adamı Əlişir Nəvaiyə həsr olunan bu əsər bir müqəddimə, yeddi hissə və

[7] J.S. Robinson: həmin məqalə, s.61.
[8] J.S. Robinson: həmin məqalə, s.61-62.
[9] Hamilton Gibb: həmin kitab, s.143.
[10] Hamilton Gibb: həmin kitab, s. 147.
[11] Câmi "Baharistan" (Çev. M.Nuri Gençoşman), İstanbul 1985.

bir xatimədən ibarətdir. Təzkirədə yer alan şairlərin ümumi sayı 149-dur. Bu təzkirə, özündən sonra yazılan fars və türk təzkirələrinə örnək olmuş və o günədək yazılmış olan ona bənzər təzkirələrdən, özündə daha çox bioqrafiya ehtiva etməsiylə fərqlənir[12]. Başqa bir təzkirə Sam Mirzə (v.1567) tərəfindən qələmə alınmış "Töhfeyi-Sami"(1550) adlı əsərdir. Kitab yeddi bölməyə ayrılıb və həmin bölmələrdə 700-ə qədər şairdən söz açılır. Əsərin altıncı bölməsi "Təbəqəyi-Türkan" adı altında türk şairlərinə həsr olunmuşdur.

"Baharıstan" və "Dövlətşah təzkirəsi"ndən sonra bu sahədə meydana gələn başqa bir təzkirə isə, türkcə yazılan bir sıra nümunələrin müəllifi olan Əlişir Nəvai (1441-1501) tərəfindən yazılmışdır. Onun "Məcalisün-nəfais" (1491) əsəri müqəddimədən və məclis adlandırdığı səkkiz bölmədən ibarətdir. Əsər Cami və Dövlətşah təzkirələrinə bənzəyir. Təzkirələrdə şairlər xronoloji şəkildə hər bir məclis üzrə aşağıdakı formada sıralanmışdır.

1-ci Məclis. Nəvaidən əvvəlki şairlər.

2-ci Məclis. Nəvainin uşaqlıq və gənclik illərində tanıdığı, ancaq təzkirə yazıldığı müddətdə artıq vəfat etmiş şairlər.

3-cü Məclis. Nəvainin müasiri olan şairlər

4-cü Məclis. Alim şairlər

5-ci Məclis. Xorasanlı şair mirzələr və hökmdar ailəsi şairləri

6-cı Məclis. Xorasandan xaricdə yaşayan elm adamları və şairlər

7-ci Məclis Sultan və şahzadələrdən olan şairlər

8-ci Məclis Dövrün padşahı Sultan Hüseyn Baykara

"Məcalisün-nəfais"də Herat, Xorasan və Azərbaycanda yaşayan və əksəriyyəti farsca yazan 455 şairə yer verilmişdir. Bunlardan 43-ü türk və ya türkcə yazan şairlərdir. Nəvai bu şairlər haqqında uzun-uzadı məlumatlar verməmiş, çoxuna ancaq bir-iki sətir yer ayırmışdır. Hər şairin bir, tanınmış şairlərin isə iki-üç beytini nümunə olaraq vermişdir.

Qeyd edək ki,"Məcalisün- nəfais" cığatay ədəbiyyatı, xüsusilə də İran ədəbiyyatı üçün çox mühüm bir qaynaqdır. Bu əsər Anadoluda

[12] Dövlətşah "Devletşâh Tezkiresi" (Çev. Necati Lugal), İstanbul 1977.

meydana gələn təzkirələr üçün də əsas model kimi istifadə olunan bir nümunədir[13].

Bu əsərlər Heratda yazıldıqları üçün həmin məktəbin təzkirələri də adlandırılırlar. Bu məktəbin əsas təmsilçiləri olan Cami, Dövlətşah və Nəvai ortaya qoyduqları əsərlərlə, həm ədəbi bioqrafiyaların inkişafını sürətləndirmiş, həm də özlərindən sonra gələn Osmanlı "təzkireyi-şüərası"na ciddi təsirlər göstərmişlər.

Haqqında danışdığımız bioqrafiyalar mövzu və baxışlarına görə fərqli görünsələr də, onların ortaq nöqtələrinin olması da göz qabağındadır. Yalnız müəyyən yaş həddinə çatdıqdan sonra şöhrət qazanmış adamlar bioqrafiyalara düşmək hüququ qazandıqları üçün onların doğum tarixləri verilmir, yalnız ölüm tarixlərinə yer ayrılırdı. Bioqrafiyası yazılan adamın həyatında olan mühüm hadisələr nəql edilirdi. Elm adamlarının təhsili, dərs aldıqları müəllimlər və əsərləri önə çəkilirdi. Şairlərin isə şeirlərindən nümunələr verilirdi[14]. Bu cür ənənədə bioqrafik künyə əsas götürüldüyü üçün bütünlüklə insan amilinə əsaslanılır və verilən insan portretləri son dərəcə canlıdır. Lakin verilən məlumatların dəqiqləşdirilməsi hər zaman mümkün olmurdu.

İslam tarixində ortaya çıxan bu metodun ustadan şagirdə keçən bir sənət kimi dəyişmədən Osmanlı bioqrafiya ənənəsində əks olunduğu göz qarşısındadır. Yəni bu ənənənin formasına islam dünyasında və daha əvvəlki illərdə təsvir olunan ümumi tarixin içində bioqrafiyaya şəklində, yaxud da məşhur sənəkarların bir əsər içərisində təqdim olunması şəklində rast gəlinir. Vəziyyətə XVI əsrin sonuna qədər bioqrafiya ənənəsi bucağı altında bir nəzər salsaq, qarşımıza üç fərqli təsvir çıxacaqdır.

1) Ümumi tarixlərdə yer alan bioqrafiyalar,
2) Şakaik, təlif, tərcümə və əlavələrdə yer alan bioqrafiyalar,
3) Şairlər təzkirələrində yer alan bioqrafiyalar.

İndi bunlara sıra ilə nəzər salaq:

[13] Əlişir Nəvai "Mecâlisü'n-nefâis" Daşkənd 1961.
[14] Rosenthal: həmin kitab, s.102.

Ümumi tarixlərdə yer alan bioqrafiyalar

Osmanlılarda ümumi tarixlərdə əks olunan bioqrafiyalar, daha əvvəlki islam tarixində verildiyi kimi, ya əsərin sonunda müstəqil bir başlıq altında, yaxud padşahların hakimiyyət dövrlərinə görə tənzimlənən əsərlərdə padşahın ölümü təsvir olunan hissədə, yenə müstəqil bir bölmə halında və ya hər ilə aid olan hadisələr nəql edilərkən "vəfayat", "təbdilat", "təvcihat" başlıqları altında təqdim olunurlar.

Xoca Sədəddin (1536-1599) "Tacüt-təvarix"ində birinci yola, Əli (1541-1600), "Künhül-əxbar"təzkirəsində ikinci yola, Katib Çələbi (v.1657) isə "Fəzləkə"sində üçüncü şəklə istinad etmişdir.

Mənqəbə və rəvayətlərlə naxışlanan ilk dövrlər tarixində, yəni Aşıq Paşazadə və Nəşridə də bioqrafiyalara rast gəlmək mümkündür. Aşıq Paşazadə tarixinin 158 bölməsi bioqrafiyalara ayrılıb. Burada Ərtoğrul Qazi dövründən – 2, Osman Qazi dövründən – 4, Orxan Qazi dövründən 7, I Murad dövründən- 5, İldırım Bəyazid dövründən – 6, Çələbi Məhmət dövründən – 3, II Murad dövründən – 10, Fateh Sultan Məhməd dövründən – 8 olmaqla, cəmi 47 alim və mütəsəvvifin adı çəkilir. Başqa bir başlıq altında isə Hacı Bektaşı işıqlandırılmışdır[15].

Nəşri də buna bənzər bir üsulla Sultan Qazi dövründən 4, Orxan Qazi dövründən 6, Murad dövründən 5, İldırım Bəyazid dövründən 6, Çələbi Məhməd dövründən 5, II Murad dövründən 9, Fatih Sultan Məhməd dövründən 18, II Bəyazid dövründən 2 nəfər olmaqla, cəmi 56 alim və mütəsəvvifin adını çəkir[16]. Onu da qeyd edək ki, biz yalnız mədəniyyət adamlarının bioqrafiyalarından söz acırıq. Ancaq bu əsərlərdə vəzirlərin və bir çox başqa dövlət adamlarının da bioqrafiyaları verilmişdir. Bütün bunlara toxunmaq sözsüz ki, bir yazının işi deyildir.

Yüksək sənətkarlıqla və istinad etdiyi qaynaqlara sədaqətlə yanaşılaraq qələmə alınan və tarixi əsərlər içərisində diqqət çəkən nümunələrdən biri olan "Tacüt- təvarix"də bioqrafiyaların daha

[15] "Aşıq Paşaoğlu Tarixi", (Nihal Atsız), Ankara 1985, s.193-195.
[16] "Nəşri Tarixi", II (M.Altay Köymen), Ankara 1984, s.218-224.

geniş şəkildə verilməsi nəzərə çarpır. Xoca Sədəddin Əfəndi əsərinin sonunda Osman Qazidən başlayaraq II Bəyazid dövrünün sonuna qədər yaşamış olan alim və mütəsəvviflərin adlarını salmışdır.Osman Qazi dövründən 7,Orxan Qazi dövründən 11, I Murad dövründən 6, İldırınm Bəyazid dövründən 21, Çələbi Məhməd dövründən 15, II Murad dövründən 38, Fatih Sultan Məhməd dövründən 78, II Bəyazid dövründən 91 olmaqla cəmi 267 alim, həkim və mütəsəvvifin həyatı həmin əsərdə qələmə alınmışdır ki, bu rəqəmin əvvəlkilərlə müqayisə edilməsi mümkün deyil[17].

Sayının çoxluğu ilə yanaşı Xoca Sədəddin bioqrafiyaları genişləndirmiş, Aşıq Paşazadə və Nəşridə ən uzunu bir cümləyə sığışdırılan məlumatlar onda əlavə məlumatları da əhatə edən bir nöqtədə verilmişdir. Bu forma ilə onun əsərinə daxil etdiyi bioqrafiyalar klassik şərq bioqrafiya ənənəsinin bütün xüsusiyyətlərini özündə əks etdirməkdədir.

Nişançı Məhməd Paşanın (v. 1571) "Hadisat"ında da Osman Qazi dövründən başlanaraq Qanuni Sultan Süleyman dövrünün sonuna qədər olan bir müddətdə qaziəsgər, dəftərdar, nişançı, alim və şeyxlərin bioqrafiyalarına qısaca yer verilmişdir[18]. Vəzirlər istisna olmaqla bunlar Osman Qazi dövründən 12, Orxan Qazi dövründən 2, I Murad dövründən 5, İldırım Bayazid dövründən 18, Çələbi Məhməd dövründən 20, II Murad dövründən 25, Fateh Sultan Məhəmməd zamanından 53, II Bayazid dövründən 109, Yavuz Sultan Səlim zamanından 37 və Qanuni Sultan Süleyman dövründən 70 nəfər olmaqla cəmi 370 nəfərdən ibarətdir.

[17] "Hoca Sadeddin Efendi" (Haz.İsmət Parmaksızoğlu), Ankara 1978, 5 C.
[18] "Nişâncı Mehmed Paşa" Hâdisât (Haz. Ənvər Yaşarbaş), İstanbul 1983.

Türkcə yazılmamasına baxmayaraq İdrisi-Butlisinin (v.1520), "Həşt-behişt"i və Müslihiddin Larinin (v.1572) Xoca Sədəddin Əfəndiyə qaynaqlıq edən "Miratül-ədvar və Mirqatül-əxbar" adlı əsərləri də Osmanlılarda tarixçiliyin inkişafına təkan verən və Anadoluda klassik bioqrafiyanı inkişaf etdirən nümunələrdəndir.

Ümumi tarixlərin içində, XVI yüzillikdə yaranmış və özündə bioqrafik məlumat daşıyan elə bir nümunə də vardır ki, yalnız həmin əsrdə deyil, bütün Osmanlı tarixində özəlliyi ilə seçilən yeganə bir əsərdir.

Bu əsər Gelibolulu Mustafa Əlinin "Künhül-əxbar"ı dır. Türkcə bir milli tarix olan bu əsər, uzun bir müqəddimə və yazarın rükn adlandırdığı dörd bölmədən ibarətdir. Bunların içində ilk üç rükn osmanlılara qədər olan ümumi tarixi məlumatları verir. Əsərin maraq doğuran əsas bölməsi dördüncü rükn, yəni osmanlılarla bağlı hissəsidir. İki cilddən ibarət olan bu bölüm, osmanlıların meydana çıxmasından 1589-cu il tarixinə qədər olan hadisələrdən, dövlət adamlarından, şeyxlərdən, alimlərdən və şairlərdən söz açır. "Künhül-əxbar"da hadisələr padşahların hakimiyyət dövrləri nəzərə alınmaqla sıralanmışdır. Hər padşahın taxta çıxması ilə yeni hissə başlanır. Onun siyasi fəaliyyətləri və ölümü nəql edildikdən sonra, dövründə yetişən dövlətin nüfuzlu adamlarının həyat hekayələri də təsvir edilir. Əli xüsusilə əsərin bu hissəsində təzkirəçiliyə önəm verməklə, "Künhül-əxbar"ı siyasi tarixdən daha çox, mədəniyyət tarixi səviyyəsində olan bir əsər kimi yaratmışdır. O, bu təzkirədə şairlərə ayırdığı geniş hissələrlə XVI əsrə aid yeni bir şüəra təzkirəsi meydana gətirmişdir[19]. "Künhül-əxbar"ın dördüncü rüknündə Osman Qazi dövründən 7 alim və şeyxin, Orxan Qazi dövründən 13 alim və şeyxin, I Murad dövründən 5 alim və şeyxin, İldırım Bəyazid dövründən 18 alim, şeyx, həkim və şairin, Süleyman Şah dövründən 13 alim və şeyxin, Musa dövründən 1 alimin, Çələbi Məhməd dövründən 27 alim, şeyx və şairin, II Murad dövründən 52 alim, şeyx və şairin, Fatih Sultan Məhəmməd dövründən 93

[19] Mustafa İsen "Künhül-ahbarın Tezkire Kısmı" Ankara 1994; Cornell H. Fleischer, Burecucrat and İntellectual in the Ottoman Empire the Historian "Mustafa Əli", Princeton 1986, s.237.

alim, şeyx, həkim və şairin, II Bəyazid dövründən 143 alim, şeyx, şair, həkim, dəftərdar və nişançının, Yavuz Sultan Səlim dövründən 83 alim,şeyx, həkim, şair, dəftərdar və nişançının, Qanuni Sultan Süleyman dövründən 262 alim, 33 şeyx və 118 şairin, II Səlim dövründən 10 dəftərdar, 33 alim, 5 şeyx və 51 şairin bioqrafiyasına yer verilmişdir.

Əli belə bir əsər yazmağa qərar verərkən, qarşısında olan nümunələri çox ciddi şəkildə dəyərləndirmiş, onların çatışmayan cəhətlərini öz əsərində nəzərə alaraq onu mümkün qədər səhvlərdən uzaq tutmağa çalışmışdı.Müəllif "Künhül-əxbar"in müqəddiməsində həmin cəhətləri ümumi şəkildə qeyd etməklə bərabər[20], həm də Aşıq Çələbinin bioqrafiyasını verdikdən sonra öz dövrünə qədər yazılmış olan "şüəra təzkirələrini" tənqid etmişdir[21]. Ona görə tarixlərin ən mükəmməli "Tacüt-təvarix", təzkirələrin ən yaxşısı isə Lətifi təzkirəsidir. Xarakterinə görə "Şəqaiq"i də bəyənir. Əli özündən əvvəl həm islami ənənələri, həm də bu ənənənin davamı olan türk tarixi və ədəbiyyatındakı bioqrafiyaların inkişaf xəttini yaxşı mənimsəyərək və bu sahədə təşəkkül tapmış standart qaydalara əsaslanaraq dəyərli bioqrafiya nümunələri vermişdir.

XVI yüzillikdəki klassik bioqrafiya aşağıdakı əsas xüsusiyyətləri özündə ehtiva edirdi: müəllifin adı, ölkəsi, qohumluq əlaqələri, təhsili, məsləki və onu yerinə yetirdiyi yerlər, şəxsi keyfiyyərləri və bacarığı, sosial mühiti, həyatıyla bağlı bəzi lətifələr, ölüm tarixi, dəfn edildiyi yer, əsəri və yaxud əsərləri üzərində təhlillər və əsərlərindən nümunələr[22].

Əli Gelibolulu Osmanlı bioqrafiya tarixində yeni bir cığır açmamışdır, amma özündən əvvəl yazılmış əsərlərin uğurlu cəhətlərini götürüb, zəif hissələrini isə bir kənara qoyaraq mükəmməl təzkirə nümunəsi yaratmışdır. O, adətən Lətifi, Aşıq Çələbi və Daşkörpülüzadənin təzkirələrinin müsbət tərəfindən istifadə edərək

[20] Jan Schmitt, Ali′s Künhü′l-ahbâr and its Preface According to the Leiden Manuscript, İstanbul 1987, s.35-37.

[21] Mustafa İsen: həmin əsər, s. 313.

[22] Namık Açıkgöz, "Tezkirelerde Yapı ve Yapı Terminolojisine Doğru", I.Eski: Türk Ədəbiyyatçıları Kollegiyası Məruzəsi (çap olunmamış), Ankara 1992.

bir sintez yaratmışdır. Yuxarıda adları çəkilən bioqrafiyaların əsl zəngin və fərqli tərəflərini şairlər bəhsi təşkil edir. Ümumilikdə 290 şairlə "Künhül-əhbər" özündən əvvəl və sonra yazılan təzkirələrin çoxundan böyükdür. Əsərə daxil olan şair bioqrafiyaları muhtəva baxımından da yüzillik təzkirələrin ən mükəmməl xüsusiyyətlərini daşıyır. Bölmələr öz içlərində əlifba sırası ilə düzülüb. Verilən nümunələrə görə təzkirədə XVI əsrin abü havası duyulur. Verilən şeir nümunələrinin sayı hər şair üçün beşə çatır[23].

[23] Mustafa İsen: həmin əsər, s.33.

Şakaik - Təlif, Tərcümə və Əlavələri

Daşkörpülüzadə Əbül-xeyir İsamüddin Əhməd Əfəndi (1495-1561) tərəfindən Osmanlı alim-sufilərinin həyat hekayələrini bir yerə toplayan " əş Şəqaiqün-nümaniyyə fi üləmaüd dövlətül Osmaniyyə" adlı əsəri yazıldığı dövrdən etibarən böyük bir marağa səbəb olmuş və əlavələrlə XX əsrin əvvəllərinə qədər davam edən bu ənənənin ilk halqasını təşkil etmişdir. 1558-ci ildə ərəb dilində yazılmış olan bu əsər Osman Qazi dövründən başlanaraq Qanuni Sultan Süleyman dövrünün sonuna qədər olan 371 alim və 150-si sufi olmaqla cəmi 521 nəfərin bioqrafiyasını ehtiva edir. Əsər padşahlıq dövrləri əsasında bölünmüş bioqrafiyalar isə ölüm tarixləri əsas götürülərək sıralanmışdır.

Yazılışından dərhal sonra böyük maraqla qarşılanan "Şəqaiqi Nümaniyyə" hələ müəllifin sağlığında ikən türkcəyə çevrilmişdir. Mühtəsibzadə Məhməd Haki "Hədaiqur-reyhan", Dərviş Əhməd Əfəndi "Əd Devhatül- irfaniyyə fi Rövzətül-Osmaniyyə", Əhməd b Sinanüddin Yusif "Mənaqibül-üləma", Seyyid Mustafa "Hədaiqül-bəyan fi tərcümeti Şəqaiqun-Nüman", İbrahim b. Əhməd Əl-Amasi "əl-Hədaiq" (1590) adı ilə əsəri türkcəyə çevirmişdir. Əsərin tərcümələri arasında Aşıq Çələbi ilə Məhməd b. Yusif əl Çərkəzin də adları vardır. Bunların içində isə ən çox tanınmış tərcümə Məcdi Məhmədə (v.1591) aiddir. Əsəri "Hədaiquş-şəqaiq" adıyla türkcəyə çevirən Məcdinin çalışması bir tərcümədən fərqli olaraq orjinalın bir qədər genişləndirilmiş forması hesab olunur[24]. Aşıq Çələbi hələ yazarın öz sağlığında bu əsəri əvvəlcə türkcəyə çevirmiş, sonra isə ərəbcə əlavə yazmışdır. 42 nəfərin bioqrafiyasına yer ayıran bu əlavənin adı "Tətimətüş-şəqaiqün-nümaniyyə"dir. Manuk Əli b. Balının əlavəsi "əl-iqdul-mənzum fi zikri əfazılur- Rum" adını daşıyır və 1583-cü ilə qədəri əhatə edir. İştibli Hüseyn, Lütfi Bəyzadə, Məhməd b. Mustafa, Saçlı Əmirzadə, Yılancıq Əbdulqədir, Seyrəkzadə Əmrullah Məhməd, Qaraca Əhməd əl-Həmidi və

[24] Daşköprülüzâdə Əhməd Əfəndi, "eş-Şakâiku'n-nu'maniyye fi ulemâi-d-devleti'l-Osmaniyye", (A.Suphi Furat), İstanbul 1985.

Əbdulkərim b Sınan-ı Akhışarı da əlavə yazan müəlliflərdəndir. Sonrakı yüzilliklərdə əsərə yazılmış başqa əlavələrə də rast gəlinir[25]. Bunlardan ən məşhuru isə Nevizadə Atayının əlavəsidir.

Şəqaiqin təlif, tərcümə və əlavələrində yer alan bioqrafiyalar Osmanlı bioqrafiya ənənəsinin XVI əsrdəki xarakterik xüsusiyyətlərini daşıyır.Əhatə etdikləri məlumatlara görə "Tacüt-təvarix", "Künhül-əxbar" və "Məşairüş-şüəra"da yer alan bioqrafiyalar əksər sahələrdə bir-birinə çox bənzəyirlər. Aralarındakı fərq baxış bucağından daha çox ölçü və üslub fərqindədir.

Şüəra (şairlər) təzkirələri

Ədəbiyyat tarixi qaynaqları Osmanlılarda ilk şairlərin II Murad dövründən görünməyə başlandığını xəbər verirlər. Gelibolulu Mustafa Əli bu tarixi bir qədər geriyə çəkərək İldırım Bəyazid dövrünə aparır və Süleyman Çələbi ilə Niyazini da bu dövrə aid şairlər kimi təqdim edir[26].

Elə isə, Osmanlı şairlərinin bioqrafiyaları ilə bağlı ilk təzkirənin yazılış tarixi 1538-ci ildir. Bu da göründüyü kimi Osmanlıların onuncu padşahı Qanuniu Sultan Süleymanın dövrünə təsadüf edir. Dövlətin qurulmasından 239 il keçdikdən sonra bir şüəra təzkirəsinin qələmə alınması artıq təsadüfi deyil, zəruri bir ehtiyacdan yaranmışdır. Anadoluda yaranan ədəbiyyat da bir müddət sonra öz tarixini yazmağa ehtiyac duymuş, XV əsrin ortalarında bu növün ilk nümunəsi olan nəzirə məcmuələri tərtib edilməyə başlanmışdır[27]. Bu məcmuələrdə yer alan şeir müəlliflərinin sənəti, eləcə də mövqeyi haqqında da bəzi fikirlərə və qeydlərə rast gəlinir. Get-gedə artan şeir və şairlərin sayının nəticəsi olaraq bunların bir araya gətirilməsi, toplu halında meydana çıxarılması zərurəti yaranırdı. Ancaq bu ana qədər olan məlumatlarımıza görə ilk "təzkirətüş-şüəra" əsəri Səhi bəyin (v.1548) "Həşt-behişt" (1538) əsəridir. Yuxarıda qeyd

[25] "Şakaik-i Numaniyye ve Zeyilleri", (Haz. Abdülqədir Özcan), İstanbul 1989.

[26] Mustafa İsen: həmin əsər, s.28.

[27] Fevziyə Abdullah Tansel, "Gazel Tarzında Benzetişler", İ.Ü. Ədəbiyyat Fakültəsi Diplom işi, Türkiyat Enstitüsü, T.54.

olunduğu kimi artıq ildən- ilə aydın şəkildə hiss edilən bu ehtiyaca cavab verməyi düşünən başqa araşdırıcıların da olması təbii idi və bunlardan bizə hazır formada çatmış ilk nümunə Səhi bəyin əsəridir. Səhi bəydən sonra Anadoluda bir-birinin ardınca gözəl nümunələrin meydana çıxması bu sahədə yaranan ehtiyacın nə qədər böyük olmasından və bu işin əhəmiyyətindən xəbər verir.

"Həşt-behişt" qısa bir müqəddimə ilə başlayır və bu bölmədə yazar Herat təzkirələrindən "Baharıstan", "Dövlətşah təzkirəsi" və "Məcalisün-nəfaisi" təhlil etdiyini, Osmanlı ölkəsində yetişən şairləri unudulmaqdan qurtarmaq üçün onlara bənzər bir əsər qələmə aldığını bildirir. Sonra o, şairlərdən söz açır. Əsərin əsl bölməsi təbəqə adı ilə verilən səkkiz hissədən ibarətdir. Hər təbəqədə qələmə alınan şairlərin zümrəsi və yaşadığı yer, həmin təbəqənin başında verilən kiçik bölmədə izah edilmiş, ayrıca təbəqənin sonuna əlavə edilən "Tətimmə" adlı təbəqədə şairlərin xüsusiyyətləri bir dəfə qısaca açıqlamışdır. II Murad dövründən təzkirənin yazıldığı 1538-ci ilə qədər yetişən şairlər ölüm tarixinə görə sıralanaraq qələmə alınmışdır.

I Təbəqə: Qanuni Sultan Süleyman
II Təbəqə: şeir yazan Osmanlı padşah və şahzadələri;
III Təbəqə: şeir yazan tanınmış dövlət adamları;
IV Təbəqə: şair alimlər;
V Təbəqə: özündən əvvəl yaşamış və ölmüş adamlar;
VI Təbəqə: uşaqlığında tanıdığı şairlər;
VII Təbəqə: müasiri olan şairlər
VIII Təbəqə: ümid verən gənc şairlər.

Bu əsərin tərtib olunmaq metodunu Nəvainin "Məcalisün-nəfais" adlı təzkirəsi ilə qarşı-qarşıya qoysaq Səhinin bu əsəri geniş şəkildə örnək kimi götürdüyü asanca görünəcəkdir. Səhi Nəvainin Hüseyn Baykaraya ayırdığı səkkizinci təbəqəni önə gətirmiş və burada Qanunini yazmışdır.

Nəvaidə yeddinci hissədə yer alan sultan və şahzadələr, onda ikinci təbəqədə, onun beşinci rövzədə göstərdiyi mirzələri isə Səhi üçüncü təbəqədə təqdim edir. Alimləri Səhi də dördüncü bölümdə

vermişdir. Xorasan xaricindəki şairlərin əvəzinə, Səhi sağlığında görmədiyi şairləri beşinci təbəqədə göstərmişdir. "Məcalisün-nəfais"də birinci, ikinci və üçüncü rövzələrdə təsvir edilən çoxdan vəfat etmiş yazarlar və hələ gənc olan şairlər "Həşt-behişt"də altı, yeddi və səkkizinci təbəqələrdə verilmişdir. Səhi sadəcə olaraq özündən əvvəlki nəsli də əsərinə qataraq,onu bir qədər də dərinlərə aparmışdır. Səhi bəy üslub, forma və məzmun baxımından da Herat təzkirələrindən nümunə götürmüşdür. Təzkirədə cəmi 229 şair yer alır[28]. Bioqrafiyalarda şairlər haqqında qısa məlumatlar verilmiş, sənətləri və şeirləri haqqında bəzi təhlillər aparılmış, bu şeirlərdən bir və ya bir neçə beyt nümunə olaraq göstərilmişdir. Şeirlərin təhlilləri bir qayda olaraq müsbət tərəfdən verilir və ənənəvi şablon sözlərlə ifadə edilir. Təzkirənin dili bədiilikdən uzaqdır. Bəzən cümlələrin yarımçıq buraxıldığına da rast gəlinir. Səhi özü də müxtəsər bir təzkirə yazdığını dönə-dönə qeyd etmişdir.

Təzkirənin ən əhəmiyyətli tərəfi Anadoluda bu ənənənin ilk nümunəsi olmasıdır. Bununla Səhi Anadoluda təzkirə növünün təməlini qoymuş və beləliklə də bir çox şairi unudulmaqdan xilas etmişdir.

Təzkirə Osmanlı dövlətinin ilk dövrlərindəki söz sahiblərinin əksəriyyəti haqqında məlumat verən tək qaynaqdır. Təzkirənin yerli və xarici mənbələrdə 20 yazılı nüsxəsi vardır.

Səhi təzkirəsinin yazılaraq Osmanlı sənət dünyasına təqdim edilməsindən sonra bir-birinin ardınca yazılan təzkirə nümunələri göstərir ki, bu dövrün ziyalıları arasında geniş əlaqələr olmuşdur. Belə ki, təzkirə ənənəsi şeirdən başqa digər sahələri də əhatə edərək fasiləsiz şəkildə, XX əsrin ortalarına qədər davam etmişdir. Bu mükəmməl təzkirələrdən birincisi olan "Təzkirətüş-şüəra" və "Təbsırətün-nüzəma" (1546) adlı əsər Lətifi (ö 1582) tərəfindən yazılmışdır. Təzkirə bir müqəddimə, üç fəsil və bir xatimədən ibarətdir. Osmanlı təzkirələrinin Herat məktəbindən aldıqları müqəddimələr əsasən poetik mətnlərdən ibarətdir. Lətifi təzkirəsinin müqəddiməsi isə bunların ən orijinallarından biridir.O, müqəddimədə

[28] "Heşt-Behişt" 20 nüsxəsi çapa hazırlanmışdır.

şeirin əlamətlərini başa salmış, ilk şeirin Hz.Adəm tərəfindən yazıldığını söyləmiş və islamda şeirin qadağan olmadığını sübut və dəlillərlə göstərdikdən sonra, şeir və şair haqqında düşüncələrini qələmə almışdır. O, təzkirənin sonunda bu əsəri bir dostunun israrı ilə qələmə aldığını qeyd etmişdir.

İlk fəsildə Osmanlı ölkəsində doğulmuş və yaxud orada yetişmiş 13 şeyxdən, ikinci fəsildə Osmanlı xanədanlığından şeir yazan 7 sultan və şahzadədən, təzkirənin əsas hissəsi hesab olunan üçüncü hissədə isə 314 şairdən bəhs edilir[29]. Xatimə hissəsində isə müəllif kitabını 1546-cı ildə tamamladığını (h. 953) və əsərini yazarkən çox sıxıntı keçirdiyini diqqətə çatdırır.

Belə məlum olur ki, təzkirəni yazıb başa vurduqdan sonra uzun müddət ömür sürmüş Lətifi, əsərini bir daha gözdən keçirmiş və ona əlavələr etmişdir[30].

Lətifi təzkirəsi Türk təzkirəçiliyinin ən önəmli nümunələrindən biridir. Aşıq Çələbi və antoloji tip təzkirələr istisna olmaqla[31], klassik Osmanlı təzkiraçiliyində Lətifidən sonra şüəra təzkirəsinin hansı amillər üzərində qurulduğunu öncə qeyd etmişdik. Buraya bioqrafiya sahiblərinin adı, məmləkəti, qohumluq əlaqələri, təhsil həyatı və təhsil vəziyyəti, sənəti və sənətini icra etdiyi məkanlar, şəxsi keyfiyyətləri və bacarığı, sosial mühiti, bəzən onunla bağlı lətifələr, ölüm tarixi, məzarı, əsərləri və bunlar üzərində aparılan təhlillər, əsərlərindən nümumələr daxildir. Bu klassik bioqrafiyaların təşəkkülündə ad və tərcümeyi- halların belə şəkil almasında ilk addım Lətifiyə aiddir. Aşağıda anladacağımız kimi sonrakı addım isə Aşıq Çələbinin satirik formasından ibarətdir. Çətinliyi üzündən bu təzkirə mənimsənilməmiş, daha çox Lətifi təzkirəsinə müraciət edilmişdir.Osmanlı təzkiraçiliyində Lətifi üsulunun təsiri bütün əsərlərin tərtibində özünü göstərir. Herat təzkirələrində və Səhidə şairlər təbəqə əsasında sıralanmış, Lətifidə isə düzülüş əlifba sırası ilə aparılmış və Aşıq Çələbi kimi inadla öz orijinallığını qorumağa

[29] Rizvan Canım, "Latifi Tezkiretüş-şuarâ ve Tabsıratün-nüzemâ", A.Ü. SBE (Doktorluq işi), Ərzurum 1991, 3 C.

[30] Rizvan Canım: həmin yazı, s.XXIII.

[31] Mustafa İsen, "Türk Tezkireçiliyinde Antoloji Tipi Örnekler Üzerine", "Milli Egitim", S.86, Ankara 1989.

çalışan bir neçə nəfərdən başqa bütün təzkiräçlər tərəfindən mənimsənilmişdir. Öz təzkirəsində qeyd etdiyi kimi bu üsulu ilk dəfə Aşıq Çələbi tapmış və Lətifi ondan götürmüşdür, bununla belə şairləri əlifba sırası ilə düzən ilk müəllif Lətifi olmuşdur. O,"hürufi teheccidən tertibi hürufda hangi harf, mukaddem ise üç harfe degin itibar olundu, gaflet olunmaya"[32] deyərək bir hərfi özlüyündə üç hərfə qədər sıralamışdır.

"Təzkirətüş –şüəra"nın bir əhəmiyyəti də verdiyi məlumatların doğru olması və şairləri tənqid edərkən ədalətli olmasıdır". Lətifi xüsusilə dəyərli şairlərin orijinal xüsusiyyətlərini üzə çıxartmaq sahəsində təzkirəçilər arasında yeganə müəllifdir. Belə ki, uzun müddət üzərində çalışdığımız bir şair haqqında gəldiyimiz qənaətə, kəsgin ifadələrlə Lətifi təzkirəsində də rast gələ bilərik. Bu xüsusiyyətlərinə görə öz təzkirəsində hər şairə layiq olduğu səviyyədə yer vermş və bununla da bir meyar hissinə malik olduğunu sübut etmişdir. O biri təzkiräçilərin çoxu kimi şairlərin ancaq müsbət cəhətlərini deyil, mənfi tərəflərini də göstərmiş və burada da ədalətli olmuşdur. Bəzi şairlərin orada doğulmadığı halda Lətifi tərəfindən Kastamonulu kimi göstərilməsinin tənqidi də düzgün deyildir[33].

Təzkirə sadəliyi, qısa və bədii cümlələri ilə oxunmaq və başa düşülmək üçün nəzərdə tutulan bir dilə malikdir. Bu xüsusiyyəti ilə özündən sonrakı təzkirələrə nümunə olmuşdur. Lətifi üslubunun asan və anlaşıqlı olmasını özü bilərəkdən istəmiş, Nəcati bəyin Osmanlı şeir dili ilə gerçəkləşdirdiyi üslubu öz nəsrində tətbiq etmişdir. Ancaq onun bu üslubu o illərdə dəbdə olan uzun tərkibli, bəzəkli nəsr tərəfdarları tərəfindən tənqid edilmişdir[34]. Həsən Çələbi (v.1604) və Əhdi (v. 1593) onu tənqid etmişlər[35]. Buna qəzəblənən Aşıq Çələbi həqiqəti görərək onun nəsrini tərifləmişdir[36].

Lətifi təzkirəsi bu xüsusiyyətinə görə dövründən başlayaraq dəfələrlə təkrar nəşr edilmişdir. Təkcə ölkəmizdəki kitabxanalarda

[32] Rizvan Canım: həmin yazı s.XXI.

[33] Rizvan Canım: həmin yazı., s.CXLVI.

[34] Rizvan Canım: həmin yazı, s.CLIII.

[35] "Hasan Çelebi Tezkiresi" (Haz. İbrahim Kutluk), Ankara 1981, s.835; "Gülşen-i Şuarâ", Millet Ktb. Əli Əmiri Tarix, 774, 169 b.

[36] "Meşâirü´ş-şuarâ" (Haz. Meredith Owens), London 1971, v.107a.

təzkirənin 71 nüsxəsi vardır[37]. Bundan başqa ölkə xaricində də təzkirənin xeyli nüsxəsinin olması məlumdur[38].

Bu yüzilliyin başqa bir şairlər təzkirəsi Osmanlı torpaqlarından kənarda Bağdadda doğulmuş Əhdi (v.1593) tərəfindən yazılmışdır. "Gülşəni-.şüəra"adlı bu təzkirə bir müqəddimə ilə başlanır və rövzə adlanan üç bölmə ilə davam etdirilir. Təzkirəçi daha sonra əsərin üzərində işini davam etdirmiş, ona yeni bir rövzə və yeni şairlər əlavə etmişdir. Eyni zamanda o, ifadə tərzində də dəyişiklik etmişdir. "Gülşəni-şüəra"nın başqa təzkirələrdən ən əsaslı fərqi, əvvəlki təzkirələrdə olduğu kimi başlanğıcda Osmanlı şairlərini qələmə almadan, öz müasirlərini təqdim etməsidir. Əhdi birinci rövzədə Qanuni Sultan Süleyman, Şahzadə Səlim və başqa şeir yazan tanınmış dövlət adamlarını qələmə almışdır. İkinci rövzə alim şairlərə, üçüncü rövzə qəza bəyləri ilə dəftərdar əfəndilər arasından şair olanlara həsr edilmişdir. Təzkirənin əsas hissəsini təşkil edən dördüncü rövzədə isə şairlər əlifba sırası ilə sıralanmışdır. Beləliklə təzkirədə ümumilikdə 382 şair yer alır[39]. Fərqli illərdə yazılan nüsxələrdə yazılış tarixinin də müxtəlif olması təbiidir. Bunlardan ən çox müraciət ediləni 1593-cü ilə qədərki məlumatları əhatə edən nüsxədir[40]. Təzkirə Osmanlı dövlətinin şərq əraziləri, xüsusilə Bağdad və ətrafında yetişən şairlər haqqında verdiyi qiymətli məlumatlar ilə diqqəti cəlb etmişdir. Təzkirənin 15-ə qədər yazılı nüsxəsi vardır[41].

XVI yüzilliyin ən qiymətli təzkirələrindən biri də Aşıq Çələbinin (1520-1571) "Məşairüs-şüəra" (1568) adlı əsəridir. Bu əsər də bir müqəddimə ilə başlanır. Bu müqəddimə Osmanlı təzkirələrində ən uzun müqəddimədir və demək olar ki, kitabın onda bir hissəsini təşkil edir. Bu hissədə müəllif nəsr və nəzmdən, şeirin tarixindən söz açır, o biri təzkirələrdə olduğu kimi şeirin islam dinində qadağan olunmaması barəsində dəlil və sübutlar gətirir. Çələbi

[37] Rizvan Canım: həmin yazı., s.CLXV.

[38] "Lətifi Təzkirəsi"nin çap, tərcümə və sadələştirməsi üçün bkz. Rizvan Canım: həmin yazı., s.XXIV.

[39] Ömər Faruk Akün, "Ahdî", "Diyanet Vakfı İslâm Ansiklopedisi", C.I, s.510; Süleyman Solmaz, "Ahdî ve Gülşen-i Şuarâsı", G.Ü.SBE, (Doktorluq işi) Ankara 1996.

[40] Ömər Faruk Akün, həmin m., s.511.

[41] S.Solmaz "Ahdî ve Gülşen-i Şuarâsı" (Doktorluq işi), G.Ü.SBE, Ankara 1996.

müqəddimənin bir hissəsində əsərinin yazılma səbəbini və necə yazdığını, Lətifi ilə qarşılaşmasını və onun üslubunu götürdüyünü göstərir. Osmanlı ölkəsində şairlərin çoxluğundan bəhs edən qələm sahibi, bunun səbəblərini ölkənin suyunun və havasının gözəlliyində görür. Ancaq o, təzkirəsinə şeir yazanların hər birini deyil, bu işi özünə sənət bilənləri, əsl şairləri daxil etmişdir. Təzkirəyə daxil edilənlərin həyatları uzun-uzadı təsvir edildiyi üçün, bu əsər təzkirə olmaqdan daha çox şairlər tarixidir. "Məşairüs-şüəra"da 425 şair yer alır. I Murad dövründən əsərin yazıldığı dövrə qədər yaşamış şairlərə yer verən təzkiraçi, daha əvvəl də qeyd edildiyi kimi, şairlərin bioqrafiyalarına, xüsusilə də öz müasiri olanlara geniş yer vermişdir. Bu üzdən əsər XVI əsr şairləri barəsində bərabəri olmayan bir nümunədir. Çox ünsiyyətcil bir adam olan Aşıq Çələbi, bu özəlliyi ilə dövründə yaşayan şairlərin çoxuyla şəxsən görüşmüş, bu imkanı əldə etmədikdə isə onlarla məktublaşmış, ya da onları tanıyan insanlardan məlumatlar almışdır. Geniş Osmanlı ərazisinin müxtəlif şəhərlərini gəzməsi də ona məlumat toplamaq üçün böyük imkanlar vermişdir. Uzun bioqrafiyalarında formal məlumatlarla yanaşı şairlərin şəxsi həyatı, vərdişləri, bir-biriləri ilə olan əlaqələri haqqında məlumatları və o dövrün sosial mühitinə, ədəbi çevrələrə aid geniş açıqlamalarını nəzərə çatdırmışdır. Bu üzdən əsər sosial elmlərin bir çox sahələri üçün qiymətli və zəngin qaynaq ola bilər. Bu xüsusiyyətlərilə "Məşairüs-şüəra" təzkirəçilik tariximizdə yeganə nümunədir. Lətifiyə görə təzkirənin dili ağırdır və çətin anlaşılan sözlərlə doludur. Bunun qarşılığında üslubu çox axıcıdır. Çələbi şairlərin portretlərini yaratmaqda çox mahirdir. Əsərin 29 yazılı nüsxəsi vardır[42].

XVI əsrin başqa bir təzkiraçisi Həsən Çələbidir (v. 1604). O dövrdə şöhrət qazanmış Xınalızadə ailəsindən olan Həsən Çələbi xüsusi ad vermədiyi "Təzkirətüş-şüəra"sını Açıq Çələbidən 18 il sonra yazmışdır (1586). O da II Murad dövründən etibarən yetişən şairləri qələmə almışdır. Təzkirə bir müqəddimə və üç fəsildən ibarətdir. Müqəddimə həmd və salavat ilə III Murad və Xoca

[42] Filiz Kılıç "Meşâirü´ş-şuarâ", G.Ü.SBE, (Doktorluq işi) Ankara, 1995.

Sədəddin Əfəndinin təriflənməsini özündə əhatə edir. Birinci fəsildə altı padşah şair, ikinci fəsildə beş şair şahzadə göstərilir. Əsərin ciddi bölməsini tşkil edən hissəsində isə şairlərə əlifba sırası ilə yer verilir.

Həsən Çələbi dövrünün tanınmış bir ailəsinin övladı olaraq çoxlu elm və sənət adamını yaxından tanımaq imkanına malik olmuşdur. Üstəlik, qarşısında Lətifi və Aşıq Çələbi tərəfindən yazılmış mükəmməl təzkirələrin olması da onun üçün çox faydalı idi. Lakin bütün bunlara baxmayaraq, Həsən Çələbi həmin imkanlardan lazımınca istifadə etməmiş, ortaya fərqli bir əsər qoya bilməmişdir. Təzkirəsinə daxil etdiyi şairlərin çoxu özündən əvvəlki təzkirələrdə vardır və o, bunlara aid məlumatları həmin təzkirələrdən olduğu kimi götürdüyü halda, əsl mənbələri gizlətmiş "atamdan eşitdiyim", "babamdan duyduğum" kimi ifadələrdən istifadə etmişdir. Təzkirənin tənqid olunmalı başqa bir tərəfi də bəzəkli və məcazi dil ilə ifadə olunmuş uzun cümlələr, mücərrəd sonluqlar və yad sözlərlə dolu olan çətin anlaşılan üslubudur. Onun vermiş olduğu çoxsaylı məlumatlar da bu qarışıqlığın içində itib batmışdır. Halbuki təzkirələr oxumaq və aydınlaşdırmaq üçün yazılan əsərlərdir.Bunlar yazı tərzini nümayiş etdirmək məqsədilə yazılmamalıdır. Bir çox əsərlərin məhz bu cəhəti hələ öz vaxtında Gelibolulu Əli tərəfindən tənqid edilmişdir. Bu təzkirə yerinə düşməyən şeirləri, qəribə ifadələri, mənasız mükalimələri, səhv məlumatları, şair olmayan yaxın adamlara yer verilməsi, şairlərin dili ilə yalan uydurmalar və yazı səhvlərinə görə tənqid edilmişdir[43]. Digər bir tərəfdən baxdıqda isə, XVI əsrin sonuna doğru inkişaf edən Osmanlı mədəni həyatında ziyalılar artıq elə bir dil və üslub ehtiyacı içində olmalıydılar ki, Həsən Çələbi təzkirəsi çox müraciət olunan və təzkirəçilik tarixində ən çox istinad edilən əsərlərdən biri olsun[44]. Bu təzkirə "Məşairüş-şüəra"nın yazılışından sonrakı on səkkiz il ərzində yetişən şairlər haqqında verdiyi məlumatlara görə öz əhəmiyyətini saxlamışdır.

XVI əsrin son şairlər təzkirəsi olan Bəyaninin (v. 1597) "Təzkirətüş-şüəra"sı (1597) əslində Həsən Çələbi təzkirəsinin

[43] Mustafa İsen: həmin əsər, s.214.
[44] "Hasan Çelebi Tezkiresi", (Haz.İbrahim Kutluk), 2 C, Ankara 1978-1981.

qısaldılmış bir nümunəsidir. Əsər qısa bir müqəddimə ilə iki hissədən təşkil olunmuşdur.. Müqəddimədə müəllif bir dostundan borc aldığı Həsən Çələbi təzkirəsini ixtisar edərək bu təzkirəni meydana çıxardığını və bunu özü üçün etdiyini bildirir. Birinci bölümdə beş padşah və dörd şahzadəyə, ikinci bölümdə isə Fateh Sultan Məhməd dövründən etibarən 377 şairə yer verilmişdir. Əsər, bu forması ilə yüzilliyin dəyərli qaynaqlarından birinə çevrilmişdir[45].

Osmanlı bioqrafiya ənənəsinin XVI əsrin sonuna qədərki inkişaf xəttini və mədəni təməllərini sizlərə göstərməyə çalışdıq. Bu ənənənin Osmanlı tarix yazıçılığında olduğu kimi, həm də xüsusi bir üslubun üzərində qurulduğunu gördük. Söz açdığımız təzkirələr müxtəlif sənətlər və bədii xüsusiyyətlərlə işlənib qələmə alındığı üçün, özləri də bir ədəbi növün nümunələri hesab edilməlidirlər. Amma burada tam bir birlikdən, ümumiləşmədən söz açmaq mümkün deyil. Heç şübhəsiz, Aşıq Paşazadədə yer alan bioqrafiya ilə "Tacüt-təvarix", yaxud da Həsən Çələbi təzkirəsində yer alan bioqrafiyalar arasında məzmun cəhətdən olduğu kimi, üslub baxımından da fərqlər vardır. Ancaq XVI yüzillikdən sonra inkişaf edən və ümumi forması ilə müəyyən bir şəklə düşən bioqrafiya artıq standart klassik bioqrafiya ölçülərinə malik olmuş və bu ölçüləri sona qədər qoruyub saxlamışdır. Bu nümunələr, xüsusilə də şairlər təzkirələri, bioqrafik yazı prinsipini əldə əsas tutduğu üçün müəllifin əsərini onun özündən daha çox önə çəkir və onun yazarının bir insan ünsürü kimi müzakirə olunmasına xüsusi əhəmiyyət vermişlər. Beləliklə XVI əsr Osmanlı bioqrafiya növünün inkişafının başa çatması və onun standart bir formaya düşməsi dövrüdür. Bundan sonra gələn təzkirəçilər eyni texnika və formadan istifadə etməklə bu ənənəni davam etdirmişlər.

*(*Yazı "Türk kültürü araştırmaları"Ankara 1995.XXX/1-2(1993).s.211-217-də dərc olunmuşdur*).

[45] Aysun Sungurhan "Beyânî Tezkiresi", Tənqid və araşdırma G.Ü. SBE (Doktorluq işi) Ankara 1994.

TÜRKCƏ YAZILMIŞ ŞAİR BİOQRAFİYALARI*

Osmanlı bioqrafiya ənənəsi içərisində şair bioqrafiyalarının tutduğu xüsusi yeri əvvəlki məqalədə göstərmişdik. Bu məqalədə bütünlüklə şair təzkirələrindən danışacağıq.

Türk bioqrafiya tarixində ilk nümunələri tarix kitablarının içində verilmiş bu ənənə qısa bir zaman ərzində təzkirə adı altında müstəqil növ kimi inkişaf etməyə başladı. Təzkirə ərəb sözü olan "zikr"kökündən yaranmış bir sözdür. "Zikr" anmaq, xatırlamaq mənasını verir və buna görə təzkirə, xatırlanmaq ifadəsinə yaxın bir mənada işlənilir. Geniş lüğəti izahına söykənərək bu kəlmə müxtəlif mənalarda işlədilir. Bir şeyi xatırlamağa, ya da bir xəbəri bildirməyə yarayan qısa qeyd, hər hansı bir iş üçün icazə verildiyini bildirən və hökumətdən alınan kağız, əsgərin tərxis olunduğunu bildirən sənəd, eyni şəhərdəki rəsmi dairələr arasındakı yazışmalar bu qəbildəndir. Bu sözdən yaranan "təzkirəi- əvvəl", "təzkirəyi- sani", "təzkirəyi-xüsusiyyət", "təzkirəyi- məruzə", "təzkirəyi- Osmaniyyə", "təzkirəyi- samiyə" kimi ifadələr mədəniyyət tariximizə daxil olmuşdur. Bu gün bu sözün işlənmə meydanı daralmış və ən çox təvəllüd təzkirəsi, icazə təzkirəsi, nəzarət təzkirəsi, tərxis təzkirəsi kimi rəsmi sənəd adlarıyla "təzkirəsini vermək", "təzkirə almaq", "təzkirəsini gətirib əlinə vermək" kimi ifadələrlə işlənməkdədir. Təzkirə sözü danışıq dilində "təskərə" şəklində tələffüz edilir.

Bu məna və terminlər ilə yanaşı təzkirə sözünün ədəbiyyatda daha böyük bir termin kimi işlənməsinə rast gəlirik. Bu termin Osmanlı dövründə hər bir sənət növü ilə məşğul olan, onun maddi və mənəvi dəyərlərinin yaranmasında rolu olan yaradıcı insanların bioqrafik yazı təməlini ifadə edən bədii ifadə vasitəsidir. Təzkirəçi müəyyən bir sənətdə tanınmış olan şəxslərin, məsələn, övliyaların, xəttatların, musiqiçi və memarların, hətta yaxşı bir bağbanın da həyat və sənətindən söz açа bilər. Amma təzkirə sözü öz dolğun və geniş mənasını şairlərin həyat və yaradıcılıqlarından bəhs edən kitablarda tapmışdır. Təzkirə sözü bəzi kitablarda xüsusi ad kimi işlədilir, ad kimi istifadə olunmayan kitablarda isə bir növ termin

kimi istifadə edilir. Bu əsərlər təqdim etdikləri dairənin, yaxud sənətin adıyla bərabər verilirlər. Şairləri təqdim edənlərə "Təzkirəyi-şüəra", ərənlərdən bəhs edənlərə "Təzkirətül-övliya", xəttatlardan bəhs edənlərə "Təzkirətül-xəttatin" deyilir.

Təzkirə ənənəsi islam mədəniyyətinə xas olan bir hadisədir və kökləri müsəlmanların ilk dövrlərində yaranmış olan təfsir və hədis elminə qədər gedib çıxır. Ərəblərin "təbəqə" adı ııə yazdıqları əsərlər iranlılar və türklər tərəfindən inkişaf etdirilərək təzkirə adını daşımışdır. Təzkirə adının verilməsi və yayılmasında XII əsrin tanınmış İran şairi və mütəfəkkiri Fəridəddin Attarın islam dünyasında çox məşhurlaşmış olan "Təzkirətül-övliya" adlı əsərinin böyük rolu olmuşdur.

Cığatay ədəbiyyatında Əlişir Nəvai ilə başlayan təzkirə ənənəsi qısa bir müddətdən sonra Osmanlılara keçmişdir.

Ümumi tarix kitablarından ayrılaraq bizdə müstəqil bioqrafiya şəklində qələmə alınan ilk təzkirə nümunəsi Lamiinin "Nəfahatül-üns"ün tərcümə və əlavəsini əks etdirən "Fütuhul-mücahidin li Tərvihi Qulubül -müşahidin" (1520) adlı əsəridir. Şairlər təzkirəsi olaraq ilk nümunə isə Səhi bəy tərəfindən qələmə alınmışdır. Səhi bəy və onu izləyən ilk dövr bioqrafiya yazarları özlərinə Caminin (v. 1492) "Baharıstan"ını (1487), Dövlətşahın (1495) "Təzkirətüş şüəra" sını və Nəvainin "Məcalisün-nəfais"ini örnək götürmüşlərsə də, XVI əsrə qədər inkişaf edən ədəbi miras və onları yaradan şəxsləri bir araya gətirmək ehtiyacı təsadüfi deyil, zərurətdən doğmuşdur. Səhi bəydən sonra, xüsusilə Lətifi və Aşıq Çələbi şair bioqrafiyalarının çox mükəmməl nümunələrini yaratdılar. Lətifi bizdə bu növlə bağlı olaraq ilk dəfə təzkirə sözündən istifadə edən müəllifdir. Onu izləyərək sonra bu sahədə əsər yazan daha 13 müəllif də əsərinə təzkirə adı vermişdir.

Türk ədəbiyyatında şair bioqrafiyası, yəni təzkirə olaraq 36 əsər vardır. Bunları xronoloji qaydada belə sıralaya bilərik:

Təzkirə yazarı:	**Təzkirənin adı:**
1) Əlişir Nəvai	“Məcalisün-nəfais”
2) Səhi bəy	“Həşt-behişt”
3) Lətifi	“Təzkireyi- şüəra”
4) Aşıq Çələbi	“Məşairüş- şüəra”
5) Həsən Çələbi	“Təzkirətüş-şüəra”
6) Əhdi	“Gülşəni- şüəra”
7) Bəyani	“Təzkireyi- şüəra”
8) Əli	“Künhül-əxbar”ın təzkirə qismi
9) Sadiqi	“Məcməül-xavas”
10) Riyazi	“Riyazüş-şüəra”
11) Faizi	“Zibdətül-əşar”
12) Rza	“Təzkireyi- şüəra”
13) Yümni	“Təzkireyi- şüəra”
14) Asim	“Zeyli- Zibdətül-əşar”
15) Güfti	“Təşrifatüş-şüəra”
16) Mucib	“Təzkireyi- şüəra”
17) Safayı	“Təzkireyi- şüəra”
18) Səlim	“Təzkireyi-şüəra”
19) Bəliğ	“Nüxbətül-əşar li Zeyli-Zübdətül əşar”
20) Səfvət	“Nüxbətül-əşar fi Fəvayidil əşar”
21) Ramiz	“Adəbi- Zurəfa”
22) Silahdarzadə	“Təzkireyi şüəra”
23) Əsrar Dədə	“Təzkireyi- şüərayı-mövləviyyə
24) Akif	“Mirati-şeir”
25) Şəfkət	“Təzkireyi- şüəra”
26) Əsəd Əfəndi	“Bağçei Səfa-Əndüz”
27) Arif Hikmət	“Təzkireyi- şüəra”
28) Fatin	“Xatimətül-əşar”
29) Tofiq	“Məcmuai Təracim”
30) Məhməd Tofiq	“Kafileyi- şüəra”
31) Faiq Rəşad	“Əslaf”
32) Məhməd Siracəddin	“Məcmai- şüəra”
33) Əli Əmiri	“Təzkireyi-şüərayi-Amid”

34) Ağa Məhəmməd	“Riyazül-aşiqin”
35) M.Kəmal İnal	“Son əsr türk şairləri”
36) Nail Duman	“Töhfeyi- Naili”

Osmanlı bioqrafiyası özündən əvvəlki bioqrafiya ənənəsində olduğu kimi adətən ön sözlə başlanır. Ön sözdə müəllif tanrıya şükürlər, peyğəmbərə dualar etdikdən (həmd və salavatdan) sonra, kitabı nə üçün yazdığını anladır. Adətən bu hissədə onların inadla dayandıqları mövzu islam dininin şeiri qadağan etməsi haqqında olan yanlış məlumatları rədd etmək, qadağanın hansı şeirin üzərinə qoyulmasını izah etmək olur. Tanrının insanlara bəxş etdiyi ən gözəl nemət danışmaq və yazmaq bacarığıdır. Bildirilir ki, ilk şeir Hz. Adəm tərəfindən yazılıb və onun tarixi insanın yaranma tarixi ilə yaşıddır. Bunları anlatdıqdan sonra yazar, adətən əsərini hansı mövzuda yazdığını və ona daxil olacaq şəxsləri necə seçdiyini izah edir. Təzkirələrin ön söz hissəsi bir poetik əsərə bənzəyir və bu müqəddimələr daha çox orijinallığı ilə seçilir.

Müqəddimədən sonra bioqrafiyalara keçilir. Bu bölüm də öz arasında bir neçə hissəyə bölünür. Təzkirəçilərin çoxu özlərindən əvvəlki örnəklərə baxaraq xanədan sahiblərini ayrı bir hissədə qələmə almışlar. Təzkirənin aparıcı qolu olan və onun dəyərini daşıyan şairlər bölümündə Osmanlı ölkəsində yetişmiş və türkcə yazılmış şeirləriylə tanınan şairlər yer alır. Burada yer alan şairlərin doğum yeri, adı, ləqəbi, təhsili, sənət və məşğuliyyətləri, əsas dərs aldıqları müəllimləri, həyatlarında baş verən mühüm dəyişikliklər və diqqət çəkən hadisələr, ölümləri, əgər əldə məlumat varsa doğum tarixləri, məzarının yeri, yeri düşəndə şairlə bağlı lətifələr, əsərləri yaxud əsərlərindən nümunələr oxucuya təqdim edilir. Bu bioqrafiya mətni bizə Herat təzkirələrindən gəlmiş və təzkirəçilik tarixi boyunca bu şəkildə davam etmişdir. Yalnız son təzkirəçilərimizdən olan Fatin seçdiyi şeir nümunələrini bioqrafiyaların əvvəlinə keçirmişdir ki, bu da elə bir fayda gətirməmişdir.

Bioqrafiyaya aid olan məlumatlar təzkirə müəllifinin imkanlarından: onun şairlə yaşadığı zaman və məkan yaxınlığından, eləcə də yanaşma bucağından asılı olaraq geniş və ya qısa şəkildə

verilə bilər. Aşıq Çələbinin son dərəcədə uzun və üzərində dayanaraq verdiyi bioqrafiya tərzi, Faizidə sadəcə şairin adı, işi və ölümü ilə məhdudlaşmışdır. Güfti isə mənzum şəkildə təzkirə yazan yeganə müəllifdir.

Təzkirələrin sonunda xatimə adı verilmiş bir sonluq bölümü yer alır. Bu hissədə isə müəllif təzkirəni yazarkən çəkdiyi sıxıntıdan söz açır, əsərinin uğurlu olması üçün Tanrıya yalvarır, oxucudan nə gözlədiyini dilə gətirir.

XVI əsrdən başlayaraq XX əsrin əvvəllərinə qədər davam edən təzkirə növü, bu geniş zaman məsafəsi ərzində müxtəlif forma dəyişiklikləri ilə qarşımıza çıxır. Bu təzkirələr Herat təzkirə məktəbini nümunə götürməklə bərabər, başda şəkildə tərtib edilmiş və bir sıra dəyişikliyə uğramışlar. Herat təzkiraçiləri təsnifatı təbəqələr üzərində qururdularsa, artıq Lətifi bu işin praktik və məqsədəuyğun tərəfini tapmış və şairləri əlifba sırası ilə yerləşdirmişdir. Lətifidən sonra bu müasir üsul kiçik istisnalar olmaqla türk təzkirəçiliyinin dəyişilməz tərtib metodu olmuşdur. Bu tərtib üsulunun ideyası Aşıq Çələbiyə aid olmuş, Lətifidən əvvəl müsəlman təzkiraçiləri həmin üsula müraciət etmişlərsə də, türk təzkiraçilik tarixində onun banisi Lətifi olmuşdur. Lətifi, yalnız yeni tərtib üsulunu formalaşdırmağı ilə deyil, həm də təzkirəyə gətirdiyi inkişaf ilə artıq klassik bioqrafiyanın qəlibini hazırlamışdır. Aşıq Çələbi və antoloji tipli təzkirələr istisna olmaqla, ondan sonra gələn təzkiraçilər hamısı böyük mənada Lətifi ənənəsini davam etdirmişlər.

Başqa bir təzkirə məktəbi Aşıq Çələbiyə xasdır. Onun təzkirəsi özünəməxsus tərtibi, ortaya qoyduğu bioqrafiyaların geniş həcmli olması və orijinal yaradıcılığı olan şairləri seçib təhlil etməsi ilə seçilir. Bu səbəbdən də yeri tək qalmış, özündən sonra onun yolu ilə gedən olmamışdır. Səhi və Əhdidən sonrakı XVI əsr təzkiraçiləri şairlərin ayrıca bir sinif olması qənaətinə gəldilər və onlara sənət və məşğuliyyətləri, sosial mühitləri ilə birlikdə bir tam olaraq ayrıca yer verdilər. Bu qənaət XVIII əsrə qədər buna bənzər formada davam etdi və bu əsrdə ancaq Əsrar Dədə və Akifi öz ətraflarının şairlərini bir təzkirəyə topladılar. Beləcə Əsrar yalnız Mövləvi şairlərindən, Akifi isə Əndurumda yetişən zümrədən ibarət təzkirələri ərsəyə

gətirdi. Bunu sonra Əli Əmiri Əfəndi "Təzkireyi- şüərayi- Amid" və "İskodra şairləri"ndə sadəcə eyni şəhərdə doğulan ədiblərdən ibarət təzkirə formasını meydana gətirdi.

XIX yüzillik mədəniyyətdə bir inamsızlığın əmələ gəldiyi, inkişafa, yeni cərəyan və izmlərin yaranmasına ehtiyac duyulduğu bir dövrdür. Cəmiyyətin bütün sahələrində olduğu kimi, ədəbiyyatda da da bir gözləmə dövrü başlanmışdır. Cəmiyyətdə hiss olunan dəyişiklik və ikiləşmə bioqrafiya sahəsində də özünü göstərirdi. Əsəd Əfəndi, Akif Hikmət və Fatin klassik ənəni davam etdirərkən, Tofiq və Məhməd Tofiq yaranmış vəziyyətə uyğunlaşmaqla təzkirədə də dəyişiklik edərək Osmanlı şairlərinin hamısını tək bir əsərə toplamağa çalışsalar da, bu işdə bacarıqlı ola bilmədilər.

Başqa bir tərəfdən, Naci "Əsami" və "Osmanlı şairləri" ilə, Faiq Rəşad "Əslaf" və bir neçə başqa əsəri ilə, Məhməd Tahir "Osmanlı müəllifləri" və başqa nümunələri ilə, Məhməd Sürəyya "Sicilli-Osmani" ilə bu yeni cərəyanın məhsullları olan əsərlərini ortaya qoydular.

Türkcə şair bioqrafiyası yazmaq ənənəsi şərq türkcəsi ilə başlamış, ancaq öz inkişafını davam etdirə bilməmişdir. Nəvaidən sonra yalnız Sadiqi ikinci bir nümunəni ortaya qoya bilmişdir. Təzkirə növü bu ərazidə deyil, Osmanlı ölkəsində davam edərək təşəkkül tapmışdır. Bunun səbəbi isə böyük və stabil bir dövlətin mövcudluğunda idi. Orta Asiyada vəziyyət Osmanlı dövlətindəkindən tam əksinə olduğu üçün burada bir çox başqa sənət və mədəniyyət sahələrində olduğu kimi, XVI əsrdən sonra bu növün heç bir yeni nümunəsinə rast gəlinmir.

XVI əsr təzkirəçilərinin bir özəlliyi də özlərindən xeyli əvvəl yaşamış şairlərin bioqrafiyalarını qələmə almasıdır. Buna görə də təzkirələr əldə olunan bütün məlumatları özlərində əks etdirirdilər və onlar uzun alınırdı. Bunun müqabilində nümunə kimi verilən şeirlər təzkirənin yalnız üçdə bir hissəsini təşkil edirdi. XVII yüzilliyin təzkirəçiləri isə daha çox öz müasirlərini təzkirəyə salırdılar. Bu səbəbdən verilən məlumatlar hamıya aydın olan dəqiq faktlar olduğu üçün bioqrafiyalar xeyli qısaldılmış və verilən şeir nümunələrinin sayı artırılmışdır. Riyazi təzkirəsi bu iki yüzilliyin arasında bir keçid

dövrünün əsəridir. Təzkirə formasında olan bu dəyişikliklər get-gedə inkişaf edərək yeni bir formanın yaranmasına səbəb olmuşdur və bu növ təzkirələr antologiya adlanırdı. Bu formada olan təzkirələrdə bir neçə cümləlik bioqrafiya verilir, sonra isə şeirə yer ayrılır. Məsələn, Faizidə nümunə verilən şeirlərin sayı 545 beytə çatır. Faizi ilə başlayan bu antologiya növünün təzkirəçiləri Yümni, Seyrəkzadə Asim, Bəlig, Silahdarzadə Məhməd Əmin və Şövkətdır.

XVIII əsr isə özündən əvvəlki dövrə reaksiya və XVI yüzilliyin mükəmməl əsərlərinə bir xülasədir. Bu üzdən həmin əsrdə yazılan təzkirələrdə də XVI əsr təzkirələrində olduğu kimi bioqrafiyalara çox yer verilmiş, şeir nümunələri isə azaldılmışdır. Səfayı, Səlim və Ramiz bu tərzdə yazan təzkirəçilərdir. Kiçik həcminə görə Mucibi də nümunə göstərmək olar.

Təzkirələr bədii dil və ritmlərlə yazıldığına görə onların özləri də ədəbi əsərlər hesab olunur. Ancaq burada standart bir təzkirə yazıçılığından söz açmaq düzgün deyil. İlk nümunə olan Səhi təzkirəsində üslub, ifadə və texniki baxımdan bir naşılıq diqqəti çəkir. Bu tərəfdən də Lətifi təzkirəsi özündən sonrakı müəlliflərə bir örnək olmuşdur. Lətifi əsərini öz dövrünün ədəbi dili ilə, lakin əsas hədəfinin məlumat vermək olduğunu unutmadan qələmə almışdır. Ondan sonra təzkirə yazan Həsən Çələbi, Səlim və Ramiz bəzəkli və dəbdəbəli bir dildən istifadə etmişlər. Aralarında bu mənada fərq olmasına baxmayaraq, təzkirələr eyni sənət növü olduqları və eyni missiyanı yerinə yetirdiklərinə görə üslub, məzmun və yazı texnikası cəhətdən bir-birinə çox bənzərdirlər.

Təzkirəçilik bioqrafik sənəd yazıçılığını əsas götürdüyü üçün müəllifin yaradıcılığını arxada qoyaraq, daha çox haqqında məlumt verilən insan ünsürünə yönəlir. Onun şəxsi keyfiyyətlərinə, haqqında olan məlumatlara daha çox üstünlük verirlər. Təzkirə yazan araşdırıcılar əsəri təhlil edən tənqidçilərdən fərqlənirlər. Lakin bu o demək deyildir ki, təzkirə müəllifləri yalnız bioqrafiya yazmaqla kifayətlənirdilər. Təzkirəçilər təzkirədə verdikləri nümunələrdən əvvəl, şairin yaradıcılığı haqqında çox dəyərli açıqlamalar verirdilər: Bütün təzkirələrdə ”Pesend ü ısğaya kabil şiir, hoş- ayende nazm, rengin inşa, aşikane gazel və muhayyel eşar” kimi qarşımıza çıxan terminlər buna nümunədir.

Tarix və onun islam aləmindəki ən mühüm sahələrindən biri olan bioqrafiya, dünya mədəniyyətinə bəxş edilən ən dəyərli ərmağanlardan biridir. Məsələyə türk bioqrafiyası bucağından baxıldıqda şairlərə aid təzkirə növü ərəb və fars təmələri üzərində davam etməsinə baxmayaraq, ən gözəl nümunələrini Osmanlı türkcəsi çevrəsində təqdim etmişdir. Bu növ, şərq türkcəsi ilə başlamış olsa da, ən gözəl və zəngin məhsullarını qərb türkcəsi meydanında ortaya çıxarmışdır. Üstəlik şairlər təzkirəsi növü XVI əsrdən başlayaraq XX əsrin əvvəllərinə qədər fasiləsiz şəkildə davam etmişdir. II Murad dövründən etibarən ələkdən keçməyən elə bir şairimiz yoxdur ki, onun haqqında təzkirələrdə heç bir yazılı məlumata rast gəlinməsin. Bunun ən mühüm səbəbi cabit və zəfər çalmış bir dövlətin mövcudluğu, uğurlu siyasət və bunun müqabilində hər an inkişaf tələb edən Osmanlı mədəniyyətinin olmasıdır. Eyni perspektivi daşıyan bir nümunə kimi Səlcukludan gələn memarlıq ənənəsi Osmanlı dövründə necə inkişaf edərək zirvəyə ucaldısa, buna bənzər bir formada şairlər təzkirəsi də yüz illər ərzində inkişaf edərək mükəmməllik qazanmışdır. Sözsüz ki, bioqrafiyalarda verilən məlumatlar bu günkü bioqrafiya ölçülərinə uyğun gəlmir, onlardan əksikdir. Amma qərb ölkələri ilə müqayisə edərkən bu sahənin öz dövrünün ən irəlidə olan bir sahəsi olduğunu görürük. Bütün bu dəyərli xüsusiyyətlərinə baxmayaraq təzkirə növü, başqa qədim növlər kimi müasir janra çevrilə bilməmişdir. Müasir bioqrafiya bizə bütövlükdə qərbdən gəlmişdir. Bunun tək bir istinası olaraq gəncliyində klassik bioqrafiya ilə çox maraqlanan Behcət Necatigilin "Ədəbiyyatımızda İsimlər Sözlüyü" adlı əsərini göstərmək mümkündür. Təəssüflə qeyd etmək olar ki, yaxın illərə qədər təzkirələr üzərində aparılan heç bir çalışmaya rast gəlinməmişdir. Yeni nəşrlərlə, bunların gələcək nəsillərə çatdırılması ilə bağlı heç bir iş görülməmişdir. Otuz altı təzkirədən on ikisi yeni əlifba, on üçü isə köhnə əlifba ilə nəşr olunmuşdur. Bu çatışmamazlığı aradan qaldıracaq bir sıra işlər də görülmüşdür. Hammer – Purgstallın hələ XIX əsrdə "Geschichte der Osmanishen Dishtkunst bis auf unsere Zeit (4C Peşte 1836-38)" adlı əsərinin nümunəsi hələ Türkiyədə gerçəkləşdirilməmişdir. Məsələn, boşnaklar H. Şabanoviçin "Knyizevno Muslimana BİH

na Orijentalnim jezicima" (Srayevo 1973) adlı kitabıyla bu əsəri yazmışlar. Nail Tumanın "Töhfei- Naibi" adıyla hazırladığı əsəri də çap olunmamışdır.

Bizdə "Təzkirələrə Görə Divan Ədəbiyyatı İsimlər Sözlüyü" (Ankara 1988) bunun ilk və eyni zamanda yetərli olmayan bir nümunəsidir.

*(*Yazı "Şair tezkireleri"(Ankara2009) əsərində s.7-16 –da dərc olunub).*

TÜRK TƏZKİRƏÇİLİK ƏNƏNƏSİNDƏ ƏLİŞİR NƏVAİNİN YERİ*

Tanınmış adamların həyat hekayələrindən bəhs edən təzkirə növü islam dünyası üçün səciyyəvi olan ən mühüm ədəbi fəaliyyət növlərindən biridir. Tarix bizdən əvvəl yaşayanların üz-üzə gəldikləri hadisələri və onların qəhrəmanlarını özündə əks etdirir.Tarixi hadisələrin özü qədər, bu hadisələrin iştirakçısı olan insanları üzə çıxarmaq və tanıtmaq da çox böyük əhəmiyyət kəsb edir. Bu insanların həyatları haqqında olan məlumatları çatdırmaq, onları bizimlə tanış etmək işi isə birbaşa insan məvhumuna istinad edən bioqrafiyaların üzərinə düşmüşdür. Bu üzdən də qərb və şərq tarixçilərinin əksəriyyəti tarixin içində bioqrafiyaya da yer vermişdir.[46]

İslam dünyasında ərəblər tərəfindən yaranan bu növ sonra farsca davam etmişdir. Xüsusilə bu dilin təmsilçisi olan Molla Caminin (v.1493) bu növə qazandırmış olduğu spesifik xüsusiyyətlər türk yazarları tərəfindən mənimsənilərək davam etmişdir. Molla Cami türk ədəbiyyatında böyük təsiri olan bir şəxs olmuşdur. Dilimizdə ilk bioqrafik əsərlərdən biri olan "Nəfəhatül- ünns"ün çevrilməsi də Molla Camiyə aiddir. Başqa bir əsəri olan "Baharıstan" başda Nəvai olmaqla türk təzkirə müəlliflərinə çox böyük təsir göstərmişdir. Ancaq fars ədəbiyyatında əsl diqqət çəkən nümunə Dövlətşah b. Alaüd- Dövlə (v.1486) tərəfindən qələmə alınan "Dövlətşah" təzkirəsidir. (1487). Dövrünün tanınmış dövlət və mədəniyyət adamı Əlişir Nəvaiyə həsr olunmuş bu əsər bir müqəddimə, yeddi təbəqə və bir xatimədən ibarətdir. Təzkirədə yer alan şairlərin sayı 149-dur. Dövlətşah, qələmə aldığı şairlərin həyatlarını təsvir etdikdən sonra onların şeirlərindən nümunələr də verir. Öz üslubuna görə təzkirə, ondan sonra yazılmış fars və türk təzkirələrinə örnək olmuş və o günə qədər yazılmış təzkirələrdən xeyli çox bioqrafiyaya yer vermişdir.

XIV yüzillikdə bu mövzuya aid əsərlər yazılmağa başlandı. Bunların dilimizdə olan ilk nümunələri gözlənildiyi kimi

[46] Adnan Adıvar, "Tarih ve Biyografi", Tarix jurnalı C.2, S.3-4, İstanbul 1952.

peyğəmbərlər qissələrı və sufi təzkirələri olmuşdur. Süleminin əsəri İbn Çevzi, Əttar və Cami tərəfindən fars dilində davam etdirilmişdir. Caminin bu mövzuda qələmə aldığı "Nəfahatül-üns"ü Əlişir Nəvai (1441-1501) "Nəsaimül-Məhəbbe min şəmayimül- fütüvvə" adıyla şərq türkcəsinə, Lami (ö 1532) isə "Nəfəhatül-ünsl min Hədəratül-qüds" (1524) adıyla qərb türkcəsinə çevirdi. Əslində bu çevirmələri klassik tərcümənin yarı təhlil əsərləri olaraq qəbul etmək mümkündür. Nəvai bu əsərindən sonra "Baharıstan" və Dövlətşah təzkirəsindən təsirlənərək "Məcalisün– nəfais" (1491) adlı şairlər təzkirəsini qələmə almışdır. Əvvəl ərəb dilində, sonra isə fars dilində meydana çıxan təzkirələr bu yüzillikdən etibarən oxşar formada artıq türkcə ifadə olunmağa başlanmışdır. Bu ərəfədə ilk örnək bir çox ədəbi sahənin ilk nümunəsi olduğu kimi, Əlişir Nəvaidir (1441-1501). Bu dönəmdən etibarən, bioqrafiya, təzkirə, mənaqib, vəfayət, devha, səfinə, töhvə, hədıqə, fihrist silsilənamə, şairnamə kimi müxtəlif başlıqlar altında geniş bir sahəni əhatə etdiyindən, mən yalnız şair bioqrafiyaları üzərində dayanmaq istəyirəm.

Nəvainin bu sahədə qələmə aldığı əsərini "Məcalisün– nəfais" adlandığını qeyd etmişdik. Müqəddimə və məclis adı ilə verilən səkkiz bölümdən ibarət olan əsər özündən əvvəlki əsərlərə çox bənzəyir. Təzkirədə şairlər hər məclisdə xronoloji qayda üzrə sıralanmışdır.

1-ci məclis. Nəvaidən əvvəl yaşamış şairlər

2-ci məclis. Nəvainin uşaqlığında və gəncliyində tanıdığı, ancaq təzkirə yazılan müddətdə artıq həyatda olmayan şairlər

3-cü məclis. Nəvainin müasiri olan şairlər

4-cü məclis. Alim şairlər

5-ci məclis. Xorasanlı şair mirzələr və hökmdar ailəsinə mənsub şairlər

6-cı məclis. Xorasandan kənarda yaşayan elm adamları və şairlər

7-ci məclis. Sultan və şahzadələrdən şair olanlar

8-ci məclis. Dövrün padşahı Sultan Hüseyn Baykara[47]

"Məcalisün–nəfais"də Herat, Xorasan və Azərbaycanda yaşayan

[47] "Mecâlisü'n-nefâis", Daşkənt, 1961.

və əksəriyyəti farsca yazan 455 şairə yer ayrılmışdır. Bunların 43-ü türk və ya türkcə yazan şairlərdir. Nəvai bu şairlər haqqında uzun-uzadı məlumatlar verməmiş, çoxuna ancaq bir-iki sətir yer ayırmışdır. Hər şairin bir, böyük şairlərin iki-üç beytini də nümunə kimi vermişdir.

"Məcalisün– nəfais" həm çığatay ədəbiyyatı, həm də İran ədəbiyyatı üçün çox mühüm bir qaynaqdır. Ancaq onun əsl əhəmiyyəti Anadoluda meydana çıxan təzkirələrə örnək olmasıdır. Herat təzkirə məktəbi adlanan Cami, Dövlətşah və Nəvainin əsərləri həm özlərindən sonra yaranmış Osmanlı ölkəsindəki "təzkireyi-şüəra" növünə dərindən təsir göstərmiş, həm də ədəbi bioqrafiya janrına hərəkət vermişdir.

Söz açdığımız bu bioqrafiyalar məzmun və baxış nöqtələrinə görə kiçik fərqlərlə yanaşı, həm də məlum olan ortaq nöqtələrə malikdir. Bioqrafiyası yazılan şəxs həmişə müəyyən yaş həddinə çatdıqdan sonra təzkirəyə düşdüyü üçün, təzkirələrdə doğum tarixləri o qədər də yer almaz. Bu şəxslərin adları, xronoloji məlumatlar, xüsuilə ölüm tarixləri dəqiqliklə qələmə alınardı. Bioqrafiyası yazılan şəxsin həyat hekayəsi, qısa şəkildə nəql edilir, elm adamlarının təhsilləri, müəllimləri önə çıxarılırdı. Şairlərin şeirlərindən isə nümunələr verilir, onların ədəbi tərəfləri üzə çıxarılırdı. Bu xüusiyyətləri ilə ənənəvi bioqrafik sənəd yazmağı əsas götürdüyü üçün, təzkirələr bütünlüklə insan ünsürünə diqqət yetirirdi.

Əslində burda təəccüb ediləcək bir şey də yoxdur. Dini birliklər üzərində qurulan böyük mədəniyyətlər öz tərkibində olan fərqli xalqların mədəniyyətlərini hər hansı bir miqdarda müştərək formaya gətirirlər. Həyat tərzləri və əraziləri fərqli olsa da, müsəlman olduqdan sonra müxtəlif millətlər ortaq sayıla biləcək bir həyat ölçüsünü tətbiq edirdilər. Bu bənzərlik üzdə olan sahələrdə, xüsusilə də mədəni sahədə özünü aydın şəkildə biruzə verir.

Cığatay ədəbiyyatında Nəvai ilə başlanan təzkirə ənənəsi qısa bir müddətdən sonra Osmanlılara keçdi. Şairlər təzkirəsi olaraq qərb türkcəsində qələmə alınan ilk nümunə Səhi bəy tərəfindən yazılmış "Həşt-behişt"dir. Söz açdığımız bu təzkirənin yazarı Səhi bəy əsərinin ön sözündə Herat təzkirələrindən istifadə etdiyini

açıqca ifadə etmişdir[48]. Səhi Əbdürrəhman Caminin (v. 898/1492), "Baharıstan"ından və Dövlətşahın (v. 1495-1507) "Təzkirətüş-şüəra"sından təsirlənməklə bərabər, əsl örnək olaraq Əlişir Nəvainin (v.1501) "Məcalisün – nəfais"ini götürmüşdür. Təzkirənin sadəcə tərtib üslubuna görə geniş şəkildə təsirlənmə və bənzərlik müşahidə edilir. Hər iki əsər səkkiz ana bölümdən ibarətdir. Səhi bəyin "Təbəqə" adını verdiyi səkkiz bölümün məzmunu belədir:

"Həşt-behişt"	**"Məcalisün– nəfais"**
1-ci təbəqə. Dövrün padşahı Qanuni Sultan Süleyman (Muhibbi)	1-ci məclis. Nəvaidən əvvəl yaşamış və onun doğulmasından əvvəl ölmüş şairlər (46 şair)
2-ci təbəqə. Başlanğıcdan Qanuni Sultan Süleymana qədər şeir yazmış padşah və şahzadələr (6 şair)	2-ci məclis. Nəvainin zamanında yaşayan, onun uşaqlığı və gəncliyində görüb tanıdığı, amma təzkirənin yazıldığı tarixdən əvvəl ölən şairlər (91 şair)
3-cü təbəqə. Vəzir, qəzaskər, dəftərdar, nişançı, bəylərbəyi kimi dövlət böyükləri (28 şair)	3-cü məclis. Nəvainin zamanında şöhrət tapan və özləriylə tanış olduğu, dostluq qurduğu şairlər (174 şair)
4-cü təbəqə. Alim şairlər (17 şair)	4-cü məclis. Alim şairlər (73 şair)
5-ci təbəqə. Səhi bəydən əvvəl yaşamış və ölmüş şairlər (34 şair)	5-cü məclis. Xorasanlı şair mirzələr və hökmdar ailəsindən olan şairlər (21 şair)

[48] "Heşt-Behişt", (Günay Kut), Harvard, 1978, s.77.

6-cı təbəqə. Səhi bəyin gəncliyində şöhrət qazanmış olan, nüfuzlu dövrlərinə çata bildiyi və bir çoxu ilə tanış olub görüşdüyü şairlər (61 şair)	6-cı məclis Xorasandan kənarda yaşayan elm adamları və tanınmış şairlər. (31 şair)
7-ci təbəqə. Əsərin yazıldığı vaxt həyatda olan tanınmış şairlər(39 şair)	7- ci məclis. Sultan və şahzadələrdən şair olanlar(22 şair)
8-ci təbəqə. Əsərin yazıldığı vaxt yeni tanınmağa başlayan və Səhinin qabiliyyətli hesab etdiyi təzə-həvəs gənc şairlər	8-ci məclis. Dövrün padşahı Sultan Hüseyn Baykara

Bu cədvələ nəzər salındığında bir az əks şəkildə təsvir edilmiş Nəvai təsnifatı ilə rastlaşırıq. Nəvainin səkkizinci məclisdə qələmə aldığı padşah Hüseyn Baykara yerinə, Səhi dövrün padşahı Qanuni Sultan Süleymanı birinci təbəqədə verir. Nəvaidə yeddinci məclisdə yer alan sultan və şahzadələr Səhidə ikinci təbəqədə, onun beşinci məclisdə təsvir etdiyi mirzələr Səhidə üçüncü təbəqədə verilmişdir.

Alim şairlər hər iki əsərdə dördüncü bölümdədir. Nəvainin altıncı məclisdə göstərdiyi Xorasan xaricindəki şairlər müqabilində Səhi əvvəllər yaşamış olan şairləri beşinci təbəqədə yerləşdirmişdir. "Məcalis"də birinci, ikinci, üçüncü məclisdə həyatları nəql edilən çoxdan vəfat etmiş şairlərlə müasir, və hələ çox gənc olan şairlər "Həşt-behişt"də altıncı, yeddinci və səkkizinci təbəqələrdə təsvir edilmişdir. Bənzərliklər bununla bitmir. "Həşt-behişt"in əsas süjeti və möhtavası da "Məcalisün– nəfais" ilə oxşardır.

Bu növün başqa örnəkləri kimi "Həşt-behişt" əsəri də bir müqəddimə ilə başlanır. Bu bölümdə müəllif Tanrıya şükürlər, peyğəmbərə dualar dilədikdən sonra kitabın nə üçün yazıldığını bildirilir. Bu bölüm də Nəvai ilə demək olar ki, eynidir.

Sonra isə bioqrafiyalara keçilir. Burada yer alan şairlərin

doğum yeri, adı, ləqəbi, təhsili, sənət və məşğuliyyəti, müəllimləri, həyatlarında olan mühüm dəyişikliklər, ölümləri, əgər mümkündürsə ölüm tarixi, məzarlarının yeri, bəzən şairlə bağlı lətifələr, ədəbi mövqeyi ilə bağlı dəyərləndirmələr və əsərlərindən nümunələr verilir. Nəvaidə olduqca qısa şəkildə təsvir edilən bioqrafiyalar Səhidə xeyli uzadılaraq verilmişdir.

Təzkirələrin sonunda "Xatimə" adı ilə verilən son hissə yer alır. Bu bölüm də yenə "Məcalisün– nəfais" ilə başlanmış və həm Səhidə, həm də digər təzkirələrin çoxunda yer almışdır[49].

XVI yüzillikdən XX əsrin sonuna qədər davam edən təzkirə növü geniş zaman məsafəsi ərzində, şübhəsiz, fərqli görüntüləriylə meydana çıxmışdır. Bu əsərlər Herat məktəbi təzkirələrini, xüsusilə də "Məcalisün– nəfais"i özlərinə nümunə götürməklə bərabər, tərtib edilmə formasını dəyişərək bir çox fərqli şəkillərə düşmüşlər. Orta Asiya və Səlcuqlar ənənəsi üzərində Osmanlı memarığı necə inkişaf edərək dəyişmişsə, təzkirə bioqrafiyaları da eləcə inkişaf edərək müsbətə doğru dəyişmişdir. Herat məktəbinin təzkirələrində söz açılan şəxslər təbəqələr üzrə bölüşdürüldüsə, bizdə artıq bu təsnifat əlifba sırası ilə verilmişdir. Əlifba sırası ilə verilən bu təsnifat Lətifi tərəfindən həyata keçirilmişdir. Lətifidən sonra həmin yeni üsul kiçik istisnalar olmaqla türk təzkiräçiliyinin prinsipal tərtib üsulu olmuşdur. Lətifi yalnız yeni tərtib üsulu ilə deyil, təzkirəyə qazandırdığı inkişaf dinamikası ilə də klassik təzkirə sərhədlərini müəyyənləşdirmiş bir müəllifdir. Aşıq Çələbi və antologiya tipli təzkirələr istisna olmaqla, Lətifidən sonra gələn bütün təzkiräçilər onu özlərinə örnək olaraq götürmüşlər. Təəssüflə qeyd etmək olar ki, təzkirə növü şərq türkcəsi ilə başlansa da, bu türkcədə Nəvaidən sonra yalnız Sadiqinin bir əsərini nümunə göstərmək olar. Ancaq 1538-ci ildə verilən ilk nümunədən sonra, qərb türkcəsində əlavələr ənənəsi ilə birlikdə 1950- ci illərə qədər fasilə vermədən mükəmməl əsərlər yazılmış və bunlar dünyanın ən qiymətli xəzinələrindən birinə çevrilmişdir. Bunun əsas şərti olaraq qərb türkcəsinin aid olduğu Osmanlı dövlətinin 600 ildən çox sürən hökmranlığını, bir

[49] Mustafa İsen vd. "Şâir Tezkireleri", Ankara, 2002, s.12.

dövlət kimi zəfərini göstərmək olar. Şərq türkcəsi isə XVI əsrdən sonra uzun müddət hakim dövlətə və uğura sahib ola bilməmişdir. Bu yazıda sadəcə Səhi bəyin təzkirəsi üzərində dayandım.

Əslində bütün XVI əsr təzkirələri "Həşt-Behişt" qədər olmasa da ,bu təsirlənmədən açıq şəkildə söz açırlar.

XVII əsrdə türk təzkiraçiliyi başqa bir formaya düşdüyü üçün həmin təsir xeyli azalmışdır. XVIII əsrdə klassik təzkirələrə yenidən bir dönüş başlandı və artıq nostalji olsa da Nəvai bir daha xatırlandı. XIX yüzillikdə isə təzkirələr əvvəlki əhəmiyyətlərini itirdilər və onların yerini Qərb tərzində yazılan ədəbiyyat tarixləri almağa başladı. Artıq təzkirə modelləri də şərqdə deyil, qərbdə axtarılmağa başlandı.

(**Yazı Əlişir Nəvainin anadan olmasının 560, ölümünün 500 illik yubileyinin məruzələrində(Ankara 2004,s.25-31) dərc olunub və kitaba ixtisarla daxil edilib).*

SƏHİ BƏY VƏ TƏZKİRƏSİ*

Şair və eyni zamanda, Anadoluda ilk şairlər təzkirəsi "Həşt-behişt"in müəllifi olan Səhi bəy, Fateh Sultan Məhməd dövründə anadan olub. Doğum tarixiylə bağlı əlimizdə dəqiq məlumatlar yoxdur. 1548-ci ildə 80 yaşlarında öldüyü bildirildiyindən, təxminən 1470-ci ildə doğulduğunu zənn etmək olar. Əsl adı məlum deyildir. Qaynaqlardan bir çoxu Ədirinəli olduğunu xəbər verir. Gelibolulu Əli öz mənbəsində o biri qaynaqlardan fərqli olaraq "Abdullah oğludur", deyərək mənşəinin yanlış olduğuna işarə edir. Səhi şair Nəcati bəyin (v.1509) yanında yetişmiş və həyatı boyunca da onun əhatəsindən ayrılmamışdır. Səhi təzkirəsində bu barədə məlumatlar verdiyi kimi, Səhidən, yaxud Nəcati bəydən bəhs edən başqa qaynaqlar da həmin mövzuya toxunmuşlar. Səhi ilə Nəcati arasındakı yaxınlığın nə zaman harada və necə başlandığı haqqında isə heç bir yerdə söz açılmır. "Həşt-behişt"in müəllifinin şahzadə Mahmudun (v.1507) Manisadakı valiliyi yanında onun nişançısı olan Nəcati ilə birgə olduğu söylənildiyinə görə, güman etmək olar ki, bu əlaqə heç olmasa bu vəzifədən əvvəl başlanmışdır. Səhi bəyin Nəcatinin kürəkəni olması haqqındakı məlumatlar isə Evliya Çələbinin Gelibolulu Əlinin bu mövzu ilə bağlı məlumatlarını yanlış anlaması ilə meydana çıxmışdır. Səhi, Şahzadə Mahmudun ölümündən sonra Nəcati ilə birlikdə İstanbula qayıtmışdır. Qaynaqlar onun burada divan katibi olduğunu yazırlar. O da məlumdur ki, Nəcati 1509-cu ildə İstanbulda öldüyü zaman Səhi Şeyx Vəfa Təkkəsi yaxınlığında ona bir məzar inşa etdirmiş və ölümünü əks etdirən bu tarixi beytini yazmışdır:

Aydındır Nəcati, aləmə tarix olmağın
Tarixini Səhi dedi getdi Nəcati hay

Eləcə də Nəcatinin bu beytini onun məzar daşına yazdırmışdır:

Bir səngi dil fərağına ölən Nəcatinin
Billah mərmərdən edərik məzarını.

Səhi bəy bundan sonra şahzadə valiliyi yanında Qanuni Sultan Süleymanın (1495-1566) divan katibi olmuşdur. "Həşt-Behişt"in müəllifi istər divanında və təzkirəsində, istərsə də Qanuniyə həsr etdiyi qəsidələrdə, özünün uzun illər onun qapısında xidmət etmiş bir qul olduğunu dönə - dönə qeyd edir. Qanuni Sultan Süleyman taxta çıxdıqdan sonra isə vəqf xidmətinə keçmişdir. Bu vəzifə dəyişikliyinin Səhinin arzusuna uyğun olmaması təzkirəsinin müqəddiməsində Qanunini mədh edən bir qəsidədən məlum olur:

Qul olana çox etdi şah himmət
Nola edə Səhiyə daha şəfqət.

Olurkən padşahın xidmətində
Tapım dedim səadət dövlətində.

Günahım nə oldu bilsəm diriliyimdə
Qovuldum qapıdan mən pirliyimdə.

Nə var bir himmət etsə yenə Sultan,
Qoca qul qapısında olsa dərban.

Bu beytlərində Səhi, Qanuni padşahlığı dövründə gözdən düşdüyünü, ən azından ona iltifat edilmədiyini göstərmişdir.

Səhinin bundan sonrakı məşğuliyyəti barəsində qaynaqlar müxtəlif məlumatlar verirlər. Ədirnə və bəzi imarətlərin vəqf məmuru vəzifəsindən sonra "Darül-Hadis" mədrəsəsində vəqf məmuru işləməsi məlumdur. O, bu vəzifədə ikən Anadoluda təzkirənin ilk nümunəsi hesab edilən "Həşt-behişt" əsərini yazmışdır. Öz vəziyyətindən razı deyildi və padşahdan başqa, dövrün irəlidə olan tanınmış adamlarına da qəsidələr həsr edərək bu sıxıntılı vəziyyətdən qurtulmaq istəyirdi. Təzkirəsini 1538-ci ildə Ədirnədə Qanuniyə həsr etmişdir. O, bununla da dəftərdarlıq və ya nişançılıq kimi bir vəzifəyə təyin ediləcəyini hesab edirdi. Bir az da bu səbəbdən "Həşt-behişt" əvvəldən sona qədər yerli-yersiz padşaha yalvarışlarla doludur. Ancaq bu əsər də Səhinin həyatında bir dəyişiklik yaratmadı. Yaşlı

şair umduğunu əldə etmədən 1548-ci ildə Ədirnədə 80 yaşında ikən vəfat etdi.

ƏSƏRLƏRİ:

1. DİVAN. Dövründə və sonralar şair kimi böyük bir maraq yaratmamasına baxmayaraq Səhi bir divan sahibidir. Divan qaziəsgər Muhyiddin Çələbi əl-Fənarinin (v.1547) təşəbbüsü ilə tərtib edilmiş və özünə ithaf edilmişdir. Əsərin adət edildiyi kimi nüfuz sahibi olan dövlət adamlarından birinə deyil, bir elm adamına həsr olunmasının əsas səbəbi, məncə, şairin üzərində böyük təsiri olan Nəcatidən gəlmişdir. Məlum olduğu kimi, o da öz divanını Hatəmi təxəllüslü Müəyyədzadə Əbdürrəhman Çələbiyə (ö 1554) həsr etmişdir. Təzkirəsinin şairin istəklərinə cavab verməməsi onun dövlət adamlarından üz döndərməsinə səbəb ola bilərdi. Bir ön sözlə başlayan divan qəsidələr, qəzəllər, mürəbbelər, qitələr, tarixlər və lətifələrdən ibarətdir. Səhi şair olaraq o qədər də maraq doğurmadığı üçün bu divanın nüsxələri yox hesab ediləcək qədər az olub. Tanınan bir nüsxəsi hələ də Parisdə Bibliotheque Nationale (Mss Turc Suppl, nr 360) da saxlanılır.

2. "HƏŞT-BEHİŞT" (səkkiz cənnət). Seirdə öz bacarığını göstərə bilmədiyinə və şeirləriylə yadda qalmamağına baxmayaraq Səhi başqa bir əsəri ilə adını tarixə yaza bilmiş və ölməzlik qazanmışdır. Anadolu ərazisində ilk təzkirə sayılan əsərini o, "Həşt-behişt"adıyla qələmə almışdır. Hər bir sosial quruluş təşəkkül etdikdən sonra özü haqqında bir tarixin yaranışına imza atır. Anadoluda inkişaf edən ədəbiyyat da özündən sonra tarixinin yaranma zərurətini ortaya qoymuşdur. Belə ki, XV yüzilliyin ortalarında ədəbiyyat tarixinin ilk nümunələri yazılmağa başlamış və bu dövrdə toplanan nəzirə məcmuələrində bioqrafiyanın ilk bəsit hissələrinə rast gəlinir. Bəyliklər və Osmanlılar dövründə türk şeirinin getdikcə inkişaf etməsi nəticəsində sayı çoxalan şeir nümunələrinin və şairlərin bir yerə toplanması ehtiyacı hiss olunsa da, hər halda, Səhidən əvvəl təzkirə adı altında başqa bir əsər yazılmamışdır. Təzkirəçilik tarixində ilk diqqət çəkən məlumatları verən Gelibolulu Əli "Künhül-əxbar"

adlı əsərində hicri minilliyinə qədər Anadoluda yazılmış təzkirələri sayarkən bu növü Səhi Bəylə başlayır. Əsərini Səhidən təxminən əlli il sonra yazan Əli, həmin məsələ ilə maraqlandığına görə Səhidən əvvəl belə bir əsərin yazılıb-yazılmadığını mütləq araşdırmışdır. Belə ki, özünü bu iş üçün hazır bilməyən Səhi bəy həmin əsərin başqa birisi tərəfindən yazılacağını uzun bir müddət gözləmişdir. Ayrıca əsərinin önündəki nümunələrin Herat məktəbi təzkirələri olduğunu dönə-dönə qeyd etməsi də "Həşt-behişt"in bu növ üzrə ilk əsər olmasına işarə edir.

Beləliklə, Səhi zəngin irs qoymuş təmsilçilər yetişdirmiş olan Anadolu türk ədəbiyyatı üçün çox lazımlı olan bir işi yerinə yetirməyə girişir. Bu dövrdə təzkirə yazmaq üçün ədəbiyyatda böyük bir ehtiyac hiss edilirdi. Buna görə də qarşıdakı dövrlərdə yazılan təzkirələr təsadüfdən deyil, sırf zərurətdən yaranmışdır. Çünki artıq müəyyən bir mərhələni başa vurmuş və formalaşmış ədəbiyyatın təmsilçilərinin həyatlarından bəhs edən bioqrafiyaların gizli qalması və itib-batması müsbət bir hal deyildi. Səhidən dərhal sonra bir-birinin ardınca ən gözəl nümunələrin yaranması da bu ehtiyacın nə qədər böyük olmasından xəbər verir.

"Həşt-behişt" 1538-ci ildə Ədirnədə yazılmış və burada Qanuni Sultan Süleymana təqdim edilmişdir. Səhi, təzkirəsinin ön sözündə onu bu işə sövq edən səbəbləri və kimlərdən təsirləndiyini göstərir. Təsirləndiyi əsərlər Əbdurrəhman Caminin (1414-1492) "Baharıstan" adlı əsəri; Dövlətşahın (1431-1495) "Dövlətşah" təzkirəsi və Əlişir Nəvainin (1441-1501) "Məcalisün nəfais"idir. Əsərə "Həşt-behişt" adı verilməsi onun səkkiz təbəqə üzərində tərtib edilməsindən irəli gəlir. Bununla birlikdə əsər bu növün başqa nümunələrində olduğu kimi daha çox müəllifin adıyla şöhrət qazanmış və Səhi təzkirəsi kimi tanınmışdır.

Təzkirə özündən sonra yazılan başqa nümunələrə nisbətən qısa bir ön söz ilə başlanır. Bu dövrdə olan oxşar cəhətlərinin konturlarını cızaraq, xüsuilə İran təzkirələrinin ön sözünü təqlid edərək mədhiyyə və qitələrlə əhatə etdiyi bu bölümdə Səhi əvvəlcə Allaha şükür edir, peyğəmbərə və səhabələrinə salavat göndərir, dualar edir, şeirin və şairin xüsusiyyətlərindən söz açır, kimlərdən təsirləndiyini dilə

gətirir və əsərinin məruz qalacağı tənqid və hücumları qeyd edərək bir məsnəvi ilə Qanuni Sultan Süleymanın himayəsinə sığınır. Ön sözün bundan sonrakı hissəsində isə müəllif əsərinin çərçivəsini çəkir və son dörd təbəqədə topladığı şairləri ayırd edir. Bu bölümə daxil olan bir rübai əsərinin padşah tərəfindən dəyərləndirilməsi üçün "Asəfi-dövran" deyə vəsf etdiyi vəziri-əzama müraciəti özündə ehtiva edir. Müəllif səkkiz təbəqədən ibarət olan əsərinin hər təbəqəsində qələmə aldığı şairin sinfi mənsubiyyətini və yaşamış olduğu ərazini təbəqənin başlığında verdiyi bölümdə təsvir etmişdir. Son bölümdə isə əsərin səkkiz təbəqə üzərində düzənləndiyi, Səmaniyyə mədrəsələri nümunələrində olduğu kimi, hər təbəqəyə bir əlavə "tətimmə" artırıldığı göstərilir. Sonra xəta və nöqsanların xoş qarşılanmasını diləyərək Sultan Süleymana duasını ifadə edən daha bir rübai də yazır.

Müəllif səkkiz təbəqəyə ayırdığı əsərində hər təbəqədə qələmə alacağı şairlərin sinif və xüsusiyyətlərini o təbəqənin başında verdiyi kiçik bölmə ilə izah etmişdir. Ayrıca təbəqənin sonuna əlavə etdiyi "tətimmə" adlandırdığı əlavə bölümlərlə də yazdığı təbəqədəki şairlərin xüsusiyyətlərini bir dəfə də qısaca olaraq aydınlaşdırır.

Bu səkkiz təbəqədə şairlərin təsnifatı belədir:

I TƏBƏQƏ. Bu təbəqədə dövrün padşahı Qanuni Sultan Süleymandan bəhs edilir. Əlif kimi yeganə olduğu üçün bu təbəqədə cümlənin xaqanı olan padşah tək yazılır.

II TƏBƏQƏ. Bu təbəqədə Qanuni dövrünə qədər şeir yazan padşah və şahzadələrdən bəhs edilir. Təbəqə II Muradla başlanır və tarix sırası ilə ondan sonra gələn şeir yazmış padşah və şahzadələrdən bəhs edilir. Bunlar II Murad, Fateh Sultan Məhməd, Sultan Bayazid, Sultan Cəm, Sultan Səlim və Sultan Qorquddur.

III TƏBƏQƏ. Dövlət adamlarına həsr olunan bu təbəqədə vəzirlər, qaziəsgərlər, dəftərdarlar, nişançılar və bəylər qələmə alınmışdır. Bu bölümdəki şairlər aşağıdakılardır: Əhməd Paşa, Mahmud Paşa, Vəfayi, Karamanlı Məhməd Paşa, Qasım Paşa, Piri Paşa, Zeynal Paşa, Lülfi Paşa, Əli Çələbi, Hacı Həsənoğlu, Əbdürrəhman Çələbi əl-Müyyid, Cəfər Çələbi, Şah Çələbi, Abdulvasi Çələbi, Muhyiddin Çələbi, Qədri Çələbi, Xoca Çələbi, Məhməd Çələbi, Abdülvəhhab

Çələbi, Əbülfazi Çələbi, Nişançı Mustafa Çələbi, Rüstəm bəy, Şamiloğlu Mustafa bəy, Çakəri Sinan Bəy, Əhməd Bəy, Əli Bəy, İdris bəy, Əhməd Bəy.

IV TƏBƏQƏ. Xızır Bəy, İsari Çələbi, Lütfi, Qütbi, Müfti Əhməd Çələbi, Müfti Sadi Çələbi, Həsən Çələbi, Məhməd Çələbi, Hafiz Əcəm, İshak Çələbi, Əbdüləziz Çələbi, Sədi Çələbi, Fəxri Çələbi, Sururi, Əmiri, Həmdi Çələbi, Lamii Çələbi.

V TƏBƏQƏ. "Həşt-behişt"in ümumi şairlərdən ibarət olan hissəsi bu təbəqədən başlayır. Bu hissədə Səhi bəy yaşadıqları dövrə yetişə bilmədiyi və barələrində hansı adamlardan məlumatlar öyrəndiyi şairlərə yer vermişdir. Bunlar aşağıdakılardır: Şeyxi, Əhmədi, Şeyxoğlu, Əhmədi- Dai, Şirazi, Hümami, Atayi, Şəmsi, Həsən, Zai, Zairi, Əzhəri, Nücumi, Baba Nədimi, Məlihi, Şeyx Rövşəni, Xəlili, Nizami, Xoca Qara Fakih, Ülvi, Şəhdi, Eşqi, Sərəzli Sədi, Həffi, Həyatı, Fənayi, Əli, Nəhifi,Həmdi, Səfayi, Sabayı, Ləalı, Qivami.

VI TƏBƏQƏ. Yazarın yaşadıqları zamana yetişdiyi və gəncliyində xidmət etdiyi özündən əvvəlki nəslə aid olan şairlər: Nəcati, Vəsfi, Kamal, Zülali, Nihani, Katib Şövgi, Rəvani, Əmiri, Talii, Sayi Afitabi, Saki, Nihalı, Qəzalı, Meali, Sədri, Sübhi, Riyazi, Kəbiri, Sevdayi, Visali, Gubari, Gülami, Kərimi, Qədiri, Niyazi, Cəfai, Duayı, Baba Həsən, Behişti, Turabi, Səhayi, Ləli, Heydər, Sərəzli Kandi, Cənabi, Əhdi, Şəhidi, Sagərı, Şəmsi, ikayi, Fəridi, Həbibi, Nəsuhi, Katibi, Hədidi, Əhdi, Mürək, Sıfayi, Rəsmi, Sidqi, Fəhmi, Sühayi, Həvəsi, Nihani, Məhməd Çələbi, Muhyi, Talibi, Hakı, Hifzi, Məqami.

VII TƏBƏQƏ. Bu təbəqədə Səhi bəyin müasiri olan şairlər qələmə alınmışdır. Bu bölümün sonunda "Qadın şairlər haqqında" adlı bir başlıqda iki qadın şairdən də bəhs edilir. Bu təbəqənin şairləri bunlardır: Zati, Ani, Şəmi, Məsihi, Rəfiqi, Sücudi, Əmani, Kəşfi, Fərruxi, Suni, Süzi, Ata, Nami, Pənahi, Cəmali, Yəqini, Cəlili, Fani, Vahdi, Katib Həsən, Katib Davud, Qəribi, Bəsiri, Səzayi, Sehri, Səriri, Civani,Cihani, Nigahi, Şəbabi, Meyli, Nizari, Bəzmi, Zənciri, Süvari, Sifatı, Çakşırcı Şeyxi, Zeynəb Xatun, Mehri Xatun.

VIII TƏBƏQƏ. Səhidən gənc olan və istedadları yenicə üzə çıxan, yeni yetişən şairlər bu təbəqədə yer almışlar. Onların sırası belədir: Rəmzi, Bahari, Niqabi, Kamı, Fikri, Xəyali, Fiqani, Heyrəti, Usuli,Tələti, Arifi, Ruhi, Niyazi, Rəhmi, Baqi, Abdi, Farisi, Yetim, Səliki, Mərdümi, Səbuhi, İşrəti, Məhvi, Ulumi, Məşrəbi, Nigahi, Fərdi, Zəmini, Əmri, Səbzi, Hilmi, Nuşi, Muidi, Nazmi, Garami, Vəhdəti, Sübuti, Qudsi, Vəchi, Xitabı, Qəndi, Hafiz, Hilali, Həlakı, Əşqı, Yəhya, Dəruni, Rəhıkı, Sehri, Cəmili, Qürbı, Lətifi, Suni, Sərvi, Dərviş.

Kitabın son bölməsi olan xatimədə Səhi, bir məsnəvi ilə təkrar padşahı vəsf edir. O, ölkəsində şeir yazanın çox olduğunu bildirdikdən sonra, əsərinə bunların tanınmışlarını və layiq olanları daxil etdiyini söyləyir. Kitabın tamamlanmasına görə tanrıya şükür edir, onun padşahın adı ilə birlikdə əbədi sonsuza qədər qalması üçün dualar söyəyir və öz kitabını bitirir.

XVI yüzillikdəki şairlərin sayının çox olması Səhi Bəyi bu kitabı yazmağa vadar etsə də, bu təşəbbüs özündən əvvəl həmin sahədə yol açmış Herat məktəbi təzkirələrindən və xüsusilə də Əlişir Nəvaidən gəlirdi. Səhi Bəy üslub, forma və məzmun etibarilə demək olar ki, Herat təzkirələrini təkrar etmişdir. Əsərin ön sözündə müəllifin nümunə kimi götürdüyü "Baharıstan", "Dövlətşah təzkirəsi" və "Məcalisün- nəfais" təzkirələrindən sonuncusu bu əsərə daha çox bənzəyir. Səhinin əsərdə vermiş olduğu təsnifat da Nəvainin verdiyi təsnifata çox oxşardır. Səhi, Nəvainin padşah Hüseyn Baykaraya ayırdığı səkkizinci təbəqəni öz əsərində Qanuniyə həsr etmişdir. Nəvaidə yeddinci təbəqədə yer alan Sultan və Şahzadələr, Səhidə ikinci təbəqədə, onun beşinci təbəqədə təsvir etdiyi mirzələri Səhi üçüncü təbəqədə göstərir. Alimləri Səhi də dördüncü təbəqədə vermişdir. Nəvainin altıncı təbəqədə qeyd etdiyi Xorasan xaricindəki şairlərin əvəzində Səhi beşinci təbəqədə həyatlarına yetişə bilmədiyi şairləri qeyd etmişdir. "Məcalisün – nəfais"də birinci, ikinci, üçüncü rövzədə həyatları təsvir edilən və çoxdan vəfat etmiş yazarlarla müasir və gənc şairlər, "Həşt-Behişt"də yeddinci və səkkizinci təbəqələrdə verilmişdir. Səhi sadəcə özündən əvvəlki nəsli də əsərinə gətirərək təzkirəsinin başlanğıcını bir az da əvvəllərə aparır. Onun

şairlər üzrə təsnifatı Nəvaidə olduğu kimi bir prinsipə söykənərək götürülməmişdir. Təbəqələrin öz içərisində də bir nizamsızlıq mövcuddur. Əlifba sırası ilə sıralanma isə Səhidən sonra Lətifi ilə başlayır və türk təzkirəsi üçün bir qanun halına keçir.

Səhinin təzkirəsi məzmun və üslub baxımından bu növün ilk nümunəsi olduğunu açıqca hiss etdirir. Qarşısında Osmanlı şairlərinin həyatlarıyla bağlı bir nümunə və hazır qaynaq olmadığı üçün Səhinin qədim şairlər haqqında verdiyi məlumatlar səthidir. Bu dövr şairlərinin ancaq ən tanınmışları əsərə daxil edilmişdir. Bu baxımdan bəzi məşhur şairlər məsələn, Süleyman Çələbi, kitabda yer almır. Son üç təbəqədə yer alan və Səhinin hələ həyatda ikən tanıdığı şairlər haqqında verdiyi məlumatlar isə ətraflı və xeyli dolğundur.

Səhi Bəy əsərini necə yazdığını və hansı mənbələrdən faydalandığını dilə gətirmir. Sadəcə əvvəlki nəslə aid şairlər üçün yaşlılardan məlumat topladığını bildirir. Xatimədə Anadoluda şairlərin sayının çox olduğundan ən tanınmışlarını təzkirəyə aldığı haqqında məlumat verir. Seçilən şairlərdə həmyerlilik, yaxınlıq, qohumluq, tanışlıq kimi ən sonrakı təzkirələrdə rast gəlinən və tənqid edilən nöqsanlar Səhidə demək olar ki, yoxdur. Son təbəqədə bəzi dəyərsiz şairlərə rast gəlinirsə də bunlar gənc şairlərdir və Səhi onlardakı qabiliyyəti görərək, mükəmməl şeirlər yazacaqlarına ümid bəsləmiş və təzkirəsinə daxil etmişdir. "Həşt-behişt"də mütəsəvvüf şairlərə xüsusi bir yer ayrılmamış və onlara fərqli şəkildə əhəmiyyət verilməmişdir. Şifahi ədəbiyyatla məşğul olan şairlərə, yəni folklor şairlərinə heç yer verilmir və bu ənənə bütün təzkirələrdə davam edir. Təzkirənin əhatə etdiyi əsas sahə Osmanlı ölkəsi, yəni Anadolu və Rumelidir. Xüsusilə Rumeli, Ədirnə və İstanbulda yetişən şairlərin hamısı, başqa yerlərdəki şairlərin isə ən məşhurları əsərdə yer almışdır.

Səhi əsəri haqqında böyük israrla müxtəsər və ya risalə deyə bəhs edərdi. Burada müəllif yer verdiyi şairləri müəyyən sərhəd içində tutduğu kimi, onların bioqrafiyalarının da qısa olmasına xüsusi fikir verirdi. O, hətta əlində olan məlumatları qısaldaraq əsərinə daxil etmişdir. Ömrünü yanında keçirmiş olduğu Nəcati haqqında yazdıqları yazılması gərək olandan çox azdır. Onunla bağlı olaraq

klassik bioqrafiya xaricində verdiyi bir neçə sətirlik fərqli məlumatı da, "biz yenə sadələşdirək" deyə qısaltmışdır. Sözün qısası müəllif sözü uzatmaqdan israrla qaçırdı. Əsas məqsədi şairlərin adını unudulmağa qoymamaq olmuşdur. Bununla bağlı Nəcatiyə həsr edilən ən uzun bioqrafiya təxminən iki səhifəyə qədərdir. Bəzi şairlərin sadəcə təxəllüsünü söyləyir, xüsusiyyətləriylə bağlı bir-iki cümləylə kifayətlənir. Bəzən şairlə bağlı bir aforizm, yaxud lətifə söyləyir. Verdiyi nümunələr isə bir beytdən ibarət olmuşdur.

Başlanğıcdan etibarən ərəb və iran modellərini nümunə götürərək irəliləyən Anadolu divan ədəbiyyatı, şeir sahəsində XV yüzilliyin ilk yarısına qədər müəyyən məsafəni qət etmişdir. XV yüzilliyin yarısında, xüsusilə Fateh dövründən XVIII yüzilliyin sonuna qədər davam edən Osmanlı şeirinin qəliblənmiş, ölçülü qafiyə formasına malik yazı tərzinin, sözlərin bir-birilə uzlaşmasının və söz oyunlarının təməli atılmışdır.

Nəsrdə isə belə dəyişikliklər yalnız Qanuni Sultan Süleyman dövründə baş verdi. Demək olar ki, diqqət çəkən nəsr əsərlərinin qələmə alınması yalnız Qanuni Sultan Süleyman dövründə meydana çıxdı. Bu növlərin biri də təzkirələrdir. Buna görə də təzkirələrin içərisində "Həşt-behişt" yalnız məzmun və mahiyyətinə görə deyil, üslubuna görə də ilk nümunədir. "Həşt-behişt"in dili və üslubu XVI yüzillkdə formalaşmağa başlayan klassik üslubla müqayisədə olduqca sadə və səmimidir.

Təzkirələrdə bədii nəsr dili yalnız ön sözdə, təbəqə və tətimmələrdə, xatimədə və bəzi böyük şairlərin tərifləmə ilə bağlı yerlərdə qədərindən orta halda istifadə olunmuşdur. Bu mənada təzkirə XV və XVI əsrlər arasında dil və üslub baxımından bir keçid əsəridir. Bütün bunları aydınlaşdırmaq üçün birisi əsrin əvvəllərində, o biri isə sonunda qələmə alınmış iki təzkirənin müqayisəsini aparmaq yerinə düşər.

Bunlardan biri Səhinin "Həşt-behişt"i, o biri isə Həsən Çələbinin təzkirəsidir.

Sultan Cəm (Səhi təzkirəsi): "Sultan Bayezidün kiçi karindaşıdur. Karaman vilayetinde Çelebi Sultan iken babaları Sultan Mehəmmed fevt olup Karamandan Burusaya gelüp kendi adına hütbe okıdup sikke yazdurdı.

Bir mikdar anda padişahtık idüp, sonra da Sultan Beyazid ilmukabil olup ceng idicek cenge mütahamil olmayıp diyarı Araba çəkıp gidüp...”

Zikr-i Sultan Cem (Həsən Çələbi təzkirəsi): “ Biri dahi evveli şahzadeyi Cem-haşem menba-ı mürüvvet ü kerem şehinşahi diyem-şiyem ü vala- himem nurı didei-şehriyarı nevri şecere-i kamkari cami-i kemalat u maarif bedr-i lami-i şeraifi letaif olan şehriyari ferhunde-dem hidmeti Sultan Cemdür ki, merhum Sultan Mehemmed Hanun ferzendi – celadet-muhbiri ve merhum Sultan Bayezid Hanı Gazinün biraderi mühteridür. Şahzade-i mezbure saidi saadet musaid ve baht-ü devlet muavin ü muazid ve akdam-ı ikdamla medarici izzet ile mearic-i hilafete raki vü said olmayup. Burusa havalisinde telaki saffeyn olup”.

Göründüyü kimi eyni növə və eyni yüzilliyə aid olan iki əsər arasında dil və üslub cəhətdən xeyli fərq vardır və bu təcrübədə sadə yazı dili yalnız Səhi təzkirəsinə aiddir.

Səhi təzkirəsinin ölkəmizdə və ölkəmizdən kənardakı kitabxanalarda iyirmi yazılı nüsxəsi vardır. Təzkirə, Amidi mətbəəsi sahibi Məhməd Şükri tərəfindən “Asar-i Eslafdan Tezkireyi-Sehi” adı ilə nəşr edilmişdir. (İstanbul,1315, 144 s.) Əsərin əvvəlində Faiq Rəşadın (1831-1914) Səhi ilə bağlı bir etüdü verilmişdir.

Bundan sonra isə mən təzkirəni sadələşdirərək çap etmişəm. (Səhi Bəy təzkirəsi. Haz. Mustafa İsen İstanbul, 1980).

Gunay Kut “Həşt-behişt”i bir tənqidi yazı ilə birlikdə çap etmişdir. (“Heşt-behişt”. The Tezkire By Sehi beg, Harvard, 1978).

Təzkirə ayrıca Nəcati H. Luğal və O.Reşer tərəfindən Almancaya çevrilmişdir (Sehi bey s Tezkere Türkishe Dishterbiographi en aus dem 16 jahrh. Istanbul 1942 VİR 142 s).

Səhi təzkirəsinin ən böyük xidməti Anadolu ədəbiyyatında yeni bir ədəbi cığırı açmış olmasıdır. Osmanlı ərazisində yaşayan şairləri ilk dəfə böyük çərçivə içərisinə salan məhz Səhi bəy olmuşdur. Başqa bir əhəmiyyətli cəhəti isə ədəbi mühitlər arasında bir əlaqə yaratmasındadır. “Həşt-behişt”in yaranmasından heç 5 il keçməmiş, Lətifi və Aşıq Çələbinin təzkirə yazmaq təşəbbüsü buna sübutdur. Səhinin əsəri bu növün ilk nümunəsi olaraq daha sonra yazılmış

əsərlərə qaynaq olmuşsa da, onun həmin əsərlər üzərində o qədər də böyük təsiri olmamışdır. Çünki bu zaman artıq daha mükəmməl və daha əlverişli sayılan Lətifi və Aşıq Çələbi təzkirəsi meydana gəlmişdir.

Səhi bəy təzkirəçilərimizin bir məbəd yeri olaraq, təzkirə növünün ilk nümunəsi olan "Həşt-behişt" əsəri və bu əsərdə yer alan, xüsusilə öz dövrünün şairləri haqqında verdiyi məlumatlar ilə bu günə qədər gəlib çatmışdır. Bir məlumat mənbəyi olmaq etibariylə onun ədəbiyyat tariximizdə yeri əvəzolunmazdır.

*(*Yazı "Sehi tezkiresi"(Ankara 1989) kitabının giriş hissəsindən (s.9-300) götürülüb).*

LƏTİFİ TƏZKİRƏSİ*

Sosial quruluşlar meydana gəldikdən bir müddət sonra onların tarixlərinin yazılması ehtiyacı da meydana çıxır.

Anadoluda yaranmağa başlayan türk ədəbiyyatı ancaq müəyyən bir mərhələyə çatdıqdan sonra öz ədəbiyyat tarixinin ilk nümunələrini ortaya qoymağa başlamışdır. XV əsrin ortalarında ədəbiyyat tarixinin ilk elçiləri olan nəzirə məcmuələrindən sonra Səhi Bəy (v. 1548) Anadolu bölgəsinin ilk təzkirəsi olan "Həşt-behişt"i (1538) qələmə aldı. Səhi təzkirəsi nə qədər Herat təzkirələrinin Qərb türkcəsinə bir əks-səsası olsa da, yazıldığı illərdə belə, bir əsərin ortaya çıxması təsadüfi deyil, zərurətdən doğan bir iş idi. Elə Səhi bəyin bu əsərindən sonra, bir-birinin ardınca bu növün ən gözəl nümunələrinin ortaya çıxması da buna sübutdur.

Səhi bəydən sonra Anadoluda ikinci təzkirəni qələmə alan Lətifidir.[50] "Həşt-behişt"dən səkkiz il sonra 1546-cı ildə yazılmış olan "Təzkirətüş-şüəra" və "Təbsiratün-nuzəma"əsəri daha çox Lətifi təzkirəsi adıyla tanınmışdır. Lətifi Səhi bəyin əsərinin mühitdə böyük bir maraq yaratdığını görüb, təzkirə yazmağa həvəslənmiş və həmyerlisi Zaifinin israrlarından sonra onu yazmağa başlamış,əsəri 546-cı ildə tamamlamışdır. O, bu əsəri dövrün padşahı Qanuni Sultan Süleymana həsr etmişdir.

[50] Lətifi, Kastamonuda doğulmuşdur. Əsl adı Abdüllətifdir. Təhsilini tamamlayıb dövlət xidmətində çalışıb. Katib və mühasib olaraq Osmanlı dövlətinin müxtəlif şəhərlərində vəzifədə olmuşdur. Həyatının son günlərinə və ölümünə aid dəqiq məlumat yoxdur. 1582-ci ildə Misirdən Yəmənə gedərkən mindiyi gəminin batması nəticəsində öldüyü güman edilir. Təzkirəsi ilə yanaşı Divan, "Evsaf-ı İstanbul", "Ənisül-füsəha", "Evsaf-ı İbrahim Paşa", "Füsul-ı Ərbəa", "Namazul-Cəvahir ve Esmaüs-suveril-Quran" adlı əsərləri də var. (Lətifinin həyatı, sənəti və əsərlərinə aid təzkirələrdən əlavə qaynaqlar: 1: Andrews, Walter Guilford, The Tezkire-i Şuara of Latîfî as a Source for the Critikal Evaluation of Ottoman Poetry, The University of Michigan, 1970. 2: Banguoğlu, Tahsin "Türk Şu'ârâ Tezkireleri" Türkiyat Enstitüsü 1930. 3: "Büyük Türk Klasikleri", Ötüken-Söğüt, İst. 1986, c.4. 4: Canım Rizvan Latîfî "Tezkiretü'ş-şuarâ ve Tabsıratü'n-nüzemâ", Doktorluq işi, A.Ü.SBE, Erzurum, 1991. 4:Çetin, Nihat, "İslâm Ansiklopedisi" c.7, 5: "Divan Edebiyatı İsimler Sözlügü" Ankara 1988. 6: İpekten, Haluk "Türkçe Şuara Tezkireleri" Erzurum 1986. 7: Kutlu, Mustafa, "Türk Dili ve Edebiyatı Ansiklopedisi" c.6. 8-Levent, A. Sırrı "Türk Edebiyatı Tarihi" Ankara 1974. 9: Məhməd, Xalid (Bayrı) "Latîfî ve Tezkiresi", Həyat, 17-19, İst. 1927. 10: Sevgi, Əhməd "Latîfî'nin İki Risalesi", "Enisü'l-Füseha" ve "Evsaf-ı İbrahim Paşa" Konya. 1986. 11: Sevgi, Əhməd, "Latîfî, Hayatı ve Eserleri" (Dərc olunmamış doktorluq işi), Qazi Üniversiteti Sosyal Elmlər İnstitutu, Ankara 1982).

Lətifi Herat məktəbinə aid təzkirələrdən Caminin "Baharıstan"ını, Dövlətşah təzkirəsini və ilk türk təzkirəsi olan Əlişir Nəvainin "Məcalisün – nəfais" ini özünə nümunə götürməklə yanaşı, başda tərtib üslubu olmaqla öz əsərində bir çox dəyişikliklər etmişdir. Adı çəkilən təzkirələrdə şairlərin təsnifatı təbəqə üzərində verilərkən Lətifi çox praktik bir əlavə edərək, şairləri əlifba sırası ilə düzmüşdür. Bu üsul kiçik istisnalarla türk təzkiraçiliyinin vazkeçilməz tərtib prinsipi olmuşdur. Bu fikir Aşıq Çələbiyə aid olsa da və özündən əvvəlki başqa müsəlman yazarları tərəfindən istifadə edilsə də, türk təzkiraçiliyi tarixndə həmin tərtibin əsas yaradıcısı Lətifi hesab olunur.

Lətifi təzkirəsi "müqəddimə", üç fəsil və "xatimə"dən ibarətdir. "Müqəddimə"də şükür və salavatlardan dərhal sonra, adətən bu tipli əsərlərin sonunda verilən şeirin yaranması və xüsusiyyətləri ilə bağlı bölmə gəlir. Bu bölümdə şeirin insanla yaşıd olduğunu anladan müəllif ilk şeirin Hz. Adəm tərəfindən söyləndiyini bildirir. Müqəddimə şairin həyatı və əsərləri haqqında bəzi məlumatları da əhatə etməkdədir. Ancaq bu hissənin orijinalı və ona bənzər əsərlərdən fərqli tərəfi şeirə və şairə olan münasibət və təhlillərdədir. Müəllifin əsərində verilən şairlərin seçimində istifadə etdiyi meyarlar və onları qiymətləndirmək üçün söylədiyi fikirlər bu gün belə, diqqət çəkəcək qədər qiymətlidir. Belə ki, Lətifi qələmə aldığı şairləri qiymətləndirərkən onların şeirlərini araşdırıb, nəzərdən keçirmiş, sonra nəticə çıxartmışdır.

Lətifi təzkirəsində müqəddimə özü bir poetik nümunədir. Bu hissə mənə görə qurama bir bölümü də özündə ehtiva edir. Guya Lətifinin ağlında belə bir əsər yazmaq fikri olmayıb. Bu fikri onun ağlına dostu Zaifi salıb. Hətta Lətifi bu işdən yaxasını qurtarmaq üçün nə qədər israr etmişsə də, dostu daha çox dirənərək onun qaçış yollarını kəsib. Başqa əsərlərdə də qarşımıza çıxan belə etiraf hissələrinə müəlliflərin quraşdırdığı ssenari kimi baxıram. Bu yolla şair bir tərəfdən islam mədəniyyətində dəb olan eqosunu göstərir, həm də öz düşündüklərini bir başqasının dili ilə ifadə edərək, əsərə müdaxilə etmək imkanı qazanır.

"Fəslii- əvvəl" adı altında verilən ilk bölümdə Osmanlı ölkəsində yetişən, ya da sonradan buraya gəlib yerləşən 13 şeyx- şairə yer verilmişdir. Bunların xronoloji sırası belədir: Mövlana, Sultan Vələd, Sədrəddin Konyəvi, Aşıq Paşa, Şeyx Əlvani Şirazi, Şeyx Vəfa, Şeyx Rövşəni, Şeyx Abdullahı- İlahi, Şeyx Şəmsəddini Buxari, Şeyx İbrahim Gülşəni, Yazıçı Məhməd Çələbi, Süleyman Çələbi və Şeyx Bəyazid.

İkinci bölümdə sultan və şeyxzadələrdən olan şairlər yer alır. Bunlar II Sultan Murad, Fatih Sultan Məhməd, II Bayazid, Şahzadə Cəm, Şahzadə Qorqud, Yavuz Sultan Səlim, Qanuni Sultan Süleyman olmaq üzrə cəmi yeddi şairdir. Təzkirənin əsl mahiyyətini meydana çıxaran üçüncü bölmədə II Murad dövründən başlayaraq əsərin yazıldığı ilə qədər Osmanlı ölkəsində yetişmiş və türkcə şeirləriylə tanınmış üç yüzə yaxın şair yer alır. Lətifi, təzkirəni yazdıqdan sonra uzun müddət ömür sürmüşdür. Bu müddət içində ortaya çıxan tənqidi yazıların işığında bu əsəri ən azı iki dəfə yenidən qələmə aldığı məlum olur. Bunu fərqli nüsxələrdə artıb-azalan şairlərin sayından da görmək olar. Məsələn, əlimizdə ən qədim yazı nüsxəsi olan Kayseri Rəşid Əfəndi Kitabxanasındakı 1550-ci il nüsxəsində 308 şair yer alırsa, mətbuat nüsxəsində bu rəqəm 320 şairə çatır. Rıdvan Canım tərəfindən əsər üzərində aparılan doktorluq işində isə bu rəqəm 334-dür. Şairlərin sayından başqa, Lətifi üslub baxımından da əsərinə yenidən müdaxilə etmiş, onu ikinci və ehtimala görə üçüncü dəfə qələmə alarkən təzkirəni daha gözəl, daha bədii bir dillə və üslubla qələmə almışdır. Bunu aşağıdakı nümunə üzərində açıqca görmək mümkündür:

Bezmi

Rumilinde küttab zümresinden ehl-i işret ve rind-tabiat bir kimesne idi. Aled- devam meygede küncin makam ve ekl ü şürbde kebab u şarabdan gayrısın kendüye haram itmişdi. Evahir-i ahd-i Selim Handa küşe-i meyhanede nakl itdi. Bu cam elinde ikən nakl itdi ve bezimgah-ı fenadan işrethane-i bekaya ayağı götürüp gitdi. Meger bezm-i elesdə cam u sürahi birle ahd ü peyman eylemiş ve peymane ile ahd ü peymanı şöyle imiş ki, peymane-i ömr tolmayınca, saki-i

devran elinden ömr tolusu daim olmayınca peymaneyi terk itmeye ve asitaneyi pir-i muganı koyup hankah-ı zühd ü tamatdan yana gitmeye. Şol dem ki, əceli acelesinden cam-ı meyden el yudı pir-i mugan işigünde yüz yire kodı. Rindler meyyiti yasına yetişmiyecek piri meygede üstine kadeh duasın okudı. Bir ayyasi eybaş idi ki, işreti müdam ve sohbeti aled devam idi. Bu haysiyetden eşarı rindane ve guftarı mestanedür. Ekser-i makali kendünün amali ve hasb-i halidür. Bu matla anundur.

Beyt

Tolmadın peymane ben peymaneyü terk etmezüm
Böyledür peymaneyile ahd ü peymanum benüm

Velehu

Kismet olıcak arif ü rinde mey ü şahid
Tesbih ile seccade virilmiş sana zahid

Velehu

Çün virdün eya şeyh bize tevbe şaraba
Bi-bade kebabun dadı yok tevbe kebaba

Velehu

Ölürüz içmeyince bir dem mey
Ve minel- mai küllü şey in hayy

Velehu

Tevbe etdim kim itmeyem tevbe
Tevbeye tevbe- i nasuh olsun

Bu şiir dahi anun netayic-i ebkar-ı efkarından ve sanayi-i bedayi-i güftarındandur:

Alsa eline saki-i huri-lika kadeh
Bahs eyler idi kase-i kevserle ha kadeh

Bir şerbet eylemiş yine lali müzabdan
Gam hastasine virmege saki- i lu bet- nüma kadeh

Nazire li müellifihi:

Bezm-i ezelde oldu eger aşina kadeh
Kitdi bizümle döne döne merhaba kadeh
Gülzara döndi yine bu gün meclis-i şarab
Süsen sürahi kırmızı gül güyiya kadeh
Sokranmasun mı meclis içinde sürahi kim
Yüz kızdurup lebüni öper daima kadeh
Bir buseni alınca nola kan derlese
Tokuz tolandı meclisi ey dil-rüba kadeh
Tutar mı idim el üstine anı Latifi ben
Ger virmeyeydi gönlüme süfi safa kadeh[51]

Bezmi

Rumidür. Ehl-i işret ve rind- tabiat kimesne idi. Bir ayyaş u evbaş idi ki işreti ve söhbeti aled devam idi. Bu haysiyetdən eşarı rindane ve güftarı mestanedür. Sultan Selim tabeserahu devrinün ahirlerinde nakl etti. Bu matla anundur.

Matla:

Çün virdun eya şeyh bize tevbe şaraba
Bi bade kebabun dadı yok tevbe kebaba[52]
Eyni maddə mətbuat nüsxəsində bu şəkildədir:

Bezmi

Rumidir. Ehl-i işrət ve rind- tabiat bir kimesne idi. Sultan Selim

[51] Rizvan Canım: "Tezkiretü'ş-şuarâ ve Tabsıratü'n-nuzemâ", Ankara, 2000. S.187-188.
[52] Qaysəri Rəşid Əfəndi Kitabxanası, No. 1160,51a.

tabeserahu devrinün ahirlerinde ahirete nakl itdi. Ve bezmgahı fenadan işret haney-i bekaya güşe-i meygedede cam elde iken ayağı getürüp rindane gitdi. Bir ayyaş u evbaş idi ki, işreti mudam, söhbeti aled- devam idi. Bu haysiyetden eşarı rindane ve güftarı mestanedür.

Bu matla anundur.

Matla:

Kismet olıcak arif ü rinde mey ü şahid
Tesbih ile seccade virilmiş sana zahid

Velehu

Çün virdün eya şeyh bize tevbe şaraba
Bi-bade kebabun dadı yok tevbe kebaba

Velehu

Tevbe itdüm kim itmeyem tevbe
Tevbeye tevbe- i nasuh olsun

Bir gazelinden:

Alsa eline saki-i huri-lika kadeh
Bahs eyler idi kase-i kevserle ha kadeh

Bir şerbet eylemiş yine lali müzabdan
Cam hastasına virmege saki şifa kadeh

Sahir degül mi ateşi ab ile cem ide
Alsa eline saki-i lubet-nüma kadeh

Nazire li müellifihi::

Bezmi ezelde oldu meger aşina kadeh
Kitdi bizümle döne-döne merhaba kadeh

Gülzara döndi yine bugün meclis-i şarab
Süsen sürahı kırmızı gül güyiya kadeh

Sokranmasun mı meclis içinde sürahi kim
Yüz kızdurup lebüni öper dayima kadeh

Bir buseni alınca nola kan derlese
Tokuz tolandı meclisi ey dil-rüba kadeh

Tutar mı idüm el üstüne anı Latifi ben
Ger vermeyeydi gönlüme sufi safa kadeh

Eyni şəxsə aid bu bioqrafiya gözdən keçirildiyində əlavə məlumat verilmədiyinin, ya da məlumat əldə etməklə təzkirəçinin üslubu dəyişməyərək daha çox bioqrafiyanı genişləndirməsinin şahidi oluruq. Şübhəsiz, müəllifin əsərə müdaxiləsi hər zaman bu sərhədlər içində qalmır. Lətifi bəzən həm məlumat, həm də üslub və şeir nümunələri baxımından, daha geniş məlumatlarla qarşımıza çıxmaqdadır. Məsələyə sadəcə əlavə şeir bucağından baxıldığında belə, əlavənin olması aydın şəkildə görünür. Məsələn, Əhdi maddəsində 10-dan, Əskəridə 29-dan, Fərididə 12-dən, Qəzalidə 23-dən, Lamidə 26-dan çox beyt qarşımıza çıxacaqdır. Canımın əsəri bu cəhətdən araşdırılarsa, mətbuat nüsxəsinə görə 237 şairdə bir beytlə 26 beyt arasında əlavələr edildiyi görünəcəkdir. Bu əlavələr həmişə böyük şairlər üçün edilməmişdir. Məlumdur ki, təzkirəçi hər mərhələdə tapdığı əlavə məlumatı əsərin sonrakı nəşrlərinə əlavə etmişdir. Şübhəsiz bu məlumatların bir hissəsi başda katiblər olmaqla, başqa şəxslərə də aid edilə bilər ki, bu da nəzərdən qaçırılmamalıdır.

Tərtib üslubundan başqa Lətifi şair bioqrafiyalarının sıralamaqda da özündən sonrakı təzkirəçilərə örnək olmuşdur. Səhi bəyin Nəvaiyə bənzər formada çox qısa şəkildə verdiyi bioqrafiya, Lətifidə bir qədər genişləndirilmişdir. Şairlərin əsl adları, məmləkətləri, həyatlarının

xarakterik cizgiləri və məşğuliyyətləri, əsərləri, bəzən şairlə bağlı bir lətifə, şeirərinin xüsusiyyətləti haqqında məlumat, sonda da şairin dəyərinə görə bir ya, bir neçə beyt bu məlumatların əsasını təşkil edir. Aşıq Çələbinin şairlərin psixoloji və sosial xüsusiyyətlərinə dair verdiyi xüsusi məlumatlarını və antoloji tipli təzkirələri nəzərə almasaq, Lətifinin inkişaf etdirdiyi təzkirə mövzusu, dörd yüz il eyni formada davam etmişdir. Ancaq təzkiräçilik cəhətdən onun əsl əhəmiyyətli tərəfi, şairləri ədəbi baxımdan dəyərləndirərkən ortaya qoyduğu ədalətli qərardır. Lətifi qələmə aldığı şairlərin ləyaqət və istedadlarını səhv etmədən qiymətləndirmiş, bir-birlərinə görə məziyyət və mövqelərini dəqiqliklə müqayisə etmişdir. O, bir çox təzkiräçilərin etdiyi kimi şairləri yalnız müsbət tərəflərinə görə təhlil etməmiş, bəyənmədiyi şairlər haqqında da tənqidi fikirlər söyləməkdən çəkinməmişdir.

Lətifi hər bir şair haqqında eyni ölçüdə açıqlama verməyi bacarırdı. Bəzən bir şair haqqında uzun-uzadı yazıları oxuduqdan sonra gəldiyimiz qənaəti Lətifidən bir cümlə ilə əldə edə bilirik. Bu sahədə Lətifi təzkiräçilik tarixində yeganə yazardır.

Lətifi xatimə bölümündə, kitabını (1546) 953- cü il tarixində bitirdiyini, dövründə şeir və nəsrə dəyər verilmədiyini, ona görə də kitabını arzu etdiyi kimi yaza bilmədiyini göstərir. O, bildirir ki, bu çətin işə yalnız xeyir-dua qazanmaq, həm də dostu Zaifinin xahişini yerə salmamaq üçün rəvac verib. Dövrün yazarlarına olan baxış və münasibətlərini göstərən bu bölmə, bu gün yazılmış dəyərləndirmə kimi aktualdır.

Lətifi təzkirəsi dil və üslub bucağından da bu növün irəlidə gedən nümunələrindən biridir. Məlum olduğu kimi belə əsərlərin dili oxunmaq və oxunduqdan sonra məlumat vermək üçün nəzərdə tutulan bir yazı dilidir. Bu yazı dili estetik cəhətdən daha çox, məlumat vermək cəhətinə görə səciyyələndirilir. Buna görə də təzkirələrin dili sadə olur və mümkün qədər qısa cümlələrdən istifadə olunur. Üslubun aydın və başa düşülən olmasına çox fikir verilir.

Bir çox müəllif, təzkirəsinin içində öz bioqrafiyasından söz açarkən əsərlərində bilərəkdən sadə üslub və dildən istifadə etdiyini

bildirir: “Vəssaf və Xacei Cahanın münşəatı və buna bənzər əsərlər qapalı və çətin anlaşılan ifadələr ilə yazıldığından cümlənin əvvəlini və sonrasını, həm də çətin hissələri açıqlamağa ehtiyac duyulur. Oxucu onları izah edərək oxumaqdan zövq almaz. Bu əksikliyi aradan götürmək üçün inşa üsulunda gözəl bir yenilik etdim ki, Osmanlı şairlərindən Nəcati atalar sözləri və deyimlərlə belə bir üslub tərzi ortaya qoyduğu kimi, mən də türkcədəki gözəl təbirlərlə lətifə və mərifət toplayıb, onlardan istifadə etdim”[53]

Lətifi yazı üslubu ilə mənanı gücləndirməyi xoşlamır. Ancaq onun axıcı və sadə üslubu o dövrlərdə dəbə düşmüş uzun və bəzəkli cümlələrdən istifadə edən nasirlər tərəfindən əməlli-başlı tənqid edilmişdir. Təzkirəçi Həsən Çələbi və “Gülşəni-şüəra”nın müəllifi Əhdi də bu tənqidçilər sırasındadır[54]. Lakin bunlarla razılaşmayan Aşıq Çələbi isə onun nəsrini çox bəyənir[55].

Lətifi təzkirəsinin tənqid edilən başqa bir tərəfi də onun yerliçilik hisslərini biruzə verərək bir çox şairin Kastamonulu kimi göstərməsidir.Təzkirəçilər doğum yeri məsələsinə çox önəm verdikləri üçün bir-birlərini həmişə bu məsələdə tənqid etmişlər. Aşıq Çələbi və Həsən Çələbininin bu məsələylə bağlı fikirlərini Əli düşmənçilik adlandırdıqdan sonra, “Künhül- əxbar” əsərinin müəllifi bir şeir ilə Lətifini müdafiə etmişdir:

Əlini köksünə qoy insaf et
Qəlbini çirki- həsəddən saf et
Qəzəlü qitə deyildir o kitab
Bəhrı yox, bəhridir ol türfa cavab.[56]

Əli Aşıq Çələbinin bioqrafiyasının sonuna əlavə etdiyi “Təzyil” adlı hissədə 1592-ci ilə qədər yazılan təzkirələri qiymətləndirir və bunların mükəmməl örnəyinin Lətifi təzkirəsi olduğunu bildirir: ”Bi- şübhe her varakı gül- berg-i tarra ve her mazmunı bir nahl-i mevzun-ı nev -bevva mesabesinde cümle tezkirelerin latifidir. Elhak

[53] Mustafa İsen: “Latîfî Tezkiresi” Ankara, 1999, s.281.
[54] Həsən Çələbi “Tezkire” (İbrahim Kutluk tərəfindən), Ankara 1981, c.2, s.8365; Əhdî “Gülşen-i Şuarâ”, Millət Ktb. A. Əmiri, Tarix 774, 169b.
[55] “Meşâirü´ş-şuarâ” (M. Owens neşri), London 1971, 107 a.
[56] “Künhül-ahbar”, İstanbul Ü. Ty. 5959 415b.

her asrın şuarasını izah u beyan eylemişdir. Hiçbir ferde nisbeti taassub eylemeyip herkesin efsafını güftarına göre ayan itmiştir[57]".

Doğrudan da məsləkdaşlarının Lətifi haqqında yazdıqları qısqanclıqdan irəli gəlmişdir. Bu mövzu ilə bağlı yazılmış iki yazıda həqiqətin belə olmadığı, Lətifi haqqındakı tənqidlərin əsassız olduğu açıqlanmışdır[58]. Lətifi şairlərin Kastamonu ilə əlaqələrini göstərərkən belə, məntiqli dəlil və sübutlardan istifadə etmişdir. Məsələn, Nəcatinin Kastamonu ilə əlaqəsini göstərərkən onun şeirlərində adı çəkilən şəhər ilə bağlı məhəlli sözlərdən istifadəsini əsas götürmüşdür.

Lətifi təzkirəsi "Təzkireyi- Lətifi" adıyla Əhməd Səadət tərəfindən nəşr edilmişdir.[59] Bu nəşrin hansı mətbəəyə aid olması aydın deyildir. Çap nüsxəsinin sonunda belə bir ifadə işlədilmişdir: "Təzkireyi-Lətifinin bu şəkildə işıq üzü görməsi üçün mətbəəmizə kitab təqdim edən Səid Bəy ilə Nuri Əfəndiyə təşəkkür edirik". Buna görə də nəşrin bir neçə nüsxədən ibarət olduğu məlum olur. Əsər, eyni zamanda bir doktorluq işi ilə əlaqədar yeni əlifba ilə nəşr edilmişdir.[60] Bundan başqa əsər H.T.Chabert tərəfindən qısaldılaraq almancaya çevrilmiş (Zürih, 1800) və Mustafa İsen tərəfindən sadələşdirilmişdir[61].

*(*Yazı "Letifi tezkiresi" Ankara 1999. kitabının giriş hissəsindən götürülüb.(s.7-20).*

[57] Həmin nəşr. 489a.

[58] Canım Rizvan: "Latifinin tezkiretüş-şuarası için söylenen "Kastamonu-Name" iddiaları hakkında birkaç söz", Türk Kültürü, 404, (Aralık 1996), s.739; Əbdül-qədiroğlu Əbdülkərim: "Edebiyat Tarihimizin Bazı Meseleleri ve Latifiye Yapılan İthamlar Konusunda Düşünceler", "Kültürümüzden Esintiler", Ankara, 1997, s.1.

[59] İstanbul, 1314, Kitabxana-i İqdam, 391 s.

[60] Rizvan Canım: "Tezkiretüş-şuarâ" və "Tabsıratün-nuzemâ", Ankara 2000.

[61] "Latifi Tezkiresi" Ankara. 1999.

ANADOLU TÜRK TƏZKİRƏÇİLİYİNDƏ FORMA DƏYİŞİKLİYİ*

Təzkirə növünün böyük bir zaman ərzində müxtəlif formalara düşməsi məlumdur. Bu yazının məqsədi Anadolu türk təzkirəsini forma baxımdan təhlil edərək, ədəbiyyat tariximizdə bu yolu izləməkdir.

Anadolu ərazisində yazılan ilk təzkirə nümunəsi Səhi Bəyin "Həşt-behişt" əsəridir. Əsərini 1538-ci ildə ərsəyə gətirən Səhi Bəy, təzkirəsini Herat məktəbinə xas, yəni Caminin (v. 1492) "Baharıstan"(1487), Dövlətşah təzkirəsi"(1495) və Əlişir Nəvainin (1501) "Məcalisün – nəfais" (1491-92) təzkirələrini əsas götürərək yazdığını bildirir. Bu təzkirələrin forma olaraq ən mühüm xüsusiyyətləri tərtib baxımından aşağılı-yuxarılı bir xronoloji sıra yaradaraq şairləri təbəqələrə ayırmadan, əsərə bir müqəddimə ilə başlama və həyat hekayələrini qısaldaraq az saylı nümunələrin verilməsindən ibarətdir.

Bu keyfiyyətlərinə görə Səhi təzkirəsini gözdən keçirdikdə bir çox şeyin eynilə Nəvaidən götürüldüyünün şahidi oluruq. Səhi ancaq Nəvainin rövzələrindəki təqdimatı dəyişməklə öz əsərində əks etdirmişdir. Məsələn, Nəvaidə Sultan Hüseyn Baykaranın yer aldığı səkkizinci təbəqə, Səhidə önə gətirilmiş və burada Qanuni Sultan Süleyman verilmişdir. Nəvaidə də yeddinci rövzədə yer alan sultan və şahzadələr Səhidə ikinci təbəqədə, Nəvainin beşinci bölmədə verdiyi mirzələri Səhi üçüncü təbəqədə yerləşdirir. Alimlər Səhidə də dördüncü təbəqədə yer alır. Nəvainin altıncı təbəqədə yazdığı Xorasanın xaricindəki şairlərin müqabilində Səhi həyatda görə bilmədiyi şairləri beşinci təbəqədə vermişdir. "Məcalisün– nəfais"də birinci, ikinci və üçüncü rövzədə yer tutan həyatdan çoxdan getmiş şairlərlə müasir və hələ çox gənc olan şairlər "Həşt-behişt"də altı, yeddi və səkkizinci təbəqələrə yerləşdirilmişdir. Səhi sadəcə əvvəlki nəsli də təzkirəsinə daxil edərək bununla əsərini genişləndirmişdir.

Təzkirəçilik tariximizdə ən diqqət çəkən nümunələrdən biri olan Lətifi Təzkirəsi (1546) bu sahədə yazılmış ikinci nümunədir və bu əsər quruluş baxımından fərqli şəkildə qarşımıza çıxır. Təzkirə:

a) şeyxlər
b) padşahlar
c) şairlər

olmaq üzrə üç bölümdən ibarətdir. Bu quruluşu ilə əsər Əcəm təzkirələrinə də bənzəyir. Amma Lətifi (v. 1582) şairlərə ayırdığı bölümdə əlifba sırasından istifadə etmiş və o zamana qədər bizdə təsadüf olunmamış bir üsuldan istifadə edərək gələcək təzkiräçilərə bir nümunə olmuşdur. Artıq bu üsuldan bütün təzkirəçilər istifadə etməyə başlamışlar. Məlum olduğu kimi bu təklif Aşıq Çələbi (v.1571) tərəfindən gəlmiş, lakin onu genişləndirən Lətifi olmuşdur. Əslində əlifba sırasından istifadə üsulu ərəb təzkiräçiliyində tətbiq olunmuş bir üsuldur. Ancaq bizdə bu işi ilk dəfə təcrübədən keçirən Lətifi olmuşdur. Anadolu təzkirəçiliyində yazılan üçüncü əsər Anadoludan kənarda yaşayan Bağdadlı Əhdi (v.1593) tərəfindən qələmə alınmış olan "Gülşəni-şüəra"dır (1563). Əsərini yazdıqdan sonra xeyli müddət həyatda qalmış Əhdi öz təzkirəsinə əlavələr etmiş, məzmununa görə üç dəfə yenidən ona nəzər salaraq dəyişikliklər etmişdir. Əsər:

a)dövrün padşahı Qanuni Sultan Süleyman və şahzadələr
b) alimlər
c) şeyxlər
d) şairlər

olmaq üzrə dörd bölümdən təşkil olunmuşdur. Təzkirəçilik tariximizin olduqca əhəmiyyətli başqa bir əsəri də Aşıq Çələbinin "Məcalisün-şüəra"sıdır (1566). Yuxarıda qeyd edildiyi kimi, Çələbi öz təzkirəsini əlifba sırası ilə düzənləməyi düşünüb, bu fikrini Lətifiyə bildirmişdir. Lətifi bu ideyanı daha tez həyata keçirərək əsərini ortaya qoymuşdur. Bundan sonra Çələbi təzkirəsinin Lətifi ilə eyni olmaması üçün fərqli bir təsnifatdan istifadə etmişdir.

"Məcalisün-şüəra" nə ərəb, nə də əcəm təzkirələrində görünmüş olan yeni bir üsulla, əbcəd sırasına görə tərtib olunmuşdur.

XVI yüzilliyin başqa bir təzkirəsi Xınalızadə Həsən Çələbi tərəfindən yazılmışdır (1585).

Təzkirə:

a) Sultan şairlər

b) Şeyxzadə şairlər
c) Əsl şairlər

olmaq üzrə üç bölümdən ibarətdir. Birinci və ikinci bölüm xronoloji, əsl şairlər hissəsi isə əlifba sırası ilə düzülmüşdür.

Həsən Çələbini təqlid edən Bəyani (v. 1597) əsərini:

a) şair padşahlar
b) əsl şairlər

şəklində iki bölüm olaraq tərtib etmiş və birinci bölümü xronoloji, ikinci bölümü isə əlifba sırasıyla düzmüşdür.

Riyazi (v. 1644) isə əsərini (1609) rövzə adlı iki bölmə şəklində tərtib etmişdir və eynən Bəyaninin üslubunu davam etdirmişdir:

a) padşah şairlər
b) digər şairlər

XVII yüzillikdə yazılmış olan Kafzadə Faizinin (v.1621) "Zübdətül-əşar"ı (1620), ona əlavə olaraq qələmə alınan Asimin (v.1675) "Zeyl-i Zübdətül əşar"ı və Bəlig İsmayılın (v.1729) "Nuxbətül-asar"ı (1726) məzmun baxımından fərqli bir xüsusiyyətə malik olsa da, düzülüşcə əlifba sırasına görə verilib.

Təzkirəçilik tariximizin ilk mənzum nümunəsi olan Güfti təzkirəsi əlifba sırası ilə düzülüşdən istifadə edib.

Rıza (v. 1671) təzkirəsini (1640) iki bölmə şəklində tərtib etmiş, birinci bölmədə xronoloji olaraq padşahlara, ikinci bölmədə əlifba sırasıyla şairlərə yer vermişdir.

Yümninin (v. 1662) təzkirəsi də əlifba sırası ilə düzülmüşdür.

XVIII yüzilliyin təzkirəçiləri Mucib və Salim (v. 1743) də əsərlərini iki hissədən ibarət tərtib etmiş, birinci bölmədə dövrün padşahlarına (Mucibdə IV Murad, Salimdə II Mustafa və III Əhməd), ikinci bölümdə əlifba sırasıyla şairlərə yer verilmişdir. Salim ayrıca bir yenilik də gətirmiş və eyni hərfləri olan şairləri ölüm sırasına görə sıralamışdır.

Bu əsrin təzkirəçilərindən Mustafa Səfayı (v.1725) isə əsərinin əvvəlində yer verdiyi 18 təkrizlə quruluşa bir yenilik gətirmişdir. O da şairləri əlifba sırası ilə düzmüşdür.

Bunlardan başqa Ramizin (v.1785) "Adabi-zürəfa" sı, (1783) Səfvətin "Nuhbətül-asar"ı (1782) Şövkətın (v.1826) əsəri, Əsəd

Əfəndinin (v. 1847) ”Bağçeyi- səfa əndüz”(1835) təzkirəsi, Arif Hikmətin (v.1834-35) təzkirəsi və Fatinin (v. 1866) “Xatimətül-əşar”ı əlifba sırası ilə düzülmüş, Silahdar təzkirəsi (1789) və Tofiqin “Məcməüt-təracim”i (1826) isə orijinal bir tərtib formasına malik olmadan, əvvəlkilərə uyğunlaşmışdır. Bunlardan Fatin sadəcə nümunələri bioqrafiyaların əvvəlinə çəkməklə mənasız bir yenilik gətirmişdir.

Müqəddimələri baxımından xüsusilə ilk təzkirəçilərimiz Herat məktəbi təzkirəçilərini yaxından izləmişlər. Bu müqəddimələr bütün islami əsərlərdə adət olunduğu şəkildə həmd və salavat ilə başlayıb əsərin yazılma səbəbini söyləyərək sona çatırlar. Təzkirələrdə bunlardan əlavə mövzuyla bağlı məlumatlardan da bəhs edilir. Sözün və şeirin məziyyətlərindən, din başçılarının və Quranın şeirə baxışından söz açılır. Bu arada təzkirə yazan şair və şeir haqqında öz baxışlarına da yer verir. Aşıq Çələbidə və Riyazidə olduğu kimi bəzən təzkirələrə daxil olunacaq şairlərin dərəcələri də bu bölmələrdə açıqlanmışdır.

Uzun müqəddimələr yazan Səhi, Lətifi, Aşıq Çələbi, Həsən Çələbi, Riyazi və Salim kimi təzkirəçilər müqəddimədə fürsət tapıb zəmanənin puçluğundan, şeirə və şairə dəyər verilməməsindən gileylənmişlər. Sonrakı təzkirələrin müqəddimələrində fərqli bir dəyişiklik olmadığı üçün, çoxunda qısa və mənasız mətnlər verilmişdir.

Həyat hekayələrinin tərtib forması Səhidə təbəqə əsasında eynilə Nəvaidə olduğu kimi verilmişdir. Şairlərin doğum yeri, adı, sənəti, ədəbi mövqeyi ilə bağlı bir neçə ötəri söz, əsərləri, bəzən şairlə bağlı bir hadisə, son olaraq da bir neçə beyt və ya qitə verilir. Aşıq Çələbidən başqa bütün təzkirəçilər bu tərtib qaydasına riayət etmişlər.

Əslində türk təzkirəçiliyi quruluş baxımından iki əsas orijinal nümunəyə malikdir. Bunlardan birincisi əlifba sırası ilə düzülən, tənqidi baxışlarının və hökmlərinin ədalətli olmasına görə seçilən Lətifi təzkirəsi, ikincisi isə şairlərin psixoloji və sosial cəhətlərini dolğun şəkildə əks etdirən Aışq Çələbi təzkirəsidir. Bu iki nümunədən sonrakı təzkirələrə əsas nümunə olan isə Lətifinin təzkirəsidir.

Həyat hekayələrinin tərtib şəkli baxımından klassik xəttin başında gələn daha iki fərqli əsər də təzkirəçilik tariximizdə yer tutur.

Bunlardan birincisi Güfti tərəfindən yazılan mənzum təzkirədir. Təzkirəçilik tariximizdə ikinci bir əsərinə rast gəlmədiyimiz Güfti bu kitabında müasir və çoxu elm sahəsinə aid olan şairləri mükəmməl söz və deyimlərlə təsvir etmiş, hərdən bir şeirlərini və şairlik məziyyətlərini də təhlil edərək onlara qiymət vermişdir. İkinci qrup isə Faizi tərəfindən başlanılıb, Yümni, Məhməd Asim, İsmayıl Bəlig, Silahdarzadə Məhməd Əmin və Şöfkət tərəfindən zeyllər(əlavələr) yazılaraq davam etdirilən təzkirələrdir. Bu əsərlərin başlıca xüsusiyyətləri şairlər haqqında ad, məslək, ölüm tarixi kimi çox qısa məlumatlar və əsərlərindən çoxlu nümunələrin verilməsidir. Həmin yeniliyi ilə belə əsərləri təzkirədən çox, antologiyaya aid etmək daha məqsədəuyğun olardı.

Tərtib şəkli baxımından mənasız bir yenilik, klassik təzkirələrin sonuncusu olan Fatin tərəfindən həyata keçirilmişdir. Yuxarıda qeyd olunduğu kimi, təzkirələrdə əvvəlcə şairin doğum yeri, adı, təhsili və məşğuliyyətləri göstərilir, şeiri və şairliyi dəyələndirilərək şeirlərindən nümunə verilir. Fatin bu üsulu tərsinə çevirərək öncə şairlərin şeirlərindən nümunələr, sonra isə həyatları haqqında məlumatlar vermişdir.

Yekun olaraq söyləmək olar ki, Anadolu türk təzkirəçiliyində təbəqə, əlifba və əbcəd üsulu ilə üç eyni tərtib üsulundan istifadə edilmişdir. Bunlardan birincisi Əcəm üsulu, ikincisi ərəb təzkirəçiliyindən bizə keçmiş üsul, əbcəd üsulu isə yalnız bizim ədəbiyyatımızda və sadəcə Aşıq Çələbi tərəfindən istifadə edilmiş üsuldur.

Müqəddimələr isə xüsusilə ilk dövr təzkirələrində, yenə Herat məktəbi təzkirələrindən gələn ənənələr çərçivəsində, islami əsərlərdə adət edilmiş formanı izləmiş, çox dəyişiklik olmadan get-gedə zəifləyərək son dövrə qədər davam etmişdir. Həyat hekayələrinin tərtib şəkli isə eyni şəkildə dörd yüz il davam etmişdir.

Təzkirələr elmi və ədəbi əsərlərin zirvədə olduqları vaxtlarda daha gözəl nümunələr meydana çıxarmış, yenə bunlara paralel olaraq davam etmiş, XVIII əsrdə xüsusi olaraq Səfayı və Salimlə yeni dirçəlişdən sonra getdikcə zəifləmiş, tənzimatdan sonra, ədəbiyyat

tarixi ehtiyacına cavab verəcək başqa yeni əsərlər görünən zaman tamamilə sona çatmışdır.

Təzkirə növünün Anadolu türk ədəbiyyatına divan ədəbiyyatının bir çox forması kimi Əcəmdən gəlməsinə baxmayaraq, bunu bir təqlid saymaq düzgün olmaz. Bəyliklər və Osmanlılar dövründə türk şeirinin inkişaf etməsinin nəticəsi olaraq getdikcə çoxalan şeir nümunələrinin və sayı çoxalan şairlərin bir yerə toplanması zərurətindən sonra, təzkirə növünün meydana gəlməsi təsadüfi deyil, tamamilə zəruri olan bir hadisə idi. Çünki quruluşunu müəyyənləşdirmiş və zirvəyə doğru irəliləyən ədəbiyyat təmsilçilərinin həyatından bəhs edən, yazılarından nümunələr verən bir növün meydana çıxmaması böyük bir çatışmamazlıq olardı.

Səhidən başlanaraq bir-birinin ardınca dəyərli təzkirələrin ortaya qoyulması və dörd yüz il davam etməsi bunun sübutudur.

*(*Yazı "Milli kültür" Ankara 1995. s.49,s.60-62-də dərc olunub).*

İstifadə olunan ədəbiyyat:

A.Sım Levend "Türk Edebiyatı Tarihi". Ankara, 1973.

Təhsin Banguoğlu "Türk Şuara Tezkireleri" Türkiyə İnstitutu tez 29.

İ.S.Robinson "The tezkere Cenre in İslam" journal of Near Eastern Studies Vol 22 1964.

Haluq İpəkten "Türk Edebiyyatının Kaynaklarından Türkce Şuara Tezkireleri". Ərzurum, 1986.

TÜRK TƏZKİRƏÇİLİYİNDƏ ANTOLOGİYA TİPLİ NÜMUNƏLƏR*

XVI yüzillikdən XX yüzilliyə qədər fasiləsiz şəkildə davam edərək ədəbiyyatımızda xüsusi yer tutan təzkirə növü, böyük bir zaman ərzində fərqli formalarla özünü göstərmişdir. Səhidən sonra bir-birinin ardınca yazılan XVI əsr təzkirələri, artıq təqlid deyil, müstəqil nümunələrdir. Səhi və Əhdi istisna olmaqla sonrakı təzkiraçilər şairlərin özlərinə məxsus müstəqil bir sinif təşkil etdiklərini, onların məşğul olduqları sənət növlərinin və sosial vəziyyətlərinin araşdırılmasını toplu olaraq qələmə almaq zərurətini önə çəkdilər. XVI yüzilliyin təzkiraçilərinin əsas xüsusiyyətindən biri də qələmə aldıqları şairlərin böyük əksəriyyətinin öz dövrlərindən əvvəl yazıb yaratmış olmalarıdır. Buna görə də bu təzkirələr əldə olunan bütün məlumatları özündə ehtiva edir ki, bu da onların uzun olmasına səbəb olur. XVII əsr təzkiraşiləri isə daha çox öz müasirlərinə müraciət etmişlər. Əks olunacaq məlumatların hamıya məlum olmasına görə təzkiraçilər təkrarçılığa yol verməmək üçün qısa məlumatlarla kifayətlənmişlər. Bunun nəticəsi olaraq verilən şeir nümunələrinin sayı isə xeyli artırılmışdır.

Riyazinin (v. 1644) "Riyazüş-şüəra"sını (1607) bu iki əsr arasında bir keçid əsəri saymaq olar. XVIII yüzillik isə özündən əvvəlki əsrə bir tənqidi baxış və XVI yüzilin mükəmməl təzkirə nümunələrinə xülasə kimi dəyərləndirilə bilər. Səfayi əsərinin başlığında əks etdirdiyi kimi təzkirəyə yazılan rəylərin çoxunda da buna toxunulur. Formada yaranmış olan bu dəyişikliklər məzmunda da özünü göstərmiş, XVII yüzildən etibarən təzkiraçilik tariximizdə antoloji təzkirələr adlanan fərqli quruluşlu əsərlər meydana gəlmişdir[62].

Bunları sadəcə antologiya adlandırmaq daha doğru olardı. Ancaq nəzərə almaq lazımdır ki, bu təzkirələrdə çox qısa şəkildə də olsa bioqrafiyalara yer verilmişdir.

Bu formalı təzkirələrin ədəbiyyatımızda ilk nümunəsi Faizi (v.

[62] Safâyî "Tezkire-i-Şuarâ", Süleymaniyə Ktb. Əsəd Əf. 2549, 16a. Nəhifi ilə Subhizadə Feyzullah Əfəndinin yazılarında da eyni mövzulara toxunulur. Bkz. Həmin n. 4a 10a 13a.

1622) tərəfindən qələmə alnan "Zübdətül-əşar"dır (1621). Əlifba sırası ilə 514 şairə yer ayrılan bu təzkirədə şairlərin bir hissəsinin sadəcə olaraq adı qeyd edilmiş, bir qismində isə buna əlavə olaraq yaşadığı yeri, sənəti və divan yazanların divanı haqqında məlumat verilmişdir. Bununla birlikdə şairilərin ölüm tarixləri dəqiqliklə verilmişdir. Bioqrafiyaların qısa olması ilə əlaqədar olaraq, verilən şeir nümunələri xeyli çoxdur[63]. Seçilən nümunələr təxminən bir beytlə 300 beyt arasındadır.[64]

"Zübdətül-əşar" ədəbiyyatımızda antoloji tipli təzkirələrin ilki və başlanğıcıdır. Sonralar marağa səbəb olan bu üsul Yümni (v.1622), Seyrəkzadə Asim (v. 1675), Bəliğ İsmail (v. 1730) və Silahdarzadə Məhməd Emin tərəfindən davam etdirilmişdir.

Yümni "Təzkirətüş- şüəra" və yaxud Yümni təzkirəsi(1622) adlanan əsərini Faizinin yazdığı "Zübdətül-əşar"(1621) təzkirəsinə zeyl (əlavə) olaraq yazmışdır. Əsər müəllifin ölümü üzündən tamamlanmamış və yalnız 29 şairdən ibarət olmuşdur. Yümni də şairlər haqqında qısa məlumatlar vermiş və şeirlərindən nümunələr gətirmişdir. Ancaq bu nümunələr Faizidə olduğu qədər uzun deyil. Eyni zamanda bioqrafiya qismində verilən məlumatlar eyni tipli təzkirələrə nisbətən daha uzundur. Yümni təzkirələrdə bir beytlə on iki beyt arasında şeir nümunələri vermişdir[65].

---

[63] Aşağıdakı mətn nümunələri, "Zübdetül-eşar"ın Süleymaniyyə ktb. Şehit Ali Paşa 1877 nömrəli nüsxəsindən götürülmüşdür:
Nevizadə Atayı Əfəndi: Bu eş′ar-ı pâkize dîvân-ı belâgat-ünvanundan kesb olunmışdur (352 beyt, 6a)
Qiyasi- Bu ebyât anundur (2 beyit, 80b)
Nami-i İstanbuli- Tokuz yüz yetmiş sekizde fevt olmışdur.
Tarix Cinani- Didilern kendi gitdi dilde kaldı nâmı Nâmî′nün. Bu ebyat anundur (6 beyt, 94b)

[64] Haluk İpekten: "Türk Edebiyatının Kaynaklarından Türkçe Şuara Tezkireleri", Erzurum 1986, s.87; Agah Sırrı Levent: "Türk Edebiyatı Tarihi" Ankara 1973, s.295.

[65] Yümni Tezkiresi için seçilen örnekler Millət Ktb. Əli Əmiri: "Tarix" 780 nömrəli nüsxədəndir.
Şifayi- Edirne Muradiyesinde hekimbaşı ve gülşeni tarikatında olan Abdülbâki Efəndidür. (5 beytlik qəzəl, 5ab)
Səbuhi- Yenikapuda Mevlevihane şeyhidir. (7 beytlik qəzəl və 5 beyt, 6b7b)
Məzaki- Adı Süleymandır. Sâbıkan silahdar katibi olmışdur. İstanbuldan Mışrın Paşası olan Eyyub Paşanın akrabasındandur. Saraydan gəlmədir. (4 beytlik qəzəl, 10b 11a).

Faizinin "Zübdetül-əşar"ına Yümnidən sonra ikinci zeyli (əlavəni) Seyrəkzadə Məhməd Asim etmiş və əsərinə "Zeyli-Zübdətül-əşar" (1675) adını vermişdir. Asim də əsərinə Yümni kimi 1621-ci ildən başlamış və 1675-ci ilə kimi yaşamış olan 123 şairə yer vermişdir.

Antoloji tipli təzkirələr içərisində bioqrafiyaya ən az yer ayıran və ən çox şeir nümunəsi verən əsər Asim təzkirəsidir[66]. Bu əsərdə bir çox şairin sadəcə adı xatırlanmış, başqa heç bir məlumat verilməmişdir. Asim təzkirələrində bir beytlə 53 beyt arasında nümunələr vermişdir[67].

Antoloji təzkirələrinin ən geniş və mükəmməl nümunəsi Faizinin əsərinə üçüncü olaraq zeyl yazmış Bəliğ İsmail tərəfindən yazılmışdır. "Nüxbətül-asar li Zeyli- Zübdətül-əşar" (1727) adlı bu əsər Faizinin əsərinə əlavə yazan başqa müəliflər kimi onun təzkirə yazdığı tarixdən, yəni 1621-ci ildən başlayaraq 1727-ci ilə qədər davam edir. Bu cəhətdən Yümni və Asim təzkirələrində yer alan şairlərin çoxu Bəliğdə də vardır. Təzkirədə 410 şairə yer verilmişdir. Verilən məlumatlar digərlərində olduğu kimi qısadır. Bəliğ bioqrafiyasına şairlərin çoxunun ölüm tarixini də qeyd etmişdir.Təzkiraçi "qəsidə lələrindən","qəzəllərindən"," rübailərindən" kimi başlıqlar altında bir beytdən 157 beytə qədər nümunələr vermişdir.[68] Ən çox nümunə

---

[66] İpəkten: həmin əsər, s.95.

[67] Buradakı nümunələr əsərin, Üniv. Ktb. Ty. 2401 nömrəli nüsxəsindən alınmışdır.
Bədri Əfəndi- Bu eşar divanından intihab olundı. (3 beyt, s.6)
Məzaki Əfəndi- Bir şâir-i mucize-gûdur. Bin seksen yedide vefât eyledi.
Tarixi Rüşdi- Bezmgâh ola Mezâkî'ye cinân.
Diger- Çekildi bezm-i dünyadan Mezâkî.
Bu eş'ar divânından intihâb olundı. (8 beyt, 56-57)

[68] Nümunələr "Nühbetül-asar li Zeyli Zübdetü'l-eş'âr", (n. A.Abdülkadiroğlu, Ankara 1985) adlı çalışmadan alınmışdır.
Ərib-Arabzâde dimekle 'Ârif Mustafa Efendidür. Mecmu'a-i güftârından nümûnedür. (6 örnek beyit, s.14)
Məzaki- Süleyman Efendi. Bosnasarayından zuhûr idüp harem-i hâs-ı sultânîde perverişyâb, sipâhîlik ile taşra çıkup kâmkâr oldukda bin seksen yedi de telh-i mezâk-ı hayât oldı. Fevtine Rüşdî'nün tarihidür:
Bezmgâh ola Mezâkîye cinân
Târih-i diger Sâbit Efendinün
Ecel câmı mülün içdi Mezâkî
Müretteb dîvanından müntehabdur. (45 beyt, s.486)

verdiyi şair Nailidir. Bəliğ bu nümunələri seçərkən Faizi daxil olmaqla, eyni tərzdə əsər yazan təzkirəçilər içində ən düzgün seçim edən və şairlərə dəyərlərinə uyğun yer verən təzkirəçilərdən biridir[69].

Antoloji tipli təzkirələrin ən zəif nümunələrindən sayılan "Silahdarzadə təzkirəsi"(1790) Silahdarzadə Məhməd Emin tərəfindən qələmə alınmışdır. Əsər 1751-ci ildən yazılmağa başlanmış və 1726-cı ilə sona çatmış olan "Nüxbətül-asar li Zeyli- Zübdətül-əşar"ın zeyli hesab olunur[70].

Silahdarzadə də nümunə götürdüyü əsərlər kimi, şairlər haqqında çox qısa məlumatlar vermiş, hətta bəzilərinin sadəcə adını qeyd etmiş və bununla əlaqədar olaraq şairlərin ölüm tarixlərini göstərmişdir. Şeirlərdən verilən nümunələr də bu növ təzkirələrdə olduğu kimi xeyli çoxdur[71].

Silahdarzadədən sonra Şöfkət həmin ənənəni davam etdirmiş (1826-27), bundan sonra antoloji formada olan bu ənənəni davam etdirən olmamış və tarixə qarışaraq öz formasını itirmişdir.

Bu növ təzkirə nümunələrində bioqrafiyadan daha çox yaradıcılıq ön plana çıxarılır və şeir nümunələrinə geniş meydan verilirdi. Amma şeir nümunələrinin çoxalmasından sonra, şeiri dəyərləndirmək, onu təhlil etmək gündəmdən düşmüşdü. Klassik təzkirəçilər şairin həyat hekayəsini verdikdən sonra, adətən əsərlərindən də söz açırlar. Bu zaman şeirin müsbət və mənfi cəhətlərini təhlil edirlər. Yuxarıda adlrını çəkdiyimiz təzkirələrinsə heç birində bu barədə məlumat verilmir. Klassik təzkirələrdə şeirin təhlili şeir nümunəsi ilə birlikdə verilir. Məsələn, təzkiraçi nümunə verdiyi şeirdən əvvəl "hak budur ki, epeyce pesendide gazeldür esna-i tetebbuda nazıri yokdur,

---

Nisari-Memâlik-i Acemden Yakub Çelebidür. Bin altmış yedi senesinde fevt oldı. (1 beyt, s.559)/

[69] İpekten: həmin əsər, s.115; Levent: həmin əsər, s. 317.

[70] Bu təzkirədən alınan nümunələr,Üniv. Ktb. Ty,2557 nömrəli nüsxədəndır.
Əsəd Bəy Əfəndi- Kethüdâ-yı sadr-ı âlî İbrahim Efendinin mahdûm-ı mükerremleridür. Müderrisin-i kirâmdan. (7 nümunə beyt, 8b)
Arif Əfəndi- Sâbıkan dârü's-saâde yazıcılığından hâcegânlığa çırağ olmışdur. (13 nümunə beyt , 60b)

[71] İpekten: həmin əsər, s.122.Ai'a

bir şiir-i latif-i bi bedeldür”[72], “elhak hoş-ayende sözleri vardur[73] ve bu ebyat dahi anundur, hak budur ki hub eda itmişdür”[74] kimi nümunələr verilir. Bundan fərqli olaraq antoloji təzkirələrdə belə təhlillər aparılmır. Bunlar müasir antologiyalarda olduğu kimi şairi qısa şəkildə tanıtdıqdan sonra oxucunu şeirlə baş-başa buraxmaq məqsədinə xidmət edən örnəklərdir.

*(*Yazı “Milli egitim” Ankara 1989. s.86,s.40-43-də dərc olunub).*

[72] Əlî “Künhül-ahbar”, Üniv. Ktb.Ty. 5959, 393b.
[73] Həmin əsər, 391b.
[74] Həmin əsər, 172b.

HƏSƏN ÇƏLƏBİ TƏZKİRƏSİ*

Təzkirəçilik tariximizdə ən çox şairi özündə ehtiva edən təzkirə Həsən Çələbi Xınalızadəyə aiddir və bu əsər iki cilddə nəşr edilmişdir. Bu cildləri nəşrə hazırlayan İbrahim Kutlukun vəfatı ilə əlaqədar, bu işi İbrahim Olgun həyata keçirmişdr. Lakin birinci cild hazırlandıqdan sonra həmin şəxs də vəfat etmiş və ikinci cild İsmət Barmaksızoğlu tərəfindən oxuculara təqdim edilmişdir. Kitabda Həsən Çələbinin həyatı, təzkirənin kimə həsr edildiyi, yazılma səbəbi, bölmələr, təzkirədə yer alan şairlər, "təzkirənin dəyəri, əhəmiyyəti və üslubu", "təzkirənin əks etdirdiyi ictimai mühit və yazışmaların təqdimi" kimi başlıqlar altında təqdimatlar verilmiş, sonra 638 şairdən ibarət əsas mətnə keçilmişdir.

Birinci hissədə İ.Kutluk, Həsən Çələbinin ailəsi və həyatı haqqında, eləcə də onun əsərləri barəsində məlumat vermişdir. Bu hissədə Xınalızadənin ədəbi fəaliyyəti və ailəsi haqqında geniş məlumat verilir və Xınalızadə təzkirəsinin kimə həsr olunduğu məsələsi müzakirə olunur. Məlum olduğu kimi əsərin III Murada, Şeyxülislam Həmid Mahmud Əfəndiyə və ya Xoca Sədəddin Əfəndiyə həsr olunduğu kimi məlumatlar söylənilirdi. Bu bölmədə həmin məlumatlar araşdırılaraq əsərin o dövrün böyük alimi Xoca Sədəddin Əfəndiyə həsr olunduğu bildirilir.

Təzkirənin bölmələri və əsərdə yer alan şairlərin adları təhlil hissəsində verilmişdir. Bu hissədə əsərin "padşahlar", "şahzadələr" və "əlifba sırası ilə düzülmüş şairlər" başlığı altında üç əsas bölmədən ibarət olduğu bildirilir.

Kutluk təzkirənin əhəmiyyətini və üslubunu müxtəlif bucaqlardan yanaşaraq təhlil edir. Həsən Çələbinin bir mədəniyyət mərkəzi olan Bursada doğulmasının və tanınmış bir alim ailəsinin övladı olaraq dövrünün şairlərini yaxından tanımaq imkanına malik olmasının bir təzkirəçi üçün əhəmiyyətli cəhət olduğunu bildirir. Araşdırmasının son bölməsində də müəllif, Xınalızadə təzkirəsi kimi əlyazması geniş olan, irihəcmli əsəri hazırlayarkən hansı nüsxələrdən istifadə etdiyini, bunları necə seçdiyini qısa olaraq anladır və bütün nüsxələrin təsvirlərini verir. Birinci cild Yalvaçlı Suni ilə bitir və Zəifi ilə başlayan ikinci cilddə əsər tamamlanır.

Çələbi Fateh həmişə yüksək vəzifələrdə çalışan, öz dövrünün nüfuzlu, ziyalı ailələrindən birində doğulmuşdur. (Bursa (1546/47). Atası "Əxlaqi-ələyı" adlı məşhur əsərin müəllifi Əli (və ya Ələiddin) Çələbidir. Həsən Çələbinin ailəsi babası Abdulqədir Həmidi Çələbinin saqqalına xına qoymasına görə Xınalızadə ləqəbi ilə tanınmışdır. O, ailəsinin ənənəsinə uyğun olaraq müdərrislərdən elm öyrənərək Əbussuud Əfəndinin yetirməsi olmuşdur. Müdərrislik və qulluq etmiş, Rəşiddə vəfat etmişdir (1604).

Həsən Çələbi öz dövrünün alimləri arasında seçilən bir şəxs olmuşdur. Şeirlə maraqlanmasına baxmayaraq, ədəbi mühitdə şairlər haqqında yazdığı təzkirələrlə şöhrət tapmışdır.

Təzkirə rəsmi dairələr və ayrı-ayrı şəxslər arasında istifadə olunan rəsmi sənədlər, katiblərə verilən təyinat sənədi mənalarını daşımaqla yanaşı, əsl mahiyyətini islam dünyasında müəyyən bir sahədə ad çıxarmış, məşhur insanların, xüsusilə də şairlərin tərcümeyi-halından söz açıb şeirlərindən nümunələr verən əsərlərdə göstərmişdir. Bu baxımdan da həmin əsərlər ədəbi şəxsiyyətlər, əsərlər və bunların ətraf mühitdə təsiri baxımından əski ədəbiyyatımızın ilk təhlil və tənqid elçiləri olmuşlar. Təzkirələr yalnız qədim ədəbiyyat əsərlərinin toplusu deyil, həm də ilk ədəbi təndid və təhlil nümunələri kimi də səciyyəvidir. Onlar bugünkü araşdırmaçılar və tənqidçilər üçün keçmişdə bu işin necə yerinə yetirilməsi barəsində geniş məlumat verir, bugünün oxucusu üçün son dərəcə maraq və əhəmiyyət kəsb edir. Xüsusi bir adı olmayan, buna görə də "Həsən Çələbi təzkirəsi", ya da ləqəbi ilə "Xınalızadə təzkirəsi" adlanan bu əsər Anadoluda qələmə alınmış beşinci təzkirədir. Bundan əvvəl zəngin Osmanlı nümunələri olan Səhi (v.1548), Lətifi (v. 1582), Əhdi (v. 1593) və Aşıq Çələbi (1520-1572) təzkirələri ortaya qoyulmuşdur. Xüsusilə Lətifi və Aşıq Çələbi tərəfindən təqdim olunan mükəmməl nümunələr həmin növün sonradan həm forma, həm də məzmunca inkişaf etməsində bir örnək rolunu oynamışdır.

Aşıq Çələbinin bioqrafiyasının sonuna"Təzyil" başlığı ilə ayrı bir bölmə əlavə etməklə, təzkiraçilik tatixində bizə ilk diqqətçəkən məlumarları verən Gelibolulu Əli (1541-1599) "ashab u fehm ü zeka

ve erbab-ı fazl-u nüha olanlara zahirdür ki, vilayet-i Rumda res-i sene ve elfe gelince dörd kıta tezkirei-şuara yazıldı”[75] cümləsiylə, çox da önəm daşımayan Əhdinin “Gülşəni-şüəra”sının üstündən keçərək Səhi, Lətifi, Aşıq Çələbi və Həsən Çələbinin təzkirələrini nümunə göstərmişdir.

Həsən Çələbi böyük dəyər daşıyan iki təzkirənin ardnca, dərhal yeni bir təzkirə yazmağa cəhd etmiş, bununla da özünü çətin bir imtahana çəkmişdir. Əlbəttə, bu zaman onun həm Lətifidən, həm də Aşıq Çələbidən daha çox yazı imkanına malik olmasını qeyd etmək olar. Həsən Çələbinin həm Lətifinin ədəbi tənqid sahəsindəki fikirlərindən, həm də Aşıq Çələbinin şairlərin psixoloji məqamları və sosial vəziyyətləri haqqında verdiyi geniş məlumatdan bir örnək kimi istifadə etmək imkanı vardı. Halbuki o, onları həm açıq-aydın təqlid etmiş, həm də hər ikisini çox sərt şəkildə tənqid etmişdir.

Ədəbiyyat tarixləri Xınalızadənin özünəməxsus yazı üslubundakı bacarığını xüsusi qiymətləndirmişdir. Təzkirələr bir tərəfdən qədim ədəbiyyatımızı bizə tanıdan tarixlər, bir tərəfdən də onların özləri yazı texnikasına və formasına görə ədəbiyyatın qədim qollarından biridir.

Bu üzdən bu əsərlərdə üslub və ifadə formasındakı axtarışlar açıqca gözə çarpır. Məcazi ifadələr və təsvirlər bu üslubun dərhal gözə çarpan cəhətləridir. Amma nəzərə almaq lazımdır ki, təzkirələr bədii sənət nümunələri deyil, daha çox məlumat, fakt əldə etmək üçün əhəmiyyətli olan yazılı abidələridir. Buna görə də sözsüz ki, bu əsərlərin dili qədimlərdə “sadə” hesab olunan orta nəsr dilindən ibarət olmalıydı.Bu tərzi daha çox Səhi, Lətifi və Aşıq Çələbi öz əsərlərində tətbiq etmişlər. Həsən Çələbi isə onu dəyişmiş, hiylə işlədərək Lətifini əsil güclü olduğu nöqtədən vurmaq istəmiş: “Şiiri inşasından bihter idugi muhakkah u mukarredür. Eşari dahi vasatül hal olduğu malum-ı erbabı makaldür”[76] şəklində onu tənqid etmişdir. Bundan başqa Aşıq Çələbini də bu üsulla tənqid edərək: “Lakin tahrir

[75] “Künhül-ahbarın Tezkire Kısmı” (Haz. Mustafa İsen), Ankara 1994, s.313, Üniv. Ty.5959, 489a.
[76] “Hasan Çelebi Tezkiresi”, Ankara 1981, C.2, s.836.

ü inşasında kat an letafet ü melahat yokdur"[77] şəklində qaralamışdır. İfadə tərzinə bu qədər fikir verən Çələbinin özünün də tənqid etdiyi yolla getməsi sözsüz ki, mümkün deyildi. Kutluk onun yazı tərzini bu şəkildə anlatmışdır: "Hələ atası Aşıq Çəlbini elə ağır, təmtəraqlı, süslü bir dillə anlatmışdır ki, əsas məvhum bu hay-küylü sözlər arasında yox olmuş, demək istədikləri bu gurultu arasında itmişdir. Özünün etmək istədiyi də, hər halda çox təmtəraqlı söz deyərək ustalıq göstərməkdir. Bu boş və hay-küylü sözlər arasında Əli Çələbinin həyatı itər də, boş sözlərin səsi qulaqlarda qalar[78] tərzində tanınacaq bir üsluba sahibdir". Kutluqun bu iradlarını təxminən dörd yüz il əvvəl Gelibolulu Əli də dilə gətirmişdir. "Künhül-əxbar"in müəllifinin yaxından tanıdığı istedadsız, ancaq iddialı müəlliflərə qarşı olan sərt və güzəştsiz hücumlarının bir qolu da Həsən Çələbiyə yönəlmişdir. Atası Xınalızadə Əli Çələbi haqqında çox müsbət fikirlər irəli sürən və onu Kamal Paşazadə, Əbussuud səviyyəsində bir alim olduğunu iddia edən Əli Gelibolulunun[79], şübhəsiz ki, Həsən Çələbi ilə heç bir düşmənçiliyi yox idi. Üstəlik, Xınalızadə təzkirəsində Həsən Çələbinin Əli haqqında söylədiyi müsbət fikirlər də yetərincədir.

Gelibolulunun təzkirə haqqında söylədiyi tənqidi fikirlər aşağıdakı kimi sıralana bilər[80]:

1) Zəncirləmədə sonluqlar və yad sözlər işlətmişdir;

"Anlamsız kalabalık boş sözlerin yanında , üçlü, ikili sıra sıra tamlamalar, olabildigince bilgiçlik gösterileriyle doludur. Degil bu günün okuyucusuna, o zamanın okuyucusuna bile güc ve anlaşılmaz gele bilir, kimi yazarlarca söz kalabalığı sayılmış bile olabilir."(Kutluk I.s. 27)

2) Laqqırtısı bol, mənası az, doğru olmayan cümlələrdən istifadə olunmuşdur.

"Bir lakırdı çokluğudur. Söyleyecekler söylenmez, söylenmesi

[77] Həmin əsər, C.2, s.500.

[78] Həmin əsər, C.1, s.26.

[79] "Künhü'l-ahbâr", "II. Selim Devri Bilginleri", Ü. Ty. 5959 474a.

[80] "Künhü'l-ahbâr'ın Tezkire Kısmı" (Haz. Mustafa İsen), Ankara 1994, s.313, "II. Selim Devri Bilginleri" Ü. Ty.5959 489a.

gerekenin yanında yöresinde dolaşılır. Ara sözler ve konu dışı sözlerle oyalanılır."(Kutluk.s.30)

3) Bir çox şairi yerindən-yurdundan etmiş, bir çox şeiri də başqasına aid etmişdir.

4) Söylədiklərinin ata və babasına aid olduğunu iddia edir. Söylədiyi məlumatların atası və yaxud babasına aid olduğunu, buna "bihasbil-irs" sahib olduğunu yazır. Halbuki, bunların çoxu Lətifi və Aşıq Çələbinin təzkirələrindən eynilə götürülmüşdür.

5) Öz qohum-əqrabalarını və tanışlarını şair olmadıqları halda əsərlərində şair kimi təqdim edir. "Ömürlerinde ancak bir muhtasar beyte sahip olan ulemayı tezkireye dahil etmiştir"(Kutluk. s. 32)

"...Eksigi kendi yakınlarını ozanlar arasında sayması, onları alabildigince ögmüş olmasıdır."(Kutluk.s.32)

"Aiilesine olan bu yakınlığı şair dostları için de geçerlidir" (Kutluk.s.32)

6) Şairlərin bir çoxuna istinadən: "Şu kitaplarım vardır, şu gazel benimdir, dedi" kimi yalan ifadələr vermişdir.

Doğrudan da, Həsən Çələbi o biri təzkirəçilərdən fərqli olaraq, əsərində verdiyi şairlərə məktub şəklində müraciət etdiyini və onlardan məlumat aldığını bildirmişdir. Maraqlıdır ki, Əlinin həyatını son dərəcə tərifli ifadələrlə anladarkən "bu tezkireye tahrir olunmaq için irsal itdügi varakada dimişdür ki, manzum müellefatımuzdan kitab-ı Mihr ü Mahımuz vardur..."[81] kimi ifadədən istifadə etmişdir.

Əli onu tərifləyən bu ifadələri pisləyərək, şairlərin dilindən verilən yalan kimi tənqid etmişdir.

7) Bəzi kəlmə və xülasələri çox təkrar etmiş, bəzilərini də səhv işlətmişdir. Piri sözünü pəri kimi işlətmişdir.

"Həmən her söz bölügü en az iki kere tekrarlanır."(Kutluk.s.29 "Bazan yanlşlıklar yapar. Selis sözcügünü yanlış olarak yalı yazar". (Kutluk.s.30)

8) Zatı və Nəcatidən başqa bütün şairlərin təxəllüslərinə şərik tapar.

Bu misallardan göründüyü kimi Əlinin yüz illər əvvəl, yəni

[81] "Hasan Çelebi Tezkiresi", C.2, s.592.

təzkirənin yazıldığı illərdə diqqətə çatdırdığı səhvlər, İbrahim Kutluk tərəfindən də eyni tərzdə qələmə alınmışdır. Kutluk istifadə etdiyi qaynaqlar arasında "Künhül-əxbar"in adını çəkmir.

Bütün bunlardan sonra Həsən Çələbinin, özündən əvvəl gələn Lətifi və Aşıq Çələbi nümunələrindən, ailəsindən gələn zəngin ənənədən, sahib olduğu mədəniyyət və elm xəzinəsindən lazımınca istifadə edə bilmədiyini söyləsək səhv etmərik.

Ən əsası isə, Xınalızadə təzkirəsi özündə ehtiva etdiyi 638 şairlə, təzkirələrimizin arasında ən iri həcmlisidir. Lətifi və Aşıq Çələbi təzkirələrini özünə nümunə götürmüş, bir çox təzkiräçilər arasında şübhəsiz ki, daha çox şöhrət qazanmış, müstəsna yeri olan təzkirəçi də Həsən Çələbidir.

Bir qədər sonra Bəyaninin (1597) Çələbiyə xülasə yazması və bir çox nüsxələrin yayılması bu üslubun dövründə təsirsiz ötmədiyini göstərir.

Bu nəşrin ölkəmizdə yayılmış otuza yaxın təzkirələr içində ilk tənqidi nəşr olması da diqqəti cəlb edir.

Təzkirənin bu qədər tənqid edilməsinə və nöqsanlarının olmasına baxmayaraq çap olunaraq yayılmasının əsas səbəbini də burada axtarmaq lazımdır.

Qədim ədəbi toplulların asta sürətlə nəşri məsələsinə gəldikdə isə, mənə elə gəlir ki, bu işi ancaq alqışlamaq və həmin insanlara minnətdar olmaq lazımdır. Mənim qənaətim belədir ki, hələ Həsən Çələbi təzkirəsi kimi mürəkkəb bir işin öhdəsindən gələn İbrahim Kutluka rəhmət diləyib, onu dəyərləndirmək hər birimizin borcudur.

*(*Yazı "Milli kültür"Ankara1984. s.43-də dərc olunub).*

ƏDƏBİYYAT TARİXİNDƏ "KÜNHÜL-ƏXBAR"IN YERİ*

Qədim ədəbiyyat tariximizin ən mühüm mənbəyi şübhəsiz ki, şairlər təzkirələridir. Bununla birlikdə "vəfayat" kitabları, alimlər haqqında bioqrafiya əsərləri, sənət adamları ilə bağlı təzkirələr, nəzirə və şeir məcmuələri, səyahətnamələr, "Kəşfüz-zünun" kimi biblioqrafiya kitabları, şəhər monoqrafiyaları, həyat-namələr və ümumi tarix kitabları da ədəbiyyatın başlıca tarixi mənbələridir.

Sosial elmlər arasında tarix qədər insanlara həsr olunan ikinci bir elm sahəsi yoxdur. Bu elm sahəsi bizdən əvvəl yaşayanların ictimai vəziyyətini, onların rastlaşdığı hadisələri, xalq qəhrəmanlarını əks etdirdiyi kimi, həm də qədim dövrlərin, elm və mədəniyyət sahəsini, insanlar haqqında həyat hekayələrini bizə çatdırır. Bu belə də olmalıdır. Çünki diqqət çəkən tarixi hadisələrlə əlaqəsi olan insanların həyatlarının öyrənilməsi bu hadisənin izah edilməsinə, açıqlanmasına böyük təkan verir. Ona görə də istər şərq, istərsə də qərb tarixçilərinin əksəriyyəti tarixi əsərlərin içində bioqrafiyalara xüsusi yer vermişlər. Bu xüsusiyyət daha çox islam ölkələrinin tarixində müşahidə edilmiş və sonradan Osmanlılara da keçmişdir.

Beləcə çox qiymətli olan ilk tariximizdən başlayaraq əksər tarixi yazılarda padşahların vəzirləri, əmirlər, loğmanlar, şeyxlər, şairlər, hər bir padşahın hakimiyyətdə olduğu və ölümündən sonrakı illərdə olan hadisələr haqqında "vəfayat" başlığı altında bioqrafiyalar verilmişdir. Osmanlı tarixində vəfayat qeydlərini özündə ehtiva edən, yəni hər ilin hadisələrinin sonunda o ildə vəfat edən vəzir, alim, şeyx və şairlərin qısa tərcümeyi-hallarının verilməsinə yer ayıran əsər kimi Katib Çələbinin "Fəzləkə"sini misal göstərmək olar. Hər bir padşahın ölümündən sonrakı həyatını bir bölmə şəklində təsvir edilməsinə isə Gelibolulu Mustafa Əlinin "Künhül-əhbər"inda rast gəlmək mümkündür.

"Künhül-əxbar" sadəcə bir Osmanlı tarixi deyil, dünyanın yaradılışı, peyğəmbərlərin tarixi, islam tarixi, türk və monqol tarixini özündə ehtiva edən bir ümumi tarixdir.

Əsər Gelibolulu Mustafa Əli tərəfindən (948/1541-1008-1599) (1000-1007/ 1597-1598) illər ərzində İstanbulda yazılıb.[82]

"Künhül-əxbar" uzun və orijinal müqəddimə və müəllifin rükn adlandırdığı dörd bölmədən ibarətdir. Müqəddimədə əsərin dili, yazılma səbəbi, haqqında məlumat, məzmunu, mənbələr və tarix elminin əhəmiyyəti haqqında məlumatlar verilir.

Rüknlər aşağıdakılardır:

1-ci Rükn: dünyanın yaranmasından, Hz. Adəmə qədər mövcud olan ünsürlərdən ağaclar, dağlar, dənizlər, sular və iqlimlərdən bəhs edilir.

2-ci Rükn: Peyğəmbərləri, ərəb qövmlərini, Hz.Məhəmmədin peyğəmbərliyini və möcüzələrini, əshabını, xəlifələri, Əməviləri,Abbasiləri, Ərəb əmirlərini, alimlərini, şeyxlərini və loğmanları özündə əks etdirir.

3-cü Rükn: Türk və tatar xalqları ilə xaqanlarından bəhs edir. Bu bölmə Tolunlar, Ahşıdlılar, Fatimilər, Əyyubilər,Türk köləmənləri, Çərkəz köləmənləri, Baykara və xələfləri, Səfəvilər, Buxara və Səmərqənd xanları, Ağqoyunlular, Qaraqoyunlular, Dulqədirlilər, Hind hökmdarları, Ceylan və Mazandaran hakimləri, Ramazanoğlulları, Şirvan hakimləri, Hind və Türk köləmənləri haqqında olan yazıları özündə ehtiva edir.

4-cü Rükn: Osmanlıların yaranmasından 1005-ci ilə qədər olan (oktyabr1596) hadisələrdən, o dövrün alim və şairlərindən, dövlət adamlarından bəhs edir.[83]

---

[82] Əlî yeniçəri olduğu zaman taxta çıxan III. Məhməd (1003-1595) ona bu işdən 200.000 axçalıq mülk təklif etmişsə də müəllif, "Künhül-əxbar"ı yazmaqla məşğul oldugunu bildirərək, bu əsəri yazarkən faydalanacağı məlumatları əldə etmək məqsədi ilə Misir dəftərdarlığını istəmişdir.Ancaq saraydaki bəzi insanların mane olması üzündən ona Misir dəftərdarlığı yerine Sivas dəftərdarlığı və Amasya mirlivalığı verilmişdir. "Künhül-əxbar"ı yazarkən Sivas və Amasyadan sonra Qeysəridə de sancaq bəyi olaraq çalışmışdır. Əsər tamamlanan zaman isə İstanbulda idi, heç bir vəzifəsi yoxdu. ("Künhül-əxbâr" Mətbu nüsxə I, 39, Atsız, Əli Biblioqrafiyası, 56)

[83] "Künhül-əxbar"ın İstanbulda nəşr olunmuş keyfiyyətsiz bir nəşri vardır. Beş cildlik bu nəşrin yalnız ilk cildində 1277 tarixi qeyd olunmuşdur. Nəşr keyfiyyətli deyildir və yazar tərəfindən yazılan dörd rüknə uyğun gəlmir. Mətbu nüsxəsinin son cildi Fatihin İstanbulu fəthi və İstanbul şəhərinin quruluşu haqqında əfsanəvi məlumatın təkrarlanması ilə sona çatır. Əsas nəşr olunmalı Osmanlılar hissəsi kənarda qalmışdır. (Gelibolulu Mustafa Əlî, "Künhül-əxbar", İstanbul (Âmirə mətbəəsi) 1277 H. 1860/1861.)

Burada əsas diqqət çəkən hissə IV rükn– yəni Osmanlılarla bağlı olan rükndür. Bu rükn özü də iki hissəyə bölünür. Birinci cildə başlanğıcdan Yavuz Sultan Səlim dövrünün sonuna qədər olan hadisələri özündə əks etdirən hissə, ikinci cildə isə Qanuni Sultan Süleyman dövründən başlayıb birləşməyə qədər olan hissə daxildir.

IV rükndəki əhvalatlar padşahların hökmranlıq dövrünə uyğun olaraq sıralanmışdır. Hər padşahın taxta çıxması ilə yeni hissə başlanır. Əvvəlcə padşahın doğum tarixi yazılır, görünüşü təsvir edilir, daha sonra taxta çıxmasına keçilir: bəxşiş, hədiyyə və ehsanları göstərilərək əsas xüsusiyyətləri, ölkəni idarəetmə qabiliyyəti və varislərindən söz açılır. Bundan sonra isə padşahın hökmdarlığı müddətində baş verən əhvalatlar əvvəldən sona qədər "birinci, ikinci, üçüncü vaqeə" adıyla hissələrə ayrılaraq oxucuya təqdim edilir. Padşahın ölümü və dəfn mərasimi də bu hissəyə daxildir. Daha çox ictimai və siyasi məna kəsb edən bu əhvalatlardan sonra, mədəni hadisələrin nəqli başlanır. Bu hissədə Əli padşahın xeyir və bəxşişləri haqqında məlumat verdikdən sonra, onun hakimiyyəti illərində meydana çıxmış dövlət adamları (vəzirlər, bəylər və yüksək vəzifəli məmurlar), alimlər, şeyx və şairlərdən bəhs edir. Orijinal olmayıb ənənəvi İslam tarixinə istinadən sıralanmış başlıqlardan ibarət olan bu əsər özündən əvvəl və sonra yazılmış təzkirələrdən, istər bəhs etdiyi adamların sayının çoxluğuna, istərsə də onların haqqında olan məlumatların qiymətli və zəngin olmasına görə kəskin şəkildə fərqlənir. Əsərdə üç yüz beş şairin həyat hekayəsi verilmişdir. Bu isə özündən əvvəl və sonra yazılmış şüəra təzkirələrinin tərkibində verilmiş şairlərin sayı baxımından, bir çoxu ilə eyni, az bir qismindən isə cüzi say azlığı ilə fərqli olduğunu göstərir. Məsələn, tərkibində iki yüz iyirmi doqquz şair verilən Səhi təzkirəsindən böyük, Lətifi və Riyazi təzkirələri ilə eyni, Aşıq Çələbi və Həsən Çələbi təzkirələrindən isə kiçikdir.

Beləliklə, Əli böyük dəyərə malik təzkirələrdən həm həcm, həm də forma baxımından o qədər də fərqli olmayan bu əsəri ehmalca tarix meydanına ötürməyi bacara bilmişdir. Bir çox xüsusiyyətlərinə görə bu əsər ədəbiyyat tariximizin ən qiymətli mənbələrindən birinə çevrilmişdir.

Şairlərdən bəhs edən bölmələrin həcminə görə bu əsəri "Künhül-əxbar təzkirəsi" də adlandıra bilərik.

Əsərin Osmanlılara aid rüknündə on iki padşahın dövründən bəhs edilirsə də, yalnız yeddi nəfərinin sonunda şairlərə yer verilmişdir. Çünki ilk Osmanlı təzkirələri adətən Osmanlı ədəbiyyatının mənşəyini II Murad dövründən qəbul edirlər. Əli isə bu tarixi bir qədər əvvələ çəkməyə çalışmışdır. O, şairlərdən bəhs edən hissəni bu sözlərlə başlayır: "Hafi olmaya ki Osman han, Orhan han ve Sultan Murad han zamanlarında şuaradan kimse zuhur itdügi malum degüldür. Mücerred sadə nazma kadir bazı varsagı- gular dahı şöhret bulmamışdur...Ana bunaen şair namına bir ferd yogidi...Ama bunlar zamanında (Yıdırım Beyazid) bazi kimesne peyda oldı"[84]. Bu ifadələrdən də göründüyü kimi Əli "Künhül-əxbar"da şairlər hissəsini İldırım Bəyazid dövrüylə başlamaq niyyətindədir. "Künhül-əxbar" müəllifinin bu padşahlar dövründə şairlərin olmadığını iddia etməsinin təməlində aşıq ədəbiyyatını yox hesab etməsi dayanır. Əli əsərində yeri gəldikcə aşıq ədəbiyyatından bəhs etmişsə də bu iş yalnız təsnifat məqsədilə edilmişdir. Bu növ əsərlərin Yunis İmrə, Hacı Bektaş Vəli, Ağşəmsəddin kimi dini və təsəvvüfi şeirlər yazanları ayrıca bir kateqoriyada verməsi də, ədəbiyyatın başlanğıcını geriyə çəkən amillərdən biridir.

Şübhəsiz bu növ əsərlərin sonu ilə həmin dövr şairlərinin sonunu eyniləşdirmək düzgün olmazdı. Məsələn "Künhül-əxbar"da şairlərlə bağlı bioqrafiya qisminə II Səlim dövründə son qoyulur. Halbuki, əsərdə bundan sonra iki padşahla bağlı məlumatlar da yer almışdır.

"Künhül-əxbar"da şairlər aşağıdakı padşahların dövrünə uyğun olaraq sıralanmışdır:

İldırım Bəyazid (1389-1402): Süleyman Çələbi, Niyazi[85]

Süleyman şah (1402-1411): Əhmədi, Həmzə, Əhmədi-Dai[86].

I Məhməd (Çələbi) (1413-1421): Əzhəri, Cəmili, Zihni, Şeyxi, Cəmali, Kəmal Xəlvəti[87]

II Murad (1421-1451): Haki, Atayi, Faxxari, Nəsimi, Şah Xəndan,

[84] "Künhü'l-əxbâr"ın Tezkire Kısmı (Haz. Mustafa İsen) Ankara, 1994, s.101.
[85] Həmin əsər, s.101-102.
[86] Həmin əsər, s. 105.
[87] Həmin əsər, s. 111.

Kəmal Ümmi, Hümami, Şirazi, Şəmsi, Həssan, Safi, Zəifi, Nədim, Arif Əli[88]

II Məhməd (Fatih) (1451-1481): Əhməd Paşa, Turabi, Sənayi, Cami, Cəmali, Həmdi, Heydər, Həriri, Həfifi, Xəlili, Dai, Dai-digər, Rəsmi, Zeynəb, Sadi, Şəhri, Şəhdi, Safi, Suni, Adni, Eşki, Ülvi, Katibi, Gülşəni, Kəmali-Zerd, Leali, Məlihi, Mehdi, Nişani, Nizami, Nuri.[89]

II Bəyazid (1481-1512): Cəm, Qorqud, Afitabi, Əmiri, Bəsiri, Behişti, Taci, Təmənnayi, Sani, Çakəri, Cəlili, Həsən Muidi, Haki, Zəkayi, Zihni, Zari, Seyfi, Şami,Şahidi,Şavuri,Şövqi,Səfayı,Suni,Z ərifi,Zarifi digər,Əmri,Əndəlibi,Əhdi,Firdevsi,Fəgani,Qədiri,Kandi ,Katibi,Kəbiri,Məsti,Müniri,Mehri,Nəcati,Nəcmi,Niyazi,Visali,Vəs fi, Haşimi, Hilali[90]

I.Səlim (Yavuz) (1512-1520) Əli,Həbibi, Hüzuri, Həlimi, Molla Həlimi, Rəvani, Sücudi, Süruri, Sayı, Suzi, Səhi, Şəmsi, Səbayı, Suni, Talii, Fəqiri, Güvahi, Nəşri, Nihali, Nihani[91]

Sultan Süleyman (Qanuni) (1520-1566). Muhibbi, Sultan Mustafa, Sultan Mehmet, Sultan Bəyazid, Sultan Cahangir, Ədayi, İshak, Üsuli, Əflatun, İlhami, Əmri, Ümidi, Əmani, Ənvəri, Bəligi, Behişti, Bidari, Bəyani, Subuti, Sənai, Cami, Cəlili, Cənabi Paşa, Cövhəri, Haləti, Həsbi, Heyrəti, Xavəri, Hudayı, Xəyalı bəy, Danişi, Zati, Rəhmi, Rəhiki, Rızayi, Rəmzi, Riyazi, Riyazii digər, Zinəti, Zirəki, Sağərı, Saki, Səhabi, Sehri, Sihri-i sani, Surüri, Sıfali, Səliqi, Şani, Şahidi, Şükri, Şəmsi, Sabiri, Suni, Zəifi, Molla Arif, Arifi, Əbdi, Əbdi-i digər, Əskəri, Eşqi, Əli Çələbi, Gubari, Gəzali, Firaqi, Fərdi, Fazii Lənk, Füzuli, Fəgani, Fikri, Feyzi, Ka- nii, Qüdsi, Qəndi, Qiyasi, Katibi (qalatalı), Katibi (sinoplu), Kəşfi, Günahi, Lamii, Layihi, Lətifi, Ləli, Ləmi, Livai, Məali, Mərhəmi, Məhvi, Müdami, Mərdümi, Məsti, Müslümi, Məşrəbi, Mustafa, Muidi, Mümin, Meyli, Nisarı, Nişani, Nəzmi, Nemәti, Naimi, Naimi-i sani, Niqabi. Nəqşi, Nigahi, Nuhi, Nuri, Nəharı, Nihani, Vahidi, Visali, Hicri, Hüdai,

[88] Həmin əsər, s.119.
[89] Həmin əsər, s.131.
[90] Həmin əsər, s.151.
[91] Həmin əsər, s.173.

Hələki, (Karamanlı), Hilali, (İstanbul), Yetim Əli, Yəhya bəy.[92]

II Səlim (1566-1574) Səlim, Agahi, İlahi, Əmani, Bəyani, Tıraşı, Sanı, Cami bəy, Cəlal Bəy, Cəmali, Hübbi Xatun, Molla Hökmi, Hatəmi, Xosrov, Dəruni, Dərviş Çələbi, Rayi, Rayi-i sani, Rəfii Ləng, Ruhi, Sirri, Sirri-i sani, Səmai, Şanı, Şani-digər, Sadiq, Sədri, Səmai, Sani, Şanii digər, Sadiq, Sədri, Molla Aşıq İbadi, Übeydi, İzar, Əzizi, İşrəti, İlmi, Ülvi, Əhdi, Fəzli, Fünuni, Fevri, Gərmi bəy, Məcdi, Muhyi, Muhyiddin, Muxtari, Mərdümi, Məşami, Məkali, Makali-i sani, Nigari, Nihani, Vusuli, Yəqıni[93].

"Künhül-əxbar"ın bioqrafiyalara aid hissəsinin qaynaqları: Qədim dövr təzkirəçilərinin diqqət çəkən cəhətlərindən biri də yazdıqları əsərlərdə istifadə etdikləri mənbələri göstərməməkləridir. Onlar əldə etdikləri məlumatı öz şəxsi müşahidəsi və məlumatı kimi təqdim etməyə alışmışdılar. Bu sahədə öz məsləkdaşlarından bir qədər fərqli görünən Əli kitabının dibaçəsində istifadə etdiyi mənbələrin böyük bir hissəsini vermiş və onların xüsusiyyətlərini qısa şəkildə anlatmışsa da, özünü bu köhnə üsulun ənənəsindən tam qurtara bilməmişdir. Müəllif əsərinin dibaçəsində verilən mənbə mündəricatından başqa, adını göstərməməklə bir çox mənbələrdən istifadə etdiyini də dönə-dönə qeyd etmişdir.

Əli "Künhül-əxbar"ın müqəddiməsində bu kitabı yazarkən təktək adlarını çəkdiyi yüz otuza yaxın əsərdən yararlandığını, bu əsərlərin hər birində də təxminən dörd-beş müxtəlif qaynaqdan istifadə edildiyini bildirir. O, bunları hesablayaraq öz əsərinin ən azı altı yüz mənbənin məhsulu olduğunu qeyd etmişdir.[94] Ancaq bu kitablar arasında Osmanlı tarixi ilə bağlı yalnız bir kitab vardır ki, o da "Şaqaiq"dir. O birilərin əksəriyyəti məşhur ərəb və İran tarixləri əsasında yazılmış mənbələrdir. Ancaq müəllif o biri hissələrdə də yeri gəldikcə Osmanlı müəlliflərinin adlarını qeyd edir. Adı çəkilən əsərlər içərisində İdrisi Bitlisinin "Həşt-behişt"i, Səhi, Lətifi, Aşıq Çələbi, Həsən Çələbi və Əhdi təzkirələrinin adı da var. O, Lətifi, Aşıq Çələbi və Əhdi ilə şəxsən görüşmüşdür. Əli bu

[92] Həmin əsər, s.187.

[93] Həmin əsər, s.293.

[94] "Künhü'l-əxbâr", Mətbuat nüsxəsi, C.1. s.17.

təzkirələrdən gah tənqid etmək üçün, gah da ki, öz dünyagörüşünü, fikirlərini isbat etmək üçün istifadə etmişdir. Bu təzkirələr adları çəkilmədən "Künhül-əxbar"in təzkirə hissəsinə qaynaq olmuşdur. Bu təzkirələrdən ikisi açıq şəkildə, adı belə çəkilərək "Künhül-əxbar"a mənbə olmuş əsərlərdir ki, onların adları da istifadə olunan əsərlərin sırasına daxil edilməmişdir. Bunlar Lətifi və Aşıq Çələbi təzkirələridir. Bu iki əsər klassik türk təzkiräçiliyinin əsası olan əsərlərdir. Ancaq sonrakı təzkirələr üzərində "Məşairüş- şüəra"nın təsiri Lətifiyə nisbətən azdır. Bunun da səbəbi Aşıq Çəlbi təzkirəsinin həcmcə daha böyük olmasıdır. Sonrakı müəlliflərin çoxu kimi Əli də Lətifinin yazı üslubunun daha sadə və daha tez başa düşülən olmasını bilməmiş deyildir. Bu üzdəndir ki, şairlər hər hissədə əlifba sırası ilə verilmişdir. Şairlərin həyatlarının verilmə tərzi, əsərlərinin ciddi şəkildə açıq tənqidə tutulması, verilən nümunələrin həcmi Lətifi təzkirələrinin bənzəridir. Qeyd edək ki, Əli Lətifi təzkirəsinin o vaxta qədər yazılan təzkirələrin ən yaxşısı olduğunu açıqca bildirmişdir.[95]

Bu təzkirələr özlərində əxz etdikləri əsas cəhətlərinə görə "Künhül-əxbar"üçün yetərincə faydalı mənbələr olmuşlar. Məsələn, Aşıq Çələbi ədəbi təhlildən daha çox, tanınmış şairlərin sosial həyaına aid verdiyi materiallar baxımından, Lətifi isə ədəbi tənqidə olan həssaslığına görə Əliyə təsir göstərmişdir.

Əli istifadə etdiyi mənbələri bu şəkildə əsərinə gətirmişdir.

Səhi təzkirəsi doğrudan da ən az qaynaq olaraq istifadə edilmişdir. Səhiyə aid olan məlumatlar əsərə əslindən deyil, Lətifi tərəfindən istifadə olunmuş şəkildə daxil edilmişdir.

Aşıq Çələbiyə aid olan geniş məlumatlar ixtisar olunaraq əsərə salınmışdır.

Həsən Çələbiyə aid olan az saylı məlumat məna və məzmun etibarilə saxlanılsa da,onun səlis üslubu və zəngin dili sadələşdirilmiş şəkildə verilmişdir.

Əli yuxarıda verilən qaynaqların hər birinə müdaxilə edərək, mətnlərdə dəyişiklik aparmışdır.

[95] "Künhü′l-əxbâr", s.313.

Şairlərin şəxsi həyatlarıyla bağlı nnümunələrdən yalnız biri, təsadüf hallarda isə bir neçəsi verilmiş, qalanlar isə ehtimallar əsasında nəql edilmişdir.

Alınan məlumatların doğru olması yoxlanılmış, səhv olanlar isə başqa mənbələrdən alınan dəlillər hesabına rədd edilmişdir. Başqa qaynaqlardan alınan bəzi hökmlər tənqid edilmişdir.

Əli göstərmədiyi mənbələri də öz üslubu ilə bəlli edir. Bu növ bilgiləri tanış olduğumuz keçmiş zamana istinadən verir. Xüsusilə də Qanuni dövrünə qədər yazılmış olan tərcümeyi-hallarda olan üslub xüsusiyyəti açıq-aydın hiss olunur.

"Künhül-əxbar"ın təzkirə hissəsi uzun bir hazırlıq mərhələsindən sonra, bol məlumatlara və mükəmməl nümunələrə söykənilərək qələmə alınmışdır. Mötəbər mənbələri seçməkdə böyük inadkarlıq və həssaslıq göstərən tarixçi, bəzən bir şəxs üçün bir neçə mənbədən istifadə etmişdir. Əli müasiri olan şəxsləri qələmə alarkən görüb eşitdiklərinə, öz düşüncə və təfəkkürünün məhsullarını da əlavə edərək, əsərinə bir orijinallıq gətirmişdir. Son olaraq Əlinin təzkirəçiliyi və "Künhül-əxbar"ın bioqrafiyalardan ibarət olan təzkirə hissəsinə istinadən bunları söyləyə bilərik:

Əli istər şəxsiyyət kimi, istərsə də sənətkarlıq baxımından təzkirə yazmaq qabiliyyətinə malik bir şəxs idi. O, ikinci dərəcəli bir şair olmasına, dövründə şairlikdən daha çox, başqa istedadı ilə diqqət çəkməsinə baxmayaraq, yüksək ədəbi zövqə və tənqidin sirlərinə vaqif bir adam idi. Hətta özündən əvvəlki təzkirəçi şairlərdən üstün bir şair idi. Sözsüz ki, Anadoludakı türk təzkirəçilərinin arasında ən böyük şairlər Nəvai və Camidir. Gelibolulu sosial vəziyyətinə görə də o biri təzkirəçilərə nisbətən daha irəlidə dayanmış, yüksək mənsəb sahibi olmuşdur. Gelibolulunu o biri təzkirəçilərdən fərqləndirən əsas cəhət isə onun yaxşı tarixçi olmasıdır. Əli tarixin içində yerləşdirdiyi təzkirə hissəsini yazmadan əvvəl, bu sahədə yazılmış olan əsərləri bir-bir araşdırmış və onları ciddi şəkildə qiymətləndirə bilmişdir. O günə qədər təzkirəçilər bir-birinin əsərlərini "Kastamonu- namə", "Isparta- namə" kimi emosional və bütünlüklə əsərə şamil edilməyi düzgün olmayan iddialarla tənqid edirdilərsə, "Künhül-əxbar"in

müəllifi bu əsərlərin diqqət çəkən nöqsanlarını dəqiqliklə və layiq olduğu nöqtədən tənqid edir. Əlinin örnək olası əsas xüsusiyyəti onun yaxından tanıdığı zəif və qabiliyətsiz olmasına baxmayaraq iddialı olan adamları tənqid atəşinə tutmasıdır.

Bu baxımdan dəyərləndirildikdə "Künhül-əxbar"ın təzkirə hissəsi başqa təzkirələrə nisbətən səhvlərdən daha çox xilas olunmuş təzkirədir.

Əlinin təzkirəsində başqa bir diqqət çəkən özünəməxsusluq şairlə bağlı mövzulara şeirdən kənar söhbətləri daxil etməməsidir. Çünki belə mövzulara "Künhül-əxbar"la bağlı hissədə yer ayrılmışdır. Buna görə də Aşıq Çələbidə geniş yer verilən və bütün cəhətləriylə təsvir edilən "Cəm" bəhsinə Əli cəmisi yarım səhifə yer vermişdir. Qeyd etdiyimiz kimi bu mövzu ictimai hadisələrə aid olan hissədə geniş şəkildə müzakirə edilmişdir.

Əlnin bioqrafiya yazılarında tarixçi olmasının təsiri onun əsərin əvvəlində və əsər boyu yeri gəldikcə, istifadə etdiyi mənbələrdən bəhs etməsidir. Köhnə əsərlərin bir çoxunda bəhs edilən məlumatlar köhnə mənbələr ilə adı və mahiyyəti məlum olmayan mənbələrin qarışmasından alınan xəbərlər şəklində verilmişdir. Bu yazıların əksəriyyətindən bioqrafiya əldə etmək mümkün deyil. Bu yazıların müəllifləri özlərindən əsrlərlə əvvəl yaşamış olan şəxslər haqqında öz bacardığı şəkildə məlumatlar verir, daha çox öz savad və bacarıqlarını ortaya qoymağa səy edirlər. Bu qüsurlara görə bu gün əlimizdə olmayan bir çox qaynaq bizə məlum olmadığı kimi, mövzuyla çox az əlaqəsi olan geniş və gen-bol məlumatların içində itib-bataraq, dəyərli məlumatları isə əldə etməyə çətinlik çəkirik.

Əli müasiri olan bir çox yazardan fərqli olaraq bu səhvdən özünü xilas edə bilmişdir. O, qaynaqları nə tarix bölməsində, nə də təzkirədə gizlətməkdən yan keçmişdir. Doğrudur, Əlidən əvvəl təzkirə yazanlar da bəzi hallarda mövzunun içində özlərindən əvvəl ortaya əsər qoyanların adlarını xatırladırlar. Ancaq bu daha çox haqqında danışılan təzkiräçini tanıtmaq üçün istifadə edilən metoddur. Bəzi hallarda isə Lətifidə olduğu kimi, özündən əvvəlki təzkirəçinin adı belə çəkilmir. "Künhül-əxbar" müəllifinin başqa təzkirəçilərdə olmayan bir bəlli xüsusiyyəti də nümunə göstərdiyi şeirlərə

müdaxilə edərək onları təhlil etməsidir. Təzkirəçilik tariximizdə bir başqa nümunəsi olmayan bu hal, həqiqətən Əlinin özünəməxsus xüsusiyyətlərə malik olmasını göstərən cəhətdir. Təzkirəçilər hamısı verdikləri nümunələr haqqında: "yaxşıdır", "gözəldir", "dəyərlidir", "pisdir" kimi ümumi ifadələr işlətmişlər, onunla bağlı müsbət və yaxud tənqidi fikirlər irəli sürmüşlər. Ancaq heç biri Əlinin işlətdiyi : " Şu kelimenin yerinde bu kelime olmalıydı, edası şöyle olsa daha iyi olurdu" kimi düzəlişlər etməmişdir. Belə ki, Əlinin bəyənməyib yenidən yazdığı və belə yazmaq gərək olduğunu bildirdiyi beytlərə də rast gəlinir. Ancaq onu da qeyd edək ki, əvvəlki beyt ,sonradan təklif olunandan daha güclü görünürdü.[96]

Əlinin əsərinə daxil etdiyi şairlərin çoxu ondan əvvəlki təzkirəçilərin qeyd etdiyi şairlərdir. Lakin şair seçimini edərkən Əli onlara dəyərlərinə görə yer ayırmışdır. Şairliyinə görə hər kəsin tanıdığı, təsdiq olunmuş şəxslərin adları "Künhül-əxbar"a daxil edilmişdir. Seçdiyi adlarda və onların yaradıcılığı haqqında verdiyi hökmlərdə o, olduqca israrlıdır. Əlinin heç bir şairin layiq olmadığı mərtəbədə göstərmək kimi təşəbbüsü yoxdur. O, əvvəlki təzkirəçiləri əsası olmayan, yersiz mədhiyyələrə görə tənqid edir. Onun hökmləri ifrata varmır və bu üzdən də əsərlərində öz dövründə və sonrakı dövrlərdə böyük bir kütlə tərəfindən qəbul edilmiş Nəsimi, Əhməd Paşa, Nəcati, Nizami, Zati, Xəyali və Yəhya bəyə ayrılan yer, o biri şairlərdən xeyli çoxdur. Bundan başqa Əli o biri şairlər üçün də öz bioqrafiyalarına münasib yer ayırmışdır.

O, xüsusən Aşıq Çələbi və Həsən Çələbidə rastlaşdığımız kimi seçdiyi şairə on səhifə, o biri şairlərə isə az yer ayırma hallarından da uzaqdır.

"Künhül-əxbar"dakı məlumatlar düzgün araşdırma və rəvayətlərin doğru şəkildə təsvirindən ibarətdir. Əli öz biliyini

[96] Məsələn Əmaninin bu beyti nümunə olaraq verildikdən sonra;
Her gice dil-i tîre hayâlünle münevver
Sen ey meh-i bed-mihr gerek gelme gerek gel
"Egerçi kim bed-mihr diyü eda eylemişdür. Ve illâ yaramaz îhamla hata eylemişdür. Zîrâ mihrün bedi olmaz ve bed nesneye mihr itlâk idenün bahtı sermedi olmaz. Bî-mihr dimek yeg idi. Bâri hem edâsı sahîh ve hem isnâdı gerçek idi." Şəklində beytin tənqidi verilir ("Künhül-əxbar", s.198)

göstərmək üçün uydurma əhvalatlara yer verməmişdir. Qeyd etdiyi xəbərlər inandırıcıdır, iastifadə etdiyi qaynaqları dəqiq göstərməyə çalışmışdır. O, təzkirəçilik tariximizdə Lətifi ilə başlayan tənqidi baxışın ən yaxşı davamçısıdır. Onun təzkirəsində müntəzəm şəkildə şairlərin istedadları, meylləri və fərdi xüsusiyyətləri barəsində məntiqi fikirlərə rast gəlinir. Şeir və şair haqqında mülahizələri heç də bəlağətli vəsfetmələr deyil, tarixə xidmət edən sənədlərdir.

Əli mühakimələrində nə qədər dəqiq görünsə də, onun insan olduğu unudulmamalı, fərdi və ictimai problemlərinin meyl və təmayüllərinə təsir etməsi də qəbul edilməlidir.Və bunlar şübhəsiz ki, onun təzkirəsindən təsirsiz ötüşməmişdir.

Təzkirələr eyni zamanda qədim ədəbiyyatımızın bir qoludur. Buna görə də bu növ əsərlərdə üslub və ifadə axtarışları, ədəbi cəhdlər diqqət çəkən amillərdəndir. Əsərin əsas mahiyyətini ifadə edən söz və təbirlərin yazı zamanı ahəng qanununa uyğun olaraq seçilməsi və sıralanması açıqca görünür. Ancaq Əli estetik tərəfi mənaya, zahiri görünüşü həqiqətə pərçim etməmişdir. Onun mətnlərində əvvəlcə ehtiyac duyulan mövcud məsələ və dəyərlər, sonra yazarın intellekt və baxışları, ardınca isə bunların bədii şəkildə ifadəsi özünü göstərir.

*(*Yazı "Ege Universitesi Edebiyat Fakültesi Araştırma Dergisi" II. 1983.s.49-57- də dərc olunub).*

«KÜNHÜL - ƏXBAR»IN ŞAİRLƏRƏ HƏSR OLUNAN HİSSƏSİNİN QAYNAQLARI*

Gelibolulu Mustafa Əlinin (1541-1599/1600) məşhur əsəri olan "Künhül-əxbar"ın ədəbiyyat tarixində daşıdığı önəm bir qədər əvvəl də ortaya qoyulmuşdur. Əli önəmli təzkirələrdən həcm, forma və məzmun cəhətdən o qədər də fərqli olmayan əsərinə 305 şair daxil etməklə yanaşı, onu tarixin içinə yerləşdirməyi də bacarmışdır. Şairləri bir yerə toplayan bu əsərin"Künhül-əxbar" adlandırılması öncə nəzərinizə çatdırılmışdı.[97]

Bu yazıda isə ədəbiyyat tarixinin araşdırılıb öyrənilməsində qiymətli mənbə olan bu əsərdə hansı qaynaqlardan istifadə olunduğundan, əsərin necə meydana gəldiyindən bəhs edəcəyik. Beləcə həm Əlinin faydalandığı, mənbələr ortaya çıxarılmış olacaq, həm də təzkirə növünün hansı dəyərli orijinal fakt və məlumatlara malik olmasının isbatına çalışacağıq.

Əli "Künhül-əxbar" əsərinin ilk rüknündə vermiş olduğu uzun dibacəsində yüz otuza qədər əsərdən istifadə etdiyini[98] və bu əsərlərin də hərəsində dörd- beş kitaba müraciət olunduğunu göstərir. Bununla da o, təxminən 600 kitabın xülasəsindən istifadə olunduğunu məlum edir. Sonu ərəb və farsca bitən bu qaynağın kitablar səhifəsində Osmanlı tarixiylə bağlı tək bir kitabın adı çəkilir ki, bu da Daşkörpüzadənin "Şəqayıqün nü maniyyə"sidir[99]. Mövzumuzla bağlı olmadığından dibacədə verilən həmin əsərləri burada bir-bir saymağı artıq hesab edirik.

Əvvəlki müəlliflərin əsas xüsusiyyətlərindən biri də qələmə aldıqları əsərlərində istifadə olunan qaynaqları oxucuya təqdim etməkdir. Bu qaynaqları tanıdanlar isə onları bu günki təqdim üsuluna uyğun bir şəkildə təsnif etməmiş, qaynaqlardan əldə etdikləri məlumatları çox zaman öz şəxsi bilikləri və baxışları kimi

[97] "Edebiyat Tarihi Açısından Künhü'l-ahbâr'ın Önemi", Egə Üniv. Ədəbiyyat Fakültəsi Türk Dili və Ədəbiyyatı Araşdırmaları Yurnalı II, İzmir 1983.

[98] "Künhül-əxbâr", İstanbul, 1277, c.I, s.17.

[99] "Künhül-əxbar"ın başqa bir yerində, həyatları verilən alimlərin seçimində və verilən məlumatlarda "Şəqayiq"in əsas götürüldüyü açıqca yazılır. Bk. Ü. Ty.5959, 54a.

təqdim etməyə adət etmişlər. Bu sahədə öz məsləkdaşlarından bir qədər fərqli şəkildə nəzərə çarpan Əli də, yuxarıda göstərildiyi kimi, faydalandığı qaynaqların uzun bir siyahısını verməsinə baxmayaraq, özünü bu köhnə ənənədən tamamilə xilas edə bilməmişdir. Dibaçədə verdiyi qaynaq səhifəsində bir çox müəllifin adını çəkmədiyi halda, onların əsərlərindən gen-bol istifadə etmişdir[100].

"Künhül-əxbar"ın ön sözündə bioqrafiyalarla bağlı yalnız "Şəqayiq"in adının qeyd olunmasına baxmayaraq, Əli fürsət düşdükcə Anadoluda özündən əvvəl yazılmış kitabların adlarını dəfələrlə qaynaq kimi göstərmişdir. "Şəqayiq"ə əlavə olaraq İdrisi Bitlisinin "Həşt-behişt"indən başqa, Anadoluda "Künhül-əxbar"dan əvvəl yazılmış Səhi, Lətifi, Aşıq Çələbi, Həsən Çələbi və Əhdi təzkirələrinin də adları nəzərə çatdırılır.

"Künhül-əxbar"da bu əsərlər iki şəkildə təqdim olunurlar.

1. Qaynaq kimi adı çəkilənlər: Bu başlıq altında verilən nümunələrdə Əli istifadə etdiyi bilgilərin kimə aid olduğunu göstərərək qaynağı verir. Bunlar açıq şəkildə istifadə olunan mənbələrdir.

Məsələn, bu mənada "Şəqayiq" "Künhül-əxbar"da cəmi bir dəfə: Şeyxinin Əhmədiylə birlikdə başqalarından dərs alması və Hacı Bayramla əlaqəsini göstərmək üçün istifadə edilmişdir[101].

Səhi bəy təzkirəsi üç şəxs ilə bağlı olaraq "Künhül-əxbar"a bələdçilik etmişdir. Əhmədinin "Cəmşidü Xürşid" adlı əsəri üçün Əli bəy belə yazmışdır: "Sehi bey kavlince, Cemşid ü Hurşid adlu bir manzum kitabı dahi vardur Süleyman Şaha sunup cevaiz-i seniyyesin almışdur"[102].

Əhmədi Daidə "Amma Sehi Beg merhum qayrı mükerrer bir muhteri-i garib gazelini irad eylemişdür. Tarzi haylice makbülterdür"[103] şəklində bilgilər verilir.

---

[100] Məsələn, Aşıq Çələbinin həyatı verildiyi hissənin sonuna "Tezyil" adlı bir hissə əlavə edilərək H.1000 ilinə qədər yazılmış olan təzkirələr sıralanır.

[101] "Künhü'l-aəxbâr"ın Tezkire Kısmı", A.Ü.Ədəbiyyat Fakültəsi, dərc olunmamış doktorluq işi. Ərzurum, 1979, s.12, Üniversitet Ktb. Ty. 5959 54a.

[102] Həmin mənbə s.5, Ü. Ty. 5959 36b.

[103] Həmin mənbə s.7, Ty.5959 37a.

Əli, Nəcatinin əsərləri haqqında səhv məlumatlar verən Aşıq Çələbini günahlandırdıqdan və adları çəkilən bu əsərlərin mövcud olmadığını bildirdikdən sonra Səhini şahid göstərərək bunları əlavə etmişdir: "Alel-husüs Sehi beg merhum ki, ömri varı gibi Necati Begün hizmetinden ayrılmazdı. Bir nefes meclisinden cüda olmağı eyyam-ı ömründen saymazdı. Yine ol iki kitabını vechen minel vücuh yad itmemisdür. Ancak Münazara-i Gül-i Husrevi yazmışdur. Ani dahi Leyla vü Mecnun idi diyu tetebbula galat semtine gitmemişdür"[104].

Lətifi təzkirəsi on bir ayrı-ayrı adlarla bağı "Künhül-əxbar"a qaynaqlıq etmişdir. Süleyman Çələbinin mövludu yazmasına səbəb olan "Əcəm tüccarı" hekayəsi Əli tərəfindən "Lətifi yazmış" kimi anladılaraq sözü gedən təzkirədə açıq şəkildə göstərilir[105]. Əhmədinin nümunə olaraq verilən bu beytindən sonra bu bilgilərlə qarşılaşırıq: "Bu matla dahi divanındandur diyu Mevlana Latifi tezkiresinde yazmışdur. Ve ilmi-tibdan "Mesail-i Kanun-ı Şifayı Türki" nazm ile kitab eyledügün dahi beyan eylemişdür."[106] Əhmədi Daının nümunə olaraq verilən beytinin əvvəlində də bu cümlə yer alır: "Ve Latifi bu kitayı irad itmişdür"[107]. Molla Həmdinin, Lətifinin atası[108] Zeynəbin həm Kastamonulu, həm də bir "meryem-i-ismet-nümün"[109] olması yenə Lətifi təzkirəsinə əsaslandırılaraq meydana qoyulmuşdur. Təmənnayinin "sapık bir mezhebe mensubiyeti"[110] və Firdovsinin "Süleyman-namə"sinin mövcud nüsxəsinin əldə olunmaması[111] da eyni şəkildə Lətifidən alınmış məlumatlar olduğunu sübut edir.

Nəcatinin əsl adı və kimin qulu olması mövzusundakı[112] Lətifi ilə Aşıq Çələbi arasında olan fərqli mülahizələrə Əlinin heç bir müdaxiləsi yoxdur. Bu üzdən də həmin mövzu həm Lətifi, həm də Aşıq Çələbi bəhsində qaynaq kimi göstərilmişdir.

[104] Həmin mənbə, s. 64, 5959 171b
[105] Həmin mənbə., s.1, 5959 33a
[106] Həmin mənbə s.5, 5959 36b
[107] Həmin mənbə s.6, 5959 37a
[108] Həmin mənbə, s.29, 5959 132a
[109] Həmin mənbə, s.32, 5959 133a
[110] Həmin mənbə, s. 50, 5959 169b
[111] Həmin mənbə, s.58, 5959 170b
[112] Həmin mənbə, s.62, 5959 171b

Əli, Lətifidən aldığı bilgini belə nəql edir: "Şehri Edirneden Saili nam bir şairin kulıdur.Ve namı İsadur, Latifi kavlince".

Qanuni dövündəki şairlərdən Qaratovah Zaifi verildikdən sonra bu bilgilər də əlavə olunur: "Monla Latifi kavlince bir Zaifi dahi Kastamonudan kopmuş, hatta ilm ü fazl u sulukla hayli iştihar bulmuş ve bu matla anlardan sudur kılınmışdur"[113]. Yenə eyni padşah dövründəki şairlərdən Vahidinin doğum yeri və sənəti qeyd edildikdən sonra Lətifiyə əsaslanaraq bunlar söylənilir: "Latifi kavlince mükemmel divanı ve rana gazeliyyatı ve isğaya kabil muhayyel müellefatı vardur"[114].

Aşıq Çələbi təzkirəsində adı çəkilən on dörd şairlə bağlı məlumatlar"Künhül-əxbar"da yer alır. Bunlardan on biri Aşıq Çələbinin yazı üslubuna uyğun olaraq şairlərin şeirlərindən çox onların sosial durumları haqqında olan məlumatlardır. Üçünün də nümunə kimi verilən şeirləri "Məşairüs-şüəra"dan alınmışdır.

Sultan I Məhəmmədin xəstəliyi və Şeyxinin onun müalicə etməsi ilə davam edən hadisələr Gelibolulu tərəfindən "Aşık Çelebi tezkire-i-şüarasında yazmışdur ki"[115] şəklində bir təqdimatla verilir.

Səhi bəyin həyatı, şeirləri və sənəti verildikdən sonra "Amma Mevlana Aşık Meşairuş-şüarasında[116] Edirnelidür evahir-i ömründe bölükden tarik-i tevliyyete girüp Ergəneye bazı amayire mütevelli oldu diyu yazmış, vefatı sene hamse ve tisamiede vuku bulup, muammer olup çok yaşaduğını bildirmiş"[117] şəklində verilən ifadə Aşıq Çələbinin verdiyi məlumatın xülasəsi əsasındadır. Buna bənzər bir xülasəyə Adnıda da rast gəlirik. Əli "Monla Aşık kavlince[118]" təqdimatından sonra Adnının Alacahisarlı olmasına etirazını bildirmiş və Çələbinin verdiyi məlumatı da xülasə kimi vermişdir.

Mümkünsüz görünən bir çox məsələni özünə xas əzmkarlıqla həll etməyə çalışan və bu işdə çox mahir olan Aşıq Çələbi "küləkdən

[113] Həmin mənbə., s.136, Ü. Ty. 5959 402b
[114] Həmin mənbə, s.184, Ü. Ty. 5959 421b
[115] Həmin mənbə, s.11, Ü. Ty. 5959 54a
[116] "Aşıq Çələbi Təzkirəsi" "Künhül-əxbâr"da həmişə "Meş′aru′ş-şu′arâ" şəklində yazılmışdır.
[117] Həmin mənbə, s. 78, Ü. Ty. 5959 210a
[118] Həmin mənbə, s.37, Ü. Ty. 5959, 133b

inciyib" heç kəslə danışmayan Cəlilini də danışdırmağı bacarmışdır. Bu barədə Əli belə yazır: "Monla Aşık Tezkiresinde yazmışdur, ben kenduyi bazi tedarikle söyletdüm.Bazı ebyatını na-mevzun okıyup halt-ı kelam şeklin göstermekle mezburı söze getürdüm. Ta ki okıdığın eşar benümdür amma edası bu yüzdendür didi. Şehname tercemesin itmenüz vakı mıdur diyu sordum.Vakıdur diyu cevabını alıp sıhhatini tahkike irgürdüm, diyu bildirmişdür"[119].

Əsl ad mövzusunda Lətifi ilə Aşıq Çələbi arasındakı ixtilaf, Nəcati[120] və Zatıda da[121] davam edir. Əli bu mövzuda da adı çəkilən təzkirəçilərin baxışlarını ayrılıqda qəbul etmir və hər ikisinin düşüncələrini qələmə alır.

Gübarının həyatı və yetişməsiylə bağlı məlumatlar[122] və Kandinin Şəhdı təxəllüsünün dəyişdirilməsinin səbəbini göstərən hekayə ilə "Məşairüş-şüəra", "Künhül-əxbar"a qaynaqlıq etmişdir[123].

Şairlərin şəxsi həyatlarıyla bağlı məsələləri öz təzkirəsində daha çox hallandıran Aşıq Çələbi təzkirəsi, şübhəsiz elə bu cəhəti ilə "Künhül-əxbar"a qaynaqlıq etməliydi. Belə ki Əli, Məalının bir qula aşiq olmasını[124], Hatəminin gah heydəri, gah da qələndəri olmasını[125] "Məşairüş-şüəradan" götürərək nəql edir. Riyazinin yetişməsi ilə bağlı məlumatlar[126] və Fövrinin 960/1553-də Qanuni ilə İran səfərinə çıxması da[127] adı çəkilən əsərin vasitəsi ilə əldə edilən məlumatlar sırasındadır. Əmanilər arasındakı öncəlik məsələsi də[128] yenə Aşıq Çələbi qaynağına istinadən göstərilmişdir.

"Künhül-əxbar"da iki şairin nümunə şeirlərinin Aşıq Çələbi təzkirəsindən alındığı qeyd edilmişdir. Əhmədi-Dai maddəsində: "Bu beyt ferah-namesindendür diyu Mevlana Aşık yazmışdur"[129]

[119] Həmn mənbə, s.102, Ü. Ty. 5959 391b
[120] Həmin mənbə, s.63, Ü. Ty. 5959 171b
[121] Həmin mənbə, s.113, Ü. Ty. 5959 394a
[122] Həmin mənbə, s.145, Ü. Ty. 5959 406b
[123] Həmin mənbə, s.159, Ü. Ty. 5959 412a
[124] Həmin mənbə, s.170, Ü. Ty. 5959 416a
[125] Həmin mənbə, s.202, Ü. Ty. 5959 484b
[126] Həmin mənbə, s.120, Ü. Ty. 5959 397a
[127] Həmin mənbə, s.223, Ü. Ty. 5959 493b
[128] Həmin mənbə, s.94, Ü. Ty. 5959 386b
[129] Həmin mənbə, s.6, Ü. Ty. 5959 37a

və Şükridə "Amma mezbur Şükri Sultan Süleyman Hana culüsiyye dahi virmiş birkaç beytini Mevlana Aşık bu vechile irad itmiş"[130] şəklində açıqlama vermişdir.

Əli təzkirəçi kimi Həsən Çələbi və Əhdini əsərində qaynaq olaraq cəmi bir dəfə göstərmişdir. Bəyaninin isə nə bu bölmələrdə, nə də Aşıq Çələbinin bioqrafiyasının sonunda yer alan təzkirələr və təzkirəçilərlə bağlı xüsusi hissədə[131] adı belə çəkilmir.

II Səlim dövrü şairlərindən İlminin həyatı, sənəti və yetişməsi göstərildikdən sonra bu cümləyə yer verilir: "Ve bu ebyatı tezkire-i ibn Mühennada mestur bulunmuşdur"[132].

Əhdinin "Gülşəni-şüəra"sı isə yalnız Sultan Mustafa bəhsində "Künhül-əxbar"a qaynaqlıq edir. Şahzadənin adından təxəllüs kimi istifadə etdiyi bildirildikdən sonra "Amma müellif-i tezkire-i-Monla Ahdi-i Acemi kavlince tahallusı Muhlisi idügi tahkike yetmişdür ve bu ebiyat ol şehzadenün tab-ı-latifi idügin bildirmişdür"[133] ifadələri Əhdidən alınan məlumatlardır.

2. Tənqiq üçün adı çəkilən qaynaqlar:

Bu başlıq altında verilən məlumat və nümunələr Əlinin doğru hesab etmədiyi qaynaqların "Künhül-əxbar"da üzə çıxarılmasından ibarətdir. Bu hissədən məlum olur ki, Əli əvvəlki nümunələri də tənqid süzgəcindən keçirərək vermişdir. Başqa məqsədlə istifadə etməsinə baxmayaraq,"Künhul-əxbar"ın bu hissəsində də ayrı-ayrı qaynaqlara toxunulduğunun şahidi oluruq.

Şairlərin həyatına aid məlumatları özündə ehtiva edən İdrisi-Bitlisinin "Həşt-behişt" adlı tarixi, "Künhül-əxbar" ın təzkirə hissəsində bu şəkildə ortaya qoyulur. Əli adı çəkilən müəllifin Nəcatini Xosrovi Rum olaraq göstərməsinə qarşı çıxaraq belə deyir: "Ol asra dek gelen Rum şairlerine kıyasla vasf itdi isə hak budur ki, muhassenatı mektum itmişdür. Zira ki, buleğa-yı Aceme şumuli

[130] Həmin mənbə, s.133, Ü. Ty. 5959 401b
[131] Həmin mənbə, s.213-215, Ü. Ty. 488b 489ab
[132] Həmin mənbə, s.219, Ü. Ty. 5959 491a
[133] Həmin mənbə, s.84, Ü. Ty. 5959 382b

maksud olması mühaldür...”[134]

Lətifi təzkirəsi altı müxtəlif şəxs haqqında verdiyi məlumatlara görə tənqid edilir. Bunlardan yalnız biri ədəbi baxışlardakı fərqlilikdən, digərləri isə şairin həyatı, məsləki və təriqəti ilə bağlı tənqidi fikirlərdən ibarətdir. Ədəbi baxış fərqliliyinə Məlihi bəhsində rast gəlirik: “Egerçi ki, Monla Latifi, Mevlanayı layık diyu vasf eylediler, hatta Monla Cami ilə hem-sebak olup sanayi-i-bediyyede nadire-i afak idügini söylediler. Hala ki, bu hakir tahkikinde ilm-i bedi u beyandakı kudreti irad olman ahsen eşarında olan selasetinden malumdur. Şairlikdeki fezaili dahi bu kıyasla mred-i hıredmendana meşruh u beyandur.”[135]

Əli ədəbiyyatımızdakı Cəlili[136] və Niyazi[137] mövzusunda da Lətifi və Aşıq Çələbi ilə zidd fikirdədir. Müəllif bu sahədə Lətifini açıq şəkildə tənqid etməsə də, onun səhv məlumat verdiyini hiss etdirir.

Əlinin Lətifi təzkirəsində səhv hesab etdiyi detallardan biri də Atayının Süleyman Çələbinin qardaşı sayılmasıdır. “Mevlana Latifi kavlince bunlar, nazım-ı mevlid-i Nebi olan Süleyman Çelebinün küçük biraderidür. Hala ki, büyük hata itmişdür. Zira ki, anlar Sultan Murad-ı kadim devrindedür. Mabeymindeki sinin-i müteaddideye tevfiki mümkün degildür”.[138]

Buna bənzər bir səhv məlumatın verilməsi Nəsimi bəhsində də ortaya çıxır. Lətifinin bu bəhsdə verdiyi bilgiləri araşdıran Əli belə davam edir. “Lakin Monla Latifinin bu kavli ve Sultan Muradı sani asrında Ruma geldi dimesi caizdür. Lakin Şeyh Şibli müridlerinden iken terk idüp Fazlullah-ı Hurufliye varup iradet getürdi didüginün sıhhati gayr-ı barizdür. Zira ki Şeyh Şibli ile Nesiminün zuhurı mabeyni nice yüz sale karibdür. Murad Şibli tarıkında iken rü -gerdan oldu dimekse min vech tevile karibdür”[139]. Qaynaq bəhsində olduğu kimi bu mövzuda da Aşıq Çələbi tərəfindən verilən məlumatların tənqidi “Künhül-əxbar”da ən böyük hissəni əhatə edir.

Aşıq Çələbinin 17 şair haqqında verdiyi məlumatlar da tənqidə

[134] Həmin mənbə, s.65, Ü. Ty. 5959 172a
[135] Həmin mənbə, s.43, Ü. Ty. 5959 135a
[136] Həmin mənbə, s. 51, Ü. Ty. 5959 169b
[137] Həmin mənbə, s. 3, Ü. Ty. 5959 33a
[138] Həmin mənbə, s.16, Ü. Ty. 5959 67a
[139] Həmin mənbə, s.18, Ü. Ty. 5959 67b

məruz qalmışdır. Əliyə görə bu şairlərdən altısı layiq olduqları yerdən yüksəkdə dəyərləndirilmiş, ustalıqla şişirdilmişlər. Bunlar Məlihi, Əmri, Fəgani Günahi, Lamii və Ədayidir. Fəgani ilə bağlı fikirlərə nəzər salaq: " Egerçe ki Mevlana Aşık mezburi ustadı fayık add idüp mekadir-i nasa adem-i şuurundan vasfında mübalağa itmişdür. Bir nev- heves edası na hemvar nihayet bazı sözleri bikr-i mazmünla nümudar iken medhinde ifrat tarıkına gitmişdür"[140]

Bura qədər verilən məlumat və nümunələrdən alınan nəticələr belədir. "Künhül- əxbar"ın iki yüz doxsanı müstəqil, on beşi isə başqa bioqrafiyalar içində olmaqla 305 şairi əhatə edən təzkirə hissəsi digər təzkirələrlə eyni səviyyədə olan bədii və dəyərli bir əsərdir. Əli özundən əvvəl yazılmış bir çox əsərdən istifadə edərək bu təzkirəni meydana gətirmişdir. Müasiri olan şəxslərdən yazarkən gəzib gördüklərini,eşitdiklərini məntiqi düşüncə və görüşləri ilə ifadə edərək əsərinə orjinal bir xarakter vemişdir. Tarixi araşdırmalara maraq göstərən Əli uzun bir hazırlıq mərhələsindən sonra çoxlu məlumatlara və mükəmməl nümunələrə söykənərək bu bioqrafiyaları qələmə almışdır. Demək olar ki, "Künhül- əxbar" müəyyən əsərlərin materiallarına söykənilərək diqqət və dəqiqliklə hasilə gəlmişdir. Dəyərli qaynaqları seçməkdə böyük bir səy göstərən Əli, bəzən bir mövzu üçün bir neçə qaynaqdan istifadə etmişdir.

*(*Yazı "Ege Universitesi Edebiyat Fakültesi Araştırma Dergisi" III.1984.s.87-120-də dərc olunub).*

ƏDƏBİYYAT TARİXİMİZİN QAYNAQLARINDAN OLAN ÖVLİYA ÇƏLƏBİ «SƏYAHƏTNAMƏ»Sİ*

Divan ədəbiyyatı, yaxud klassik türk ədəbiyyatı adlı milli ədəbi dəyərimizin bioqrafiya baxımından əsas mənbəyi şairlər təzkirələridir. Bu növlə yanaşı ədəbiyyat tariximizə qaynaqlıq edən başqa əsərlər də vardır. Nəşridən (v.1520) başlayaraq dəyərli tariximiz hesab olunan "Həşt-behişt", "Tacüt-təvarix", "Peçəvi tarixi", "Dəftəri-əxbar", "Naima tarixi", "Silahdar tarixi" kimi ümumi tarix kitabları ədəbiyyat tariximizin dəyərli mənbələri sırasındadır. Ancaq ümumi tarixlər arasında heç şübhəsiz ki, ən çox qeydə alınmalı nümunə, özündə əhatə etdiyi 305 şairlə Gelibolulu Mustafa Əlinin (1541-1600) "Künhül-əxbar"ıdır. Bunlardan başqa vəfayat kitabları, məslək mənsublarıyla bağlı təzkirələr, nəzirə və şeir məcmuələri, "Kəşfiz-zünun" kimi biblioqrafiya əsərləri, şəhər monoqrafiyaları və səyahətnamələr kimi əsərlər ədəbiyyat tariximizin əsasını təşkil edən qaynaqlar sayılır.

Mədəni tariximizin çox dəyərli əsərlərindən olan Övliya Çələbi "Səyahətnamə"sinin bu baxımdan araşdırılması bizə çox mühüm və zəngin məlumatlar verə bilər. Səyahətnamələr gəzilən, görülən yerləri təsvir etmək üçün qələmə alınsa da, belə əsərlərdə bu yerlərin ən mühüm ünsürü olan insan amili də ön plana çəkilmiş və onlara xüsusi diqqət yetirilmişdir. Xüsusilə bölgələrin yetişdirdiyi dəyərli insanlar həmin bölgənin havası, suyu, məhsulları və başqa təbii sərvətləri qədər maraq çəkmiş və səyahətnamə müəllifləri həmişə bu cəhətə xüsusi fikir vermişlər.

Səyahətnamələrdə şair bioqrafiyaları və ədəbi şəxsiyyətlərin həyatlarına dair məlumatların iki şəkildə əks etdirilməsi daha çox yayılmışdır.

Çələbi əsərinin birinci cildində Fateh Sultan Səlim dövründən başlayaraq Yavuz Sultan Səlim dövrünün sonuna qədər padşahların taxta çıxmasını əsas götürən bir sıralama aparmışdır. Bu təsnifatda şairlər Fateh dövrünün şairləri, II Bəyazid dövrünün şairləri və

Sultan Səlim dövrünün şairləri kimi başlıqlar altında verilmişdir. "Səyahətnamə"də nədənsə Qanuni və II Səlim dövrlərinin üstündən keçilərək, III Murad dövrünə aid 22 şairin həyatına da yer verilmişdir. Bu sıralama artıq bizim üçün yeni deyildir. Gelibolulu Əli də "Künhül-əxbar"da şairləri bu sıra ilə qələmə almışdır.

Çələbinin Əliylə bənzərliyi bununla bitmir. Fateh dövrü üçün Əli bəyin "Künhül-əxbar"da verdiyi şairlərin sayı 32 -dir. Bu rəqəm Övliya Çələbidə 34-dür. Buraya qeyd edilməyən şairlər Sənayi və Katibidir. Əlavə olunanlar isə Yazıçızadə qardaşlar, Katib Səlahəddin və Cəm Sultandır. Bunlar Əlidə başqa başlıqlarda qeyd edildiyi üçün, yenə də ondan alındığını hesab etmək olar. Bənzərliyə başqa bir misal kimi isə Təmannayı istisna olmaqla Əlinin qırx beş şəxsin adını verdiyi vərəqəni göstərmək olar. Yavuz dövrünün şairləri haqqında vəziyyət hər ikisində eynidir.

Övliya Çələbi bu bölmədə adlarını çəkdiyi şairlərin həyatları haqqında, klassik təzkiräçilərin verdiyi məlumatlara nisbətən, qısa məlumat vermişdir. Məlum olduğu kimi, klassik təzkiräçilik daha çox şairlərin doğum yeri, əsl adı, atalarının adı, təhsilləri, müəllimləri, məsləkləri, vəzifədə olduqları yerlər və ölüm tarixləri haqqında məlumat verirdilər. Sairin əsərləri və bunlarla bağlı dəyərləndirmələrlə birlikdə verilən nümunələr bioqrafiyanın ikinci hissəsini təşkil edirdi. Ancaq Çələbidə bu məlumatların heç birinə rast gəlinmir. Bunu onun bilərəkdən etdiyini Nəfi ilə bağlı bu sətirlərində açıqca görmək mümkündür: "IV Murad zamanında şairlerin ebyat u eşarını u əhvalini yazsaq, ayrı bir mücelled olur. Maksadımız isimlerini beyandır."(Seyahatname I c.s.669)[172]

Hər halda Çələbi tərəfindən çəkilən bu çərçivə birinci qrupda yer alan bütün şairlər üçün yararlı olmuşdur. Bir neçə misal göstərək: "Afitabı- Bursalıdır (I c. s.341), Cəlili Sultan II Bəyazid dövründə yaşamışdır Bursalıdır (I c.s 341), Qədiri Sultan II Bəyazid dövrü şairlərindən olub Ədirnəlidir (1c.s 341), Piri Əfəndi tarixi xəlvətidə aşiq-i şeyda bir can idi. Piri təxəllüsüylə aşiqanə pakizə əşarı vardır. Hakırda min altmış birdə əlini öpüb, şərəfli söhbətiylə müşərrəf

[172] Zuhuri Danışman nəşri, istanbul 1970. (Əsərin ilk üç cildi dəyərləndirilmişdir).

olmuşdum. Burada rəhmet-i rəhmana azim oldular" (III c. s.344)

Yenə bu qrupda yer alan, amma bu çərçivədən kənarda dəyərləndirilməsi lazım olan bioqrafiyalar da "Səyahətnamə"də yer almışdır. Ağşəmsəddinzadə Həmdi bunun parlaq nümunələrindən biridir. Haqqında bir neçə yerdə məlumat verilən Həmdi barəsində Çələbi belə demişdir : "Bu zatın pederlerinden sonra seccade-nişinligi kabul etmeyip, Yusuf u Züleyha nam eserinin telifiyle mükayyed oldugu balada mesturdur. Bu zat batnı maderde iken pederleri validelerinin karnına urup bre benim zi-akl-ı Aristo, zu-fünun, şair, musannif, müellif oğlum derlermiş. Hikmet-i Huda bu zat rahmı maderden müştak olduktan sonra sekiz yaşlarında iken divan sahibi olup, "Leyla vü Mecnun" kitabını ve Mevlid-i manzumu telif etmişlerdir. Ama "Yusıf u Züleyha"sı makdüri beşer degildir. Hakikaten feyzi ilahiye mazhar olan bir zekanın kelamıdır. Ayasofya-i Kebirin kubbesi ortasındakı altın top altında telif edilmişdir ki guya mucuze-gudur. Aşkı ilahi ile alude olan kimselerin kelimatı dürer barları tabii böyle sade olur. Bu zatın müddeti ömürleri 60 sene olup 853 senesinde vefat etmekle pederleri canibine defn edilmişlerdir. Yüz yetmiş kadar kütüb ü resail yazmışdır. Amma Kıyafetnamesi ile Yusifi Züleyhası çok memduhtur". (C.1. s.335-337: Cil s. 463)

"Səyahətnamə"də padşahların səltənət illərini əsas götürən təsnifatdan kənarda da şairlərə rast gəlmək mümkündür. Bunlardan bir qismi şəhər haqqında danışıldıqdan sonra həmin bölgənin yetişdirdiyi şairlər başlığı altında verilmişdir. Trabzon şairləri (Gınai və oğlu II c. s.85), Amasya şairləri (Muniri, Mihri) (II c. s.192), Ergiri (Bükayi, Fəganı, Nalişi, Sükuti, Fəzail (İstanbul, 2003, VIII c. s.302) və Manisalı on bir şair (İstanbul 2005 c III.s 44) bunların xarakterik nümunələridir. Əsərdə şair adlarının çəkilməsinin bir başqa şəkli də ziyarət yerlərinin verilməsinə görədir. Xüsusilə sufi şairlər barəsində yazılan yazılarda belə hala tez-tez rast gəlinir. Çələbi vilayətdə tapılan bir loğmanın məzarından bəhs edərkən, əgər sənətçidirsə onun şairliyindən də söz açır. Bir nümunə göstərək:" Piri Efendi (Silistrə ziyarətgahlarından bəhs edərkən) Kurşunlu Camii tekkesinde eş- şeyh hazrat i Piri Efendi nam zat-i arif-i billah ve aşık-ı agah kimse olup Murad han-ı Rabi ile Revan seferinde serdengeçti

ağası iken vücudunda zahm alud olmamış yeri kalmamıştır. Ahir terki-dünya edip Kastamonı Şaban Efendiden cihaz-i fakrı kabul ederek mürşid-i kamil olmuştur. İlahiyyat u rubaiatta Azmi-zadə Haleti Efendi kadar mutasavvifane penç beytləri vardır ki, hala mükemmel ü müdevvendir". (III c. s.336)

Bundan başqa digər şairlər də ayrı-ayrı formalarla "Səyahətnamə"də yer almışlar. Bir müddət Bosniyada olan Övliya Çələbi bu bölgədəki Çajnicə qəsəbəsinə də getmişdir. Çələbinin müasiri olan şair Məzaqi (v. 1677) buralıdır və qonağı olduğu şairi də əsərində işıqlandırmışdır. Bu cəhətdən "Səyahətnamə"də bəzi şairlər müxtəlif cildlərdə təkrar-təkrar dərc olunmuşlar.

Təzkirələrdə verilən bioqrafiyaların başlıca xüsusiyyətlərindən biri də zamana və şairin dəyərinə görə dəyişən nümunələr verilməsidir.Təzkirəçilər bu nümunələrin həcminə görə adətən yürütdükləri mühakiməni təsdiqləmək istəmişlər. "Səyahətnamə"yə bu baxış bucağından nəzər saldıqda fərqli quruluşla rastlaşırıq. Birinci cilddə söz açılan 115 şairdən sadəcə Əhdi, Haləti, Nihali və Nişaninin sonunda şeir nümunələri verilmişdir.

Halətini çıxmaqla bu şeir nümunələrinin qaynağı "Künhül-əxbar"dır.

Səyahətnamədə ən çox şeir və şair adına, haqqında söz açılan tarixlər vasitəsilə rast gəlinir.

"Səyahətnamə"yə bu cəhətdən qiymət verilərsə onun ən mühüm və dəyərli tərəfi burada verilən məlumatların doğru olub-olmaması məsələsidir. Təəssüf ki, Çələbinin söylədikləri, xüsusilə də bioqrafiya uzandıqca mənfiyə doğru yön almaqdadır. Bunlar bəzən ayrı-ayrı şəxslərlə bağlı məlumatların qarışdırılması formasında özünü göstərir. Məsələn, Lətifinin atası olan Həmdidən söz açılarkən, bu məlumat Ağşəmsəddinzadə Həmdiyə aid olan məlumatla qarışdırılmışdır. Xüsusi nəzərə çarpan səhvlər isə Çələbinin mənbələrdən aldığı məlumatlardan səhv şəkildə istifadə etməsidir. Əgər bu səhv məlumatlar yalnız "Səyahətnamə"yə daxil edilməklə bitsəydi, bunun üzərində bu qədər dayanmamaq da olardı. İş burasındadır ki, Çələbi səhv məlumatları verməklə kifayətlənməyib, onların

üzərində geniş təhlillər də aparır. Bununla da səhvlərin düzəldilməsi bir yana, onların içindən çıxmağa da yer qoymur. Buna ən xarakterik nümunə Nəcati – Səhi bəy əlaqələri haqqında olan hissəni göstərmək olar. Məlum olduğu kimi XV yüzilliyin böyük şairi Nəcati bəy (v. 1509) ilk təzkirə yazarı Səhi bəyi (v. 1548) gəncliyindən himayəyə götürmüş və yaşlaşdıqdan sonra Səhi bəy də ona dəstək olmuşdur. Bununla bağl Əli, Aşıq Çələbinin Nəcatinin əsərlərinə dair veridyi məlumatları araşdırarkən Səhini özünə şahid göstərərək yazır: "Alel-hüsus, Sehi beg merhum ki ömri varı gibi Necati begin xidmetinden ayrılmazdı. Bir nefes meclisinden cüda olmağı eyyam-ı ömründen saymazdı. Yani ol kitabını vechen minel vücuh yad etmemişdür"[173].

Buradakı əsassız ifadə Çələbinin əsərində bu şəkildə əks etdirilir: "Selis ü hoş ayende divanı ve nice telifatı vardır. Hatta Edirneli Sehi Begin kızını alıp badehü birçok evrak-ı perişan elde edip. Necati ismini Sehiye tebdil ile bir divan tertip etmişdir" (I c s.358). Eyni iddia Səhi haqqında məlumat verilərkən yenidən meydana çıxır: "Sultan II Beyazid zamanında yaşamıştır. Necati begin damadıdır.Varan-ı zatifanın güft ü guları üzre Sehi begin Necatinin kızını almaktan maksadı Necatinin evrakı perişanını almakdır sözü hala durub-ı meseldir. Sehi begin eşarı guya Necatiye necat vermiştir. Yahud, servi Sehi yabis iken eşarı Necati ile necat bulmuştur." (Ic.s.343). Bu məlumatın səhv olması bu şəkildə tənqid edilmişdir."Sadece Necati begin şiirlerinin daha hayatda iken, kazandığı şöhret ve bizzat Sehinin onun divanının ne dərəcə yayğın olduğunu anladan ifadesi isbata kafidir.[174]"Qaldı ki, bu damadlık hikayesi yaş itibarıyla da mümkün degildir."[175] (Faik Rəşat. Tezkire-i Sehi. s.142)

Söylədiklərimizi toplamış olsaq deyə bilərik ki, Övliya Çələbi "Səyahətnamə"si hər halda ədəbiyyat tariximiz üçün heç də az məlumat verməməşdir. Lakin əsərdə bəhs edilən şairlər haqqında geniş məlumatlar verilməmiş və adətən adlarının çəkilməsi və yaxud

[173] Künhül-əxbar"dakı bu ifadə məlum nüsxələrdə də fərqli yazılmışdır. "Künhü'l-ahbâr'ın Tezkire Kısmı", Ankara, 1994, s.165.

[174] Faruq Akün, "Sehî bey" maddesi İslâm Ansiklopedisi, X, 316-320. " Künhül-əxbar"da Nəcati Bəyin kürəkəni haqqında da məlumat vardır. Üniversitet Kt. Ty. 5959 v.172a.

[175] Faiq Rəşad «Tezkireyi Sehi" İstanbul 1315, s.142.

bir cümləlik məlumat ilə kifayətlənilmişdir. Sözü gedən şairlər üçün istifadə olunan mənbə göstərilməmiş, bunlar daima Övliyanın öz məlumatı kimi nəzərə çatdırılmışdır. Həm də verilən məlumatlar olduğu kimi deyil, qısaldılmış şəkildə təqdim olunmuşdur.

Bioqrafiyalarda Çələbinin əsas məqsədi yazının qeyri-adi olduğunu göstərmək olduğundan əsasən rəvayət formalı məlumatlara yer vermişdir.

Bu araşdırmaya başlarkən əsas marağım Övliya Çələbinin bizə Osmanlı dövlətinin uzaq nöqtələrindən, təzkiraçilərin tapıb üzə çıxara bilmədiyi yeni adlar və bioqrafiyalarla tanış edəcəyi ümidində idim. Bu qənaətim özünü tamamilə doğrulda bilmədi. Yalnız daha əvvəl yad edilənlərə bir neçə ad əlavə olundu. Bu adlar aşağıdakılardır: Bitlisdən: Cənnəti, Katib Çələbi və Molla Ramazan. Vandan: Mir Sipehri, Qəzvindən: Humayi, Kaşani, Pəncahı, Yari, Səbai, Vaizi və Xətai. Qeyd edim ki, bunlar yalnız adı çəkilməklə keçilən şairlərdir. Burdan da məlum olur ki,"Səyahətnamə"də təzkirələrə daxil olmayan məhdud sayda şairin adı verilsə də, onlar haqqında doğulduqları şəhərin adından başqa heç bir məlumat yoxdur.

Verilən bu xüsusiyyətləriylə yanaşı "Səyahətnamə" ədəbiyyat tariximiz üçün ətraflı məlumatlar verən qaynaqlardan biri hesab olunur.

(*Yazı "Türklük araştırmaları dergisi" İstanbul 1989. s.229-233-də dərc olunub).

II HİSSƏ

TƏZKİRƏLƏR İŞIĞINDA DİVAN ƏDƏBİYYATI

OSMANLI MƏDƏNİYYƏTİNƏ BAXIŞ*

Türk ədəbiyyatının XVI əsrdən başlayaraq XX yüzilliyin əvvəllərinə qədər uzanan təzkirəçilik yolunda demək olar ki, otuza qədər nümunə vardır.

Divan ədəbiyyatı, xüsusilə də divanı yaradan söz sahiblərindən bəhs edilərkən şübhəsiz ki, baş vurulacaq əsas qaynaq özündə əks etdirdiyi məcazi təsvirlər, mübaliğələr və bəzən doğru, bəzənsə yanlış məlumatları ilə birlikdə bu növün özüdür. Lakin qədim ədəbiyyatın bir qolu olmasına baxmayaraq, təzkirələr, təəssüf ki, çox az yayınlanmışdır. Təzkirələr üzərində aparılan araşdırmalar, haqqında yazılan əsərlər isə bundan da qat-qat azdır ki, bu da divan ədəbiyyatında şair və ədiblərinin təxmini şəkildə, çox vaxt bir-birinə zidd olan saylarla meydana çıxmasına səbəb olur.

Bu yazı, ikinci qrupda yer tuta biləcək təzkirə növü üzərində olan bir araşdırmanı əsas kimi götürərək divan şairlərinə doğum yerlərinə görə nəzər salmaqla, Osmanlı dövlətinin sənət və mədəniyyət üfüqlərini göz önünə gətirmək məqsədi daşıyır.

Bu məqsədlə Əbdürrəhman Hibrinin "Ənisül-müsamiri", Əhdinin "Gülşəni-şüəra"sı, Akifin "Mirat-i-şiri"i, Əli Mustafanın "Künhül-əxbar"ı, Arif Hikmətin təzkirəsi, Asimin "Zeyl-i zübdətül-əşar"ı, Aşıq Çələbinin" Məşairüş-şüəra"sı, Bəliğ İsmailin "Nuxbətül-əsar"ı və "Guldəstəyi-Riyaz-ı İrfan"ı, Bəyani təzkirəsi, Əsrar Dədənin "Təzkireyi-Şüərayi Mevləviyyə"si, Faizinin "Zübdətül- əşar"ı, Fatinin "Xatimətül-əşar"ı, Güftinin "Təşrifatüş-şüəra"sı, Həsən Çələbinin təzkirəsi, Lətifi təzkirəsi, Mücibin təzkirəsi, Ramizin "Əbəbi- zurafa"sı, Rza təzkirəsi, Riyazi təzkirəsi, Səfayi təzkirəsi, Səlim təzkirəsi, Səhinin "Həşt-behişt"i, Şöfkətin təzkirəsi və Yümninin təzkirəsindən ibarət 27 əsər, bir sözlə Türk ədəbiyyatı Anadolu bölgəsi üzrə ilk təzkirə olan Səhinin "Həşt-behişt" indən tutmuş, klassik təzkirə növünün son nümunəsi hesab olunan Fatinə qədər bu sahədə yer alan bütün əsərlər gözdən keçirilmişdir. Şübhəsiz ki, bu yazıdakı çox çətin araşdırma, bundan əvvəl hazırlamış olduğum və yaxınlarda işıq üzü görəcək "Təzkirələrə görə Divan Ədəbiyyatı

İsimlər Sözlüyü”[176] əsərinin bu mövzu üzrə işlənməsinin yekunu olaraq ortaya qoyulmuşdur.

Doğum yeri ilə bağlı məlumatlar təzkirəçilərin təkidlə üzərində dayandıqları və önəm verdikləri əsas məlumatlardır. Əsərlərə daxil edilən şairlərin çoxu haqqında təzkirəçinin malik olduğu məlumatın həcminə görə geniş və yaxud qısa şəkilldə məlumatların verilməsi mütləq xarakter daşıyır. Demək olar ki, bu tipli yazıların önündə şairin doğulduğu məmləkətin adı gəlir. Bu ad və ya məlumatlar “Mevlidi Filibe” ya da “Edirnelidür”, “Rumeliden İlıca nam kasabadan”, yaxud da “Vatan-ı aslisi Aydın ilidür, kadimi Geliboluludur” kimi müxtəlif ifadələrlə verilir. Bəzən də “Galatalı Haydar”, “Füzul-i-i Bağdadi” kimi təxəllüslərlə anladıla bilir.

Az təsadüf edilən bir hal olmaqla coğrafi ərazilərə görə şairin kimliyinin bəlli eidirməsi ilə bərabər, bəzi doğum yerlərinin sosial tərəflərini, mədəni zənginliklərini və təbiətini təsvir edən epizodlara də rast gəlinir.

Müxtəlif təzkirəçilərin eyni şəhərlərə aid olan adları öz əsərlərində fərqli şəkildə göstərməsi, təzkirəçilikdə ən çox rast gəlinən haldır. Bu halın bir səbəbi tzkirəçinin əlindəki məlumatın səthi olmasıdırsa, başqa bir səbəbi yerliçilik təşəbbüsüdür. Bu mövzuda olan səhvlər təzkirəçilər tərəfindən həmişə narazılıqla qarşılanır. Onlar bu sahədə bir-birini heç bir güzəşt olmadan, ciddi şəkildə tənqid edirlər. Lətifinin əsərinə “Kastamonu-namə” adının qoşulması da bu mövzudakı həssaslığı göstərən bir nümunədir.

İndi Osmanlı ərazisində yetişən şairləri aid olduqları bölgələrlə birlikdə ümumiləşdirərək, onların sayını nəzərdən keçirək:

Əcəm	– 4	Akka	–1
Adana	– 9	Akkirman	–3
Əfşar	– 1	Ağşəhər	–5
Ahıska	– 1	Ağsaray	–3
Akçahasar	– 1	Alacahasar	–1
Akhisar	– 3	Alanya	–1

[176] Bu əsər sonradan nəşr olundu. (Hazırlyanlar: Haluq İpekten, Mustafa İsen, Recep Toparlı, Turgut Karabey, Naci Okçu), Ankara1988.

Alaşəhər –1
Amasya –17
Ankara –15
Antakya –8
Antep –24
Aydın –17
Aydıncık –1
Aydonat –1

Bafra –1
Bağdad –35
Balçıq –1
Balıkəsir –7
Bayburt –1
Bədəxşan –2
Belqrad –11
Bəlx –5
Bergama –3
Besni –2
Bestam –1
Bəyhisar –1
Bəyşəhər –1
Bitlis –1
Bolu –19
Bolvadin –11
Borlu –2
Bosniya –28
Buxara –21
Budin –1
Burdur –1
Bursa –156
Bozok –1

Çankırı –2
Çorlu – 7
Çorum –2
Dağıstan –2
Darəndə –3
Darıca –1
Debre –1
Dehlev –1
Dərgüzin –2
Dəmirhasar –1
Dənizli –2
Dimətoka –2
Diyarbakır –40
Drama –2
Dobruca –1

Ədirnə –150
Əyriboz –3
Əlbasan –2
Almalı –1
Ərdəbil –1
Ərzincan –1
Əskişəhər –2
Əskizağra –1
Əvsil –1
Fərəcik –2
Fərhat –1
Filibə –16
Florina –1
Cəlibolu –30
Cəvgəli (Kosteye)– 1
Ceylan –1
Ərzurum –16
Ceyve –1
Cirit (Kondiye) – 4
Gecdüvan –1
Collü Kəsriyə–1

Hacıoğlu Pazarı–1
Həmədan –5
Həmgümüş –1
Hələb –9
Xarəzm –8
Harput –2
Hayrabolu –1
Herat –2
Xorasan –4
İsparta –19
İnebaxtı –2
İnəbolu –1
İsfahan –3
İskilip –2
İstanbul –609
İşkodra –1
İştip –4
İzmir –4
İzmit –2
İznik –11
Kabil –2
Qahirə –3
Qalxandələn–4
Qarabağ –1
Karaferiya –6
Qarahasar –6
Qaratova –2
Qars –1
Kastamonu–36
Kavala –1
Kayseri –11
Qazabad –1
Qəzvin –7
Kefe –5
Kərbəla –1
Kipr (Lefkoşe)– 6
Kırım –9
Qırxlarəli –3
Qızanluq –1
Kili –1
Kilis –5
Kilitbahir –1
Konya –69
Köstendil –2
Küfe –2
Kütahya –27
Lapseki –1
Lazkiyə –1
Ləknehor –2
Lofça –1
Malatya –2
Manastır –17
Manisa –20
Maraş –8
Mardin –2
Mavəraünnəhr – 1
Mərzifon –7
Midilli –3
Mora –8
Mostar –3
Muğla –5
Musul –5
Nazilli –2
Nevşəhər –4
Niğbolu –5
Nigdə –9
Novabərdə –22
Peçuy –1
Pravadi –1

Kərkük –4
Priştine –6
Prizren –7
Razgrad –1
Rəvan –1
Rodor –1
Rodos –1
Rumeli –17
Ruzçuk –4
Rusenk –1
Safranbolu –1
Sakız –2
Samsun –6
Saraybosna –26
Saruhan –9
Seferihasar –1
Selanik –16
Səmadirək –1
Səməndre –3
Səmərqənd –9
Sənəndəc –4
Sərəz –21
Silistre –1
Simovna –1
Sinop –9
Sivas –3
Sofya –16
Sultaniyə –1

Şam –10
Şərqiqarahasar–2
Şəmhili –1
Şiraz –4
Şirvan –5
Şumni –5

Daşlıca –1
Tatarpazan –1
Tayfur –1
Təbriz –7
Tərkidag –6
Tarbzon –15
Tırhala –5
Tırmova –1
Tiflis –1
Tıre –8
Tokat –14
Tosya –4
Türküstan –2
Ujice –4
Urfa –8
Urla –1
Üsküp –18
Van –5
Vardaryenicəsi – 20
Vizə –3
Vəzgol –2
Vidin –2
Yanbolu –2
Yanya –3
Yenibazar –5
Yenişəhər (Fənər) – 9
Zara –1

Burada adları çəkilən 211 yerə əslində bir neçə ad da əlıavə etmək mümkündür. Məsələn, təzkirələrdə ayrıca yer adı kimi göstərilən Üsküdar, Qalata, Əyub kimi yerlər İstanbul içində, Larendə, Karaman əsilli şairlər isə Konyanın içində yer alır. Bundan başqa Canik Ladiklə birlikdə, Samsun, Qırxkilsə isə bugünkü adıyla yazılmış Qırxlarəli şəklində işlədilmişdir. Burada əlifba sırası ilə verilən siyahı, ən çox şair yetişdirən ərazilər baxımından bu şəkildə göstərilə bilər:



Bu təsnifatda verilmiş rəqəmlər ədəbiyyat tarixində ən çox şair yetişdirən şəhərin birmənalı şəkildə İstanbul olduğunu göstərir: təxminən üçdə bir hissə. Sıralama doğum yeri nəzərə alınmadan aparılarsa, təbii ki, bu rəqəm İstanbulun lehinə sürətli şəkildə artacaqdır. Bir sözlə, İstanbul bu gün olduğu kimi, keçmişdə də mədəni həyatımızın şəriksiz mərkəzi olmuşdur.

Əhatə etdiyi 156 şairlə sıralanmanın ikinci yerində gələn Bursanın bu özəlliyi isə şübhəsiz ki, onun dövlətin ilk paytaxtı olmasından, daha sonrakı illərdə də əhəmiyyətli mədəniyyət mərkəzlərindən biri olmasından irəli gəlir. Amma bildirmək gərəkdir ki, Bursa Osmanlı

dövləti zamanı ilk illərdə əldə etdiyi yüksəlişi get-gedə itirmiş və XVI əsrdə yetişdirdiyi qırx şairi eyni formada sonrakı illərə apara bilməmişdir.

Bursaya dair söylənilənləri bütünlüklə Ədirnə üçün də təkrarlamaq mümkündür. Osmanlı dövlətinin ikinci paytaxtı və Rumelidəki şəhərlərin gözəli olan Ədirnə XVI yüzilliyin sonunda Səhi, Lətifi və Aşıq Çələbi təzkirələrinə əlli şairlə daxil olduğu halda, sonrakı illərdə bu sayın xeyli azalması görünür. Bunun səbəbini isə şəhərin aşağı düşən siyasi və coğrafi vəziyyəti ilə izah etmək olar.

Dördüncü sırada yer alan Konya, doqquzuncu sırada yerləşən Kütahya, bu təsnifatda yeri on dördüncü olan Manisə, on doqquzuncu Amasya və iyirmi səkkizinci Trabzon isə bu yerlərinə görə XVI yüzilliyin sonuna qədər Osmanlı idarəçiliyində şahzadə sancağı mərkəzi olduqlarına borcludurlar. Həqiqətən də, İstanbul xaricində sənətkarları ən gözəl şəkildə qoruyub hifz edən şahzadə valilər adı çəkilən istiqamətlərdə çox mütəşəkkil, qaynar bir ədəbi mühit yaratmışlar və ətraflarına çoxlu sayda sənətçi, xüsusilə də şair toplamışlar. Məsələn, bu şəhərlərdən Manisə XVI yüzillikdə yeddi, Amasya on, Trabzon beş şairlə təmsil olunmuş, lakin sonrakı illərdə bu ədəbi canlanmanı eyni sürətlə davam etdirə bilməmişlər. Yenə də bu sıralamada altıncı yerdəki Kastamonu, iyirmi doqquzuncu yerdəki Tokat, otuz birinci yerdəki İznik və eyni qaydada İspartayla Kayseri yuxarı sıralarda yer almalarına görə qədim mədəniyyət mərkəzi olmalarına borcludurlar. Necə ki, Kastamonu sahib olduğu 36 şairdən 23-nü, İznik 11 şairdən 10-nu XVII yüzillikdən əvvəl yetişdirmiş və bundan sonrakı təzkirələrə düşə bilməmişlər.

Diyarbəkir, Bağdad, Üskup, Ərzurum, Selanik, Sofya, Manastır və Belqrad isə dövlətdə irəlidə gedən mədəniyyət mərkəzi kimi öncüllüklərini qoruyaraq hər zaman bu siyahının yuxarı sıralarında yer almışlar.

Osmanlı dövlətində dövrün idarə sistemiylə birlikdə, genişlənib inkişaf edən elm və mədəniyyət sahəsinində mədrəsələrə ayrıca bir yer ayırmaq lazımdır. Fateh Sultan Məhmədin İstanbulu hər cəhətdən islam dünyasının mərkəzi etmək arzusunun nəticəsi olaraq bu şəhərdə tikdirdiyi böyük mədrəsə və onun işlərini davam

etdirən padşahların, xüsusilə də Qanuni Sultan Süleymanın açdırdığı müxtəlif mədrəsələr elm və mədəniyyət sahəsinin əsas nüvəsini ucqarların uzaq və dağınıq mərkəzlərindən götürərək bir neçə böyük mərkəzdə cəmləşdirdi. Lakin bununla belə, yuxarıda adı çəkilən şəhərlər heç vaxt öz mədəni əhəmiyyətlərini itirib, şöhrətlərini azaltmadılar. Bunlardan yalnız Üsküp XVII əsrə qədər əhəmiyyətli bir şair potensialına malik olub, digərləri bu yüzillikdən sonra daha çox şöhrət qazanmış və yaxın vaxtlara qədər bu şöhrətlərini saxlamışlar.

XVII əsrin əvvəllərinə qədər heç bir şairə sahib olmayan Ankara isə on beş şairə ancaq XVIII və XIX yüzilliklərdə yetişdirdiyi on beş şairlə sahib ola bilmişdir.

Bu siyahıda otuz şairə malik olan Gelibolulu bu gözəl yeri XVI əsrin sonlarına qədər davam edən hərbi və coğrafi potensiyalına görə əldə etmişdir. Uzun müddət Türk donanmasının mərkəzi olması ilə yanaşı, ilk əcəm oğlanları qışlağının burada yerləşməsi sayəsində həmin yeri əldə etmişdir.

Beləliklə bu otuz şairin 11-i XVI yüzilliyə qədər yetişmiş şairlərdir.

Bolu da, yaxınlığındakı iki mühüm mərkəz- Göynük və Geredə ilə birlikdə mədəniyyət coğrafiyasında özünəməxsus yer qazanan şəhərlərimizdəndir. Lakin Antep, Sərəz, Aydın, Fillibə, xüsusilə də Vardar Yenicəsi yetişdirdiyi çox saylı şairlə heyrət doğuran və izahı olmayan bir mənzərə ortaya qoymuşdur. Məsələn bu gün Yunanıstan sərhədlərinə daxil olmuş Xəyali, Heyrəti, Üsulı, Sirri, Günahi, İlahi, Agəhi, Yusif-i Sinə-çak, Qəribi, Razi, Dəruni kimi çoxu birinci dərəcəli şairi yetişdirən, həm də mədəniyyət mərkəzlərindən uzaq olan Vardar Yenicəsində önəmli şairlər ocağının yaranması ilk baxışdan təəccüblü görünsə də, şəhər bu vəziyyətinə görə akıncı ailəsi Evrenesoğullarının mərkəzi olmasına borcludur.

Burada, yeri gəlmişkən, ölkə və geniş coğrafi əraziləri əks etdirən bəzi yer adlarına da toxunmaq məqsədəuyğun olardı. Məsələn, Əcəmi bəsit mənada götürsək İran və iranlı mənasını verir. Tarixi dövr içində isə bu söz ərəb olmayan şərq milləti mənasını daşıyır. Ancaq təzkirəçilər bu sözü köhnə İran imperatorlarının hakimiyyəti

altında olan müxtəlif qəbilə və icmalar üçün istifadə etmişlər. Yəni bu söz etnik baxımdan daha çox coğrafi ərazi anlamını özündə ehtiva etmişdir.

Bosniya sözü isə bu günki Yuqoslaviya Federal Cümhuriyətini əmələ gətirən Bosniya-Hersoqovina Cümhuriyyətinin bir hissəsi olaraq, təzkirələrin əksəriyyətində Sarayevo, ya da da onun yaxın əhatəsi kimi işlədilmişdir.

Çox tez-tez qarşımıza çıxan "Rum" kəlməsi başlanğıcda Anadolu, lakin XVI yüzildən etibarən Osmanlı ölkəsi mənasında işlədilir.

Rumeli əsasən Trakyadan Balkanlara qədər uzanan, Osmanlılar tərəfindən fəth edilmiş türk bölgələri anlamında olub, demək olar ki, bu gün də öz köhnə mənasını daşımaqdadır.

Yekunlaşdırmalı olsaq deyə bilərik ki, şəhər monoqrafiyası adlandıra biləcəyiniz yazılar bizdə demək olar ki, yox dərəcəsində hesab ediləcək qədər azdır. Beləliklə biz, bu günkü torpaqlarımızda yaşayan, eyni zamanda sərhədlərimizdən kənarda yazıb yaratmış şair və yazarlarımızla, onların əsərləri haqqında olan araşdırmalarla əyalət şairlərimizin klassik ədəbiyyatımızda hansı yerə sahib olamalrını ortaya qoyacaq və nəyin hansı sahədə orijinal olduğunu bəlli edəcəyik.

Bu fəaliyyətin verəcəyi əsl fayda isə dilimizin bayraqdarları olan ustad şairlərimizlə, həmin ucqarlarda uzun illər mövcud olduğumuzu əyani şəkildə isbat etməkdir. Onların indi sərhədlərimizdən kənarda qalan torpaqlarımızda doğulub yaşamış olmaları, o torpaqların tarixini, ərazisini, insanlarını qələmə almaları, bizim o bölgələrdəki ən dəyərli tapıntımızdır. Məsələn, bugünkü Bolqarıstan sərhədləri içində təzkirələrimizdə göstərilən 80-ə qədər Sofyalı, Filibəli, Niğbolulu, Şumnulu və bu kimi şəhərlərdə doğulmuş türk şairlərinin olduğuna nəzər saldıqda, o torpaqların sadəcə bu gün deyil, tarixən lap qədimdən türkcənin hakim olduğu yerlər olması rahat şəkildə meydana çıxır.

*(*Yazı "V Millətlərarası Türk Konqresi", İstanbul 23-28 sentyabr 1985, "Tebligler" s.145-152 –də dərc olunub*).

DİVAN ŞAİRLƏRİNİN TƏSƏVVÜF VƏ TƏRİQƏT ƏLAQƏLƏRİ *

Yuxarıdakı əsas başlıq altında verilən seriyanın üçüncü bölməsi olan bu araşdırma[177] əvvəlki nümunələrə oxşar cəhətdən qələmə alınmışdır. Bu məqsədlə Səhi bəyin "Həşt-behişt"indən başlayaraq, klassik təzkirə növünün son nümunəsi olan Fatinin "Xatimətül-əşar"ına qədər, çoxu əlyazma şəklində olan 27 əsər araşdırıldıqdan sonra əldə olunan məlumatlarla divan şairlərinin təsəvvüf, xüsusilə də təriqət əlaqələrini göstərməyə çalışmışıq[178]. Məlum olduğu kimi Türklərin islamiyyəti qəbul edib müsəlman olmalarından sonra XI yüzillikdən XX yüzilliyin əvvəlinə qədər davam edən və təkkələrdə mütəsəvvüflər, mədrəsələrdə isə alimlər vasitəsiylə ortaya qoyulan ədəbi məhsullar dini və təsəvvüfü bir xarakter daşıyırdı. Xüsusilə başlanğıcda hər zümrədən olan insana qapılarını açan təkkələrin bir qismi, sonrakı dövrlərdə daha çox saray və mədrəsə dairəsində inkişaf edib yayılmağa başlamışdır. Əslində divan ədəbiyyatında təsəvvüf, iki fərqli xüsusiyyət daşıyan şairlər arasında dəyişik cəhətlərlə özünü göstərir: Həllac-ı Mənsur, Nəsimi və İbrahim Hakkı kimi təsəvvüf həyatını yaşayan şairlər birinci qrupu təşkil edirlər. Bunlar eyni zamanda şeyx və ya mürşiddirlər. Başqa sözlə desək, onların şairlikləri mütəsəvvüf olmalarından sonra gəlir. İkinci qrupa daxil olan şairlər isə təsəvvüfün zəngin terminləri, məcazları və alleqorik dünyalarından yararlanan şairlərdir.

Ayrıca təsəvvüf başqa mövzulara nisbətən ilhama son dərəcə yaxın olan bir mövzudur. İkinci qrupdakı şairlər üçün şeir və sənət ön sırada yer alır. Burada təsəvvüf şeiri meydana gətirən duyğu və fikirdən ikincisini təmsil edir. Təsəvvüf bu zümrədəki şairlərin fikir və duyğularında özünə yer tutmuş və şeirin içində əriyib itmişdir.

[177] Mustafa İsen, "Tezkirelerin İşığında Divan Edebiyatına Bakışlar: I.Osmanlı Kültür Coğrafyasına Bakış", V. Millətlərarası Türkoloji Konqres, çıxışlar, İstanbul 1985, s.145-152.

[178] Çalışma, "Tezkirelere Göre Divan Edebiyatı İsimler Sözlügü" (Ankara 1988) adlı əsərdən qaynaqlanır.

Bir Mövləvi şeyxi olmasına baxmayaraq, Şeyx Qalibin şeirlərində təlqinedici bir hava tapmaq mümkün deyildir. Başqa şəkildə düşünüldükdə təsəvvüf bütün divan şairlərinin şeirlərinə rənglər qatmaqla, şairlər onun məcazlarından, mənalı zəngin deyim, ifadə və terminlərindən geniş şəkildə istifadə etmişlər.

Şairlərin təsəvvüfi düşüncə və həyat tərzləri təzkirəçilərin əsas diqqət yetirdiyi sahələrdəndir. Təzkirəçilər bu kitaba daxil olan 3182 şairdən 320-si haqqında təriqətçi olmaqlarıyla bağlı verdikləri məlumatlarda onların təriqətə bağlı olduqları göstərilir. Bu rəqəm Massignonun üzə çıxartdığı 3%-dən bir qədər aşağıdır.[179] Amma buradakı say təriqəti bəlli olan şairlər üçündür. Təsəvvüflə əlaqəsi olub təriqəti göstərilməyən şairləri bura əlavə etmiş olsaq bu say xeyli artacaqdır.

Təsəvvüfi yaşayış insanın öz seçmiylə bağlı bir fəaliyyət olduğu üçün təzkirəçilər ancaq bu sahədə tanınmış olan şairlərdən söz açır və bu mövzuyla bağlı məlumatlar verirdilər. Yəni təzkirələrdə verilən məlumatlar əsasında şairlərin təsəvvüf görüşləri, inam və yaşayışlarıyla, onların şairlikləri, şeirləri arasında əlaqə yaradılmır. Xüsusilə yuxarıda qeyd etdiyimiz təsnifata əsasən əvvəl mürşid, sonra isə şair olaraq tanınan şəxslərdən bəhs edilərkən, bir müqəddəslik ifadəsi olaraq onlara şairlik yaraşdırılmır.

Yazdıqları şeirlər isə fərqli bir dəyərləndirməyə uyğun tutularaq "təbərrükən", "təyəmmümən" ya da "tənəzzülən" şeir yazdıqları ifadə edilir. Lətifi təzkirəsinin başlanğıc bölməsinin şeyx şairlərə həsr olunması və burada adı çəkilən on üç şeyx şairin adlarından əvvəl söylənən "Kıdvetül-arifin vel-etkiya ve ümmetül-aşıkın vel evliya ani Hazreti Aşık Paşa"[180] kimi vəsf edilməsi bunun kiçik bir nümunəsidir.

Təzkirələrdə ictimaiyyət tərəfindən təqdir edilən və hakim ideologiya ilə uyuşan təsəvvüf həyatı yanında bu tərz düşüncələri və davranışı yaxşı qarşılanmayan şairlərə də rast gəlinir. Xüsusilə gündəlik yaşam tərzində çox əhlikef bir görünüşlə qarşımıza çıxan

[179] İslam Ensiklopediyası, C. 12/1, s.3.
[180] "Latifi Tezkiresi", İstanbul 1314, s.44.

Aşıq Çələbi, süni inancına fanatlıq göstərilənlərin hər sözünü cəfəng saymaqdan çəkinmirdi: "Şeyx İbrahimilere isnad olan ilhad tohmın evvel ol (Usuli) ekmişdür ve Nesimat türretahından getirdügi nihal-i nihad-ı dalali ol dikmişdür. Nice onup bitmeyecekler gelüp ol tohmı ekmege başlamışlar ve nice berhordar olmayacaklar ol nihale budaklar aşılamışlardır. Hak teala tohumların çürüde ve dikdiklerin kuruda"[181].

Göründüyü kimi, belə hallarda təzkirəçi bəzən öz düşüncələrini də yazıya qataraq şairi alçatmağa girişir.[182]

Şairin təsəvvüf həyatına girişi, bu girişə təsir edən səbəblər, əgər bir özəllik daşıyırsa, təsəvvüfə yönəlmədən əvvəlki həyatı, keçirdiyi ruhu depresiyalar, tərki-diyar olması, bu yaşam tərzinə başlarkən müraciət olunan şəxslər və yollar, keçirilən mərhələlər və əldə olunan nəticələr təzkirələrin bu mövzuda diqqət etdikləri məsələdir.[183]

Böyük mütəsəvvüf şəxsiyyətlərin əhatəsində toplanaraq təsəvvüfün təşkilat və mərasim sistemi halına gəlməsi nəticəsində yaranan təriqətlər, incəsənətin inkişafında çox önəmli rol oynamışdır. Hər növ fikir və həyəcan yüksəlişini özünə mövzu edən ədəbiyyat, təsəvvüfi həyəcan üçün də bir ifadə vasitəsi olmuş və ürəklərdə yanan müqəddəs atəş şeir vasitəsilə dilə gəlmişdir. Təzkirəçilərin bizə verdikləri məlumatlara əsasən şairlərin təriqətlərinə görə bölünməsi aşağıdakı əlifba sırası ilə verilmişdir:

Bayrami: Arifi (v. 1593), Eşqi (v. 1576), Əmini (v. 1663), Hümməti və Sidqi (v. 1703)

Bektaşi: Abdi (v. 1644), Bəzmi (v. 1617), Kamil (v. 1657), Kavli (v. 1623), Nədimi, Səmai (v. 1583) və Üzzeti (v. 1668)

Celveti: Ənis Dədə, Talıb (v.1680), Ümidi, Xaki

Halvəti: Abdi (v. 1703 və ya 1705), Əli, Bəzmi (v. 1723), Fəzli (v. 1690), Fənayi (v. 1703), Fəthi (v. 1695), Feyzi (v. 1690), Hafiz (v. 1687), Həsən (v. 1677), Qaımi (v.1680),Kəlami, Kəsri, Kəşfi, Mənəvi (v. 1702) Müstakim (v. 1708), Nəqşi (v.1702), Nəsuhi, Nazim, Nəzmi (v. 1700), Nuri (v. 1688), Rəsmi (v. 1679), Sidqi (v.

[181] Aşıq Çələbi, "Meşâirü'ş-şuarâ" (yay. M.Owens), London, 1971, v.46a.
[182] Harun Tolasa, 16. "Yüzyılda Edebiyat Araştırma ve Eleştirisi". İzmir 1983, s.166.
[183] Həmin əsər, s.162.

1747), Uyuni, Vəhdəti, Zəfi və Zəkayi.

Həmzəvi: Abdi (v. 1660)

Hürufi: Nəsimi

Gülşəni: Arif (v. 1724), Arifi (v. 1552), Büləndi, Gülşəni (v. 1688), Gülşəni, Hamidi, Həsən Hüsami (v. 1594), Hüsami, İlahi, Rindi (v. 1679), Səmai (v. 1586), Şifai (v. 1633), Sifai (v. 1664), Üsuli (v. 1538), Yusif-i Sinəçak (v. 1546), Zəifi (v. 1631)

Qədiri: Emin (v. 1750), Emni (v. 1698), Halət (v. 1765), Kami, Ləbib(1736), Medhi.

Mövləvi: Aba-püş (v. 1485), Əbdüləziz Əfəndi (v. 1737), Əbdülhəlim, Əbdulvahab, Abid (v. 1586), Adəm Dədə, Adil, Adni (v. 1683), Ağazadə (v. 1652), Əhməd (v. 1701), Ahi, Sadiq, Alayı, Alim, Ani (v. 1640), Ani, Arami, Argün (v. 1373), Arif, Arif, Arif Əfəndi (v. 1725), Ərşi (v. 1592), Arzi(1664)), Asaf (v. 1829), Ayşı (v. 1650), Əziz (v. 1834), Əzizi Dədə (v. 1824), Əzmi, Əzmi Əfəndi, Bəhri Dədə (v. 1566), Bədərəddin (v. 1397), Bekayi, Bərri, Bostan Çələbi, Bostani Sani, Cəmal, Cevri (v. 1654), Cününi Əhməd Dədə, Dali (v. 1601) Danis, David Dədə, Dərviş (v. 1572), Dərviş (v.1592) Dərviş (v. 1645), Dərviş Çələbi (v. 1672), Divani, Ədib Ənis (v.1734), Ənisi, Əsif, Əsrar Dədə (v.1796), Fakir (ö.1715), Fakiri (v.1501), Fani Dədə (v.1504), Fasih (v.1699), Fazil, Fədayı (ö.1577), Fənayı, Fənni (v. 1715), Fərrux (v.1591), Fərruxi (v.1640), Fevri (ö.1571), Feyzi (v.1807), Feyzi, Firaqi (v.1742), Galib (v.1798), Ganəm, Qəribi (ö.1547), Gavsi (v.1697), Gədayı, Günahi (v.1699), Günehi, Həbibi (v.1644), Hafiz (v.1543), Hafiz, Hafiz, Haləti (v.1603), Xalis (v.1709), Həmid (v.1832), Handi (v.1630), Həsib (v.1709), Həyati (v.1640), Həzin, Həmdəmi (v.1679), Heyəti, Xızır Paşa (v.1517), Xızrı, Hicazi (v.1699), Hilmi, Hulus, Xosrov Çələbi, Hüdayi, Hüsam (v.1688), İlmi (v.1611), İlni, İlmi, İsməti (v.1665),İlyas Çələbi, Kamil (v.1657), Kani (v.1791), Qasım (v.1640), Katibi (v.1667), Kəmal (v.1601), Kərim, Külahi (v.1640), Külhani, Ləli, Ləbib (v.1714), Lisani (v.1619), Loğman Dədə (v.1504), Lütfi (v.1698), Lətfi(1738), Manəvi (v.1572), Manevi(1592), Məhrəmi (v.1543), Məzlum (v.1661), Məhməd, Məlami (v.1553), Meyyal (v.1669), Məzaqi (v.1677), Muxlis (v.1692), Müqim (v.1717), Munis (v.1732), Naci

(v.1611), Nayi (v.1729), Nasir (v.1820), Nəzmi (v.1713), Nəcahi v.1591), Nəhci (v.1708), Nəsib (v.1714), Nəyyir (v.1800), Nəşati (v.1674), Nigahi (v.1534), Nisari (v.1666), Niyaz (v.1778), Niyazi, Nuri (v.1786), Nutki (v.1727), Nutki(1794) Pənahi (v.1564), Pərvanə (v.1564), Pərvanə (v.1543), Piri (v.1640), Rahmeti (v.1620), Rasih, Rəcəb (v.1688), Rəsimə (v.1803), Rəşki (v.1691), Ruhi (v.1605), Rusuhi (v.1631), Sabir (v.1680), Səbuhi (v.1645), Sadiq, Sadıqi (v.1530), Sədri, Səfayi(v.1534), Səfayi (v.1688), Səffi (v.1530), Saffi (v.1688), Səfi (v.1530), Sahib 1718, Saib, Saida (v.1727), Saqib (v.1735), Salik (v.1623), Sami (v.1688), Samti (v.1631), Səlim (v.1725), Səmahat (v.1789), Sənayi (v.1543), Sərvi, Seyyid (v.1775), Sidqi (v.1640), Siyahi (v.1711), Suni (v.1592), Suzi (v.1676), Şah Çələbi (v.1592), Şah Məhməd (v.1378), Şahidi (v.1550), Şahi, Səfi (v.1671), Şəfiq, Şəhidi (v.1671), Şəkib (v.1722), Şəmi (v.1530), Şeyda Şeyxi (v.1723), Şeyxi (v.1738), Şeyxi, Şifayi (v.1668), Şinasi, Şuhudi Dədə (v.1591), Şuuri (v.1582), Tabı, Tahir, Taib (v.1714), Talib (v.1698), Talibi (v.1717), Təriqətı (v.1688), Təvəkkül, Toganı, Übeydı (v.1586), Üzləti (v.1668), Ünsi, Üveys, Vahid, Vasiq (v.1529), Vəcdi (v.1669), Vəfayi (v.1582), Vəhbi (v.1700), Yəhya (v.1688), Yakin (v.1592), Yusif (v.1670), Yusifi Sinəçak (v.1546), Zafi, Zəmiri Zeynəddin (v.1398), Zihni, Zivər (v.1793), Ziyad, Zünnun.

Nəqşi: Agah (v.1715), Ata, Əmin (v.1745) Ənvəri Dədə (v.1546), Hakkı (v.1772), Xalis (v.1742), İlahi (v.1490), İlhami, İsmət (v.1727), İzzət, Lamii, Mütid (v.1726), Nazima, Neşet (v.1807), Ratib(1756), Ratib (v.1800), Resa (v.1700), Rza, Rzayi (v.1579), Rüşdi, Sadəddin (v.1787), Saida, Süzi, Süruri (v.1562), Şəmsəddin Buxarı, Şeyda, Təhsin Əfəndi, Ulumi (v.1575), Vəhyi (v.1817) Zəifi.

Üveysi: Nuri

Şairlər təzkirələri bizə şairlərin bağlı olduğu on iki müxtəlif təriqətdən söz açırlar. Yuxarıda adı çəkilənlərdən sadəcə üç şair üçün qaynaqlar fərqli məlumatlar verirlər. Bunlardan Kamil üçün Səfayi Bektaşi olduğunu söylədiyi halda, Əsrar Dədə Mövləvidir deyir, eyni zamanda Zəkayinin Xəlvəti və Şəbani, Yusifi Sinəçakın isə Mövləvi və Gülşəni olduğu göstərilmişdir.

Yuxarıda verilən əlifba düzülüşü ən çox şairi ehtiva edən təriqətlər baxımından belə sıralanır:

Mövləvi	:	220	68%
Xəlvəti	:	27	9%
Nəqşi	:	30	8%
Gülşəni	:	17	5%
Bektaşi	:	7	2%
Qadiri	:	6	2%
Bayrami	:	5	2%
Cəlvəti	:	4	1%
Həmzəvi	:	1	
Hürufi	:	1	
Şəbanı	:	1	
Üveysi	:	1	

Cədvələ baxıldıqda Mövləviliyin divan şairlərinin ən çox maraq göstərdikləri bir təriqət olduğu görünür. Bunda təəccüblü heç nə yoxdur. Çünki Mövləviliyin türk ədəbiyyatı və musiqisində böyük təsirə malik təriqət olduğu göz önündədir. Təriqətin yaradıcısı Mövlananın böyük bir şair olması bu ənənəni əmələ gətirən ən böyük qüvvədir. Mövləvilik ən çox ziyalılar arasında və şəhər mərkəzlərində yayıldığı üçün bu təriqət mənsubları ədəbi məhsullarını həmişə əruz vəzniylə və divan şeiri üslubunda yazmışlar. Mövləvi şairlərinin belə çox olması müstəqil təzkirələrin yazılmasına rəvac vermişdir. Saqib Dədənin "Səfineyi Mövləviyyə"si, Əsrar Dədənin "Təzkireyi-Şüərayi- Mövləviyyə"si, Əli Ənvərinin "Səmaxaneyi- Ədəb"i bunların sırasındadır. Bu təriqət şairlərinin çoxluğunun təbii bir nəticəsi olaraq, həmin siyahıda Mövləvi təriqətinə mənsub bəziləri təsdiq edilmişsə də, bu təriqətə mənsub olmayan bəzi adların da əlavə edilməsiylə bu say artırılmışdır. Nümunə olaraq XVI yüz il qaynaqlarında Mövləvi təriqətinə aid şairlər say etibarilə həm Xəlvəti, həm də Gülşəni təriqətlərinə mənsub şairlərinin sayından daha azdır.

Molla İlahi (v.1491) vasitəsiylə Anadoluya gəlib yayılan Nəqşbəndi təriqəti, şairlərin çox maraq göstərdiyi ikinci təriqətdir. Təriqətlərin içində sünni xarakterli və şeirə sıx bağlı olan bu təriqət həmin xüsusiyyətinə görə Osmanlı dövləti zamanında rəsmi ideologiya tərəfindən də dəstək görmüşdür. Bu təriqətə istinad edənlərin sayının çoxluğunun bir səbəbi də bu amildir.

Nəqşibəndiyə təriqətinə yaxın olan sayıyla qarşımıza çıxan Xəlvəti təriqəti, Anadoluda yayılmış təriəqətlərin başında gəlir. XX əsrin əvvəllərində təkcə İstanbulda Xəlvəti təkkələrinin sayı 65-ə çatırdı.[184] Xəlvətilik padşahlardan dövlət başçılarına, ordu mənsublarından sənət və düşüncə adamlarına qədər hər çevrədən olan adamları öz təsiri altına almışdır. Təriqətin tanınan üzvlərinin əksəriyyəti şair olduğundan bu, sənət və ədəbiyyatın inkişafına təsir göstərmiş və çox sayda şair Xəlvəti təriqətinə daxil olmuşdur.

On yeddi şairlə dördüncü sırada yer alan Gülşəni təriqəti, xüsusilə XVI yüz ildə şairlərin ən çox qəbul etdikləri təriqətlərdən biri olmuşdur. Bunda təriqətin qurucusu İbrahim Gülşəninin (v. 1533) böyük rolu olmuşdur. Belə ki, o, təsirli təlqin gücünə malik, əzmkar bir təşkilatçı və böyük nüfuz sahibi olmuş,eyni zamanda Məsnəviyə qırx min beytlik nəzirə yazmışdır. Məlamət nəşəsini önə çəkən Gülşənilər başlanğıcda azad davranışları ilə maraq doğurmuşlar və bu xüsusiyyətləriylə də şairlər adı çəkilən təriqətə daha çox Gülşəninin sağlığında maraq göstərmişlər.

Bektaşilik isə Mövləviliyin əksinə, daha çox sadə xalq arasında yayılmış və təzkirələrə ancaq yeddi şairlə daxil olmuşdur. Bununla birlikdə şifahi xalq ədəbiyyatı nümayəndələri arasında da çoxlu sayda Bektaşi şairə rast gəlmək olar.

Anadoluda çox yayılmış təriqətlərdən olmasına baxmayaraq, Bektaşilər arasında yalnız iki qadın şairin adı təzkirələrdə qeyd olunur.

Ankarada Hacı Bayram Vəli (v.1429) tərəfindən yaradılan Bayramiyyə təriqətinə beş şair daxil olmuşdur. Yaradıcısı Hacı Bayrami Vəlinin də şeir yazması bu təriqət dairələrində şeirə olan marağı artırmışdır.

Bayramiyyənin bir qolu olaraq Əziz Mahmud Hüdayi (1541-1628) tərəfindən yaradılan Celveti təriqətinin yaradıcısı da şairdir. "Divan-ı İlahiyyat" adlı şeir kitabından başqa, bir hissəsi mənzum əsərlərdən ibarər olan 23 əsərin müəllifi olan Şeyx Hudayidən nümunə götürərək həmin təriqət mənsublarının şeirə maraq göstərməsi təbiidir.

Bunlardan fərqli olaraq Həmzəvilik, Hürufilik, Şəbanilik və

[184] Türk Dili və Ədəbiyyatı Ensiklopediyası, C.4, s.77.



Üveysilik isə şairlər tərəfindən maraq qazanmamışdır. Bunlardan Hürufiliyin yaramaz təriqət kimi qəbul edildiyini və təqibə məruz qaldığını da qeyd etmək lazımdır.

Şübhəsiz, təriqətə bağlı olan şairlər təkcə burada göstərilən adlardan ibarət deyil. Təzkirəçilər bununla təriqətə meyl etmiş, özünü göstərmiş şairləri bu baxımdan dəyərləndirməyi özlərinə borc bilmişlər. Bu təsnifatlar verilərkən əldə olunan məlumatların yetərli olub- olmadığı, məlumatların əldə olunma imkanları və s.də nəzərə alınmalıdır.

İslam dünyasında təriqətlərin sayı 380-ə yaxındır.[185] Bu qədər çox təriqətin içində şairlərimiz nədən cəmi on iki təriqətə üz tutmuşlar? Bunu adı çəkilən təriqətlərin tanınmış ərazilərdə yayılması ilə izah etmək olar. Bir qədər ehtiyatlı şəkildə qeyd etmək olar ki, islam dünyasında təriqətlər ümumi dəyərlərə malik, bəlli mədəniyyət və mühitdən gələn şəxslərin bir yerə toplandıqları yerlərdir. Bu üzdən xüsusi maraq dairələri və dünya görüşləri olan şairlərin, öz zövq və yaşamlarını təmin edəcək təriqətləri seçmələri təbiidir.

*(*Yazı Ankara "Milli egitim" yurnalı. 1989. s.84, s.21-27-də dəc olunub).*

[185] İslam Ensiklopediyası, C.12/1, s.4-17.

DİVAN ŞAİRLƏRİNİN SƏNƏT NÖVLƏRİ*

Sənətləri ilə şöhrət qazanmış şəxslərdən, xüsusilə də şairlərin bioqrafiyalarından söz açıb, əsərlərindən nümunə gətirən qaynaqlar kimi tanınan təzkirə növü, öz dövrlərinin şair və yazarlarını qələmə alan yeganə toplu şəklində əsərlərdir. Başqa sözlə desək, bu əsərlərin məqsəd və funksiyası sadəcə dövrün şair və yazarlarını tanıtmaqdır.

Təzkirəçilər əsərlərinə daxil etməyə layiq gördükləri şairlərin rəsmi və özəl həyatları ilə yanaşı, imkan olduqca onların həyatının səciyyəvi tərəflərini də üzə çıxartmağa çalışmışlar.[186] Təzkirəçilərin şairlərin həyat hekayələrində ən çox üzərində dayandıqları tərəflərdən biri də onların məşğul olduqları sənətdir. Dərhal qeyd etmək gərəkdir ki, şairin sənətinə aid verilən məlumat, təzkirəçinin əldə etdiyi məlumatın həcmindən, şairə zaman və məkan baxımından nə dərəcədə yaxın olmasından asılıdır. Təzkirəsinə daxil etdiyi şəxsin sənəti haqqında qısa məlumat verərək keçən bəzi təzkirəçilərdən fərqli olaraq, Aşıq Çələbi öz əsərində sənətlə şəxsiyyətin xarakteri arasındakı uyğunluğa və yaxud təzadlara çox yer vermişdir.[187]

Yuxarıda qeyd olunan əsas başlıq altında aparılan araşdırmanın bir parçası kimi,[188] təzkirələrin verdikləri məlumatlara müraciət edərək şairlərin sosial çevrələrini, yəni sənətləriylə bağlı olan tərəflərini izah etməyə çalışacağıq. Məlum olduğu kimi, təzkirələrin az bir hissəsi yayılıb tanınmışdır. Təzkirələr haqqında yazıların az olması üzündən, divan ədəbiyyatı şairləri təxmini saylarla qeyd olunurdu. Biblioqrafiyada sıralanan əsərlərin dəyərləndirilməsindən əldə edilən məlumatlara görə, Divan şairlərimizin sayı 3182-dir.[189] A.Sırrı. Ləvənd tərəfindən təxmini olaraq 5000 civarında verilən

186 Türk Ensiklopediyası, C.31, s.162.

187 Harun Tolasa, 16. "Yüzyılda Edebiyat Araştırma ve Eleştirisi". İzmir 1983, s.83.

188 Mustafa İsen, "Tezkirelerin İşığında Divan Edebiyatına Bakışlar: I.Osmanlı Kültür Coğrafyasına Bakış", V. Millətlərarası Türkoloji Konqres,Çıxışlar, İstanbul 1985, s.145-152; Bu məqalə kitabın 169-183. səhifələrində yer almaqdadır.

189 Çalışma, "Tezkirelere Göre Dîvân Edebiyatı İsimler Sözlügü" (Ankara 1988) əsərindən qaynaqlanır.

rəqəm[190] isə bizim verdiyimiz rəqəmdən xeyli çoxdur. Təzkirələrə daxil olmayan adlarla birlikdə bizim verəcəyimiz say xeyli artıq olacaqdır. Təzkirələrdən alınan məlumatlara görə şairlərin məsləklərini aşağıdakı şəkildə qruplaşdırmaq olar.

Alaybəyi –	3	Katib –	397
Atəşbaz –	3	İdarə müdiri –	19
Əttar –	3	Qazıəsgər –	50
Pinəçi –	3	Kəzzaz (ipəkçi)-	1
Bəylərbəyi –	14	Kəndxuda –	38
Bəylikçi –	1	Kalağası –	1
Bəzzaz –	2	Malbeynci –	1
Canbaz –	1	Mahyacı –	1
Cərrah –	3	Xarrat –	1
Çavuş –	5	Poçtalyon –	38
Çihadarağası –	1	Məmur –	24
Danismənd (mirzə) –	63	Məsnəvixan –	7
Dəftərdar –	72	Mitfaxağası –	1
Dəmirçi –	1	Miralay –	2
Dividdar –	1	Muarrif –	1
Elçi –	8	Muhasib –	28
Emin –	18	Mukabeleci –	1
Əsnaf –	3	Mukataacı –	1
Xaçəğan –	85	Musahhih (mirzə)–	2
Həkkak –	2	Musahib –	10
Xəttat –	63	Mütəsərrüf –	5
Həkim –	21	Müdərris (müəllim)–	449
Halvacı –	2	Müəzzin –	1
Xoca –	10	Müfəttiş –	7
İmam Xətib –	45	Mültü –	21
Kadı(qazi) –	539	Möhürdar –	11
Dəniz kapitanı –	2	Münəccim –	2
Qapıçıbaşı –	10	Mütffəriqa – 39 (vəqf məmuru)	
Qəssab –	1	Mültəvəli –	11

190 Agah Sırrı Levend, "Türk Edebiyatı Tarihi" Ankara 1973, s.103.

Məşvərətçi –	5	Sipahı –	46
Naib –	5	Subaşı –	2
Nəqqaş –	1	Şahnaməçi –	2
Nətxan –	2	Şəkərçi –	2
Neyzənbaşı -	1	Şeyx –	160
Nişançı –	16	Şeyxülislam –	31
Odabaşı –	1	Təkkəçi –	5
Pasbanbaşı –	1	Tavukçıbaşı –	1
Padşah-şahzadə -	18	Dərzi –	3
Rəis –	1	Təşrifatçı –	3
Rəis- katib –	17	Təzkirəçi –	38
Rəmmal –	1	Tacir –	5
Rəssam –	2	Tüfəngçibaşı –	2
Ruznaməçi –	15	Türbədar –	2
Səhhaf –	6	Vaiz-	12
Sancaqbəyi –	21	Vaqiənevis –	17
Sərraç –	1	Vali –	10
Sərraf –	2	Vəlikxaric –	1
Səkbanbaşı –	1	Vəzir –	41
Sikkezənbaşı –	1	Yeniçəri –	22
Silahdar –	1	Yorğançı –	1
Silahşur –	1	Zaim –	1

Bu təsnifatı isə ən çox şairi əhatə edən sənətlər baxımından belə sıralaya bilərik.

Kadı (Qazi)– 539 – 16,9 %
Müdərris – 449 – 14,1 %
Katib – 397 – 12,5 %
Danişmənd – 63 – 2 %
Xəttat – 63 – 2 %
Kazasker – 50 – 1,6 %
Sipahi – 46 – 1,4 %
İmam Xətib – 45 – 1,4 %
Vəzir – 41 – 1,9 %
Şeyx – 160 – 5 %
Xaçəgan – 85 – 2,7 %
Dəftərdar- 72 – 2,3 %

Kəndxuda – 38 – 1,2 %
Təzkirəçi – 38 – 1,2 %
Şeyxülislam – 31 – 1 %
Mühasibəçi – 28 – 0,9 %
Məmur – 24 – 0,8 %
Yeniçəri – 22 – 0,7 %
Həkim – 21 – 0,7 %
Kaymakam – 19 – 0,6 %
Əmin – 18 – 0,6 %
Sancaqbəyi – 18 – 0,6 %
Rəis– Katib – 17 – 0,5 %
Vaqiənevis – 17 – 0,5%
Nişancı – 16 – 0,5 %
Ruznaməçi – 15 – 0,5 %
Bəylərbəyi – 14 – 0,4 %
Möhürdar – 11 – 0,3 %
Xoca – 10 – 0,3 %
Qapıçıbaşı – 10 – 0,3 %
Musahib – 10 – 0,3 %
Vali – 10 – 0,3 %

Burada verilən təsnifata diqqətlə baxdıqda bəzi sənətlərin bir-biriylə yaxın əlaqəsi olduğunu açıqca görə bilərik. Məsələn, katiblik sənətinə diqqət etsək, ona yaxın olan xacəgan, təzkirəçi daha sonrakı vaxtlarda isə, Fatində rast gəldiyimiz məmur ifadəsi eyni sənəti ifadə edir. Və yaxud danişmənd, kadı (qazi), naib, müdərris sənətləri eyni qrupa aiddir. Bunlar və bunlara bənzər bəzi məsləklər vardır ki, onları daha geniş mənada qruplaşdırmaq, sonra veriləcək dəyərləndirmələr üçün gərəklidir. Bunları elm mənsubları, saraya mənsub olanlar, əsgər şairlər, əsnaf və sərbəst məslək adamları, din adamları ilə şeyxlər və dərvişlər kimi bölmələr şəklində təbəqələşdirdim. Dərhal göstərmək lazımdır ki, bu təsnifata uyğun olmayan başqa təsnifatlar da meydana çıxa bilər. Bu qruplara daxil olanlar da belə sıralandılar:

Elmiyyə sinfi – ümumi sayı 1147 – 36 %

Qazi, naib, Qaraskər, Şeyxüislam, danişmənd, mudərris, xoca

Bürokratlar: ümumi sayı 892 – 28 %

Elçi, emin, katib, xacəgah, dəftərdar, vəzir, kəndxuda, məktubçu, təzkiraçi, mühasib, məmur, kaymakam, rəisi-katib, vaqiənevis, ruznaməçi, möhürdar, mütəvəli, başkeşikçi,vali.

Saray adamları: ümumi sayı – 60 – 1,8 %

Padşah və şahzadələr, bəylikçi, çavuş, çuxadarğası, baş keşikçi, malbeyinci, mittahağası, nişancı, odabaşı, tavukçıbaşı, təşrifatçı, tüfəngçibaşı,vəlikxaric, müqabiləci, şehnaməci.

Əsgərlər: cəmi 117 – 3,7 %

Alabəyi, bəylərbəyi, dəniz kapitanı, kolağası, sancaqbəyi, silahdar, silahşör, sipahi,subaşı yeniçəri, mütəffəriqa.

Əsnaf və sərbəst sənət: cəmi 117 – 3,7 %

Aşçı, atəşbaz, ayaqqabıçı, əttar, bəzzaz, canbaz, cərrah, dəmirçi, dərzi, xəttat, halvacı, qəssab, kəzzaz, mahyacı, dülgər, rəmmal, rəssam, səhhat, sərrac, sərraf, təkkəçi, tacir, yorğançı.

Din adamları: cəmi 26 – 0,8 %

Muarrif, müəzzin, vaiz, müfti

Şeyx və dərviş: cəmi 18 – 5,7 %

Məsnəvixan, türbədar, neyzənbaşı.

Bunu dərhal qeyd etmək lazımdır ki, verilən rəqəmlər toplandıqda əvvəldə söylənilən 3182 rəqəminin keçildiyi məlum olur. Bunun səbəbi odur ki, bir şair əvvəl mənsub olduğu sənətdən başqa bir sənətə keçə bilər və illər keçdikcə bu təkrarlana bilər. Belə hallarda şairin mənsub olduğu bütün sənətlər toplanıb qruplaşdırılır və nəticə bu şəkildə artmağa doğru dəyişir. Məsələn, Səhidə danişmənd kimi tanıdılan şair, Lətifidə müdərris, Həsən Çələbidə qazi, Riyazidə qaziəsgər və ya şeyxülislam kimi təqdim edilə bilər. Gördüyümüz kimi, bir şair beş müxtəlif sənətdə çalışmış olur. Eyni şeyləri başqa sənət mənsubları üçün də qeyd etmək olar.

Siyahımıza yenidən nəzər salsaq, qazi peşəsinin şair məsləkləri içərisində ilk sıranı tutduğu məlum olacaqdır. Təbii olaraq yüksək təhsilə sahib olunan qazilərdən məhkəmə işləri yanında bələdiyyəyə aid məsələlərin həllində də istifadə olunurdu. Bu səbəbdən qazi işi Osmanlılar dövründə ən çox yayılan sənət növünə çevrilmişdir. Həmçinin qazi sənəti bəzilərinin yeganə sənəti olmaqla bərabər,

bəzilərinin bir neçə sənətindən biridir.

Bundan sonra ən çox rast gəlinən şair sənəti müdərrislikdir. Qazilikdən 2 % aşağıda yer tutan bu sənətlə məşğul olanların əvvəl qazilik, ya da başqa yüksək sənətlərə sahib olduğunu da qeyd etmək gərəkdir. Müdərrislik də qazilik kimi yuxarı səviyyəli təhsil ilə əldə olunan sənətdir.

Qazilik və müdərrisliyə yaxlın sahədə yerləşən üçüncü sənət növü isə katiblikdir. Sənətlərin 12 %-ni təşkil edir. Yəni qazilikdən 4 %, müdərrislikdən 2 % azdır. Bu vəzifəni daşıyanların bəziləri təzkirələrdə "küttab", yaxud "Əhli- qələm" adlandırılır, bəzilərinin isə katibliyinin hansı növə aid olması göstərilir. Məsələn: "Hizane-i amirə" katibliyi, bərat katibliyi, mərtəbə katibliyi, mükafat katibliyi və s. Bunların içində ən çox adı çəkilən divan katibliyidir. Buna oxşar sənət olmasına baxmayaraq təzkiräçiliyi və əminlikliyi başqa sənət sahəsi başlığı altında qeyd etdim.

Bu üç sənətdən kənarda qalanlar, cədvəldə açıqca göründüyü kimi kiçik rəqəmlərlə təmsil olunurlar. Buna görə də ikinci mərhələdə tək-tək sənətlər üzərində deyil, qrup şəklində olan sənətlər üzərində dayanacağam. "Elmiyyə" sinfi mənsublarının ümumi sayı sənətlərin 36 %-ni təşkil etməklə yenə də birinci yeri tutur. Bu qrupa daxil olan şairlərin sayı isə 1147 nəfərdir. İkinci sırada 892 şair və bu sahənin 28 %-ni təşkil edən bürokrat qrupu mənsubları gəlir. Əsgər şairlər, əsnaf və sərbəst sənət sahibi olan şairlərin sayı 117 olmaqla 3,7 % lə üçüncü yeri tutur. Bunlardan sonra isə şeyx və dərviş şairlər, sonra saray mənsubları, aşağı sırada isə dini vəzifəyə malik şairlər gəlir.

Bilindiyi kimi, divan ədəbiyyatı bir şəhər ədəbiyyatıdır. O da məlumdur ki, ədəbiyyatla məşğul olanların əksəriyyəti orta sinifə məxsus adamlardır. Statistik məlumatlar Avropada da ədəbiyyatçıların əksəriyyətinin orta sinfə məxsus olduğunu göstərir. Cütcü uşaqlarına qədim ingilis ədəbiyyatında tək-tək rast gəlinir[191]. Divan ədəbiyyatının içində inkişaf edib irəliləyən Osmanlı dövlətində qərbə aid olan siniflərin olmadığı məlumdur. Amma yenə də bir sual ortaya çıxır.. Görəsən sosial çevrə sosial ideologiyanı və bu ideologiyaya bağlılığı müəyyən edirmi? Başqa bir şəkildə yanaşsaq

[191] R.Wellek-A. Warren, "Edebiyat Biliminin Temelleri" (Çev. A.Edip Uysal), Ankara 1983, s.126.

sualı bu şəkildə qoya bilərik. Divan şairi bir saray şairidirmi? Əgər sorğuya müsbət cavab versək, yeni bir dilemma yaranacaqdır. Şairin sosial mövqeyinin, onun ideolgiyasında və sosial sinfinə bağlılığında nə kimi rolu var? Yəni divan şairi xidmətində olduğu şəxslərin düşüncələrini və zövqlərini də mənimsəmiş olurmu??

Bu suala da statistik məlumatlara söykənərək cavab verək. Divan ədəbiyyatı, cədvəllərdə də ayrıca göründüyü kimi, kütlənin bütün təbəqələrindən gələn insanlardır. Göstərilən 108 sənət növü hər halda, ümumi əhalinin məşğul olduğu sənət növlərinin sayı ilə müqayisədə az fərqlənir. Bu, divan şairlərinin toplumun hər sahəsindən, xüsusilə şəhər həyatından gələn insanlardan olduğunu göstərir. Bunların içində əsnaf şairləri də böyük bir sahəni əhatə edir. Bir şeyi yadda saxlamaq gərəkdir ki, bu ədəbiyyat, saray şeiri olmasa da Tanpınarın təbiriylə desək, böyük bir saray çevrəsinin ətrafında fırlanmaqdadır. Yəni divan şeiri müəyyən düşüncə tərzi, eyni mövzular və beyt estetikası üzərində qurulmuş formaya malik olmaqla, hər bir komponenti bir-birinə tabe olan qapalı bir dairənin məhsuludur. Bu şərikli xüsusiyyətlərə görə şair hansı sosial sinifdən olursa-olsun, dərhal ümumi havaya uyğunlaşaraq, artıq altı əsr davam etmiş bu möhtəşəm qalanın bir daşına çevrilir. Tanpınarın ifadəsiylə desək, tək bir kimliyin geniş zaman içində danışmasıdır.[192] Bu üzdəndir ki, divan şeirində əsas diqqəti yazılmış orijinal mövzunun, yaxud xəyal dünyasından keçirilərək yazılmış olan şeirin daha gözəl qafiyə formasına salınmasına yönəldirdilər. Bununla da nəzirə yazmaq zərurəti yaranırdı. Füzulinin "Leyli və Məcnun"unun türk ədəbiyyatında yaranan on beş eyni adlı əsər içərisində birinci yeri tutması da onun gözəl nəzirə olmasından irəli gəlmişdir.

Təzkirələrdə şairlərin sənətlərinə dair verilən məlumatlar içində sənət və təxəllüsləri arasındakı bağlılığa da toxunulması lazım gəlir. Doğrudan da, şairlərin məşğul olduqları sənətlərin təsnifatını verərkən sənət-təxəllüs bağlılığının təzkiraçilər tərəfindən necə səciyyələndirdiklərinin şahidi oluruq. Bu təsnifatdan sonra sənət növlərinin təxəllüs seçiminə nə dərəcədə təsir etdiyini görəcəyik. Bir neçə nümunə göstərsək, bir çox həkimin Şəfayi, bir çox katibin Katibi, şəkərçilərin Qəndi təxəllüsünü daşıdığını görərik.

[192] Əhməd Həmdi Tanpınar, "XIX Asır Türk Edebiyatı Tarihi" İstanbul 1985, s.21.

Məsələyə bir ədəbiyyat adamı kimi baxdığımızda, belə bir sual ağlımıza gəlir, görəsən bu sənətlərin şairlərin simalarının yaranmasında bir rolları varmı? Təzkirəçilər bu məsələyə diqqət edərək izahedici məlumatlar veriblərmi? Az da olsa bu mövzu ilə bağlı məlumatlara rast gəlirik. Qədim dövrlərdə məlum forma və növlər üzrə, yəni qəzəl, qəsidə, tərci, tərkib, müəmma və s. başqa gözəl nümunələr yaradan şairlər haqqında təzkirəçilər, bəzən "qəzəl şairidir", "qəsidə ustasıydı", "usta tarixçiydi" kimi ifadələr işlədirlərki biz burada sənətdən gələn payın ölçüsünü təyin edə bilərik. Bir nümunə göstərək: Gelibolulu Əli (1541-1600), Ədinəli Əmrinin (v. 1575) imarətlərdə mühasibçilik etdiyini və zehninin daim hesab işi ilə məşğul olması üzündən, şeirlərinin lirizmdən uzaq olduğunu göstərmişdir. Əmiri aşiqanə duyğularını şeirə gətirmək əvəzinə, məna və söz oyunları ilə zəngin olan xəyali şeirlər yazmışdır. Divan şeirində bu tərzi daşıyan növlər şübhəsizki müəmma və tarixdir. Əli onun bu tərəfi üçün: "Hayalengiz eşarda ve fenn-i muammiyatı namdarda kalmışdur. Mesnəvi semtinden behredar və kasaid – güylük tarikinde kamkar olamayup hadeng-i keman-ı kemanını zemin-i eşar sermenziline salmışdur. Ve ol vadiye karip olmagla gahi muamiyyat u tarih üslubunda dahi behresin almışdur"[193] deyir. Bu cür misallar cüzi də olsa məsləkin şairin şeir dünyasına təsirində bilavasitə rolu olduğunu göstərir.

Səhi təzkirəsindən göstərəcəyim bir neçə şeir nümunəsi mövzunu daha yaxşı anlada bilər. Həyatını canbazlıq edərək keçirən Süvarinin iki beytinə baxaq:

Halka-i zülfünde can u dil muallaklar döner
Birbirine karşı oynar, san iki canbazdur.[194]

Aşiqlərin sevgilisinin saçından asılması çox rast gəlinən bir bənzətmədir. Amma bunu qarşı-qarşıya oynayan iki canbaza bənzədilməsi ilə iki beytdə verilən halqa, muallak (havada qalan), dönmək, oynamaq və canbaz sözlərini sənətin təsirindən başqa nə ilə əlaqələndirmək olar.

[193] "Künhü'l-ahbâr'ın Tezkire Kısmı" (Haz. Mustafa İsen), Ankara 1994, s.195.
[194] Səhi Bəy "Tezkire", İstanbul 1980, s. 208.



Yenə Səhidə oxçuluqda tanınan Qəribidən söz açılarkən verilən nümunəyə baxaq:

Tir-i ahumdan sakın kim kametüm yay eyledün
Gafil olma dostum tir-i kemanumdan benüm[195]

Beytdə adı çəkilən tir, yay və kaman sözləriylə verilən təşbehləri yenə sənətin yaratdığı təsirlə izah etmək olar. Şübhəsiz ki, bu təbii bir prosesdir. Çünki insan istifadə etdiyi bənzətməni gündəlik həyatından götürməyə məcburdur.

Yekunlaşdırmalı olsaq, statistik məlumatlara əsaslanıb verdiyimiz divan şairlərinin toplumun müxtəlif təbəqələrindən ibarət olması ilə yanaşı, daha çox orta sinfin nümayəndələrindən təşkil olduğunu deyə bilərik. Ancaq hər təbəqədə öz hakim rəngi olan Osmanlı mədəniyyəti, bu fərqli hissələri öz fonunda əks etdirərək bir tam halına salmış və şairlərin də eyni formada, bir-birinə bənzər əsərlər yazmasına rəvac vermişdir.

*(*Yazı"Milli egitim"Ankara1989.s.83,s.35-41-da dərc olunub).*

[195] Həmin əsər, s.201.

DİVAN ƏDƏBİYYATINDA EYNİ TƏXƏLLÜSLÜ ŞAİRLƏR*

Təxəllüs məsələsi divan ədəbiyyatının bir çox başqa sahələri kimi, qələmə alınaraq təhlil edilməmiş sahələrindən biridir. Şairlərin şeirlərində istifadə etdiyi təxəllüslər, onların müəyyən yerə gəlib çatdıqdan sonra şüurlu şəkildə qəbul etdikləri adlardır.

Bu baxımdan təxəllüsləri şairlərin xarakterini və psixoloji məqamlarını açıqlayan ipuçları kimi də dəyərləndirmək olar.

Ədəbiyyatımızda Şeyxi və İranın təsiri ilə başlayan bu ənənə, divan ədəbiyyatı gündəmdə qaldıqca davam etmiş və onunla birlikdə tarixə qovuşmuşdur. Bu gün divan şeiri nə şəkildə davam edirsə, təxəllüslər də o şəkildə öz varlığını göstərməkdədir.

Yuxarıda verilən cədvəl geniş bir zaman kəsiyini özündə əhatə etdiyi üçün çoxlu sayda təxəllüs, müxtəlif adamlar tərəfindən istifadə edilmiş və buna görə də zaman-zaman eyni təxəllüsü daşıyan şairlərin şeirləri bir-birinə qarışmışdır. Təzkirəçilər müraciət etdikləri şairlərin bu cəhətlərinə də diqqət yetirmiş və ortaya çıxan qarışıqlığı aydınlatmağa çalışmışlarsa da, həmişə bacarıqlı ola bilməmişlər. Problem şairlərin də marağını çəkmiş və bəziləri başqalarının istifadə edə bilməyəcəyi təxəllüsləri seçməyə çalışmışlar. Füzuli "boş, lüzumsuz" anlamına gələn bir təxəllüsü başqa şairlərin seçməyəcəyindən arxayın olduğu üçün götürdüyünü farsca divanın ön sözündə anlatmışdır.[196]

Lətifi, Əhmədi-Rumi adlı şairdən söz açarkən bunun bəzən Əhməd, bəzən də Əhmədi təxəllüsündən istifadə etdiyini, Əhməd Paşadan çox əvvəl yaşadığını söylədikdən sonra, belə bir lətifə danışır:

"Dövrün şeir sevərlərindən biri, bir gün Əhməd Paşadan ikiniz də eyni təxəllüsü daşıyırsınız, bu ikinizin şeirinin bir-birinə qarışması, ya da şeirlərinizin ona istinadən yazılması qənaətinə gətirməzmi? – deyə soruşur. Şeirinə çox güvənən Paşa bu suala belə cavab verir: "Mənim şeirimin ona aid edilməsi dərd deyil, dərd odur ki, onun

[196] Füzûli, "Farsca Dîvân", (Haz. Hasibə Mazıoğlu), Tehran, 1376, s.11.

cəfəngiyatını mənə mal etsinlər."[197]

Şübhəsiz ki, birinci dərəcəyə aid edilən bir şairlə, eyni təxəllüs daşıyan adı- sanı çəkilməyən başqa bir şairin şeirlərini dil və deyim xüsusiyyətlərinə görə fərqləndirmək çətin deyil. Ancaq bəzən elə qarışıqlığa rast gəlinir ki, onları nəinki bugünkü tədqiqatçı, hətta o dövrdə yaşayan şairlərin hər ikisini tanıyan diqqətli bir tarixçi də çözə bilməzdi.

Bir nümunə göstərək: Qanuni Sultan Süleyman dövrü şairlərindən olan Məqalilər təsadüfən eyni şəhərlərdə doğulmuşlar. Yəni hər ikisi Alaşəhərlidir. Adlarının yanında doğulduqları yeri göstərən təxəllüs qoşulduqdan sonra adı çəkilən şairlərin şeirlərini seçməkdə çətinlik çəkən Gelibolulu Əli (1541-1600) bunları söyləmişdir: "Bu dahi (Makali-i Sani) o biri Məqalinin həmşəhərlisidir. Hətta ki, əlil olduğu üçün buna kor Məqali deyilib. Bu qarışıqlıq məclisində belə hər ikisi bir araya gəlir. Hər hansı ki, bir beyti oxudu mənimdir, - deyə hay-həşir saldı."[198]

Burada qarışma deyil, bir-birindən oğurlama baş verdiyi üçün, tamamilə uyğun cəhətlərin olması, üstəlik hər iki şairin bir-birindən fərqlənmədiyi üçün, şeirin üslubu ilə heç nəyi ayırd etmək mümkün deyil.

Divan ədəbiyyatında eyni təxəllüsü daşıyan çoxlu sayda şairə rast gəlmək olur. Hələ XVI əsrdə Əli, Həsən Çələbinin (1546-1604) təzkirəsini tənqid edərkən onu dəyərli olub-olmamasından asılı olmayaraq çoxlu sayda adı öz təzkirəsinə salmaqda ittiham edirdi: "Təxəllüsünə şərik tapa bilmədiyi ancaq Nəcati ilə Zəfi qalmışdır."[199]

Bu yazıda elə həmin mövzuya toxunmaq istəyirik. Əlifba sırası ilə təzkirələrdə verilən müştərək təxəllüsləri belə sıralayırıq:[200] (Şairlərin önündə yer alan rəqəmlər təxəllüsün neçə nəfər tərəfindən istifadə edildiyini göstərir).

---

[197] Lətifi "Tezkire", İstanbul 1314, s.84-85.

[198] "Künhü'l-ahbâr'ın Tezkire Kısmı" (Haz. Mustafa İsen), Ankara 1994, s.327.

[199] Həmin əsər, s.314.

[200] Çalışma üçün bu əsər əsas götürülmüşdür. "Tezkirelere Göre Dîvân Edebiyatı İsimler Sözlüğü", Ankara 1988.

Əbdi – 24
Əbüləziz – 2
Abid – 2
Adil – 4
Ədni – 3
Afitabi – 2
Agah – 2
Əhdi – 2
Ani – 2
Əhməd – 9
Əhməd bəy – 6
Əhməd Çel – 5
Əhmədi – 5
Akifi – 4
Əqli – 3
Alı – 20
Əmri – 2
Əndəlibi – 5
Arif – 23
Arifi – 11
Ərşi – 2
Asəf – 3
Asəfi – 3
Asim – 9
Eşqi – 10
Ata – 5
Atayı – 5
Atif – 5
Övni – 7
Əyani– 4
Eydı – 2
Eysi – 7
Azəri – 4
Azim – 3
Əzizi – 6
Əzmi – 6
Bəhayı – 4
Bahir – 6
Bəhri – 5
Bəxşi – 2
Bəxti – 2
Bakı – 8
Bəşiri – 3
Bədii – 2
Bədri – 6
Behçət – 6
Behçəti – 2
Behişti – 4
Bəhlül – 2
Beqayi – 5
Bəliğ – 5
Bərqi – 2
Bəsim – 3
Bəyani – 11
Bəzmi – 6
Bürhan – 2
Büləndi – 2
Cəfər – 2
Cami – 6
Cazim – 2
Cəlal – 2
Cəlali – 2
Cəlili – 4
Cəmal – 2
Cəmali – 3
Cəmili – 2
Cənabi – 3
Cənani – 5
Cövdət – 6
Cövhəri – 5

Cəvani – 2
Cövri – 2
Cudı – 2
Çakəri – 2
Dai – 6
Daniş – 5
Danişi – 2
Dəruni – 4
Dərviş – 10
Duayı – 2
Dürri – 9
Ədayı – 3
Ədib – 8
Ədibi – 3
Əmanı – 4
Əmin – 10
Əmini – 2
Əmir – 5
Əmni – 2
Əmri- 3
Ənis – 3
Ənvəri – 3
Ərib – 2
Əsəd – 11
Əşrəf – 3
Faxir – 2
Fəxri – 7
Faiq – 5
Faiz – 10
Faizi – 5
Fəqiri – 2
Fani – 5
Farig – 2
Fasih – 2
Fasihi – 5
Fazil – 4
Fəzli – 6
Fədai – 6
Fəhim – 5
Fəhmi – 11
Fənayi – 5
Fənni – 4
Fərağı – 3
Fərdi – 5
Fərid – 3
Fəridi – 4
Fərri – 2
Fərrux – 2
Fərruxi – 2
Fəthi – 5
Fövzi – 6
Feyzi – 4
Fəqani – 2
Fikri – 5
Firdevsi – 4
Füzuli – 2
Füruği – 4
Füzuhi – 2
Gəfuri – 2
Galib – 7
Gami – 3
Gani – 2
Gəribi – 3
Gazi – 4
Gənci – 2
Ginai – 2
Giyasi – 2
Gubari – 3
Gufti – 2
Gülşəni – 4

Gunehi – 2
Həbibi – 4
Hadi – 3
Hafiz – 15
Xakı – 7
Həkim – 2
Həkimi - 2
Həqqi - 2
Haləti - 4
Hali - 3
Xəlil - 2
Xəlili - 4
Həlimi - 6
Xalis - 4
Həmdi - 17
Hami - 2
Həmid - 9
Xəndan - 2
Hənif - 3
Hərimiu - 5
Həriri - 3
Həsən - 8
Həsib - 7
Həsibi - 2
Hasim - 2
Haşım - 4
Haşimi - 8
Hatəmi - 2
Hatif - 3
Hatifi - 6
Hətmi - 3
Xavəri - 2
Xəyali - 3
Həyati - 6
Heydər - 2
Xeyli - 2
Heyret - 3
Hayrəti - 2
Xayri - 8
Xəzani - 2
Hələki - 2
Həmdəmi - 2
Hifzi - 4
Hizri - 7
Hicri - 2
Hilali - 3
Hilmi - 11
Himməti - 2
Hisali - 2
Xudayi - 5
Xüldi - 2
Xülus - 2
Xülusi - 3
Xürrəmi - 2
Xosrov - 6
Xosrəvi - 2
Hökmi - 2
Hümami - 2
Hüsam - 2
Hüsami - 3
Hüseyin - 7
Hüseyni - 4
İtri - 2
İzari - 4
İffət - 3
İffəti - 3
İhya - 3
İlahi - 2
İlhami - 2
Ilmi - 11

İnayət - 2
İshak - 3
İsmət - 5
İzzət - 15
İzzəti - 4
İzzi - 4
Kabili - 2
Kabuli - 3
Qadiri - 4
Qadri - 8
Qail - 2
Kami - 9
Kamil - 10
Qəndi - 2
Qəni - 2
Qasim - 2
Kaşif - 4
Kaşifi - 2
Katib - 2
Katibi - 5
Kazım - 3
Kəlami - 4
Kəlim - 2
Kəmal - 5
Kəmali - 2
Kəmtər - 2
Kərimi - 5
Kəşfi - 5
Kövsəri - 2
Qüdsi - 7
Qürbi - 5
Qütbi - 2
Ləli - 6
Latifi - 4
Layihi - 2
Ləali - 2
Ləbid - 13
Ləmi - 3
Lövhi - 3
Lisani - 4
Lütfi - 16
Məcid - 2
Mədih - 3
Məxdüm - 2
Mahir - 3
Məhrəmi - 2
Məhvi - 8
Məqali - 4
Mənəvi - 3
Məali - 2
Məcdi - 2
Mədhi - 4
Məhməd - 8
Mərami -18
Mərdi - 2
Mərdümi - 2
Məsihi - 2
Məsti - 2
Məşrəbi - 3
Meyli - 15
Məzaqi - 2
Mehri - 2
Miri - 5
Misli - 2
Mühibbi - 3
Muxlis - 5
Muxlisi - 7
Muxtari - 4
Muhyi - 6
Müidi - 3

Muini - 2
Munis - 2
Muradi - 6
Mustafa - 6
Mutii - 2
Müdami - 3
Münif - 3
Münib - 3
Müniri - 3
Müstəkim - 2
Naci - 3
Nadiri - 2
Nəti - 4
Nafiz - 2
Nəhifi - 3
Nəhli - 2
Nail - 2
Naili - 2
Naim - 3
Naimi - 3
Naqi - 2
Nəqşi - 3
Nalişi - 2
Nami - 10
Nəsuhi - 3
Naşid - 3
Natiq - 2
Nəti - 5
Nazim - 5
Nəzif - 8
Naziki - 3
Nazim - 2
Nəzir - 2
Nəzmi - 9
Nəcahi - 2
Nəcati - 3
Nəcib - 6
Nəcmi - 2
Nədim - 7
Nəhari - 2
Nəsib - 4
Nəsimi - 2
Nəşət - 2
Nəvali - 2
Növrəs - 2
Neyli - 2
Nisfət - 2
Nigahi - 5
Nihani - 5
Neməti - 4
Nisari - 3
Nişani - 3
Niyaz - 2
Nizami - 10
Nuri - 2
Nuşi - 15
Nutki - 2
Nükati - 6
Nümayi - 2
Nüvidi - 2
Nüzhət - 2
Pənahi - 3
Pəndi - 2
Pərtöv - 5
Piri - 6
Raci - 4
Raqib - 7
Rəhimi - 3
Rəhmi - 7
Raif - 3

Raqim - 5
Rami - 2
Ramiz - 5
Rasih - 7
Rasim - 7
Rəşid - 11
Ratib - 2
Rayi - 3
Razi - 6
Refet - 6
Refeti - 4
Rəfii - 6
Rəfiq - 3
Rəmzi - 7
Rəsa - 3
Rəsim - 2
Rəsmi - 8
Rəşid - 16
Rövnəqi - 2
Rəzmi - 3
Rifqi - 4
Rıza - 10
Rızayi - 5
Rüfət - 3
Rüfəti - 6
Rindi - 3
Riyazi - 7
Rühi - 9
Rümi - 2
Ruzi - 2
Rüsuhi - 3
Rüşdi - 10
Səbayi - 3
Səbih - 2
Səbiri - 3
Səbri - 6
Səbuhi - 2
Sədəddin - 2
Sadiq - 9
Sadiqi - 4
Sədi - 8
Sədri - 7
Sədullah - 3
Səfayi - 7
Səffi - 3
Səfhi - 4
Safi - 11
Səfvət - 2
Sahib - 5
Sai - 4
Saib - 6
Səid - 21
Saida - 2
Saqib - 5
Saqi - 2
Salahi - 3
Saleh - 4
Salik - 3
Saliki - 2
Salim - 7
Sami - 11
Sani - 11
Sanii - 4
Səyi - 2
Səbzi - 2
Səhabi - 3
Səhayi - 4
Səhi - 2
Səhmi - 2
Sələmi - 2

Səlim - 4
Səlimi - 8
Səlisi - 2
Səlman - 2
Səmai - 4
Səmi - 4
Sənayi - 3
Sərməd - 6
Seydi - 2
Seyfi - 3
Seyyid - 7
Səzayi - 4
Siddiq - 3
Sidqi - 11
Sirri - 13
Sehri - 3
Sinan - 3
Sipahi - 2
Siraci - 2
Sirət - 3
Siyahi - 5
Subhi - 7
Süni - 13
Suzi - 4
Sühayi - 2
Süheyli - 3
Süleyman - 3
Süluki - 2
Sürüri - 5
Şah Çələbi- 3
Şahi - 4
Şahidi - 2
Şakir - 9
Şani - 12
Şami - 3
Şəfii - 4
Şəfiq - 3
Şəfqət - 4
Şəhdi - 8
Şəhidi - 2
Şəhri - 5
Şəkib - 3
Şəmi - 6
Şəmsi - 9
Şərəf - 7
Şərif - 8
Şərifi - 2
Şövqi - 9
Şeyda - 5
Şeyxi - 23
Şifayi - 5
Şikari - 2
Şinasi - 5
Şuai - 2
Şühudi - 5
Şuri - 3
Şükri - 7
Təbi - 7
Təbi - 11
Tahir - 5
Təhsin - 3
Taib - 10
Tələti - 2
Talib - 10
Talibi - 2
Talii - 2
Təriqi - 2
Tərzi - 3
Təybi - 2
Təcəlli - 2

Tövfiq - 6
Tifli - 3
Türabi - 3
Übeydi - 3
Ülvi - 5
Uyuni - 2
Ülfəti - 3
Ümidi - 7
Ünsi - 3
Vadi - 2
Vəhdət - 6
Vəhdi - 2
Vahid - 8
Vahidi - 5
Vəhyi - 5
Vaqif - 3
Vaqi - 2
Vəli - 3
Valehi - 5
Vəsfi - 4
Vasif - 7
Vasıq - 5
Vəcdi - 9
Vəchi - 2
Vəfa - 2
Vəfayi - 3
Vəhbi - 7
Vəsim - 2
Vəzni - 2
Vüsəli - 6
Vüsuli - 3
Vüsləti - 3
Vücudi - 4
Yəhya - 5
Yaqini - 5
Yari - 2
Yetimi - 2
Yusif - 4
Yümni - 8
Yüsri - 5
Zahir - 2
Zəifi - 6
Zəmani - 2
Zəmiri - 5
Zari - 8
Zərif - 3
Zərifi - 5
Zati - 2
Zəkayi - 4
Zəki - 3
Zehni - 4
Zeyrəki - 2
Zehni - 19
Zikri - 3
Zivər - 3
Ziya - 3
Ziyayi - 5
Zühuri - 3
Zühdi - 5
Zülali - 2

Yuxarıda verilən adlara nəzər saldıqda məlum olur ki, müştərək təxəllüs seçmə səbəblərinə görə öz adından təxəllüs olaraq istifadə edənlər birinci yeri tutur. Bu adlar bəzən qısaldılaraq, bəzən də sonuna uyğun hərf əlavə edilərək istifadə edilir. Dilimizdə ən çox işlədilən "Əbd" köklü sözlər Əbdi şəklində təxəllüs götürmüşlər. 41 şair tərəfindən ortaq təxəllüs kimi istifadə edilən və sayına görə ədəbiyyatımızın ən çox yayılmış təxəllüsü olan Feyzi də bu sırada yer tutur. Əsəd, Fəhmi, Həmdi, Hilmi, İzzət, Kamil, Ləbib, Lütfi, Məhməd, Nuri, Rəşid, Rza, Rüşdi, Səid, Sami, Sidqi, Sirri, Taib və Zehni kimi adlar da ən çox işlənən təxəllüslər sırasındadır. Arifi isə adın sonuna uyğun sait əlavə edilməsi ilə düzələrək təxəllüslərə gözəl nümunədir.

Təxəllüs seçiminin yenə bir sıra xüsusiyyətləri vardır. Şair bəzən adını deyil, ləqəbini, atasının adını, nəslinə aid bir xüsusiyyəti bildirən adı, ya da doğum yerini və ya onu xatırladacaq bir adı özünə təxəllüs olaraq götürə bilir.

Təxəllüs seçiminə, xüsusilə də təxəllüsdən istifadə etməyə təsir edən amillərdən biri də həmin şəxsin sənətidir. Hafiz, Elmi, Hədıdi, Qəndi, Şəfayi, Katibi və Nişani kimi təxəllüslər eyni zamanda şairin sənətinə işarə edir. Təxəllüsün seçimində az təsadüf edilməklə ata sənəti ilə təxəllüs daşıyanlar da vardır.

Xalq şeirində çox tez-tez rast gəlinən özündən əvvəl yaşamış və məlum şöhrət qazanmış şəxsin təsiriylə, onun təxəllüsünü götürmə ənənəsi[201] də vardır. Belə təxəllüslərə divan şeirində də təsadüfi hallarda rast gəlinir. Məsələn, Baqi-8, Füzuli- 2, Saib- 7, Xəyali- 3, Naili- 2, Nəcati- 3, Nədim- 7 və Nevi- 1 şair tərəfindən götürülmüş təxəllüslərdir. Diqqət etdikdə bunların o biri təxəllüslərdən bir üstünlüyü yoxdur. Qənaətimə görə bu hala adətən yaxşı baxılmır və bu səbəbdən böyük əks-səda yaratmışdır. Hətta bəzi ədəbiyyat biliciləri arasında hər kəsə öz əhatə dairəsinə görə təxəllüs verilməsi

201 M.Sabri Koz, "Aşık Edebiyatımızda Ortak Mahlaslar Sorunu", I. Beynəlxalq Türk Xalq Ədəbiyyatı Seminarı materialları, Əskişəhər, 1987, s. 169-179.

təklifini irəli sürənlər, hətta uyğun gəlməyən təxəllüs seçənlərə zorla özünə uyğun təxəllüs verilməsini təklif edənlər də vardır.

Əli II Bəyazid dövrü şairlərindən Firdovsinin bu təxəllüsü alması barədə belə yazırdı: "Derdimend Firdevsi-i Tusinün ruhi mezbur ile iştirak-ı mahlasdan azurde ve bunun eşarı okunan vilayetden esen yil tokundukca mezarının giyahı bile pejmürde iken tekrar bir taklid da hi hicv semtindeki tereddüdinden peyda olmuşdur. Bir kerre hakim-i zı-şanın ruhı hayat bulmakdan bile meyus idugi hüveyda olmuşdur. Nolaydı sultanuş-şuara fermanına muhalefet caiz olmayup, tayini-mahlas-ı ehass anlardan ruhsat ile zuhura geleydi."[202]

Buna bənzər şikayəti Aşıq Çələbidə də görmək olur. Bir gün özünün də iştirak etdiyi bir məclisdə tanımadığı bir şairin adını soruşan Nəcati bəy, Zati cavabını eşitdikdə onun tanınmış Zati olduğunu zənn edərək qulluğunda dayanır. Şeirlərindən bəzi nümunələr oxumağı xahiş edincə bunun Həllac Zati olduğu meydana çıxır. Bundan çox hirslənən Nəcati onu "Ədəbsizin biri bu ad ilə Zatiyə qarşı durmaq və onunla şeirdə üz-üzə gəlməkdə həddin nədir? Vallahi əgər padşah asitanəsinə gedər olsam və qayıtmasam qəsidə ilə ərz edərdim bir təxəllüslü bir şair var ikən, hər cəfəngiyat yazan onun təxəllüsü ilə şeir yazıbsa, ona qadağa qoyub cəzalandırardım."[203]

Bütün bunlarla, hər bir dövrdə ortaq təxəllüs daşımağın, az çox problem yaratdığının şahidi oluruq. Özünə birdən çox təxəllüs götürmək qarışıqlıq yaratmaqla bərabər, şeirinə başqalarının sahiblənməsinə imkan yaratmaqdır. Bu üzdən təzirəçilər bu işi bacardıqca diqqətlə araşdırmağa çalışırlar. Ancaq bu işin keyfiyyətlə yerinə yetirilməsi təzkirəçinin həmin araşdırma ilə bağlı necə məlumat əldə etməsindən asılıdır. Əldə edilən məlumat bəzən "qaş düzəldərkən vurub göz çıxartmaq"la da nəticələnə bilir. Hətta bu qarışıqlığa bəzən təzkirəçilərin özləri də səbəb olurlar. İki ortaq təxəllüs daşıyan şairə aid məlumatların bir-biri ilə səhv düşməsinə Səfayi təzirəsindəki Rasixlər təxəllüsü bir nümunədir.

---

[202] "Künhü'l-ahbârın Tezkire Kısmı", (Haz. Mustafa İsen), Ankara 1994, s.161.
[203] Aşıq Çələbi, "Meşâirü'ş-şuarâ", (Yay. M.Owens), London 1971, s. 277b.

Müştərək təxəllüslərdən şairlərin də narahat olması başa düşüləndir. Hətta şairlərin təxəllüs seçimlərindəki əsas hədəf də "iştiraki- şuaradan halas bulmak (qurtulmaq)"olmuşdur[204]. Yekunlaşdırmalı olsaq, müştərək təxəllüslər məsələsi divan ədəbiyyatı sahəsində daha çox yayılmış və bu üzdən də əsər və şeirlər əsl sahiblərini deyil, başqa şairləri tanıtmışdır. Amma bu səhvlərin qolları heç zaman şifahi xalq ədəbiyyatındakı kimi problemli olmamışdır. Burada divan ədəbiyyatının məhsullarının yazılı nümunələr olmasıyla yanaşı, təzkirə və bioqrafik məlumat əhatə edən digər qaynaqların məsələyə diqqətlə yanaşması da mühüm rol oynamışdır.

(*Yazı "Milli egitim"Ankara 1989, s.82 s.22-29-da dərc olunub).

[204] Harun Tolasa, 16. "Yüzyılda Edebiyat Araştırma ve Eleştirisi". İzmir 1983, s.214.

OSMANLILAR DÖVRÜNDƏ ŞƏHƏR VƏ MƏDƏNİYYƏT*

Din birliyi əsasında yaranan böyük mədəniyyətlər müxtəlif millətlərin mədəniyyətlərini ortaq bir müstəviyə gətirə bilirlər. Belə mədəniyyətlərin ən mükəmməl nümunəsinə İslam mədəniyyətini misal göstərmək olar. Söz açdığımız bu mədəniyyət iki əsas təməl əsasında formalaşmışdır. Bunlardan birincisi islamın ilk mənsubları və ilk yüzilliklərindən bu toplumu idarə edən başlıca güc olmaları etibarilə ərəblərin sosial və mədəni quruluşu, ikincisi isə dinin yayıldığı sahələrdə mövcud olan müxtəlif mədəniyyət formalarıdır. Bu iki amilin birləşməsiylə aralarında ərazi, tarix və irq olaraq heç bir bağlılıq olmayan icmalar zaman keçdikcə bir ocaqda əriyib bir-birinə qarışmışlar.

Bu birliyi isə müsəlmanlar sıx yaşayan yerlərdə, xüsusilə də şəhərlərdə axtarmaq lazımdır. İslam şəhərdə yaranmış bir dindir. İbadətlərinin çoxu camaatın birlikdə yerinə yetirməli olduğu ayinlərdir. Bu xüsusiyyət müsəlman ərazilərində başlanğıcdan etibarən şəhərlərin yaranmasını təşkil etmiş, şəhər əhalisi həmin şəhərin yaratdığı mədəniyyəti daşımış, onu qoruyub saxlamışdır. İslamda oturaq həyat tərzini tələb edən ən mühüm səbəblərdən biri camaatın qıldığı namazdır. Bu üzdən müsəlman şəhərinin nüvəsində məscid əsas yer tutur. Demək olar ki, bütün müsəlman şəhərləri məscidlərin ətrafında yaranıblar. Əsas yollar, müsəlman şəhərinin ən mühüm özəlliklərindən olan bazar və təhsil ocaqları həmişə məscid ətrafında yaradılıb.

Yeni yaşayış yerlərinə ehtiyac hiss edildikcə daha kiçik həcmli olmaqla eyni xüsusiyyətləri daşıyan yeni məhəllələr inşa edilirdi.

Yeni bir düşüncə, yaşam tərzi və mədəniyyət gətirən islami dəyərlərin başa düşülməsi, qəbul edilməsi və inkişaf etdirilərək yayılması üçün ilk dövrlərdən etibarən məscidlərin yanında və onlarla iç-içə təlim mərkəzləri təşəkkül tapmışlar. Daha sonra mədrəsə adını alan bu tikililər sonralar təşəkkül edərək təkkələrlə birlikdə şəhərlərin mədəniyyətində bünövrə olmuş əsas qurumlardır.

Şəhər öz əlverişli coğrafi şəraitinin verdiyi imkanlar hesabına, ya da bağlı olduğu sivilizasiyanın ehtiyaclarını ödəmək üçün siyasi və iqtisadi cəhətdən inkişaf etdikcə, bu sahələri də özü ilə bərabər çəkib irəliyə aparır.

Müxtəlif müsəlman mədəni mühitində olan bu uzlaşmalar böyük oxşarlıqla Osmanlı şəhərlərində də hiss olunur. Amma bunu da əlavə etməliyik ki, mədəni inkişaflar siyasi inkişafı müəyyən məsafələrdən təqib edir. Siyasi baxımdan şəhər nə qədər inkişaf edirsə, bir müddət sonra həmin ərazidə mədəni inkişaf da özünü büruzə verir. Bu cəhətdən Osmanlı toplumuna baxdığımızda ilk mədəni qurumların İznik və Bursada təşəkkül tapdığını, bununla əlaqədar olaraq ilk mədəni məhsulların yenə bu şəhərlərdən alındığı məlum olacaqdır. XIV yüzilliyin ikinci yarısından etibarən Rumeli fatehləri vasitəsiylə Balkanlarda geniş bir ərazini əhatə edən siyasi quruluş, bu dəfə o yerlərdə mədəniyyətin inkişaf etməsinə rəvac vermişdir.

İstanbul fəth edilənə qədər Osmanlı dövlətinin mühüm mədəniyyət mərkəzləri - Bursadan başqa Ədirnə, Gelibolu, Sərəz, Vardar Yenicəsi, Üsküp, Manastır, Filibə, Selanik, Belqrad, Pruzren və Priştinə kimi Rumeli ərazisində yerləşən şəhərlər olmuşdur. İstanbul fəth edildikdən sonra buna oxşar şəkildə Anadoludakı Konya, Diyarbəkir, Kastamonu, Bağdad, Amasya, Kütahya, Anter, Manisa, Bolu, İsparta, Aydın, Ərzurum və Kayseri kimi şəhərlər bir-birinin ardınca mədəniyyət mərkəzi kimi inkişaf edərək, təşəkkül tapdı. Belə bir təsnifatı müxtəlif dəyərləndirmə nöqtələri tətbiq edərək vermək mümkündür. Bizim dayandığımız istinad nöqtəsi bu şəhərlərin yetişdirmiş olduğu şairlərdir.[205]

Mən o biri şəhərləri bir tərəfə qoyaraq iki Rumeli şəhərinin mədəniyyət mərkəzi olmaq səbəbini, buna rəvac verən əsas xüsusiyyətləri təhlil etmək istəyirəm. Bu şəhərlər Gelibolu və Vardar Yenicəsidir. Babalarımızın Rumelidə ilk fəth etdikləri və İstanbul alınana qədər Rumeliyə girmək üçün bir körpü və mərkəz olaraq istifadə etdikləri Gelibolu bu sıralamada səkkizinci yeri tutmaqdadır

[205] Mövzuyla bağlı olaraq bu kitabdakı "Osmanlı Kültür Coğrafyasına Bakışlar" adlı məqaləmizin 171-178 səhifələrinə baxın.

ki, bu da bugünkü yeri ilə əsla müqayisə edilməyəcək yüksək bir nöqtədir. Əvvəlki dövrlərə, məsələn, XVI yüzilliyə qədər meydana çıxmış şairlərə görə dəyərləndirmə aparılacarsa, şəhərin yeri daha da yuxarılarda olacaqdır. Bu hal İstanbul fəth edilənə qədər siyasi quruluşun Geliboluya olan ehtiyacından irəli gəlir. Çünki İstanbul dövləti yaranana qədər Gelibolu Osmanlı dövləti üçün birinci dərəcəli siyasi mərkəzlərdən biri idi. Xüsusilə ikinci dəfə türklərin əlinə keçdikdən sonra (14 iyun 1367) şəhər Osmanlı dövründə bir yandan Rumeliyə keçən yolun üstündə olması, o biri yandan da Osmanlı dənizçiliyinin beşiyi olaraq inkişaf etməsi baxımından çox əlverişli bir şəhər idi. Xüsusilə də Rumelidə fatehlik edən türk bəyləri əldə etdikləri qənimətlərin böyük bir hissəsini də Geliboluya xərcləyirdilər. Bundan başqa dəniz qüvvələri kapitanlığının burada yerləşməsi, tərsanə və əcəmi oğlanlar mərkəzi də şəhərə bir çox imkanlar qazandırdı. Bu fəaliyyətlər həmin istiqamətlərdə çox şöhrət qazanaraq, təsiri uzun zaman silinməyən mədəni həyatın yaranmasına səbəb oldu. Məsələyə yalnız şeir tarixi baxımından yanaşdıqda da yuxarıdakı mənzərə qarşımıza çıxacaqdır. Mədəniyyətin digər qolları olan təsəvvüf, musiqi, elm, xəttatlıq sənəti kimi fərqli sahələrdə də bu mənzərə müşahidə edilməkdədir. Yazıçızadələr kimi təsəvvüf həyatımızın iki böyük şəxsiyyətlərin, tarixçi Gelibolulu Mustafa Əlinin və Piri- Rəisin buradan çıxmış olması təsadüfi deyildir.

Lakin sonralar söz açdığımız siyasi qurumların İstanbula köçməsi və Avropaya keçmək uçun müxtəlif şəhərlərdən istifadə Gelibolunun köhnə durumdan uzaqlaşdırılmasına səbəb olmuşdur. Bu yeni dəyişiklik, çox keçmədən yenə də Gelibolunun mədəniyyətinə öz təsirini göstərdi. Şübhəsiz ki, bu dəfə təsir müsbət formada olmadı. Vardar Yenicəsinə gəldikdə isə bu gün Yunanıstan sərhədlərinə daxil edilmiş Giannıtsa adını daşıyan və yaddaşımızdan silinmiş bu şəhər, məlum olan klassik mədəniyyət mərkəzləri qəliblərilə bir araya gəlməyən fərqli bir abidə kimi müşahidə edilir. Selanıkın qərbində yerləşən bu şəhər yol ayrıcında yerləşmir. Ciddi bir mədrəsə ənənəsinə də malik deyil. Ancaq şəhər Osmanlı mədəniyyət mərkəzləri içərisindən ən çox şair verən yerlər arasında on beşinci

yei tutur.[206] Bu şairlər aşağıdakılardır: Əbdulqəni, Agəhi (v. 1577), Eşqi (v. 1592) Dəruni (v. 1650), Qəribi (v. 1547) Günahi (v. 1670), Heyrəti (v. 1535) Xəyali (v. 1557), İlahi, Məhməd, Razi (v. 1617), Razi, Sidqi, Səlman (v. 1564), Sirri (v. 1585), Sami, Tabi, Usuli (v. 1538) Yusifi Sıneçak (v. 1564) və Zari (v. 1517).

Ucqarda Selanik vilayətinə bitişik kiçik bir qəza mərkəzində belə çoxlu sayda şairin yetişməsi çətin izah olunan bir haldır. Şairlərin şəxsi həyatlarına, sosial və psixoloji vəziyyətlərinə dair dəyərli məlumatlar verən Aşıq Çələbi (v. 1572) danışılan rəvayətlərə əsasən o dövrün Yenicəsi haqqında bizə məlumatlar verir. Bu məlumatlarla biz sualımızın cavabını da tapmış oluruq. "Rəvayət edirlər ki, Prizrendə oğlan doğularsa adından əvvəl təxəllüsün qoyarlar. Yenicədə doğulan oğlan ata deyə dil açan vaxt farsca şeir söylər. Prıştinədə oğlan doğulan zaman dividi belində doğular." Bu məlumatlar bizə şəhərin xüsusilə fars mədəniyyəti baxımından, başqa tərzdə desək, ədəbiyyat mərkəzi olmaq nöqtəsindən əhəmiyyətli olmasını bəyan edir. Yaxşı, bəs bu Rumeli qəsəbəsini fars ocağına çevirən kimdir. Qaynaqlar bu söhbətdə də bizə yardımçı ola bilmişlər. Rumeli fatehlərin arasında böyük rolu və XVI yüzilliyin sonuna qədər Osmanlı dövrünün ən əhəmiyyətli döyüş gücü olan akıncılar(döyüşçülər), İstanbuldakı mərkəzi özlərinə model götürərək ucqarda özlərinə uyğun olan kiçik qəsəbələr yaradırdılar. Burada yenə İstanbuldakı sarayı model kimi götürən bir quruculuq özünü göstərir. Akıncıların yanında, xüsusilə onları döyüşə səsləyəcək, onların döyüşlərini və şəhid olmalarını vəsf edə biləcək, qısası onlara qüvvət verəcək adamların olması zəruri idi. Mədrəsələrdə yetişən və bu işin daha çox zahiri tərəfləriylə məşğul olan alimlər bunun öhdəsindən gələ bilməzdilər. Bu işi qışda qışlaqlarda, yazda isə akıncılarla birlikdə coşub daşan adamlar, yəni şairlər yerinə yetirə bilərdilər. Elə Yenicəli şairlərin çoxu da bu xüsusiyyətləri daşımaqdaydı. Hətta Yenicədə yetişən şairlər həmin mühitdən çıxmış standart məhsullar kimi oxşar xüsusiyyətlərə malik idi. Yaxşı. bir şəhərin mədəniyyət adamlarını yetişdirən, bu mühiti

[206] Mövzu ilə bağlı bu kitabdakı "Osmanlı Kültür Coğrafyasına Bakışlar" adlı məqalənin 171-178 səhifələrinə baxın.

yaradan kişi kim idi? Bu şəxs, vəhdəti-vücud duşüncəsini Anadoluya gətirənlərin biri olan Şeyx Abdullah-i İlahidir (v. 1491). Akıncı bəyi Evrenoszadə Əhməd bəyin söz açdığımız funksiyanı yerinə yetirmək üzrə israrla Yenicəyə gətirdiyi İlahi bu şəhərdə yaşayan aydınları öz təsiri altına salıb, onların hamısına ortaq xüsusiyyətlər qazandıran bir şəxsiyyət olmuşdur. Aləmi- təklifdən azadə davranışları, səmimiyyət və dərinliyi ilə bir ruh kimi həmişə yüksəklərdə gəzən və heç nəyə tabe olmayan tərzləri həmin aydınların əsas xüsusiyyətləri idi. Şəhərdəki şairləri də əhatə edən, onları azad bir dərviş həssaslığı içində saxlayan həmin təsəvvüf havası idi.məhz bu havayla Yenicə, XVI əsrin sonuna qədər Osmanlı dövlətinin əsrlər boyunca məşhur olmuş şairlərini yetişdirən mühüm bir qəsəbə olmuşdur.

Təbiət etibarıyla akıncılık funksiyasının bitməsiylə öz inkişaf nöqtəsini də itirmiş olan şəhər, getdikcə öz özəlliyini itirdi.

Budur Osmanlı ictimai mühitində fərqli mədəniyyət qaynaqlarının yetişdirdiyi bir-birini tamamlayan insan tipləri. Şübhəsiz, bunlara əlavə olunacaq başqa mədəniyyət qaynaqları da mövcud olmuşdur və bunun da önündə əksər sahələrə nizam- tərəzi verən və onları özünə cəlb edən paytaxt İstanbul və ürəyi sayılan saray gəlir. Osmanlı mədəniyyətini bəsləyən əsl ana güc mərkəzi həmişə İstanbul olmuş, onun təsiri və ucqarlarda əks olunması nəticəsində başqa mədəniyyət ocaqları da vaxt keçdikcə təşəkkül tapmışdır. Bunların arasında XVI əsrin sonuna qədər var olan bir gözəl ənənədən, şahzadə-valilik sistemindən xüsusilə söz açmaq gərəkdir. Kütahya, Manisa, Konya, Amasya, Trabzon kimi şəhərlərdə yaradılan və adına şahzadə sancağı deyilən bu mərkəzlər də kiçik bir paytaxt şəklində idilər. Yenə onları nümunə götürən digər dövlət adamları, paytaxt ətrafında ağa və bəylər, şəhərlərdə qəhvəxanalar, bəzi əsnaf dükanları, daha sonralar da bəzi yeni fikirli kişilərdən təşkil olunan salon toplantıları bu ənənənin qollarıdır.

Mədəniyyətimizin dinamik şəkildə irəlilədiyi dövrdə yaranmış və adları bu günümüzə qədər gəlib çatmış sənətçilər, həmin mərkəzlərdə yetişib mədəniyyət dünyamızı zənginləşdirmişlər. Sənaye inqilabının ortaya çıxardığı mənzərə, bu yeni şəraitə uyğunlaşmanın cavabı olan zehni travmalar, aydınların ənənəvi dünyagörüşlərini darmadağın etdi. Hər halda, yalnız yeni bir quruluş zamana və zehni düşüncəyə aid qayğılardan azad olunmuş bizlər üçün müstəqil ortaq mühit və azad sənətçilər yetişdirə bilərdi.

*(*Yazı "Türk Yurdu" jurnalı. iyul 1996, s.106,s 97-39-da dərc olunub).*

İstifadə olunan ədəbiyyat:

1. Can Yılmaz. "İslam Şehirlerinin Fiziki Yapısı". Ankara, 1995
2. İsen Mustafa. "Usulı Divanı". Ankara, 1993.
3. İsen Mustafa. "Künhul-Ahbar"ın tezkire kısmı" . Ankara 1994
4. Tuğlacı Pars. "Osmanlı şehirleri". İstanbul, 1985.

İSTANBUL KLASSİK ŞEİRİN MƏRKƏZİ KİMİ*

Siyasi və mədəni tariximizə baxmalı olsaq, IX əsrə qədər Ötüken, Hoço və Turfan şəhərlərinin mədəniyyət mərkəzləri olduqları meydana çıxar. X-XI əsrlərdə Kaşğar və Balasagunun da belə şəhərlərdən olmasını görürük. XIII əsrə qədər şərq türklüyü və türkcəsi dairəsində təşəkkül tapan bu mərkəzlər, həmin tarixdən etibarən qərb türklüyü üçün də qurulmağa başlamışdır. XIII yüzillikdə Xarəzm, XV yüzillikdə Herat, Səmərqənd və Buxara bu ərazinin mərkəzləri ikən, Qərb türklüyü üçün də artıq Bağdad, Diyarbəkir, Gəncə, Təbriz, Konya, Bursa, Ədirnə və İstanbul kimi əlavə mərkəzlər meydana çıxmağa başlamışdır. Bu mərkəzlərin xüsusilə mədəniyyət baxımından ortaya çıxışını yaradan bir sıra təməl daşları, yəni təhsil ocaqları da vardır. Başlangıcda usta-şagird əlaqəsi çevrəsində davam edən təlim-təhsil fəaliyyəti, xüsusilə islam mədəniyyəti sivilizasiyası içində özünə mühüm yer tutdu. Bu qurumların əksəriyyətini mədrəsələr, təkkələr və hərbi təlim mərkəzləri təşkil edirdi. Bunlara bilavasitə təhsil mərkəzi vəzifəsini yerinə yetirən ticarət mərkəzlərini da əlavə etmək gərəkdir. Bu xüsusiyyətləri daşıyan şəhərlərin yaranmasında şübhəsiz ki, bir sıra təsirlər də olmuşdur. Əlbəttə, bunların başında da coğrafi xüsusiyyətlər əsas yer tutur. Çünki şəhərlər müxtəlif amillərin təsiri ilə qurulur və inkişaf edirlər. Bunların bir qismi mədəniyyətlərin onlara olan ehtiyaclarını doğrultmaq baxımından əhəmiyyət qazanır, ya da dəyərlərini itirir, başqa bir qismi əlverişli coğrafi vəziyyətləri, yolayrıcılarında yerləşmələri kimi başqa faktorların təsiriylə öz mövqelərini mühafizə edirlər. Asiya ilə Avropanın birləşdiyi nöqtədə mühüm bir iqtisadi, ticarət, texnologiya, mədəniyyət və turizm mərkəzi olan İstanbul, bu ikinci qrupun ən xarakterik nümunələrindən biridir.Şəhər bu mühüm xüsusiyyətinə görə, bir çox erkən dövrlərdən bəri bütün sahələrin önəm verdiyi çox mühüm mərkəzlərdən biri olmaq şansını qorumuş və bu cür şəhərlərin ən öndə olan nümunəsinə çevrilmişdir. Modern şəhər termini ilə söyləmək istəsək, demək olar ki, İstanbul bir metropol deyil, meqopoldur.

Bu mənada, şəhər şübhəsiz fərqli dövrlərdə dəyişik görüntülərə malik olsa da, çevrəsindəki min kilometrlik ərazinin hansı tərəfindən baxsaq bir cazibə mərkəzi kimi görünəcəkdir. Gerçəkdən də, tarix səhnəsinə çıxdığı andan etibarən hansı sahəylə bağlı olursa-olsun o, daima həm ölkəmizin, həm də bütün dünyanın mərkəz şəhərlərindən biri olmuşdur. İslam dünyasının mərkəzi olduğu andan etibarən, şəhərə verilən adlar yeni sakinlərinin də onu necə gördüyünü ifadə etməsi baxımından maraq doğurur. Bu adlar şəhərin mahiyyətini göstərən açar sözlərdir: Ümmüd-dünya, Dər-i Səadət, Dər-i dövlət, Asitaneyi- Səadət və Darüs-səltənə.

İstanbulun siyasi, iqtisadi və mədəni tarixi baxımından bu müqayisəedilməz özəllikləri, bir çox fərqli sahələrə görə də gündəmə gətirilə və dəyərləndirilə bilər. Hətta bunlardan nümunə kimi mədəni sahəni ayrılıqda dəyərləndirməklə şəhər bu özünə məxsusluğunu göstərmək olar. Mən bu izahatı onun klassik ədəbiyyata və bu ədəbiyyatı meydana gətirən şairlərə göstərdiyi təsir nöqtəsindən dilə gətirmək istəyirəm.

Məlum olduğu kimi. divan ədəbiyyatı bir şəhər ədəbiyyatıdır. Bu ədəbiyyatın inkişaf edib, əsas gözə çarpan nöqtəsi də şəhəri vəsf edən hissələrdir. Demək olar ki.divan ədəbiyyatı mənsublarının çoxu şəhərlərdə doğulub boya-başa çatmış, ən azından təhsillərini şəhərdə almış şairlərdir. Klassik ədəbiyyat mənsublarının doğum yerləri baxımından dəyərləndirməsində İstanbulun başda yer alacağı təbiidir. Mövzuyla bağlı tərəfimizdən aparılan bu araşdırma, təxmin edildiyi kimi bir şəhərdə doğulan şairlərin irəli çıxdığını ortaya qoyur. Osmanlı ərazisində doğulan şairlər doğum yerlərinə görə sıralandırılarkən belə bir mənzərə ilə qarşılaşırıq: İstanbul- 609, Bursa- 156, Ədirnə- 150, Konya- 69, Diyarba\əkir- 40, Kastamonu – 36, Bağdad- 35, Gəlibolu- 30, Bosniya- 26, Anter- 26, Kütahya- 24, Sərəz- 21, Manisa- 20, Vardar Yenicəsi- 20, Bolu- 19, İsparta- 19, Üsküp- 17, Amasya- 18, Aydın- 17, Manastır- 17, Ankara- 16, Ərzurum- 16, Filibe- 16, Selanik- 16, Sofya- 16, Trabzon – 15, Tokat- 14, Belqrad- 11, İznik- 11, Kayseri- 11 (İsen 97;64).

Bu siyahı divan şairlərinin doğum yerləri baxımından İstanbulun rəqibsiz birinci yerdə olduğunu açıqca göstərməkdədir. Diqqət

çəkən başqa bir xüsusiyyət də. İstanbulu təqib edən başqa şəhərlərin də daha əvvəllər siyasi mərkəz olmalarıdır.

Bu siyahıdan görünür ki, mədəni sivilizasiya siyasi inkişafı müəyyən bir məsafədən izləməklə, hər ikisi bir- biri ilə sıx şəkildə bağlıdır.

Şairlərin doğum yerləri ilə bərabər onları yetişdirən mühit də nəzərə alınarsa, o zaman İstanbulun əhəmiyyəti daha da artacaqdır. Mənbələr açıq şəkildə göstərirlər ki, bir çox şair təlim və təhsilini tamamlamaq üçün böyük bir cazibə mərkəzi olan İstanbula üz tuturdu. Osmanlı dövlətinin inkişaf edən elm və mədəniyyət sferasında dövrün idarə sistemiylə birlikdə, genişlənib böyüyən mərkəzlərə, xüsusilə mədrəsələrə əsas yer vermək gərəkdir. Fatehin İstanbulu İslam dünyasının mərkəzi etmək arzusu nəticəsində bu şəhərdə yaradılan böyük mədrəsə və bunun ardınca padşahlar tərəfindən inşa edilən irili-xırdalı mədrəsələr, elm və mədəni həyatın ağırlıq nöqtəsini ucqardakı dağınıq şəhərlərdən alaraq bir neçə böyük şəhərə gətirdi. Bu üzdən özündəki istedadı hiss edən hər kəs xüsusi yüksək təhsil almaq üçün İstanbula gəlirdi ki, bu da İstanbulda doğulmayan şairlərin belə, bu şəhərin mühitində yetişdiyini göstərir. Dövrün mədəni həyatına istiqamət verən bir şəhər və böyük şairlərin istinad mərkəzi olmasına diqqət yetirilərsə, İstanbulun klassik ədəbiyyat baxımından əhəmiyyəti daha da artacaqdır. Çünki dövlətin hansı şəhərində olursa-olsun istedadı olan elm adamı, yaxud sənətkar dərhal paytaxta gətirilir və orada onun sənətini icra etmək üçün əlverişli mühit yaradılırdı. Bu himayə İstanbuldan əvvəl paytaxt olmuş Ədirnədə başlamaqla(İpəkten 96;25) İstanbulda öz həllini tapmışdır. Çünki divan ədəbiyyatının əsas inkişafı İstanbulun fəthindən sonra olmuşdur. Daha çox Fateh Sultan Mahmud və vəziri Mahmud Paşa ilə qazanılan bu himayə nəticəsində Fatehin ətrafında 185 şairin toplandığı məlumdur. Bu inkişaf hökmdarların şəxsiyyətləri ilə dəyişən şəkillərdə olmaqla, Osmanlı dövləti boyunca davam etmişdir. Hətta bunlara Fateh və Yavuz dövrlərində olduğu kimi xaricdən bir qisim məcburi şəkildə gələn ziyalı köçü də qatılmışdır. Klassik ədəbiyyat çərçivəsində kənardan gəlmiş, amma İstanbulun imkanlarıyla mədəni həyatımıza

rəng qatmış diqqət çəkən önəmli şairlər Nəcati bəy, Xəyali, Gelibolulu Əli, Nəbi və Nəfidir.

Bilindiyi kimi, mətbəədən istifadə olunana qədər kitablar əl ilə köçürülür və oxuculara təqdim olunurdu. Mətbəə meydana çıxana qədər təqdim olunan kitablara nəzər salsaq, bu kitabların çoxunun şəhərlərdə meydana gəldiyini görəcəyik. Əlimizdə bu məsələ ilə bağlı nümunə olmadığından ətraflı məlumat verməsək də, yenə də əminliklə bu işdə İstanbulun ön sırada olmasına inanırıq. Çünki bilirik ki, başda Bəyazid Cami çevrəsi olmaqla İstanbulda bəlli yerlərdə əlyazma köçürmək üçün emalatxana aşkar edilmişdir. Hətta bu işin qiymətləndirməsi haqqında əlimizdə məlumatlar olduğu kimi (Cumbur 82:30), şəhərdəki xəttat sayını təxmin etməyimizə kömək edən ictimai hadisələrlə bağlı məlumatlar da mənbələrdə özünə yer almışdır. Mətbəənin Osmanlı toplumuna gec gəlişinin səbəblərindən biri, şəhər əhalisinin önəmli hissəsini təşkil edən xəttat ailələrinin dolana bilməyəcəkləri iddiasının irəli sürülməsi olmuşdur. Bütün bu məlumatlar bizə kitabların, xüsusilə klassik mədəniyyətin nümunələri olan divan və məsnəvilərin çoxaldılması sahəsində İstanbulun çox önəmli bir mərkəz olmasını sübut edir.

Kitabların üzünü köçürmək bəhsində qeyd edildiyi kimi, mədəniyyət mərkəzlərini, eyni zamanda kitab istehsalı mərkəzləri də adlandırmaq olar. Kitabın əllə yazılaraq yayıldığı dövrdən keçərək, onun nəşrə başlandığı illərə nəzər salsaq, qarşımızda necə bir mənzərə canlanar? Başqa sözlə desək, mətbəələr də eyni formada mədəniyyəti şəhərlə bağlayan bir əlaqə göstəricisi idimi? Sözsüz ki, bu suala da təsdiq cavabını verəcəyik. Yaxşı, belə bir mənzərədə İstanbulun yeri harada idi? Mən belə bir suala yenə klassik ədəbiyyat nöqteyi-nəzərindən cavab tapmağa çalışacağam. Türk dünyasında nəşr olunan divanlara nəzər salaraq İstanbulun bu işdə rolunun necə olduğunu, hansı yerdə dayandığını araşdırmağa çalışacağam.

Bilindiyi kimi mətbəə bizim toplumumuza icad olunmasından xeyli sonra gəlib çatdı. Mən çox müzakirə edilmiş bu gecikmənin səbəbləri üzərində qismən dayandım. Bunu qeyd edək ki, mətbəə, ictimai həyatımıza daxil olduqdan sonra sürətlə yayılmışdır. Mətbəələr başlanğıcda siyasi mərkəz olaraq İstanbuldan başlayamaqla

kənarlardakı mədəniyyət mərkəzlərində də qurulurdu. Bu baxımdan da İstanbul şübhəsiz ki, ən əhəmiyyətli yerdə qərar tuturdu.

Türk dünyasında nəşr olunan əsərlərin keyfiyyəti və xüsusiyyətləri barəsində əlimizdə bu mövzuya söhbət olacaq qədər ədəbiyyat yoxdur.

"Bulaq" üçün aparılan tədqiqatlarda hərbi mətnlərin, ədəbiyyat və dini əsərlərin ön plana çıxarıldığı məlum olmuşdur. (Aynur 90:43). Şeirə göstərilən xüsusi ehtiramla əlaqədar olaraq nəşr olunan əsərlərin ən çox divan qəzəlləri olduğu diqqəti çəkir. Bununla birlikdə "Müteferrika"(pərakəndə) nəşrlər arasında divana rast gəlinmir. Osmanlı ərazisində ilk türkcə divan nəşri 1244 (1828)-cü il tarixinə təsadüf edir. Bu əsər "Darüt-tibaada", yəni "Bulaq"da nəşr olunan Füzuli divanıdır. Osmanlı ərazisindən kənarda da ilk nəşr olunan divan, eyni ildə Təbrizdə işıq üzü görən Füzuli divanıdır. Türkcə divanlar içərisində ən çox, təxminən yüz dəfə nəşr olunan kitab yenə Füzulinin ölməz divanıdır. Dahi şair Füzulini istər Osmanlı ərazisində, istərsə də bu əraziyə daxil olmayan, Türk dünyasının başqa yerlərində ilk nəşr olunan nümunə olması çox diqqətçəkən bir haldır. Bu o deməkdir ki, divan ədəbiyyatının ilk nəşr olunan əsərlərindən hansına əlimizi uzatsaq, Füzulinin divanı ilə rastlaşacağıq.

Şairlərin doğulduğu yerə nəzər saldığımız kimi, türk dünyası miqyasında divanların nəşri baxımından araşdırma aparsaq İstanbulun, heç şübhəsiz, rəqibsiz bir şəkildə irəli çıxmasının şahidi olacağıq. 1828-ci ildən 1996-cı ilə kimi İstanbulda 391 divan nəşr olunmuşdur. Bu tarixlər aşağıdakılardır:

1244, 1254, 1256, 1266, 1269, 1271, 1274, 1276, 1279, 1281, 1285, 1295, 1306, 1312, 1313,1314, 1317, 1324, 1326, 1331, 1332, 1333, 1334, 1339-cu illərdə ildə bir dəfə nəşr olunub.1259, 1259, 1260, 1261, 1263, 1272, 1273, 1275, 1278, 1283, 1292, 1294, 1297, 1300, 1301, 1305, 1307, 1309, 1310, 1311, 1315, 1316, 1320, 1334, 1335, 1339, 1340, 1341-ci illərdə hər il iki dəfə, 1262, 1267, 1293, 1298, 1302, 1304, 1342, 1337, 1347-ci illərdə isə ildə üç dəfə divan nəşr olunmuşdur. 1268,1286, 1296,1299, 1303, 1322, 1325, 1338-ci illərdə ildə dörd dəfə, 1258, 1308, 1327, 1328, 1329-cu illərdə ildə

beş dəfə, 1318-ci ildə altı, 1284, 1288-ci illərdə yeddi dəfə, 1257, 1287, 1289-cu illərdə səkkiz, 1291-ci ildə on bir, 1290-cı ildə on üç, 1264-cü ildə isə iyirmi iki divan çap olunmuşdur. 1924-cü ildən sonra bir qədər fasilə verilmiş divan nəşrləri 1928-ci ildə köhnə əlifba ilə 3 ədəd çap olunduqdan sonra, yeni hərflərlə çap olunmağa başlamış və ilk yeni əlifba ilə çap olunan divan, Yusif Ziyanın hazırladığı "Nədim Divanı" "Suhulət Kitab evi" tərəfindən nəşr olunmuşdur.

Yeni əlifba ilə nəşr olunan divanların nəşr olunma tarixləri bunlardır: 1932, 1934, 1935, 1939, 1949, 1953, 1954, 1955, 1957, 1987, 1991, 1994-cü illərdə ildə bir dəfə, 1935, 1937, 1942, 1943, 1946, 1947, 1950, 1951, 1956, 1958, 1960, 1965, 1967, 1968, 1970, 1971, 1983, 1992, 1995-ci illərdə ildə iki dəfə, 1944, 1945, 1948, 1959, 1961, 1963, 1966, 1976, 1980, 1982, 1986, 1988, 1993-cü illərdə üç dəfə, 1972, 1974, 1979, 1985, 1990-cı illərdə dörd dəfə, 1935-ci ildə beş dəfə, 1981-ci ildə altı dəfə çap olunmuşdur. Bu nəşrlərin on beş ədədi də tarixsizdir.

Nəşr olunmuş divanlar bucağından dəyərləndirildiyində İstanbuldan sonra ikinci yerdə Təbriz gəlir. 1244 (1828) ilə 1374 (1954) illər arasında bu şəhərdə 99 ədəd divan çap olunmuşdur. Şübhəsiz ki, bu say bizə tanış olan əsərlərdən ibarətdir. Türkcə divanların ən çox çap olunduğu üçüncü mərkəz Türkiyə Cümhuriyyətinin paytaxtı Ankaradır. 1958-1996-cı illər arasında Ankarada 97 divan çap olunmuşdur ki, bunların əksəriyyəti Mədəniyyət Nazirliyinin nəşrləridir. Sıralarımızda dördüncü yerdə Azərbaycanın paytaxtı olan Bakı gəlir. 1902-1933-cü illər arasında bu şəhərdə ümumilikdə 67 divan nəşr olunmuşdur. Türkcə divanların nəşrinə görə beşinci yeri Özbəkistanın paytaxtı Daşkənd tutur. Daşkənddə ilk divan nəşrləri 1300 (1883)-cü ildən rast gəlinməkdədir. 1980-ci ilə gəldikdə isə nəşr olunan divanların sayı 46-dır. Altıncı yeri "Bulaq" tutmaqdadır. "Bulaq"da 1828 illə 1868-ci illər arasında, yəni 40 il içərisində 31 divan çap olunmuşdur. (Aynur 90: 43)

Divan nəşr edilən mədəniyyət mərkəzləri bu şəhərlərdən başqa, bir çox yerlərdə də çox kiçik rəqəmlərlə gözə dəyir. Buna görə də bu yerlərdən söz açmağı lazım bilmirik.

Kitabların toplanıb oxucunun xidmətinə verildiyi mərkəzə, yəni

kitabxanaçılıq tarixinə nəzər salsaq, yenə İstanbulu rəqibsiz şəkildə qəbul etməli olarıq. Bu mövzuyla aparılan araşdırmalara nəzər saldıqda İstanbulun kitabxanaçılıq fəaliyyətində divan qəzəlləri və məsnəvilər baxımından necə bir əhəmiyyətli mərkəz olması asanlıqla görülməkdədir. (Erünsal, 91). Başda Süleymaniyyə kitabxanası olmaqla İstanbul kitabxanaları minlərlə klassik mətni ehtiva etmək baxımından dünyanın ən zəngin mərkəzlərindəndir. (Duman 1961, Komisyon, 1964).

Klassik mədəniyyət bucağından aparılan bu araşdırmalar nəticəsində müxtəlif ölçü və dəyərlərinə görə İstanbul başqa mədəniyyət mərkəzlərindən bir qayda olaraq həmişə öndə dayanır. Bu da şəhərin mədəniyyət tariximizdə necə əhəmiyyətli yer tutduğunu əyani şəkildə sübut edərək, göz önündə canlandırır. Belə araşdırmalar bu gün də aparılarsa, mənə elə gəlir, nəticə yenə dəyişməyəcək. Qısa şəkildə belə yekunlaşdırmaq olar ki, istər dünən, istərsə də bu gün İstanbulun ətrafındakı şəhərlərdəki mədəni hadisələr, mədəni inkişaf, İstanbul mədəniyyətinin təkrarıdır. Əsl güc və mədəni inkişafın özəyi bütün tarixlər boyunca bir mənalı şəkildə İstanbul şəhəri olmuşdur.

*(*Yazı "Bilig" yurnalı (2000) s.13-də dərc olunub).*

İstifadə olunan ədəbiyyat:

Aynur Xədicə "Bulak matbaasında basılan türkce divanlar" Yournal of turkish Studies, Volume 14 199, s 43

Cumbur Mulgan, "Gelibollulu Ali Menakibi Hünerveran" Ankara 1982, 164.s Erünsal, İsmail E "Türk kütuphaneleri tarihi II", Ankara 1991.

İpəkten Haluq "Divan Edebiyatında Edebi Mühitler",İstanbul 1996, 271.s

İsen Mustafa "Osmanlı Kültür Coğrafiyasına Bakış", Ötelerden bir ses. Ankara 1997. s 581.

İsen Mustafa "Divan Baskılarına Göre Son Dönem Kültür Merkezlerimiz" "Türkiye Günlügü" s.48 Noyabr- Dekabr 1997.s 38

BOLQARISTANLI DİVAN ŞAİRLƏRİ *

Balkanların istər tarix, istərsə də ərazi baxımından özünəməxsus cəhətləri vardır. Bu özünəməxsusluq şübhəsiz ki, başqa bölgələrdən fərqli olan bir görünüş yaratmışdır. Balkanlarda fərqli etnik və dini baxışın olması bunun ilk nümunəsidir. Bunların təməlində iki əsas ünsür dayanır. Bu Bolqarıstanın irqi cəhətdən slavyan və türklərdən, dini cəhətdən isə xristianlardan və müsəlmanlardan ibarət olmasıdır. Bu ikililik, biri o birini üstələməklə illər boyu öz mövcudluğunu saxlamışdır.

Keçmiş illərdən şahidi olduğumuz üzücü və narahat dövr artıq arxada qalmışdır. Qloballaşma dövrü bu sıxıntıları geridə qoymaqdadır. Çünki artıq bir ölkənin çox çeşidli mədəniyyətə malik olması, o ölkənin inkişaf etdiyini göstərir. Arzu edək ki, bu tolerantlıq daha çox Balkanlara fayda gətirsin və ölkələr bundan sonra ticarət və mədəniyyət körpüsünə çevrilsinlər. Tarixin qədim səhifələrində qalmış türk sənət əsərləri də yox hesab edilərək üstündən xətt çəkilmək əvəzinə, ön plana çıxarılaraq dünyaya tanıdılsın.

Belə bir arzu ilə başladığım çalışmada mən Bolqarıstanda əks olunan Osmanlı mədəniyyətinin bir qolundan söz açmaq istəyirəm. Bölgədə uzun müddət davam etmiş idarəçiliyin, şübhəsiz, dövlət işləri, iqtisadiyyat, mədəniyyət, sənət və müxtəlif elm sahələrinə də böyek təsiri olmuşdur. Bunların önəmli bir hissəsini bu yazıda izləmək fürsətimiz olacaq. Mən məsələyə bölgədə yaranmış olan klassik türk ədəbiyyatı yönündən baxmaq istəyirəm. Osmanlı dövründə yaranmış olan mədəniyyət mərkəzləri də diqqətimizdə olacaqdır. Çünki klassik şeir bir intellektual əsərdir, bunun təşəkkül tapdığı yer, ancaq şəhər mərkəzləri ola bilərdi.

Osmanlı ədəbiyyatı və mədəniyyəti tarixində tanınmış adamlardan, əsasən də, övliyalar, memar və musiqiçilərdən bəhs edən, onların həyatı və sənətləri haqqında məlumatlar verən əsərlər vardır. Biz bunları təzkirə adıyla tanımışıq. Bunların şairlər haqqında olanlarına isə "təzkirəyi-şüəra" adı verilmişdir.

XV yüzildə Əlişir Nəvaidən başlayaraq XX yüzilliyə qədər uzanan bir məsafədə təzkirələrin ədəbiyyat tarixində 30-a qədər nümunəsi vardır. Təzkirələr divan ədəbiyyatının, xüsusilə də bu ədəbiyyatı yaradanların həyat və yaradıcılıqlarının, sənətlərinin öyrənilməsi üçün qiymətli məlumatlar verən mənbələrdir.

Təzkirələrdə şairlərin doğum yeri, adı, ləqəbi, təhsili, onlara təhsil verən müəllimlər, sənətləri, sənət öyrədən ustadları haqqında məlumatlar verilir. Eyni zamanda, şairlərin həyatında baş verən dəyişikliklər, ölümləri və ölüm tarixləri də təzkirələrdə yer alır. Bunun əksinə olaraq təzkirələrdə şairin sənətinə aid təhlillərə çox az yer verilir. Burada da ortaya qoyduğu əsərindən daha çox, sənətçinin özünü ön plana çəkən ortaçağ tənqidinin böyük rolu vardır. Təzkirə müəllifi üstün sənətçi tipini öz əsərlərində yerləşdirdiyi üçün, onun hədəfi doğru və maraqlı olan bir bioqrafiyanı tapıb ortaya qoymaqdır.

Doğulduğu yeri göstərmək təzkirəçilərimizin inadla ortaya qoyduqları əsas məsələlərdən biridir. Əsərlərə daxil edilən şairlərin əksəriyyəti haqqında doğulduğu yer ilə bağlı olaraq təzkirəçilər imkanlarına görə geniş, yaxud da qısa şəkildə məlumat vermişdir. Təzkirələrdə şairin adı çəkilən kimi, çox zaman dərhal məmləkəti də təqdim olunur. Bu məlumatlar "Mövludi Filibe", "Ədirnəlidir", "Rumelidir", "İlica adlı qəsəbədən", yaxud "Vətəni-əslisi Aydın elidir", "qədimi Geliboluludur" kimi ifadələrlə diqqətə çatdırılırdı.

Çox az rastlaşılan bir hal olaraq bəzən verilmiş məmləkətin coğrafi mövqeyi, sosial və mədəni həyatı, təbiəti də təsvir edilir.

Bolqarıstanın şeir tariximizdə olan əhəmiyyətinə toxunmadan öncə bu əraziyə türk hakimiyyətinin, xüsusilə də türkcənin nə zaman daxil olduğuna nəzər salaq.

1240-cı ildə Qıpçaq Bozqırlarının türklər və monqollar tərəfindən istilasından sonra Kumanların bir qismi Balkanlara gələrək, burdakı türklərin sayını artırdılar. Daha sonra bunlar ölkənin idarə edilməsində möhkəmləndilər.

Osmanlılar 1355-ci ildən etibarən Geliboludan başlayaraq Balkanlara doğru sürətlə irəliləyərkən Bolqarıstanda bəzi yerləri fəth etdilər. 1363-cü ildəki "Serbsındığı" müharibəsi, bütün Balkan fəthləri kimi Bolqarıstanın fəthində də böyük yer tutur. 1371-

ci ildən Çirmən müharibəsi Balkanlarda türk qələbəsini daha da möhkəmləndirdi.

Kosova meydan müharibəsi ilə 17 iyun 1393-cü ildəki Tirnovanın fəthi və bunun ardınca Nigbolu müharibəsi Bolqarıstanı bütünlüklə Osmanlı dövlətinin ərazisinə daxil etdi və bu torpaqlar 1878-ci ilə qədər 500 il Osmanlı idarəçiliyində qaldı.

Bolqarıstanda doğulmuş şairləri təqdim etməzdən əvvəl müqayisə məqsədiylə Osmanlı mədəniyyəti haqqında bəzi şeyləri nəzərə çatdırmaq istəyirəm. Fateh Sultan Məhmədin İstanbulu hər cəhətdən islam dünyasının mərkəzinə çevirmək arzusunun nəticəsi olaraq onun bu şəhərdə tikdirdiyi böyük mədrəsə, onun ardınca gələn padşahların burada açdıqları irili-xırdalı çoxlu sayda mədrəsələr, elm və mədəniyyətin əsas mərkəzi qüvvələrini uzaq məmləkətlərdən, dağınıq şəhərlərdən daşıyaraq bir neçə mərkəzi şəhərlərə yığdı.

İstanbul başda olmaqla köhnə paytaxtlardan olan Bursa və Ədirnə, tarix boyunca mühüm mədəniyyət mərkəzlərindən olan Qahirə və Bağdad belə şəhərlərdəndir. Buna baxmayaraq, Diyarbəkir, Ərzurum, Selanik, Saraybosna və Sofya, eləcə də şahzadə sancağı olan Kütahya, Manisa, Amasya və Trabzon kimi şəhərlər son vaxtlara qədər əhəmiyyətlərini qoruyub saxlaya bilmişlər.[207]

Təzkirələrdə verilən məlumatlarda Bolqarıstanda anadan olmuş altmış səkkiz şairə rast gəlinir. Təzkiraçilər məlumatın az olması üzündən bəzən şairləri öz təxmini qənaətləri hesabına daha böyük ərazilərə şamil edərək göstərirdilər. Məsələn, şairin Rumelili olduğunu bildirən bir təzkiraçi onun doğum yeri haqqında məlumatı tam bilmirdisə, "Rumelidəndir" deyərək üstündən keçirdi. Qaynaqlarda bu şəkildə verilən on yeddi şairin də Bolqarıstanlı olmasını təxmin edirəm və bu zaman Bolqarıstanda anadan olan şairlərin sayı artıq 85-ə çatacaqdır.

İndi isə qısa şəkildə bu şairlərin həyatlarına nəzər salaq:

Aydıncıqda doğulan **Şuxinin** əsl adı Məhməddir. Daha çox Kədizadə ləqəbi ilə tanınır. Təhsilini başa vurduqdan sonra

[207] Bkz. Bu kitabdakı Osmanlı mədəniyyəti 171-178.

müdərrislik və qazilik etmiş, ömrünün sonuna doğru təsəvvüfə maraq göstərib, yalnızlığa çəkilmişdir.

Aydonatlı şair **Nizaminin** əsl adı Əhməddir. Mədrəsə təhsilini bitirdikdən sonra müdərris oldu. Sarayi-Cədidə xoca təyin edildi və burada çox sayda şagird yetişdirdi. Mükəmməl şəkildə ərəb və fars dillərini bilirdi.

Balçıklı şair **Gəyurinin** əsl adı Xeyrəddindir. O da mədrəsə təhsili alıb qazi olmuşdur. 1620-ci ildə vəfat etmişdir.

Sofyayla birlikdə Osmanlı mədəniyyətinin ən mühüm mərkəzlərindən olan Filibə 16 şairlə önəmli bir potensiala malikdir. Bu şairlər **Əli Çələbi** (v. 1543), **Aşqi, Avni** (v. 1579), **Rövnəqi** (v. 1563) **Təbibi, Vəcdi** və **Zahiri** (v. 1685) dir. Filibə bu şair sayı ilə Osmanlı mədəniyyətində ən çox şair yetişdirən mərkəzlər sırasında iyirmi dördüncü yeri tutur.

Köstəndil doğumlu **Fəhminin** əsl adı Dərviş olub, Səqəzadə ləqəbiylə tanınmışdır. Dövrün üzdə olan müdərrislərindən olmuşdur. 1667-ci ildə Ayasofya mədrəsəsi müdərrisi ikən vəfat etmişdir.

Başqa bir Köstəndilli şairi olan **Halətinin** əsl adı Abdullahdır. Sənubər adlı bir qadının oğludur. Təhsilini başa vurub qazi olmuş, Gelibolu, Filibə, Üsküb və Səlanikdə qazilik etmişdir. Qaynaqlar onu istedadlı, amma əhlikef bir şair olaraq tanıtmışdır.

Kızanlıqda doğulan **Ümidin** əsl adı Əhməddir. Xəlvəti təriqətinin irəli gedənlərindən biri olan İsmailin oğludur. Kiçik Ayasofyadakı Hüseyn ağa Zaviyəsinə şeyx, Şahzadəbaşı Camiyəsinə vaiz oldu. "Məcalisü Övliya" və "Kəşfi Bəyan" adlı əsərləri vardır.

Qaynaqlar Niqbolulu 6 şairin adını bizə təqdim edirlər ki, bunlar **Əxi, Bəyani**, **Əmani, Fəsihi, Rızayi** və **Səhabi**dir. XVI əsr şairlərindən olan Əxi Rumelidə yetişən ən tanınmış şairlərdəndir.

Əxi Niğdoluda Seydi Xoca və Mələk Qadının ailəsində doğulub. Bənli Həsən adıyla tanınmışdır. Ticarətlə məşğul olmuşdur. Gec yaşlarında təhsil almışdır. Yazdığı şeirlərlə dövrün padşahı Yavuz Sultan Səlimin diqqətini çəkmiş və onunla maraqlanmağı tapşırmışdır. Bununla əlaqədar olaraq Qazaskər Kamal Paşazadənin təklif etdiyi mədrəsəni ətrafdakıların "Sən bundan böyüyünə layiqsən" sözlərinə uyaraq qəbul etməmiş və padşah bundan hirslənərək daha ona heç

bir vəzifə verməmişdir. Bir müddət sonra Karaferye mədrəsəsində müdərris olaraq çalışdı. Manastırlı şair Xavərinin bacısıyla evlənmiş və çox keçmədən Karafərydə vəfat etmişdir.

Mənbələr Əxinin böyük bir şair olduğunu xəbər verirlər. Dostu Bursalı Cəlili kimi "Xosrov və Şirin"i yazmağa başladısa da Naqşibəndi şeyxi Mahmud Əfəndinin maneçiliyi üzündən bu əsərini yarımçıq qoydu. Daha sonra Fənarizadənin təklifiylə Anadoluda ən gözəl əsər olduğu bildirilən "Hüsn-i Dil"i yazmağa başlamış və əsəri tamamlamadan vəfat etmişdir. Bu əsər Xavəri tərəfindən tamamlanmışdır.

Qaynaqlar onun məsnəvisinin qəzəllərindən üstün olduğunu bildirirlər.

Novabırdolu iki şair isə **Məsti** və **Meylidir.** Müamma ustası olan Məstinin ailəsi Anadoludan köçüb gəlmiş Sarıyaquboğulları idi.

Meyli isə bu təxəllüsü elmi məsələlərə son dərəcə maraq göstərdiyinə görə almışdır.

Pravadidə doğulan şair **Sədinin** əsl adı Əbdülbaqi olub, şeyx Səlamizadə ləqəbi ilə tanınmışdır. Təhsilini başa vurub qazi olmuşdur.

Razgradlı **Behçətinin** əsl adı Hüseyndir. Şair təhsilini tamamladıqdan sonra divan katibi olmuşdur.

Rusçuklu dörd şair **Bəyani**, **Əmani**, **Fəthi** və **Rəsa** arasında isə ən tanınmışı Bəyanidir. Əsl adı Mustafa olan bu şair Cərullazadə ləqəbiylə tanınmışdır. Müdərrislik və qazilik etmişdir. Təsəvvüfə maraq göstərərək bu sənətlərindən əl çəkmiş, şeyx olmuşdur. O, şeir yazsa da adını bu günə qədər yaşadan onun şairlər təzkirəsi olmuşdur.

Vəzir Hersekoğlu Əhməd Paşanın oğlu olan **Şiri** Silistrədə doğulmuşdur. Sipahi şairlərindəndir. Qanuni dövründə qapıçıbaşı olmuş və bu vəzifədəykən 1593-cü ildə vəfat etmişdir.

Sənani, Fəthi, Feyzi, Hümməti, Nəzəni, Nəziri, Rasix, Rəsmi, Rüsuxı, Şükri, Vahid (2) Vəslı, Visali, Vüsləti, Zühdi isə Sofyada doğulmuş şairlərdir. Göründüyü kimi Sofya 16 şairlə Osmanlı mədəniyyətinin Rumelidəki çox mühüm mərkəzlərindən biridir.

Bolqarıstandakı mədəniyyət mərkəzlərinin ən mühümlərindən biri olan Şumnu əsilli beş şairə də rast gəlinir. Bunlar **Akif, Yusif, Dürri, Fazil, Fənai** və **Şərifidir**. Bunlardan Dürrinin əsl adı Süleyman olub, Teyyib Əfəndinin oğludur. Təhsilini tamamlayıb dövlət xidmətində çalışmışdır. Sünbülzadə Vəhbinin "Töhfeyi-Vəhbi"sinə Gühərriz adıyla nəzirə yazmışdır.

Şumnulu **Fəzli** Xəlvətiyyə təriqətinin önəmli adlarından biridir. Dövründə bəzi siyasi hərəkatlara qoşulduğu üçün bir müddət Kiprə sürgün edildi. 1690-cı ildə vəfat etmiş Fəzlinin çoxlu sayda əsəri qalmışdır.

Tatarbazardan olan tək şair **Fərridir**.

Bir zamanlar Bolqar krallığının paytaxtı olan Tırhalada beş şair yetişmişdir. Bunlar **Bahari, Civani, Nəzif, Rümuzi və Səlahidir**.

Turnovalı şair Evninin əsl adı Yusifdir. Təhsilini tamamladıqdan sonra qazi olmuşdur və 1709-cu ildə vəfat etmişdir.

Təriqi və **Zərifi** isə Vidində doğulmuş şairlərdir. Bunlardan Təriqi bu ərazinin ilk şairlərindəndir və II Bəyazid dövründə vəfat etmişdir.

Yanbolu da Osmanlı mədəniyyəti tarixinə iki şairlə qatılmışdır. Bunlardan biri olan **Bəyani** Şeyx Kəmaloğlu ləqəbiylə tanınır, Qanuni dövrü şairlərindəndir. Kırım xanı Bahadır Girayın nadimlərindən olan Dana isə Ferəzdək İbrahim Çələbi adı ilə tanınmaqdadır. 17-ci yüzilliyin şairlərindəndir.

Mənbələrin "Rumelidir" deyə təqdim etdikləri şairlərin isə yalnız adlarını çəkəcəyəm: **Gazi** (v. 1665), **Gubari, Hüseyni, İzzəti** (v. 1829), **Qütbi, Lafzı** (v. 1675) **Meyli, Məzaki** (v. 1659), **Muyi** (v. 1547), **Pənahi, Rəsmi** (v. 1679), **Siyahi, Şəmsi** (v. 1580), **Şinasi** (v. 1675), **Tərzi, Zərif**.

Təbii ki, bunların yalnız bəzilərini Bolqarıstanda doğulduğunu qəbul etmək olar.

Təzkirəçilər əsərlərində, əsasən divan ölçülərinə cavab verən, onlara uyğun estetik cəhətlərə malik olan şeirlərin sahiblərinə yer ayırırdılar. Məsələn, xalq şairləri və təsəvvüf ədəbiyyatının bəzi nümayəndələri bu təzkirələrə düşmürdülər. Bunları da əlavə etsək, bu əraziyə aid olan şairlərin sayının 400-ə çatmasına şübhə etmirəm. Bu qənaətimə səbəb olan iki əsər var. Bunlardan biri Nazim

Şabanoviçin Bosniyalı şairlərdən bəhs edən əsəri[208], o biri isə Şövkət Beysənoğlunun "Diyarbəkir şairləri"[209] əsəridir. Bunların verdiyi statistika, təzkirəçilərin verdiyi rəqəmdən 5 dəfə çoxdur.

Əlavə olaraq Bolqarıstanda doğulduğundan oranın vətəndaşı hesab olunan həmvətənlərimiz də, bir şair və yazar olaraq türkcənin mədəni mənzərəsini zənginləşdirmiş və tarixə düşmüşlər ki, bu ,başqa bir yazının mövzusudur. Oradakı həmvətənlərimiz öz ana dillərindən istifadə etmək qadağalarını artıq keçmişlər. Biz milli azlıqların ölkələr arasında problem deyil, əksinə körpü yaradacaqlarını arzu edirik və bu işin gələcəkdə daha çox şair və yazarlar tərəfindən gerçəkləşəcəyinə ümid bəsləyirik.

*(*Yazı "Balkanlarda İslam Medeniyeti, Milletlerarası Sempozyum Tebligleri" İstanbul 2002, s.339-345-də dərc olunub*).

İstifadə edilən ədəbiyyat:

"Tezkirelere Göre Divan Edebiyatı İsimler Sözlügü" Ankara, 1988.

"İslam Türk Diyanet Vakfı İslam Ansiklopedileri" ilə "Türk Dili ve Edebiyatı Ansiklopedesi" nin əlaqədar maddələri .

[208] H.Şabanoviç, Knjizevno Muslimana BİH na Orijentalnim Jezicima, Sarajevo, 1973.
[209] Şövkət Beysanoğlu, "Diyarbakırlı Fikir ve Sanat Adamları", İstanbul 1957.

“KÜNHÜL-ƏXBAR”A GÖRƏ BUGÜNKÜ YUQOSLAVİYA SƏRHƏDLƏRİ İÇƏRİSİNDƏ DOĞULMUŞ ŞAİRLƏR*

Osmanlı ədəbiyyatı tarixinin heç şübhəsiz ən önəmli mənbələrini şairlər təzkirələri təşkil edir. Bununla birlikdə ümumi tarix kitabları da ədəbiyyat tarixi qaynaqları arasında xüsusi yer tutur. Osmanlı tarixçiliyində ən mühüm yer tutan qaynaqlardan biri “Künhül-əxbar” təzkirəsidir.

Doğum yeri barəsində qeydlərin səhv olmasından yaranan qüsurlar Osmanlı təzkiraçiliyindəki tənqidin əsasını təşkil edir. Təzkirələr öz dövrlərində müasirləri tərəfindən ən çox bu qüsurlarına görə tənqid edilmişlər. Bu yazıda, başqa təzkirələrdə Yuqoslaviyada doğulmuş olduğu göstərilən və bugünkü araşdırmalarda adları təsdiq edilən şairlərdən söz açmayacağam. Xüsusilə, Aşıq Çələbi və Əlinin məlumatları əsas götürüldüyü üçün onları bu məqaləyə salmıram. Eləcə də “Rumelidəndir”, “Abdullahoğludur” kimi ifadələrlə bir əraziyə aid edilən şairlər də burada yer almayacaq.

Aşağıda verilən bioqrafiyaları doktorluq işi üçün hazırladığım tədqiqatın “Qarşılaşdırılmalı Mətn” adlı hissəsindən götürmüşəm[210].

“Künhül-əxbar”, Osmanlı ədəbiyyatıyla bağlı araşdırmalar aparan Yuqoslav tədqiqatçıları tərəfindən ümumiyyətlə qaynaq kimi istifadə olunmayan bir təzkirədir. Bunun səbəbi əsərin doğrudan da bir ədəbiyyat tarixi qaynağı olmamasıdır. Mən “Künhül-əxbar”da qeyd olunan bugünkü Yuqoslav sərhədləri içində doğulmuş olan Osmanlı şairlərinin bioqrafiyalarını verməklə, öz sənət yoldaşlarıma kömək etmək istəyirəm.

Ədni[211] Necə yetişdiyi, nə kimi vəzifələrdə çalışdığı vəzirlər bölməsində izah edilən Sultan Məhmət xanın yaxın adamı və onun iltifatına layiq olan Vəzir Mahmud Paşadır[212]. Burada yalnız şairliyi

[210] Mustafa İsen, “Künhü′l-ahbâr′ın Tezkire Kısmı” – araşdırma. Mətn AÜSBE (Doktorluq işi), Ərzurum, 1978.

[211] Fatih dövrü şairi, adı keçən mənbə, 36, Ü. Ty. 5959 133b.

[212] Ədni haqqında Fatihin vəzirləri hissəsində verilən məlumatlar: “Hırvat asıllı. Esir ed-

ilə bağlı əlamətlərini göstərmək istəyirik. O tarixlərdə Xorasan padşahının vəziri olaraq Əlişir Nəvainin, Osmanlı padşahının vəziri olaraq isə Mahmud Paşa kimi şöhrət qazanmış birinin belə yüksək vəzifə başında olması, görünür, göydə xoşbəxt ulduzların onların başı üzərində görünməsi əlamətidir. Yüksək mütaliyəli və fəzilət sahibi, kərəminin bolluğu əsərlərindən bəlli, əli açıq bir adam idi. Bundan başqa şeirlərinin axıcı olması da diqqəti cəlb edir. Ədni təxəllüsünü vermişlər və beləcə Ədn cənnətinə olan yaxınlığını bildirmişlər. Daha sonra şəhidlik yolunun yolçusu olaraq arzularına da çatmışdır. Bir mətləsinə nəzər salaq:

Gözüm yaşına rahmet sürme derden
Ki merdüm-zadedir düşmüş nazardan

Bir dem eğlen ey felek gönlüm sarayın yıkma kim
Ol peri-peyker hayal-i dilde mihmandır henüz

Aşıq Çələbinin söylədiyinə görə, comərdliyi Bərməkilərdən çox deyildisə, az da deyilmiş. Məkkədə dörd məzhəbə aid olan mədrəsə tikdirmişdir. Yaşadığı müddətdə İstanbuldakı mədrəsəsində müəllim olanlara iki-iki tülbənd, bir yun əba, bir donluq atlas çuxa və beş yüz nəqd axça bəxşiş etməsi bildirilir. Aşıq Çələbinin ifadəsinə görə Alacahasarlıdır. Gözəl nəsri də varmış. Farsca yazdığı şeirləri də tərifə layiqir. Daha sonralar Sultanın qəzəbi ilə Yeddiqüllədə həbs olunmuş və sonra edam olunmuşdur.

Cəlal bəy[213] Şairlər və ziyalılar ocağı olan Manastırda doğulub. Əsl adı Hüseyn olub, Cəlali onun təxəllüsüdür. Allahın hikməti,

ildi ve Mahmut Ağa tarafından satın alındı. Yetiştirildikten sonra saraya verildi. Aynı yaşta oldukları için çocukları Fatihle birlikte geçti. Fatih padişah olunca ağalık verilerek taşraya gönderildi. Rumeli beylerbeyi oldu. Seferhisar fethinden sonra vezirlik verildi. Daha sonra da vezir-iazamlık yaptı. Tarihçi Ramazanzadeye kazaskerlik de yaptı. Şahzade Mustafa ile geçinemiyordu. Onun genç yaşta ölümü üzerine bazı müfsidler, şahzadenin Mahmud paşa tarafından zehirlendiyini yaydılar. Bunun üzerine Edirneye sürüldü. Daha sonra da yedikulede habsedildi. Onaltı gün sonra da idam etdiler. İyi bir devlet adamı, alim, fazıl, cömert vezirdi".

[213] II. Səlim dövrü şairi, həmin mənbə, 196, 5959, s.4822a-483b.

təxəllüsünün cazibəsi onu ən uca mövqeyə çatdırdı. Hətta get-gedə II Səlim kimi bir padşahın xüsusi məclislərinə mərhəm hesab edildi. Timara layiq görülməli Sipahi oğullarından ikən könlünə təriqət məhəbbəti düşdü. Səyahət etmək üçün ərəb diyarına, yəni Şam və Hələbə getdi. O vaxt Hama sancağının bəyi olan Cəfər bəylə tanış oldu və onun məclisinə getdi. Bir müddət sonra Cəfər bəy Səlim şaha lələlik etdi və Cəlil bəyi də öz yanına götürdü. Şahzadəyə göndərdiyi yazılarını onun gözəl xətti ilə köçürtdürürdü. Şahzadə: "bu yazıları kim yazıb?" – deyə soruşduqda, "fürsətdir", - deyə onu şaha təqdim etdi. "Gözəl xətti olmaqla bərabər, gözəl şeirlər də yazır, xüsusi müsahibiniz olmağa layiqdir", - deyə onu şaha tərifl ədi. Müxtəsər, bu adam şaha məhrəm oldu və bu yaxınlıq iyirmi ilə qədər davam etdi. Zəamət rütbəsində bir adamdı. O zamansa zəamət rütbəsi hər kəsin hörmət bəslədiyi bir rütbəydi. Konya ovalığındakı müharibədən sonra taxt-tacın varisliyi bəxti açıq şaha qaldığı zaman, Cəlal bəyə də Anadolu Timarları dəftardarlığı verilib, şöhrəti bir az da yüksəldi və o, şahın xüsusi iltifatına sahib oldu. "Vəlinemətim və iqbalımın əsas səbəbkarıdır"- deyərək Cəfər Paşanın nəslinə qayğı göstərmişdir. Hətta onun oğlunun bəylərbəyi olmasına çox çalışdı. Qızı ilə evlənərək nəslin davamçısına çevrildi.

Cəlal bəy zaman-zaman şahzadənin hüzuruna gedər, onun şərəfinə dualar edərdi. Bu zaman bir qədər sonra söz açılacaq olan Nihani təxəllüslü Turak Çələbi, Cəlalinin tövsiyəsiylə padşahlığa gəlmiş və o da müsahib olaraq padşahla əlaqə yaratmışdır.

Sonralar isə araları dəymiş, hər ikisi bir dilbərə aşiq olmuşdur. Bununla da dostluqları pozulmuşdur. Cəlal bir mürəbbəsində öz halını belə təsvir etmişdir:

"Hər kimi irəli çəkdim, cəfasını çəkdim"

Lakin çox keçmədən Nihani vəfat etdi, xəzinə kimi torpağın altında gizləndi, Cəlal isə yenə bir çox iltifatla yerində qaldı.

Şahzadə taxta çıxdıqdan bir qədər sonra, öz istəyiylə Cəlala bəylərbəylik vəzifəsini verdi.

Belə bir dostcasına yüksək mərtəbəyə çatmasına, hörmət sahibi olmasına baxmayaraq o, şahın kürəkəni olan hörmət və izzət sahibi

Uzun Məhməd Paşaya, bəzən uca zirvə sahibi, dövrün müftisi olan şöhrətli ustad Şeyxülislam Əbussüud Əfəndiyə, bəzən də böyük şeyxlərin və vaizirlərin güvənərək tabe olduqları Şeyx Mühyiddin oğlu Nurəddin Əfəndiyə düşməncəsinə zidd hərəkətlər etdi. Bu yolla onları hömətdən salıb, yeganə və üstün adam olmaq istədi. Ancaq bu xoşagəlməz hərəkəti ilə padşahın qəlbində özünə qarşı nifrət yaratdı və get-gedə öz uca rütbəsindən aşağı endirildi.

"Getdiyi, gəzdiyi yerlərdən hansına meyli vardır?" – deyə Sultan Murad xanın anası padşahın icazəsiylə Cəlalın arvadından soruşdu. O da bir qədər eyham və nəzakətlə Cəlaldan gəzdiyi ölkələrdən hansını bəyəndiyini soruşduqda Cəlal bəy Şamın bütün şəhərlərə meydan oxuduğunu söylədi. Bu xəbər şaha çatdırıldı. Cəlala Şam bəylərbəyliyi bağışlandı. O, bu uzaqlaşdırılmadan iki gün öncə əvvəlkilərdən daha yüksək iltifata layiq görülmüş və ona üç yüz dinar əskinas, qırx min axçalıq bir almaz qaşlı üzük, dəyərli bir İran xalısı bəxşiş edilmişdir. Hətta Cəlal bu günə qədər belə bir bəxşişə rast gəlmədiyindən, bunu padşahın səltənətində qalacağı ilə bağlamışdı. Bəylərbəylik əmri ona çatınca ürəyini qəm və kədər bürüdü, gözləri qaraldı. Başa düşdü ki, razı olmaqdan başqa çarəsi yoxdur. İnad edərsə ziyanı xeyrindən çox ola bilər. Ertəsi gün şahlığa gəldi, əl öpdükdən sonra "Sədrəzəmə gedəkmi?" – deyə soruşdu. "Əlbəttə, gedərsən, vəziri- əzamımızdır, müraciət edərsən", buyuruldu. Cəlal bütün olanların nədən baş verdiyini anladı, əvvəlki fürsətlər, xoşbəxtliklər bütünlüklə yox oldu və "məliklərdə vəfa olmur" sözləri özünü doğrultdu.

Bir-iki gün sonra günorta ilə axşam arası Məhməd Paşanın yanına gəldi. Vəzirlərdən və bəylərdən heç kimin olmadığı bir vaxtda saraya daxil olan Cəlal bəy, şah tərəfindən dərhal qəbul edildi. O, içəri girərək, tam bir nəzakətlə əl öpdü, sonra Şam əyaləti məsələsini xəbər aldı. Arzusunun Şama tərəf getmək, getdikdən sonra şahın əmrini almaq və var-dövlətindən də oğluna verilməsi istəyini bildirdi. Sədrəzəm bunun qarşılığında nəzakətlə cavab verdi: "İstərsəniz elə indi vəkiliniz gedib Şamı təhvil alsın, oğlunuza da dövlətiniz verilsin". Cəlal bəy razılaşmağa qərar verdi. O, başa düşdü ki, işi gecikdirməyi padşahın xoşuna gəlmir, çəkilib getmək

lazımdır. Amma bundan sonra bir dəfə də padşahın hüzuruna gəldi, daha nə əvvəlki istiliyi gördü, nə də ki, hörmət və izzəti.

Bəzilərinin söylədiyinə görə onun saraydan uzaqlaşdırılmasına səbəb Fəzlullah Hürufinin "Cavidan-namə" adlı "dəyərsiz" kitabına rəğbət bəsləməsi olmuşdur. Şeyxülislam Ebussuud Əfəndi səltənəti-amirə bir məktub göndərərək belə bir satqınlıq və dinsizliklə günahlandırılan birinin padşahın çevrəsində olmasının çox da caiz olmadığını bildirmişdir. Beləcə, onun əyalət yoluyla Şama getməsi məsləhət görüldü. Nəhayət özü getməyi arzu edincə ona icazə verildi. Vidalaşmaq üçün padşahın hüzuruna gəldi. Sultan ona üç yüz qızıl tümən ehsan etdi. Ancaq Sədrəzəm Məhməd Paşa ona beş yüz dinar sikkə, bir sürü qatır, bir sürü dəvə, üç baş at, xeyli paltarlıq qumaş, atlas bağışladı. Bu qədər bəxşişi görən Cəlal bəy, Məhməd Paşaya qarşı çıxdığından çox peşman oldu və "dünyada xidmət edilməyə layiq tək adam Məhməd Paşaymış"- dedi. O, bu şəkildə Manastıra yola düşdü, ancaq bu zaman canlı meyidə bənzəyirdi. İki gün sonra isə bu qəzəli yazıb İstanbula göndərdi:

Bu çeşm-i hün- feşanın giryan olur kalır mı
Seyl-i sirişkim ahır umman olur kalır mı

Bir neçə gün sonra isə bu qəzəli göndərdi:

Bunca feryadım işittin, demedin dad edeyim
Sen ki dad etmeyesin ben kime feryad edeyim

Təəccüblü tərəf budur ki, təzkirə yazarlarından Xınalızadə Həsən Çələbi araşdırmasında Cəlal haqqqında "rəisi-küttap oldu" yazaraq səhv məlumat vermiş, rəhmətlik Aşıq Çələbi isə "ağıl və düşüncəsinə söykənərək təhlükəyə atacaq tövr və hərəkətləri yoxdur" demişdir və dəfələrlə sədrəzəmə, şərəfli müftiyə və şeyxə olan düşmənçiliyini, dostluq etmək keyfiyyətindən uzaq olduğunu anlaya bilməmişdir. Müxtəsər, o, yolda öldüyünə görə nə Şam əyalətinə yetişə bildi, nə də orada yaşadı.

Cəlal çox gözəl bir şairdi. Onun tiryəyin təsiri altında yazdığı

şeirlər bir axan çaya bənzəyir. Uyuşdurucudan sonra ağlına gələni yazırdı:

Hallak-ı cihan aleme kıldıkta tecelli
Her şeyi birer hal ile kılmış mütesselli

Digər

Hatt-ı vechin şerh ider cennat-ı hurı bundadır
Halkı ferdaya salar vaiz temaşa bundadır

Digər

İkide bir can u dil peykanım inkar etməsin
İkiden hali değil ya andadır ya bundadır

O tarixdə şahzadənin astanasında:

Koyun ela gözlü İsmailim ol körpe kuzu

misrası ilə başlanan mürəbbə yazmışdır.

Ətrafında dolaşanların canlarını belə verməyə hazır olduqları bir gənc vardı ki, bir gün mükəmməl bir gözəlliklə ortaya çıxıb özünü göstərdi. Cəlal bəy rəhmətliyə və könlü qırıq bir dəyərsizə bir mətlə söyləməyi, sanki gizli bir ilham pərisi əmr etdi.

Əvvəlcə Cəlal bəy bu mətləni söylədi:

İyd-i vaslına erişmeğe tek imkan olsun
Bir başım var yoluna ol dahi kurban olsun

Bu dəyərsiz də onun ardınca:

Öldürürsün seni can ile gönülden seveni
Beni evvel beni ey gözleri kattal beni
mətləsini söylədi.

Ertəsi gün Turak Çələbi bunu şahzadəyə söylədi. Bədahətən deyilmiş şeiri göstərib iyirmi qızıl tümənə layiq görülmələrinə səbəb oldu. Şahzadə, Əlinin söylədiyi şeirin yüksək lirik, Cəlalın şeirinin vəslinə kəlməsindəki dil qüsuruna görə orta səviyyədə olmasını bildirdi. Madamki, belədir, hədiyyələrinin neyçün bərabər olduğunu soruşduqda, birinin məqam və mövqeyindən, o birinin isə mərifətindən razı qaldığını bildirmişdi. Şeirlərindən nümunələrə baxaq:

Ehl-i zühd erse riyazetle makam-ı meleğe
Vadi-i aşka sülük etmeğe gelmez meleğe

Digər

Bir-bir işin bitirdim, kuyunde ehl-i aşkin
Agah ol ey gül-i tercan bustanda bitmez

Digər:

Baz-ı şirim katı küstah gelir bana Celal
Oxumadın varır ol serv-i hıraman eline

MÖVLANA FÖVRİ[214]: Alimlər bölməsində bütün cəhətləriylə əks olunmasına baxmayaraq şairliyi baxımdan burda yenidən ona toxunuldu. Elə zənn edilməsin ki, bu təkrar, səhv üzündən baş vermişdir[215]. Əslən Xorvatdır. Hər sözü bir kitaba bərabərdir. Əsl adı Əhməddir. Müxtəlif sahələrdə olan biliyinə görə elmi haqqında qısa danışmaq çox çətindir. Həm alim şair, həm də atalar sözü və hikmətlərdən yoğrulmuş şeirlər yazan şairlərin ustadı idi. İsgəndər

[214] II. Səlim dövrü şairi, həmin mənbə, 222-224, 5959 492b-493a.

[215] Fövri haqqında "II. Səlim dövrü alimləri" hissəsində verilən məlumatlar: "İskender Çələbinin kullarından. Müderris oldu. Şamda vefat etti. Sohbeti tatlı, zeki adamdı. Tefsir-i Beyzâviye Dürer-i Gurer'e haşiye yazdı. Hat sanatında da ustaydı". (II. Selim Devri uleması, Ü. Ty. 5959 474a)

Çələbinin satın alınmış köləsi olduğu halda təhsil almağa başlamışdır. Hər mövzuda məlumatlı, hər elm sahəsində istedadlı olduğuna görə 1545-ci ildə Bostan Əfəndi Bursa qazisi olduğu zaman xidmətə başladı. Bundan sonra mədrəsələrdəki vəzifələrində ucalmağa başladı. Hələ həddi- buluğa çatmamış "Füsusül-hikəm" yazan Şeyxi- Əkbərin yuxusuna girib ona iman təlqin etdiyini, əslində islam diniylə şərəflənməsini, əvvəlcə onun işarəsiylə baş verməsini öz dilindən eşitdim. Çox gözəl xətti vardır. Bu sahədə Sultan Əliyə və Ənisiyə bərabərdi. Çox zərif bir adam olduğu üçün yemək-içməyə meylli idi. Köhnə şərab tapmasa, ağ şərabla keçinərdi. Otuz axçalıq mədrəsədən ayrıldıqdan sonra Rumeli şəhərlərinə səyahət etdi. O dövrün səxavətli bəyləri ilə dostluq edib, cihat və qəza savabı əldə etməyə çalışdı. Qeyd edim ki, hələ müəllim ikən həccə getmiş, Mədinəni ziyarət etmişdir. Rumelidən qayıtdıqdan sonra dövrün şahzadəsi olan II Səlimin sarayına getdi. Məqsədini anladan ərizələrlə şaha müraciət etdi. Ərizəsinin kənarında yazmışdır:

Fevri kim ezafül-ibadimdir
Ber-murad olması muradımdır.

Bu beytə görə istəyi hasil oldu. Aşıq Çələbi təzkirəsində adı çəkilən bu alim, Sultan Süleyman Xan 1553-cü ildə İranı fəth etmək üçün yola düşəndə onlara qoşulmuş, hətta aşağıda mətləsi verilmiş qəzəli tam şəkildə padşaha verib yüksək ənama layiq görülmüşdür.

Musahhar oldu hal-i ruy-ı yare bağrımın başı
Diyar-ı Rum Sultanı bu kez alır kızılbaşı

Sonra isə iki yüz beytlik bir qəsidə yazmış və buna görə iki yüz qızıl axçayla təltif olunmuş və mənsəbə layiq görülmüşdür.

Fövrinin mükəmməl divanı və şöhrət qazanmış ərəbcə qəsidələri vardır. Atalar sözü və aforizmlərlə ifadə olunan şeirlərin yazılması dövrü Nəcatidən sonra, daha çox onun xatırlandığı dövrə təsadüf edir.

Qəzəlləri:
Teb-i tab-ı muhabbetten bu cismi natüvan ditrer
Ne cismi natüvan cism içre cana hasta can ditrer

Ezel bir zelzele saldı cada-yı ahım afaka
Dahi ol dem bu demdir durmayıp kevn-ü mekan ditrer

Sararsa solsa tan mıdır fen-i zerd ü nezarım kim
Gönül bir kadd-i şimşad üzre çün berk-i hazan ditrer

Lebaleb sunduğun camın ne mümkün katresin dökmek
Müdam içmekten amma destim ey pir-i mugan ditrer

Güneş ruhsarına Fevri gibi aşık degil çünkim
Niçin gördükce sen meh-riyi mihr-i asüman ditrer

Digər

Cismi nezarim ile görüb selim ehl-i dil
Didi ten-i zaif ü nahife hayal-i zill

Digər

Gelmedin dünyaya kahr-ı zehri izan etmişem
Doğduğum dem anadan anunçün efgan etmişem.

Digər

Gezip mülk-i vücudu alem-i aşka kadem bastım
Bu günden sonra ölmezsem adem iklimidir kastım

Qəzəl

Kametin serv degil mi gele doğru söyle
Gül degil mi ruhun ey gonça-i gül- bu söyle

Dişini dürr-i giran- mayeye benzer derler
Öyle midir görelim ey dişi lülü söyle

Secdede kamet-i alasını yad et yarin
Zahida egri otur sözünü doğru söyle

Germ kıl meclisimi yarin ög, ağyarıma sög
Mutriba her ne bilirsen eyü tatlu söyle

Leblerinin birini em, birini vasf et yarin
Fevri rind isen eger tatlı ye, tatlı söyle

Digər

Bana hod besdir ol mehin cevri
Kim çeker ya bu mihnet-i devri
Kim durur dersen aşk-ı zarın
Onmadık Fevri gülmedik Fevri.

Qəzəllərindən görünür ki, dürüst ifadə tərzinə malikdir. Dəyərli qəsidələri vardır. Mükəmməl və mənalı şeirləri ilə şairlərin çoxundan fərqlidir. Fövrinin şeirlərinin çox olmasına görə bu nümunələri verməyə qərar verdik.

XAKİ[216]. Üsküdbdə doğulub. Şeirləri nə pis və mənasız, nə də ki, həddindən çox lirikdir.

Melamet çekmezin hergiz ki, hicran ber-kemal eyler
Kemale erse bir nesne felek anı zeval eyler

Mənə görə isə bu qəzlin doğru yazılışı belə olmalı idi:

Melamet çekmezin gamdan ki, hicran ber- kemal eyler
Kemale erse nesne felek anı zeval eyler.

[216] II. Bəyazid dövrü şairi, Həmin mənbə, 52, 5959 169b.

XAVƏRİ[217]. Qazi şairlərdəndir. Manastırda doğulmuş, Aşıq Qazioğlu ləqəbiylə şöhrət qazanmışdır. Əsl adı Əlidir. Bir vaxtlar adını təxəllüs kimi işlədərək çoxlu qəzəl yazmışdır. Bəzi beytlərini heç bəyənmədiyi vaxt "Əli olduğum zaman yazdığım şeirlərdəndir"- söylədiyini rəvayət edirlər. Şeirdən başqa, nəsrlə də maraqlandığı məlum olan bir alimdir. Çivi-zadənin tövsiyəsi və dəftərdar Bayram bəyin köməyi sayəsində Üsküpdə və Selanikdə qazi oldu. Həqiqəti araşdıran, qərar verilməsi çətin olan məsələlərdə ədalətlə qərar verən xoş təbiətli bir alimdir. Mükəmməl divanının olması bildirilir. Aşağıdakı məşhur beytləri vardır:

Seni gözler dü-çeşm-i hün- feşanınm nice demlerle
Gel ey nur-ı basar merdümlük et demler kademlerle

Digər

Anladım çeşmi ne fettan idügün kaşından
Bilinir rehzen olan nite ki yoldaşından

Kopardı fitneyi hattin çekilir zülfün adı
Tutulur yeniçeri suçu bölükbaşından

Kehrüba gibi kapar gönlümü ben haşakın
Ayrılam sanma beni sen eşigin taşından

Umarım başıma tac ola sifal-i seg-i yar
Devlet olmazmış irak çünki yigit başından

Ayın on dördü gibi bir mehe ver gönlünü sen
Haveri sev güzeli iki yedi yaşından

Digər

[217] Qanuni Sultan Süleyman dövrü şairi, Həmin mən, 107-5959 392a.

Sine pürdür arzu-yı zülf-i anber-sa ile
Doludur viranemiz bin başlı ejderha ile

Digər

On sekiz yaşında bir dil-darı uryan eyledim
On sekiz bin alemi bir demde seyran eyledim

Digər

Ademin ehl-i riya sözleri kanın kurudur
Sakiya, doldur a şol kan olacağı içelim

Gəncliyində çox içki içən, hər zaman şərab küpü kimi sərxoş olan bir adam imiş. Bir müddət sonra Əyub və Galataya birlikdə qazi olmuşdur. Səhər axşam şərab satan meyxanaçıları həyatda tapmışdır. Bəzən dostlarıyla birlikdə tək qaldıqda "gənclikdəki o istəyimiz indi olsaydı, Qalata yollarında subaşı qorxusu olmadan doyunca şərab içərdik"- deyə zarafatlaşarmış.

MÖVLANA İSHAK[218]. Üsküplüdür. Zövq və şövq ölkələrinin çox məşhur padşahıdır. Gəncliyində kamal və fəzilət mədrəsələrinin istedadlı şagirdi ikən, xüsusilə böyük mədrəsələrin müdərrisliyinə yetişib, onlara xas paltar və sarğı geyinə biləcək vəziyyətdə ikən, əxlaqsızlıq bazarında malını satmaqla, ar və namus qədəhini, yanıb yaxılma və işrət meyxanasında daşa çalmaq üzrəydi. Alim əbasını geyinib və sarğısını bağlayıb qatırına minərək dərs vermək niyyətiylə Sahın mədrəsəsinə doğru gedərkən, yolunun üzərində bir sərvi boylu, yaxud gülüzlü işvəli gənc bir fidan görünürdü. Əsası və qatırının yüyəni onun əlindən çıxar və o gənc hansı səmtə gedərsə onu təqib edərdi. Bu rəftarına görə alimlər arasında arı və namusu qüsurlu adam kimi tanınır və xalq arasında da xoşagəlməyən sözlər gəzirdi. Hətta bir gün bu şəkildə bir gəncin kölgəsi kimi onu təqib edərək, o, evinə daxil olanda bir şamın şövq və zövqünə qovuşan

[218] Qanuni Sultan Süleyman dövrü şairi, həmin mənbə, 87-89, 5959 383b-384b.

işığına çevrilmişdi və yolunu çıxılmaz bir çöllüyə salmışdır. O arada gənc içəri girincə ay üzlü cavanın düzlükdə şöhrət qazanmış atası, İshakın dostlarından olan imam çölə çıxmışdır. O, gəncin ardınca böyük bir alimin gəldiyini və gəlib onların qapıları önündə durduğunu müşahidə etmiş, kimi gözlədiyini bilməməsi xatirinə çölə çıxmış və İshakı qarşısında görmüşdür. O, vəziyyəti başa düşmüş, İshakı bura sürükləyən şeyin oğlu ilə bağlı olduğunu anlamışdır. "Lütfən buyurun və qəmli evimizi şərəfləndirin" – deyə çox təkidlə üzəngisindən yapışmışdır. Dəyərli alim isə evə girməyi qovuşma məclisinin sərmayəsi hesab edib dərhal evə girmişdir. O gün dərs verməkdən vaz keçmiş və o könül alan gəncin üzünün işığından "Ənvarül- aşiqin" (eşqlərin nurları) kitabı zövq və zövq nurlarının iqtibasına girişmişdir.

Günün doğdu sitaren yar olub yar eyledi ikbal
Ne lazım kil ü kal ü mebhas ü mazi vü istikbal.

Fəqət tanınmış bir alim olan imam bu müəmmanı sezərək ləkələnmiş adını təmizə çıxarmaq, onu məhbubu– dostluqda günahlandırılmasından qurtarmaq üçün oğlunu onun xidmətinə göndərmişdir. Özü də o gecə sübh vaxtına qədər qapının arasından içəri baxmışdır. Beləcə başqalarının gözündən uzaq, oğlunun söhbətinə qovuşma, İshakın qarşısına bir nemət kimi qoyulduğunu, istərsə qucaqlayıb öpə biləcək, istərsə də gizli xəzinəsinə sahib ola biləcək olmasını, işıqlı şamın gözəl nurunu ona tabe edərək, gözləməyə başladı. Ancaq gördü ki, İshak Əfəndi qalxıb dəstəmaz alır, gəncin gözəl üzündən üz çevirib, üzünü qibləyə tutub, sünnəti, fərzi, vacibi yerinə yetirdikdən sonra namaz qılmağa başlar. Tez-tez gəncin qaşları mehrabına yönəlir, üstü açılmışsa örtüb yenə səcdəgahına dönür. Səhərə qədər gözünü yummur və gənci seyr etməkdən doymur. İmam bu gizli sirri görüb, Molla İshakın günahsızlığına şahid olduqdan sonra, öz arzusuyla oğlunu onun xidmətinə göndərmişdir. "Bundan belə qulunuz olsun, dəstəmazınız üçün su hazırlasın və səccadənizi sərsin"- deyərək ciyərparasını məmnuniyyətlə ona təslim etmişdir.

İshak Əfəndinin nəsr sahəsində "Səlim-namə"si diqqəti cəlb edir. Onun "Suri Məkatib"i də çox tərifə layiqdir. Qısası hər iki əsər oxucuya zövq verən əsərlərdir. Lirik qəzəlləri və şeirləri çoxlu saydadır.

Doğrudan da, Üsküpdə onun dəyərində nə alim nə də ki, şair yetişmişdir. Çünki fəzilət və mərifət əhli idi.

"Axşam oldu" sözləriylə tarix yazaraq ölümünü göstərmişdir. "Ölməyə gedirik"-deyərək yoldaşlarıyla vidalaşmağa başlamış, vidalaşma səbəbini soruşanlara bu beyti söyləmişdir:

Şehri-zilhiccede azmim sefer-i Şam oldu
İstedim yazmağa tarihini ahşam oldu.

Şama yaxınlaşınca aşağıdakı şeiri söylemişdir:

Cennet kohusu gelmege başladı meşama
Yaklaşdı gibi kafilemiz menzil-i Şama

Ölən zaman da özü bu tarixi söyləmiş, günahlarının bağışlandığını hər kəs o tarixdən başa düşmüşdür.

Ericek halet-i neza dedi tarihini İshak
Yöneldim canib-i Hakka başım açık yalın ayak

Bu iki beyt də çox bəyənilmişdir. Çünki o biri şeirlərindən üstündürlər:

Gönül ayinesı safıdır amma
Temaşa bunda bir sahib- nazar yok

Çözüm izin tozun gönlüm kapın derbanlığın ister
Biri beglig hevasında biri iksire talibdir

LƏLİ[219]. Təhsilini yarıda buraxıb, dolanışıq və işləmək üçün çox vaxt Üsküpdə yaşayırdı. Dərviş misallı bir adamdı.

Qəzəl:

Zahidin gönlünde cennet aşıkın didar-ı yar
La cerem her kişinin başında bir sevdası var

MÜİDİ[220]. Kalkandələn qəsəbəsindəndir. Atası Müid olduğu üçün bu ləqəbi seçmişdir. Təhsilini yarımçıq buraxmışdır. Xaç yürüşü zamanı Misirə köçmüş, buradakı Beytülmal katibliyində həyatını şeir yazmaq işinə xərclədiyi vaxtda, bu dünyadan köç etmişdi. Öz çılğın təxəyyülünə görə şeir sahəsinin birincisi və Osmanlı şairlərin içində bənzəri olmayan birisidir. Şeirlərində üzə çıxan mənalar bacarığına sübutdur. "Vamık u Əzrası" və müxtəlif vəznlərdə mənzum hekayələri vardır. Nümunə olaraq bu şeirlərinə baxaq:

Taliim nuhs olduğu çarh-ı sitemkerden midır
Başıma bunca bela dilden mi dilberden midir.

Defter-i uşşaka yazmışsın rakibi tutalım
Gel sen insaf eyle andan ol bu defterden midir

Digər

Gam beni öldürdü el şad olduğundan bana ne
Ben yıkıldım gayrın abad olduğundan bana ne.

Çün benim halim bilinmez bin kez ölsem derd ile
Her kişinin zulmüne dad olduğundan bana ne

MUSTAFA ÇƏLƏBİ.[221]12 Priştinəlidir. Uzun bir müddət saray dəftərxanasında katiblik etdi. Bu vəzifədə olarkən güvənilməsi

[219] Qanuni Sultan Süleyman dövrü şairi, həmin mənbə,169, 5959 416a.
[220] Qanuni Sultan Süleyman dövrü şairi, həmin mənbə, 176, 5959 418b.
[221] Qanuni Sultan Süleyman dövrü şairi, həmin mənbə, 175, 5959 418b.

və düzlüyü üzündən şöhrət qazanmış və 1553-cü ildə dəftərdar təyin edilmişdir. Təxəllüssüzlüyü özündə təxəllüs hesab edib "Mehr ü Vəfa" hekayəsini yazdı. Bəzi beytləri diqqət çəkmişsə də, kitabı şöhrət qazanmamışdır. Amma aşağıdakı beytləri o kitabdan götürülərək bəzi təzkirələrdə yer almışdır.

Verir nur-ı siyahım vechine nur
Çıkar Hindistandan Ruma kafur

Dönüptür çub-ı huşka dest ü payım
Atıldı okum u yasıldı yayım

Vücudum nahlini şeyb eyledi pest
Hayatım çeşme - sarından yudum mest

Tülek hane durur bu dar-ı alem
Döker bal ü perin içinde adem
Doğan durmaz içinde bu cihandır
Niçe yavru uçurmuş aşiyandır.

Bir çox yazarlar da 1562-1563-cü ildə bu məşhur hekayəni nəzmə almışdır. Mustafa Çələbinin əsərini görmədən, hətta yazmasını belə bilmədən işi başa vurmuşdum. Yəni ki, onun vəzninə düşərək, onun yoluyla getmişdim. Ancaq üslubdakı fərqlilik göz qabağındadır. Düşündüklərini gözəl ifadə etməsi açıqca fərq yaratmışdır. Yazarın məclisi vəsf edən misraları:

Şarab olmayacak bağı niderlerl
Erenler odsuz ocağı niderler

Şarab olmasa külhandır bu gülşen
Çemen hod zühre müstağraq neşimen

Eger meyden gına verseydi lale

Tehi erz etmek olmazdı piyale.

MÜMİN[222]. Prizrenlidir. Özünə, yaşadığı şəhərə və şeirinə çox güvənərdi. "Yer üzündə Prizren kimi bir şəhər, orada mənim kimi bir şair və mənzum sözlər arasında mənim şeirlərim kimi dəyərli incilər yoxdur"- deyərmiş. "Cami və Hafiz mənim dövrümdə yaşasaydılar, mənə baş əyməyə məcbur olardılar" – deyirdi. Müəlllim olub sarayda Baltacılar xocalığına təyin edilmişdi. "Çox şükür belə bir uca zirvəyə çatdım" – deyə bığını balta kəsməz oldu. Bəzən əlli axçalıq mədrəsə istədi, bəzən yüz əlli axçalıq qaziliyə tənəzzül etdi. Sonunda isə altı axçalıq bir işə təyin edildi. Sifəti daima çirkin və pinti, cır-cındır içində, saçı saqqalı qırxılmamış. bir şəxsdi. Bununla bərabər özünü kafir padşahlarının övladlarından biri kimi təqdim edər, sülaləsinin Safur adlı gebr əhli bir atəşpərəst olduğunu söylərdi. Hətta 30 beytə yaxın olan "Safur- namə" adlı bir kitab da yazmışdır. "Ərkani Xəmsəi -İslamiyyə" adlı şeirini Rüstəm Paşaya həsr etmişdir. Əsərlərinin işıq üzü görməsini belə təqdim etmişdir. Aşağıdakı beytləri "Şahname"sindən götürülmüşdür:

Oluptur o güllerle sahra yine
Hezar ab-gine ya bir ayine

Ney-i tize etdikçe sarsar misal
Söyünürdü kandil-i ömr-i rical

Digər

Efendi devrü adlinde reva mı
Harab ola yıkıla bir imaret

Pilavının sorarsan tanesini
Sinirmek key hüner yutmak keramet

Fodulası yenilmez yahnisi çığ

[222] I. Səlim dövrü şairi, həmin mənbə,177, 5959 418b-419a.

Taamında ne lezzet var ne halet

NƏHARİ[223]. Prizren qəsəbəsindəndir. Bu gözəl mətlə onundur:

Gamzen dile zahm ursa ciger kanı çekilse
Süsenlere karşı gül-i hamralar açılsa

NİHANİ[224]. Arnavud kökündəndir. Mədrəsə təhsili almağa başladıqdan sonra ölmüşdür. Bu şeiri Sultan Səlimə həsr etmişdir. Bəziləri yanılaraq onu padşahın şeiri olduğunu hesab etmişlər:

Laleler çıktı kızıl tac ile şahiler gibi
Yasemenler hakka yüz tutmuş ilahiler gibi

Rafizidir lale tacın bade ver ya Rab diye
Çekti süsen tığını sünni sipahiler gibi

Ey Nihani çar-ı yarı sev Muhammed aşkına
Bayazidi meşreb ol olma tebahiler gibi

NUHİ[225]. Prişтenlidir. Əsl adı İnəxan ikən, dəyişdirib Əhməd qoymuşdur. Şairlərdən Lövhi, Əzmi bəy, Məhrəmi, Fiğani və Neməti bəyin dostu, rindsayağı yaşayanların irəlidə gedəni, xoş xasiyyətli, comərd bir adamdı. Bir müddət David Paşanın katibi olmuşdur. Sonra şahzadə Sultan Məhməd xanla birlikdə sancağa çıxıb, onun sirr katibi oldu. Onların vəfatından sonra da dövlət qapısında katib işləmişdir. Lakin gəncliyində çox şərab içdiyindən işini atmalı olmuşdur. "Şərabı çox et, dərdin olmasın" sözlərinə uyub uyuşdurucudan istifadə etməyə başladı. Qısa bir müddət sonra içkinin təsirindən yazı yazmağı belə bacarmadı. Yuxusuzluqdan əziyyət çəkməyə başlamış və bu zərərli adəti onun ölümünə səbəb olmuşdu. Vücud gəmisi qurtuluş sahilinə yetişə bilmədi. Həyatı

[223] Qanuni Sultan Süleyman dövrü şairi, həmin t.,184, 5959 421a. 16.
[224] I. Səlim dövrü şairi, həmin mənbə,82, 5959 210b.
[225] Qanuni Sultan Süleyman dövrü şairi, həmin mənbə,183, 5959 420b 421a.

yarımçıq qaldı. Van səfəri zamanı bu dünyadan köç etdi.

Senin çak Nuh denli ömrün olsun isterim Hakdan
Benim fülk-i vücudum rüzgarı geldi yapraktan

beytini dostlarına oxuyaraq can vermişdir.

Şeirlərindən nümunə:

Saf dil gibi gelip meclis-i rindana safa
Ağzı suyun akıdırmış leb-i canana safa

Digər

Suya konmuş güle benzer deheni dildarın
İçmege su viricek ol şeh-i hubana safa

RİYAZİ[226]. Baba Çələbinin böyük qardaşı, xüsusilə də Üsküplü müəllimlərdən ən mərifətlisi idi. Təəccüblüsü odur ki, dindən çox uzaq adam idi. Əsl adı Məhməd olsa da inancına görə dinsizlərin önündə gedirdi. Ömrünün sonlarına yaxın Filibə qazisi oldu. Həm də qazilər arasında mərifət və alimiiyinə görə şöhrət qazanmışdı. Hətta Qazixanın "Məsaili- müşkile"sini asanlaşdırdı. Mövlana Abdurrahman Caminin bir qəzəlini şərh edərək adını "Kəşfül-hakaik fi Həllüd – Dəqayıq" qoydu. Laübalı, içki düşkünü bir rind, şən təbiətli və hərəkətli bir şəxs olduğundan dinsizlik yoluna düşdüyü hiss edilmiş və belə sözləri xalqın qınağına səbəb olmuşdur:

Nice bir bekleyesin küşesini medresenin
Yürü var meyğedeye sagar ile müdd-resenin

Rahne çektin mey-i gülgüne yine destarı
Rindler içre Riyazi baş açık fasıksın

[226] Qanuni Sultan Süleyman dövrünün şairi, həmin mənbə,120, 5959 397a.

Ancaq gözəl ifadənin düşkünüydü. Bir gözəl lətifəni bir qəsidəyə, qaba bir mütavasını bir kitaba dəyişməzdi. Deyilənə görə, bir gün vaxtını sərf edib bazara gedibmiş və bir bülöv satan dəllal tapıb ona əl vermək üçün bu qədər zəhmət çəkibmiş. Bir gün də yeyib-içmək üçün Qalataya gedərkən, dostlarıyla "əlüstü bir meyxanaya baş vuraq"- deyə Peremə boğazına gəlirlər və qələbəliklə gəmiyə minirlər. Riyazi təklik hisslərini bildirmək üçün "mən dənizi keçmirəm"- deyərək dostlarıyla yeyib-içməkdən imtina etmiş və "fikir sərmayəsini çətin anlaşılan söz və laqqırtılara xərcləyərək" bu şeiri yazmışdır.

Dileyi hal-i zarın fitne fenninde beniz
Koymadı ben aşik-ı biçarede cana beniz

Ger sora ben hakini ol lebleri ab-i zülal
Kuru sevdayile yaşı bahr-ı ummanda deniz

Ey Mesiha – dem yeter ağlattı hicrin nice bir
Telh- kam oldu bihar-ı eşkten bu mürdeniz

Kaddini ey serve heşbih eyleyenler vechi var
Haddi ne ol lale ruhsarın eger gül derseniz

Bahr-ı şiir-i ab-ı lutfa gark eden kimdir desen
Dürr-i yemm- i marifet cana Riyazi bendeniz.

SƏDRİ[227]. İştiplidir. Köhnə şeyxülislamlardan olan Şeyx Əfəndidən dərs alıb. Qırx axçalıq bir mədrəsəyə müdərris olduqdan sonra vəfat etmişdir. Xoş görünüşlü, zəkalı və mal-mülk üçün dava edənlərə təsir etməyi bacaran biriydi. Şeirlərindən bir beyt:

Gerek derviş-i dil-riş gerek şah-i cihan olsun
Sana aşık keçen evvel benimle imtihan olsun.

[227] II. Səlim dövrü şairi, həmin mənbə,211, 5959 488a.

SAYİ[228]. Prizven şəhərindəndir. Sultan Bəyazid aşağıda verdiyimiz qəzəli oxuduqdan sonra onu tapmış və ənam vermiş, Sarayı-amirə xocalığına işə götürmüşdür. Yaxı təhsil görmüş saray adamlarının çoxu onun yanında təhsil almışlar. Sultan Səlim dövründə vəfat etmişdir:

Suretin nakşını yazınca gönül namesine
Kanlar ağlattı gözüm kirpiginin hamesine

Bir gümüş serv-i kaba-püştür ol meh ki, anun
Güneş altunlu gül olsa yaraşır camesine

SÜCUDİ[229] . Qalxandələndəndir. Pir Paşanın qullarından olub, o dövrdə Sultanlar katibi olmuşdur. Mücərrəd şeirə maraq göstərməyinə və söylənilən şeir və nəzirələri təqlid etməyinə baxmayaraq, özünə maraq doğura bilmişdi.

Hətta çox işlədilmiş, uyğun olmayan hissələrdən ibarət olan münsəat qələmə alaraq Sultan xanın fəthlərini vəsf edən bir kitab yazmışdır. Padşahın ölümündən sonra hazırladığına görə şöhrət payının tələf olmasından qurtarmışdır. Mərhum Rəvani Misir yollarında "Bərf" (Qar) rədifli qəsidə söylədiyi zaman padşahı "Davamsız şəkildə yaz fəslinə malik olub, qar nə olduğunu bilməyən məmləkətdə niyə bunu nəzm etdin?" –deyə soruşanda, Sücudi fürsət tapıb:

Sovuk sözlerle doldurdun cihanı
Başına karlar yağsın Revani

beytini demişdi. Rəvani də onun gəncliyinə işarə edərək:

Yüzün dokunmadık yer yok cihanda
Anunçün dediler sana Sücudi

[228] I. Səlim dövrü şairi, həmin mənbə,77, 5959 209b.
[229] I. Səlim dövrü şairi, həmin mənbə,76, 5959 209b.

beytini söyləmişdi.

SUZİ[230]. Naqşibəndi təriqətinin daşıyıcılarındandır. Prizrendə doğulub. Mihaloğlu Əli bəylə bir çox yürüşlərdə iştirak etmişdir. Hətta onun bəzi savaşlarını şeirə də gətirmişdir. Şeirlərindən nümunələr:

Seher vaktinde çün Zal-i zamane
Giyindi vü kuşandı Rüstemane

Güneş tiğ ü Utarit hame tuttu
Ali beg rezm için hengame tuttu.

Bir neçə qazi ilə aralarında bəzi məcaralar olmuşdu. Bununla bağlı aşağıdakı beytləri yazıb, Sultan Səlim xana vermiş və hakimin xoşagəlməz halını ortaya çıxararaq onun cəzalandırılmasına səbəb olmuşdur:

Mahşer arasatındaki divan olacaktır
Ey kadı sana davici Yezdan olacaktır.

Haşr içre sicillat-ı amel çün ola imza
Rüşvet rakamı namene ünvan olacaktır.

Devrinde yetimin ki gözü yaşı revandır
Bir gün seni gark etmege tufan olacaktır.

Bir sazı ki sen perdeler altında çalarsın
Sanma ki anun nağmesi pinhan olacaktır

Bundan başqa zövq sahibləri yanında məşhur olan orijinal bir qəzəli də vardır:

Sərvi kaddin dikmesidir şah-ı gül gülzarda

[230] I. Səlim dövrü şairi, həmin mənbə,77, 5959 209b.

Eşkimin perverdesidir laleler ruhsarda

Ya gönül sinemde mihrin gizledi ağyardan
Ya örümcek perde çekti Ahmed üzre garda

Doğrudan da əvvəldən sona qədər gözəl və bərabəri olmayan bir əsərdir.

ŞANİ.[231] Saraybosnadandır. Qəzəl yazan alim şairlərdəndir. Bir mətləsinə baxaq:

Ser çekmesin semaya kendini kılmasın arz
Farkı boyunla servin beyne-s semai vel-arz

Düzdür, beytdəki sözlər bir-birinə həmahəngdir. Ancaq təşbehlər yerində işlədilməyib. Çünki əslində "Beynes-səmai vel-arz" deyildir.

Kavs-ı kuzahla anun bir takım itseler arz
Her kim görürse derdi beynes-semai vel-arz

Bu beyt bir xəbər təsnifatı olaraq "Həft-Məclis" adlı kitabımızda da vardır. Qədimdə saray bazarında oturan bir meyxanaçı şagirdi haqqındakı qəzəlimizə də belə bir nəzirə söyləmişdir.
Yazardan:.

Bir firenk oğlanı can mülkünü yağma kıldı
Alem-i manide İsa beni ihya kıldı

Küfrünü neyleyelim hüsnüne yüz bin tahsin
Sanki bir nur idi zülmette tecelli kıldı

Bir melek yüzlü güzeldir yine gökten indi
Mürdeler cismini İsa gibi ihya kıldı

[231] Səlim dövrü şairi, həmin mənbə,210, 5959 487b.488a.

Ağdenizdir yanağı zülfü donanmasıdır
Milket- i can u dili garet ü yağma kıldı.

ŞƏMİ.[232] Prizren şəhərindəndir. Şeyx İbni Vəfa dərvişlərindən, təsəvvüfə yönələn ədiblərin dərdlilərindən, zəif vücudlu, yanıb-yaxılmasıyla çox könül fəth edən, ahının dumanı göylərə ucalan bir adamdır. Təxəllüsünə uyğun olaraq çox təsirli, yandırıb-yaxan şeirlər yazmışdır.

Halas olmak ne mümkün bir gönül ki, müptela olsa
Alınmaz aşk elinden iki alem bir yana olsa

Ne hunidir gözün saki ki bağrımdan kebab ister
Döküp na-hak yere kanım kabağım pür şarab ister

Seni begler arasından anunçün ihtiyar ettim
Kul olmaz degme bir şaha könül ali cenab ister

Digər

Ar edermiş beni öldürmege ol sim-tenim
Varayın yalvarayın boynuma takıp kefenim

Digər

Kuçam derdim nigarı pirehensiz
Çürüttüm varımı kaldım kefensiz

Digər

Kime kim aşk işi olur pişe
Okumak yazmak olmaz endişe

[232] Qanuni Sultan Süleyman dövrünün şairi, həmin mənbə,134, 5959 401b-402a.

Anladılır ki, bir gün Şəmi və Məsihi birlikdə Qalataya gəzib dolaşmağa getmişlər. Bir vaxt "gedib kilisəni gəzək," – deyə içəri girmişlər. Şairlərdən biri onları görmüş və oradaca bu qitəni yazmışdır:

Galatada Mesihi deyre varmış
Meger Şemi onunla bile gitmiş

İşidenler galat edip dediler
Mesihi kiliseye mum iletmiş

YƏHYA.[233] Arnavud kökündən, Dukağın bəyləri nəslindəndir. Bu üzdən "Gülşəni-Ənvar"da:

Amavudun hasları vü yegleri
Nesl-i kadimüm Dukağin begleri-

deyə bildirmişdir. Atası yeniçəri ocağında yetişdiyi üçün özü də yeniçəri oldu. Hətta bu sinfin katibliyinin qapısında xidmət göstərən şagirdlərin sırasına daxil oldu. Sonra bölükdə xidmət etdi. Nəhayət Sultanın dövründə həqiqi bir şöhrət qazandı.Vəfv idarəsi məsulu olaraq doğruluqda ad çıxardı.

Əyyub Sultan vaxtlarında Bolayır imarətində və İstanbuldakı Bəyazid xan camisində müttəvəlli olaraq bir çox xidmətlərdə çalışdı. Yəhya bəy, Sultan Mustafa mərsiyəsini söyləyən zaman bəzi beytlərində bir sıra şairlərə ürəkdən nifrət edən vəziri-əzəm Rüstəm Paşaya toxunmuşdur:

Eya serir-i saadette padişah-ı cihan
Diri kala ne revadır fesad eden şeytan

O, bununla kifayətlənməyib bu misranı da əlavə etmişdir:

[233] Qanuni Sultan Süleyman dövrü şairi, həmin mənbə,188-190, 5959 422b-423b.

Vücuduna sitem-i Rüstem ile erdi ziyan

Bu vəzirin vəzifəsi yüksələndən sonra isə bir çox təftişlər aparılaraq Yəhya bəy vəzifəsindən kənarlaşdırıldı. İşi dəftərdarlıq olmasına baxmayaraq, İzvornik sancağında otuz min axça zəamət verilərək onu İstanbuldan uzaqlaşdırdılar. 1574-cü ildə şairlə söhbətimiz baş tutdu. Belə bir mərsiyəni neyçün yazdığını, sonra da diqqət etmədən nədən üzə çıxararaq yaydığının səbəbini soruşdum. Müəmmalı bir cavab verdi: "Duyulmasın istəmədim. Hətta təxəllüsümü belə qeyd etmədən, şairlərin arasına atmaq istərkən, ordunun seyrinə çıxdım. Mərsiyəmi bir çox adamın əlində gördüm. Görünür dostlarımdan kimsə mən yuxuda olan zaman çadırıma girmiş, əlyazmanı taparaq üzünü köçürmüş və aparıb yaxın adamlarına vermişdir".

Rüstəm Paşa yenidən vəzifəyə gəlincə bir gün onu çağırmış və şairin "payını" vermişdi: "Bir padşah ki, dünyanın diriliyi üçün oğlunu öldürtdü, xüsusilə də müftilərimiz ona ölüm fitvası verdi. Bundan sonra sənin müxtəlif cəfəng sözlər söyləməyin və ədalət davası edən sultana xəta eylədin deməyin hədini aşmaq deyilmi ?" deyə soruşmuşdur.

Yəhya bəy də susmayıb "Ölənlə öldük, ağlayanla ağladıq, burda xətamızın olduğunu bilmədik" – dedi. "Nə bilim, o cəfəng şeirində filandan oldu demisən, bəzi adamlara iftira atmısan, buna cavabın nədir?" deyəndə, "adəm övladıyıq səhv etmişik" deməkdənsə, "düşmənlər iftira etdi" deməyi üstün bildim. Yəni "böhtanlara məruz qaldım" demişdir. Qısaca başına gələni bu şəkildə açıqladı. Ancaq Rüstəm Paşa vəfat etdikdə Yəhya bəy keçmişdəki ədalətsizliyi xatırladaraq, ona başqa bir həcv şəklində mərsiyə yazıb ortaya qoydu. Son bəndinə belə bir mətlə əlavə etdi:

Gülmez idi yüzü mahşerde dahi gülmeyesi
Çox iş etti bize ol sağlık ile olmayası

Yəhya bəy həqiqətən sadə yazmağa meylli, qəzəl və mərsiyədə

özünəməxsus üslubu olan bir şairdir. Görünüşündən çələbilik yağsa da, gizli xəzinə kimi sirliydi. Özünəməxsus tərzi ilə tamamilə yeni bir əhval-ruhiyyə yaradırdı. “Şah və Gəda” və insan ürəyini riqqətə gətirən bir kitab olan “Gəncineyi-Raz”dan başqa “Yusif və Züleyxa” və zövq oxşayan “Usulnamə” əsəri tərifə layiq məsnəvilərdir. Ölümünə yaxın divanı da hazırlandı. Oğlu Adəm Çələbi divanının ön sözünü mənə gətirdi və “səhv varsa düzəltsinlər”- deyə vəsiyyət etdiyini bildirdi. Həqiqətən də gözəl ifadə etmiş, yeni bir tərzdə qələmə almışdır. Ərəbcə tamamlamalarda belə səhvi yoxdu. Düzəltməyə göndərməyinin səbəbi də bu tamamlamaları düzəltdirmək idi, ancaq onlar da düzgün yazılmışdı:

“Şah ve Geda”dan:

Bile ağlardı ağlasam enhar
Bile inlerdi inlesem kühsar

Saf dil ol begüm piyale gibi
Kara gönüllü olma lale gibi

“Gencineyi-Raz”dan:

Geçinir bir dilim ekmekle fakir
Yedi iklimi yiyip doymaz emir

Verdi bin taht-ı Süleyman bada
Rüzgare ne döyer dünyada

“Yusif ve Züleyxa”dan bir parça:

Babamızla durursun oturursun
Uyumağa koduk düş de görürsün

“Usul-name”sindən:

Beni düd-ı ah etmiş idi nihan

Dumanlı dağa dönmüş idim heman

"Gülşəni-Ənvər"indən girişdə verilən beyt yetərlidir. Lirik qəzəllərinin də bərabəri yoxdur.

Her kitabı okumuş alim-i danayız biz
Dürlü dürlü dilimiz var ulu deryayız biz

Qəzəl:

Ahır-ı maha döner derd ehlinin mahiyyeti
Varlığınca cenab-i zafinin artar kuvveti

Digər

İki kat oldu vücudum kocadım kat kaldım
Melekül- mevt selamını egildim aldım.

"Şah və Gəda"nın yazılmasına səbəb padşahın qapıçısı Əhməd şahdır. Yəhya bəy o tarixdə, xüsusiylə özüylə öyündüyü məclislərdə bu qəzəli demişdir:

Derbani-padişah edib ol servi-kameti
Dövran yine kapıya getirdi kıyameti

Sürüne-sürüne varayın o asitaneye
Dergahdan süre beni hışm ile gayeti

Bana şu denli eyledi zulmü ki sanırım
Dergaha varan ondan eder hep şikayeti

Yəhya bəy 1575-ci ilə qədər yaşamışdır. Təxminən 80 yaşında vəfat etmişdir. Məzarı İzvornik qəsəbəsindədir.

*(*Yazı "Çevren" jurnalında s.38. və "Ptiştine-Yugoslavya" 1983. s.43-63-də dərc olunub).*

OSMANLI MƏDƏNİYYƏTİNDƏ KİPRİN YERİ VƏ KİPRLİ DİVAN ŞAİRLƏRİ*

İnsanlar hələ qədimdən birlikdə, toplu şəklində yaşaybiləcəkləri əlverişli yerləri tapmış və bunları zaman keçdikcə kənd, qəsəbə və şəhər şəklində formalaşdırmışlar. Bu insan məskənlərinin bir qismi zaman-zaman inkişaf edərək mərkəzlərə çevrilmiş, bəziləri isə daha az əhəmiyyət daşıyan şəhərlər olaraq öz vəziyyətlərində qalmışlar. Get-gedə bu şəhərlər sivilizasiyaların üzə çıxdığı məkanlar şəklində diqqət çəkmişlər. Buna görə də şərq və qərb dillərinin bir çoxunda mədəniyyət sözüylə şəhər kəlməsi eyni mənanı daşıyır. Mədəniyyətin yarandığı mərkəzlər həmişə şəhərlər olmuşlar. Çünki şəhər kəlməsinin bir mənası da idarəçilik deməkdir və ən önəmli şəhərlər eyni zamanda idarəçilik mərkəzləridir.

Şəhərlərin bəziləri mədəniyyətlərin onlara olan ehtiyaclarını doğrultmaq, mədəniyyətlərii inkiçaf etdirmək üzündən ya önəm qazanır, ya da öz önəmlərini itirirlər. Başqa bir qismi isə əlverişli coğrafi şərait, ticarətin inkişafı, dini təsəvvüf atmosferinin mövcudluğu, ticarət yollarının üstündə yerləşməsi və s. başqa faktorların sayəsində öz mövqelərini daha da möhkəmləndirirlər.

Şəhər üçün əlverişli mövqeyə malik bir bölgə olan Kipr də, Ağdənizin üçüncü böyük adası kimi, əlverişli coğrafi şəraiti ilə tarixin hər dönəmində öz şöhrətini qoruyub saxlamış, xüsusilə də stabillik dövründə siyasi və mədəni inkişaf cəhətdən ehtiacı olan şəhərlərdə göstərdiyi mədəni fəaliyyəti ilə diqqət çəkmişdir.

Klassik mədəniyyət sahəsində Kiprdə ən çox inkişaf etmiş şəhərlər Lefkoşe və Maqosadır. Haqqında danışılan bu şəhərlərin başqa dəyərlərindən də söz açaraq onların mədəni aləmdəki əhəmiyyətini göstərmək olar. Mən məsələyə divan ədəbiyyatı bucağından yanaşmaq istəyirəm.

Bilindiyi kimi Kipr 1571-ci ildə Osmanlı idarəçiliyinə qatılmışdır. Bununla da bölgədə bəlli bir əhali artımı da başlandı və beləcə, türk dili sadəcə bir danışıq dili deyil, yazı dili kimi də işlənməyə başlandı. Amma dərhal qeyd etmək lazımdır ki, bu bölgənin siyasi

olaraq bir idari quruluşa bağlanması ilə, mədəni olaraq özünü o mədəniyyətin bir parçası hesab etməsi, eyni şey deyildir. Başqa sözlə ifadə etsək, "mədəni inkişaf siyasi inkişafı bəlli bir nöqtədən izləyir" də deyə bilərik. Bu məsafə müxtəlif qısalma və uzanmalarla əlli və yüz il arasında dəyişərək formalaşa bilmişdir. Kipr də fəthdən sonra dərhal bir yerli türk ədəbiyyatından danışmaq düzgün olmazdı. Qeyd etmək gərəkdir ki, divan ədəbiyyatı bir intellektual ədəbiyyat, başqa sözlə desək bir şəhər ədəbiyyatıdır. Bu baxımdan haqqında danışdığımız ədəbiyyata ancaq şəhər mərkəzlərində və bir sıra tanınmış qurumlarda, xüsusilə mədrəsə, təkkə və bazarlarda rast gəlmək olardı. Divan şairlərinin yetişdikləri mühitə, ya da onların məsləklərinə baxıldıqda bu məsələ öz-özündən aydın şəkildə ortaya çıxmaqdadır (İsen 1997 s. 221)

Yenə belə bir perspektivdən baxdıqda Kiprdə bu üç qaynaqdan təkkə ünsürünün daha çox irəli çıxdığının şahidi oluruq.

Məsələyə daha dəqiq nəzər salmaq üçün əvvəlcə Kiprli şairlərin sayını vermək və bunun klassik ədəbiyyatdakı yerini müəyyənləşdirmək, sonra da bu şairlərin həyatları haqqında qısaca məlumat vermək gərəkdir.

Qaynaqlar bizə Osmanlı idarəçiliyində səkkiz Kiprli şairdən söz açır. Bu rəqəmi əsas götürsək, o zaman Kipr Osmanlı mədəniyyət çevrəsi içində Antakya, Maraş, Mora, Tire və Urfa ilə eyni sıranı paylaşmaqda və bu sahədə doqquz şair yetişdirən Adana, Hələb, Kırım, Nigde, Sinop və Yenişəhər Fənər kimi mərkəzlərdən sonra yer almaqdadır. Bu mənada bölgə (təbii şəhər olaraq Lefkoşa) Osmanlı mədəniyyət mərkəzlərinin ikinci, hətta üçüncü qrupunda yer almaqdadır. (Ümumi qiymətləndirmə üçün baxın: İsen 1997 s.67).

1. **Zəkai**. (v. 1058/1648) Məhməd Zəkai Əfəndi Kiprdə doğulub. Təhsilini tamamladıqdan sonra müdərrislik və kadılıq edib. Kiprdə dəfn edilib. Mucib ölüm tarixinin 1937-ci il olduğunu göstərmişdir.

2. **Siyahı**. (v.1710) Şeyx Mövləvi Mustafa Dədə. Ana tərəfi Həbəş əsilli olduğuna görə olduqca qara olan Siyahı bu fiziki görünüşüylə əlaqədar olaraq Siyahı təxəllüsünü götürüb. Əli Dədənin Lefkoşa Mövləvixanəsi şeyxliyi müddətində onun yanında yetişmişdir.

Gelibolu Mövləvixanəsi şeyxi oldu. Misir Qahirə Mövləvixanəsi içində ortaya çıxan narahatlığı aradan qaldırmaq üçün ora göndərildi və oradakı sıxıntıları aradan qaldırdı. Bundan sonra Lefkoşa Mövvəvixanəsi şeyxi oldu. Burada öldü və Mövləvixanə məzarlığında torpağa tapşırıldı. Əsrar Dədə təzkirəsində divan sahibi olduğu bildirilir. Dövründə fövqəladə şəkildə qayğı görən bir adam olub. Şeyxül-məşayih ləqəbiylə tanınıb. Əsrar şeirlərini mükəmməl şəkildə tamamlayır.

3. **Arif** (v. 1138/1725) Şeyx Arif Əfəndi. Lefkoşa Mövləvixanəsi şeyxi Mustafa Siyahi Dədənin oğludur. Ən çox Mövləvi şairi nümunəsində rast gəlindiyi kimi, tamamilə bir dərgah mühiti içində doğulub böyümüşdür. Mövləviliyə meyl etmiş və əvvəl Misirdə Qahirə Mövləvixanəsinin, atasının ölümündən sonra da Lefkoşa Mövləvixanəsinin şeyxi olmuşdur. Lefkoşada vəfat etmiş və Mövləvixanə məzarlığında dəfn edilmişdir.

4. **Xızır Handı Dədə**. Lefkoşada doğuldu. Siyahı Mustafa Dədənin yanında yetişdi. Onun Misirə getməsi üzündən Handı İstanbula gəldi və Galata Mövləvixanəsində Münəccimbaşı Əhməd Dədə ilə tanış oldu. Əhməd Dədə, Nəsib Dədə, Hasib Dədə və Ləbib Dədə ilə birlikdə həccə getdi. Yenidən Kiprə qayıtdı və Lefkoşa Mövləvixanəsinin şeyxi oldu. Orada vəfat etdi. Dördbəndlik bir qəzəlindən nümunə:

Koyma ayağı bir dem elinden ki iş budur
Nuşi şarab-ı nab idegör Cem-meniş budur

Arz eyle gah bedrini, gahi hilalini
Mahım felekde vadi-i tarz-ı reviş budur

Ağyara munis oldu o vahşı gazalimiz
Ahir şikar olur göresin gösteriş budur

Çevre tahammül eyle medet vasl-ı yarda
Handi rakibe afet-i can serzeniş budur.

5. **Musib**. (v.1168/1754) Məhməd Musib Əfəndi. Lefkoşada

anadan olub. Rumelinin müxtəlif şəhərlərində qazilik edib. Karaferyede qazi ikən vəfat etmişdir. Şeirlə maraqlanırdı və şairlər arasında elmli olması ilə şöhrət qazanmışdı. Səfiyə Sultan və Pir Mustafa Paşanın verdiyi mənbələri tarixə saldı.

6. **Hilmi**. (H. 1197/ M. 1782, H. 1264/ M. 1847) Həsən Hilmi Əfəndi Kiprdə doğuldu. Təhsilini başa vurduqdan sonra Hilmi Xoca olaraq ətrafındakılara dərs demişdir. II Mahmudun Kiprə bağışladığı kitabxanaya minnətdarlıq əlaməti olaraq yazdığı qəsidə padşahın çox xoşuna gəlmiş və buna görə də İstanbula çağırılaraq rəisüşüəra titulu verilmişdir. Kiprə müfti təyin edilmişdir. Orada vəfat etmiş və Yeni Cami məzarlığında dəfn edilmişdir. Divanı vardır və bu əsər dəyərli araşdırıcı, şairin həmyerlisi Harid Fədai tərəfindən yayınlanmışdır. (Kipr Müftisi Hilmi Əfəndi, Lefkoşe 1987).

7. **Təhsin**. (504) Hacı Həsən Təhsin Bəy. Surre valisi və Kipr vergi məmuru Hacı Məhməd Ağanın oğludur. Lefkoşada doğulub (1215/1800) – İstanbula gələrək orada təhsil aldı. Laz Ömər Əfəndidən yazı dərsləri aldı. Atası ilə birlikdə həcc ziyarətinə getdi. Məkkədə Məhməd Can Əfəndiyə qoşularaq nəqşibəndi təriqətinə daxil oldu. Təkrar Kiprə qayıtdı. Müdərris oldu. Bağdad mollası adını qazandı. Naqibül-əşrəf təyin olundu. Qaziəsgər, rəisil- ülema, məclisi-vala üzvü oldu. 11 səfər 1278/1861-də vəfat etdi və Eyubda, Validə Sultan məzarlığında dəfn edildi. Həsən Təhsin Əfəndinin yazdığı şeirlər toplanaraq bir məcmuə şəklində nəşr olunmuşdur.

8. **Aşıq Kənzi.** (1210/1255) Daha çox aşıq ədəbiyyatı təmsilçisi olan Aşıq Kənzini də bu çərçivədə dəyərləndirmək mümkündür. Əsl adı Qasım olan Kənzi Kiprdə doğulub (1210) Bektaşı təriqətinə daxil oldu və bu təriqətin içində yetişdi. Ömrünü saz çalaraq keçirdi. Anadolu, Misir və Balkanları dolaşdı. Evləndikdən sonra Ədirnədə yerləşmiş və Bursada vəfat etmişdir. Türk Yunan savaşları haqqında yazılmış bir dastanı, "Sərgüzəşti- Kənzi Baba" və "Kipr dastanı" adlı əsərlərin müəllifidir. Bir divan təşkil edəcək qədər şeirləri var və onlar dəyərli araşdırıcı Harid Fədai tərəfindən nəşr olundu. (Kiprli Aşık Kenzi Divanı 3 c.)

Verilən məlumatlardan göründüyü kimi Kiprdə ilk şeir ənənəsi bir qazi şair Məhməd Zəkai Əfəndi ilə başlamışdır. Ondan başqa

elmiyyə sinfindən üç Kiprli şairə də təsadüf edilir. Bunlar Musib, Təhsin və Hilmi Əfəndidir. Ənənəvi klassik şeirin ənənəvi quruluşu nəzərdən keçirildikdə bu təəccüblü görünməməlidir. Çünki klassik şeirin yaradıcılarının əksər hissəsi bu sənət sahiblərindən ibarət müəlliflərdir. Bu göstərici bütün şairlərin 36 %-ni təşkil edir. Ümumilikdə şairlərin 3,7%-ni təşkil edən təsəvvüfçülər Kipr şairlərinin 50%-ni təşkil edir. Bunda şübhəsiz ki, mövləviliyin böyük təsiri olmuşdur. Türk ədəbiyyatından başqa, incəsənətin bütün sahələrinə də təməl təsiri olmuş mövləvilik, şairlər tərəfindən ən çox seçilən təriqətdir (68%). Kiprdə isə bu hal bir az da fərqlidir və burada klassik şeir mövləviliklə başlanıb desək, səhv etmiş olmarıq. Bu dəyərləndirmədə də Siyahı Dədə ilk adı çəkilən önəmli şəxsdir. Bəs Kiprli klassik növün daşıyıcısı olan mövləvilik nə zaman yaranmışdır? Bu mövzuyla bağlı qiymətli bir çalışma ortaya qoyan Harid Fədai və Mustafa Haşim Altana görə (Lefkoşe Mövliyyehanesi Ankara, 1997) adada ilk mövləviyyəxanə 1607-ci illərdə yaranmış, Siyahı Dədə ilk mövləvi şairi olaraq meydana çıxmışdır. Bu təriqətin Kiprdə belə yayılmasının səbəblərindən biri, Konya ilə Kipr arasında olan ərazi yaxınlığıdır. Başqa bir mütəsəvvif şair olan Kenzi isə Bektaşidir. Bektaşilik də divan şairlərinin etibar etdikləri əsas təriqətlərdən biridir (8%). Ancaq bu təriqətin Kiprlə bağlılığı bizə məlum deyil.

Kiprdə yaranan klassik türk ədəbiyyatı başqa sahələr kimi şəhər mədəniyyətinə və intellektual düşüncəyə söykənərək inkişaf etmiş, milli ənənəyə uyğun olaraq daha çox elm adamlarını və təsəvvüfçüləri əhatə etmişdir. Ancaq bu istiqamətdə mütəsəvvüf şairlərin yaradıcılığı milli ənənənin üzərində qurularaq bütünlüklə mövləviliklə bağlı bir mənzərə yaratmışdır.

*(*Yazı "III Cuprus Research Congres Bulletins, Eastern Mediterranean University", 2000-də dərc olunub).*

İstifadə olunan ədəbiyyat

"Adab-i Zurefa" (Haz. Sadiq Erdəm Ankara 1994)

1. Belig "Nuhbetül – asar Li – Zeyli Zübdetül - eşar" (Haz. Abdulkərim Abdulqadiroğlu) Ankara 1985.
2. Əsrar Dədə "Təzkire-i Şuara-i Mevleviyye" Süleymaniyyə kitabxanası Halət Əfəndi 109
3. Fatin "Hatimetül-eşar" İstanbul, 1271.
4. Fədai Harid. "Kıbrıs Müftüsü Hilmi Efendi" Lefkoşe 1987.
5. Fədai Harid. "Kıbrıslı Aşıq Kenzi Divanı" 3 c.
6. İnal. İbnülemin Mahmud Kamal "Son Asır Türk Şairleri" İstanbul 1988.
7. İsen Mustafa "Divan Şairlerinin Meslek Konumları" "Ötelerden bir ses" Ankara 1997.
8. İsen Mustafa "Divan Şairlerinin Tasavvüf ve Tarikat İlişkileri" " Ötelerden bir ses". Ankara 1997.
9. İsen Mustafa "Osmanlı Kultur Coğrafiyasına Bakış". "Ötelerden bir ses". Ankara 1997.
10. "Mücib Tekiresi" (Haz.Qüdrət Altun)Ankara, 1997. s 31.
11. "Osmanlı müellifleri" Məhməd Tahir Cl III İstanbul 1333-1342
12. "Safayı Tezkiresi". Süleymaniyə ktp.Esad Əfəndi 2549
13. "Salim Tezkiresi". Süleymaniyə kitabxanası Əsəd Əfəndi bölümü nr 3872 "Tezkire-i Selim" İstanbul 1315
14. "Semehane-i edeb" TDEA c 1s 156
15. **"**Sicili Osmani" Məhməd Sürəyya c 1s156
16. "Silhdarzade Tezkiresi"
17. "Şakayık Şakayiki numniyye ve Zeylleri" Şeyxi Məhməd Əfəndi İstanbul 1989 c ı-v x
18. "Tezkirelere Göre Divan Edəbiyyatı İsimler Sözlügü".Ankara 1988
19. "Tühve Tühfe-i Naili" Nail Tuman, Mili Egitim Bakanlığı Yayınlar Dairesi Başkanlığı Kütüphanesi nr b 870
20. "Türk Dili ve Edebiyatı Ansiklopedisi"
21. Hüseyn Ayvensarayi "Vəfat-ı Ayvensarayı" (Haz. E. Çətin Derin) İstanbul

OSMANLI TÜRKİYƏSİNƏ KÖÇ ETMIŞ AZƏRBAYCANLI KLASSİK ƏDƏBİYYAT TƏMSİLÇİLƏRİ*

Tarix boyunca geniş bir ərazidə hökmranlıq edən türk toplumları eyni zamanda bu ərazilərdə sənət və mədəniyyət fəaliyyəti ilə də məşğul olmuş, bu geniş ərazilərdə müxtəlif dövlətlər yaratmış, bilavasitə dili, dini, həyata baxışı eyni olan toplumlar arasında təbii olaraq mədəniyyət və sənət mübadiləsi etmiş, elm və sənət adamlarının bir bölgədən başqasına keçməsinə şərait yaratmışlar.

Məlum olduğu kimi, türk toplumu XIII əsrə qədər tək bir yazı dilindən istifadə edirdi. XIII yüzillikdə isə ikinci yazı dili yarandı. Bunu qərb türkcəsi adlandırırıq. X yüzillikdən etibarən müsəlman olmağa başlayan Seyhun boylarında yaşayan Oğuz türkləri Bağdad və çevrəsinin xilafət mərkəzi olmasının təsiriylə Maveraünnəhr, Xorasan və İrana doğru köç etməyə başladılar. Bu köçün İran dövlətinin mərkəzi avtoritetinin zəifləməsi ilə əlaqədar olduğunu da düşünmək mümkündür. Gələnlər 1040-cı ildəki Dandanakan müharibəsindən sonra İranda yerləşdilər. Azərbaycan və Anadoluya doğru davam edən yürüşlər 1071-ci ildəki Malazgirt müharibəsindən sonra, xüsusilə də XIII yüzillikdə Çingizin ortaya çıxması, onun və oğlanlarının Türküstanda qalmış olan bütün oğuz boylarını Azərbaycan və Anadoluya sürgün etməsi ilə bu bölgənin əbədi türk vətəninə çevrilməsinin əsaslarını qoydu. Bu köçlər üzündən Orta Asiyadakı türk yazı dilindən uzaq düşmüş türk boyları yeni ərazidə ilk dəfə ərəb və farsca yazmağa başladılar. Beləliklə də, bu bölgələrdə türkcə yalnız danışıq dili, ərəb və fars dilləri isə yazı dili kimi istifadə olunmağa başlandı. Zaman keçdikdə bu torpaqlarda da türkcənin ilk ədəbi nümunələri görünməyə başladı. Bunları qələmə alan yazarların Orta Asiyadakı yazı dili ilə əlaqələri yoxdur. Buna görə də bölgələrdə və aralarında işlətdikləri Oğuz danışıq ləhcəsini yazıda işlətməyə başladılar və bunu Şərq türkcəsi adlandırdılar. Bu yazı dilinin ilk nümunələri XIII əsrdə görünməyə başlandı və

XV-XVI əsrlərdə standart bir formaya düşdü. Orta Asiyada daha əvvəllərdən mövcud olan Şərq Türkcəsi və ya Cığatay dili adlanan yazı dilinin yanında artıq ikinci bir yazı dili, Qərb türkcəsi meydana çıxdı. (Ərcilasun 1993. 27). Qərb türkcəsinin iki qolundan biri olan Azəri türkcəsindən də İraq, Suriya və İranın bəzi əraziləri ilə Cənub Anadolu və Güney Qafqaz bölgələrində istifadə edilməyə başlandı. Bu bölgə coğrafi tərəfdən baxıldıqda türk dünyasının ortasında yer almaqdadır. Bu xüsusiyyətinə görə Qərb türkcəsinin ilk ədəbi nümunəsi də Azəri türkcəsi şəklində qələmə alınıb. Keçid nöqtəsi olması ilə əlaqədar olaraq Azəri türkcəsi həm Osmanlı, həm də Çığatay ədəbi dilinə bənzəyən xüsusiyyətləri özündə ehtiva etməkdədir. Hələ XVII əsrin əvvəllərində təzkirəsini qələmə alan Riyazi, Füzulinin dilini "Nəvai lisanına karib lisanı vardur" şəklində ifadə etmişdir. Buradakı "karib" kəlməsinə diqqətinizi çəkmək istəyirəm. Müəllif, Nəvai diliylə, yəni Cığatayca eynidir demir, yaxındır deyir. İnanıram ki, eyni illərdə Cığatay sahəsində bənzər bir şairlər təzkirəsi qələmə alınsaydı, o təzkirəni yazan da Füzulidən söz açarkən bu dəfə "rum şairleri lisanına karib lisanı vardur" deyəcəkdir. Beləcə, Azəri türkcəsinin bu xüsusiyyəti həm şərq, həm də qərb türkcəsindən istifadə edən insanlarla asanlıqla əlaqə qura bilmək imkanı yaratmışdır.

Şərq və Qərb türkcəsi eyni ədəbi dil olaraq inkişaf etmişdir. Bu ədəbi dildən istifadə edənlər müştərək bir mədəniyyətə mənsub olmalarına, üstəlik də istifadə etdikləri dilin eyni ana dilinin fərqli ləhcələri olduğuna görə, mədəni əlaqələr bu oxşar dünya arasındakı siyasi əlaqələrin fərqli, hətta dost olmayan dönəmlərində belə həmişə çox gözəl bir şəkildə davam etdirilmişdir.

Teymurlular dövründə və ondan sonrakı dövrlərdə dünyanın ən irəlidə gedən siyasi və mədəni mərkəzlərindən biri olan Herat (İ.A. 1993: 5/1) yetişdirdiyi alim, şair, yazar, xəttat, musiqişünas, mürəttib, mücəllid və miniatür ustaları ilə Anadolu və Azərbaycanda inkişaf etməkdə olan mədəni həyatı cana gətirən və stimullaşdıran qaynaqlardan olmuşdur. Bu məqamda xüsusilə Cami (1414-1493)

və Əlişir Nəvai (10 fevral 1441 – 3 mart 1501) iki dəyərli qələm sahibi kimi gözümüzün qarşısında canlanır[234].

Fateh Sultan Məhməd İstanbulu fəth etdikdən sonra buranı hər tərəfdən İslam dünyasının mərkəzi etmək məqsədilə bir çox sənətçini bu şəhərə dəvət etmişdir. Gələnlərin əksər hissəsi də Orta Asiya, İran və Azərbaycandan idi. **Əli Quşçu** (v. 1474) bunların ən öndə gedənlərindən biridir. Yeni gələnlər gəldikləri yerlərin üzdə olan sənət əsərlərini də özləriylə gətirirdilər. Bu fərqli əraziləri bir-biri ilə yaxınlaşdıran bir mədəniyyət elçisi olmaq vəzifəsini yerinə yetirirdilər. Məsələn, **Bəsiri** (v.1535) Nəvainin divanını Anadoluya ilk gətirən şəxsdir. (Lətifi 1314: 104)

Bu arada, xüsusilə başlanğıcda, elm və təhsil məqsədi ilə Türküstan və Azərbaycan bölgəsinə gedərək, həm buradan oraya, həm də oradan buraya mədəniyyət xəbərləri ötürənlər də yox deyildi. Ticarətin də bu münasibətlərin inkişafında rolunu unutmaq olmaz. Bu qarşılıqlı təsiri "Riyazi təzkirəsi"ndə belə bir nümunədə görmək mümkündür:

"Mervidir ki Sultan Hüseyn Baykara zemanında diyarı- Horasan menba-i ehali-i ehli irfan ve menşe-i ashab-i belağat ü beyan olub vezirleri olan Mir Ali Şir Nevai bir meclis-i hasül- hasda Darül-eyaletinün ülema vü şüarası bihterini her merzbum olan mülk-i Rumun ulema vü şuarasına galib olmasın iddia ider. Hazreti Mahdumı ol meclisde hazır bulunup tıynet-i Rumiyanda olan vüfur-ı ehliyyet ve kemal-i kabiliyyet dahi inkar olmaz buyururlar. Bu mukavele esnasında canib-i derden bir murakka-püş zahir olup guşe-i meclisde mütemessil olur. Ahvalınden sual olundukda Rumdan geldügi zuhur bulur. Şuara-yı Rumın nev- peyda eşarından istifsar iderler. Sahib – tercemenin (Ahmed Paşanın) bu bir kaç beytini okur.

Nazm:

Çin-i zülfin müşke benzetdüm hatasın bilmedüm
Key perişan söyledüm bu yüz karasın bilmedüm.

[234] Köprülü, 1980; Çavuşoğlu, 1976; İsen, 1997; Kurnaz, 1997.

Kad kiyamet gamze afet zülf-fitne hatt bela
Ah kim ben hüsninün bunca belasın bilmedüm

Hazret-i Mahdumi bu terane-i dil-keşi istima itdükde bi- ihtiyar ser-ağaz-ı raks ü sema idüp müddeamuz sabit oldu buyururlar" . (Riyazi 3724-166)

Bu köçlər üçün Osmanlı ölkəsinin bir cazibə mərkəzi olmasının, xüsusilə XVI yüzillikdən etibarən siyasi sabitlikdən məhrum Qafqazlar, Azərbaycan və Orta Asiyanın sənətçi baxımından aşağı səviyyədə olmasının da ciddi təsirləri vardır. İbn Sinanın dediyi kimi: elm və sənət himayə görmədiyi halda köç edər. Çünki bugünki formada bir yaradıcılıq sisteminin olmadığı orta çağda sənət və elm adamları ancaq sabitliyin və özlərini qoruyacaq hamilərin kölgəsində əsər yarada bilərdilər. Bu qanunauyğunluğu qınamağa dəyməz və buna bənzər vəziyyət Şərq və Qərb toplumlarında da eyni formada hökm sürürdü. Həm Orta Asiya, həm Azərbaycan bölgələrində Teymuroğulları və Ərdəbil xanlığının arasında gedən taxt-tac davaları, xüsusilə Ərdəbil idarəçiliyində ortaya çıxan təzyiqlər bir çox sənətçini yerindən-yurdundan etmişdir. (Kurnaz 1992: 16). Bu vəziyyətə Azərbaycanlı sənətçilər bir neçə cəhətdən tipik nümunədirlər. Yuxarıda toxunulan dil və ərazi baxımından bu ölkədə doğulan şair və yazarlar qeyri-stabillik hiss etdikləri və xüsusilə himayəsiz qaldıqları zaman ya Osmanlı, ya da Teymur sarayına gəlməkdən çəkinmədilər. Bunların ən diqqət çəkənlərindən biri olan Güney Azərbaycanda doğulmuş **Şah Qasım Ənvar** (1356-1434) Türküstana köç etmiş və burda həm böyük şair, həm də Əmir Teymurun nəvəsi Mirzə Uluğbəyin də bağlanmış olduğu böyük bir mürşid olaraq ad qazanmışdır. Bundan başqa dünya musiqi tarixinin dahi şəxsiyyəti **Əbdülqədir Marağı** də (1353-1435) həyatının ən mühüm illərini Heratda keçirmiş və orada da vəfat etmişdir. Amma bu iki dünya arasında bu mənada mühüm bir fərq vardır: Heratda Türk mərhələsi adlandırılan möhtəşəm intibah artıq sönməyə, İstanbulda isə yenicə parlamağa başlamışdı. Buna görədir ki, Osmanlı dövlətinin cazibəsi sənət adamları üçün də maraqlı olmuş və bu cazibəylə əlaqədar olaraq, böyük sayda şair

və sənətkar bu ölkəyə köç etmişdir. Bu məsələdə Yavuz Sultan Səlimin "Çaldıran" döyüşündən (1514) sonra çox sayda sənətkarı zorla İstanbula gətirməsinin də böyük rolu olmuşdur. Fateh Sultan Məhməd dövründən başlayaraq Qanuni Sultan Süleyman dövrünün sonuna qədər bu əlaqə dayanmadan davam etmişdir. Bu mövzuyla bağlı bir araşdırmaya görə Orta Asiyadan Osmanlı bölgəsinə gəlmiş 87 şair qaynaqlarda əks olunmuşdur. Biz yalnız diqqət çəkən adları göz önünə gətirdik, şübhəsiz ki, bu heç də gələnlərin hamısını əhatə etmir. (1997; 9-24 Gökmen 1997: 15)

İndi onlara qısaca nəzər salaq: **Nəsiminin** tarixi sənədlərlə təsdiqlənmədiyi, yalnız söz dünyasında bəhs edilən Ədirnəyə gəlişini bir tərəfə qoysaq, Anadoluya gələn Azəri şairlərindən öndə olanlarından biri İsfahanda doğulmuş olan **Həmididir**. Doğulduğu şəhərdə təhsilini tamamlayan şair, ölkənin içində düçar olduğu qarışıqlıq üzündən 30 illik bir müddətdə səyahətlər etdi və nəhayət Osmanlı ölkəsinə gəlib çıxdı. Mahmud Paşaya yazdığı bir qəsidə vasitəsilə Fateh ilə danışmaq imkanı əldə etdi. Padşahın müsahibi, nədimi və şair olaraq 20 il rahat ömür sürdü. Padşahın hüzurunda söylədiyi bir kəlmə söz üzündən gözdən düşdü. Bursadakı I.Murad türbəsi və imarətinə şeyx göndərildi. Həmidinin bundan sonrakı həyatı və ölümü haqqında məlumatımız yoxdur.

Həmidinin oğlu **Əbdulcəlil** (1487-1569) "Cəlili" təxəllüsüylə şeirlər yazırdı. "Şahnamə"nin tərcüməsi və "Gül-i Səd –bərg-i Bahar", "Pənc-Gənc", "Xosrov ü Şirin", "Leyla vü Məcnun" adlı əsərləri ilə bir Xəmsə yaratmışdır.

Həmidinin divanı və "Cam-i Sühan-güy" adlı fal-naməsi yaradıcılığının əsasını təşkil edir. (Ertalyan 1949; Kurnaz 1997: 141)

Doğum tarixi bilinməyən və Azərbaycan bölgəsindən gəlməsi güman edilən şairlərdən biri də **Kabulidir** (841/1437-39-883/1478,79). Şeirlərindən göründüyünə görə Şirvan, Bakı və Hələbdə olmuş, Fateh dövründə Osmanlı ölkəsinə gəlmişdir. 1479-cu ildə 41 yaşında vəfat etmişdir. Ədirnədə farsca, türkcə şeirlərindən ibarət və 1476-cı ildə Fatehə həsr olunmuş "Külliyyatı-divanı-Kabulı" adlı bir əsəri vardır. (Ertalyan 1944: 8; TDEA, 1982 v/66; Kurnaz 1997: 141)

II Bəyazid dövrlərinin sonlarında Əcəm diyarından Osmanlı ölkəsinə gələn şairlərdən biri olan **Həbibi** (1470-1520) Azərbaycanın Göyçay qəsəbəsində doğulub. Sultan Yaqub və Şah İsmayıl saraylarında yaşamışdır. Yavuz Sultan Səlim dövründə ölmüşdür. Sütlücədəki Cəfərabad təkkəsində basdırılmışdır. Həbibi öz dövrünün maraq doğuran şairlərindən olmuşdu (Körpülü 1925: 68; İpekten vd 1988: 166; Kurnaz 1997: 64).

Səffi-i Xətayi (v. 1530) Şah İsmayılın şahzadələrindən olub, Dərviş Mirzə Səffi- i adıyla tanınmışdır. Mövlanə divanı almağa gedib "Səmai-i Divanı" ilə Anadoluya gəldi və Mövləvi təriqətinə qoşularaq burada qaldı. Ölümündən sonra şeyxin ayaq tərəfində dəfn edildi. (İpekten vd. 1988:409; Kurnaz, 1997: 72).

Anadoluya gələn şairlərin önəmlilərindən biri olan **Bəsiri** (1467-1535) mənbələrə görə Əcəmdən və ya Əcəm vilayətlərindən gəlmiş bir şair olaraq təqdim edilmişdir. Burada əcəm kəlməsi üzərində bir qədər dayanmaq lazımdır. Bu gün dar anlamda İran, ya da iranlı mənasında işlətdiyimiz bu söz, tarixi keçmişimizdə ərəb olmayan bütün şərq xalqlarına şamil edilirdi. Osmanlı şairlər təzkirələrində isə bu ifadə qədim İran hökmdarlarının hökmranlığı altında olan müxtəlif qövm və topluluqlar mənasında işlədilirdi. Bu kəlmə bir etnik qurumdan çox, bir ərazini ifadə etmək baxımından işlədilirdi. Bu səbəbdəndir ki, əcəm kəlməsi ilə müraciət edilənlərin mühüm bir hissəsi türk əsilli, bir qismi də azərbaycanlı olmalıdır. Səffi-i Xətayi buna ən gözəl nümunədir. Bəsiri təhsilini Heratda almış, Hüseyn Baykara, Nəvai, Cami və Binayi kimi məşhur şəxslərin yanında təcrübə toplamışdır. Gəncliyində ağqoyunlu hökmdarı Uzun Həsənin oğlanları Uğurlu Məhməd (v. 1477) və Yaqub (v. 1490) bəyin yanında olmuş, onlara qəsidə həsr etmişdir. 1487-ci illərdə Herata gedərək Nəvai ilə görüşdü. 1490-cı ildə İstanbulda görünən çair bir mddət Ağqoyunlu hökmdarı Cöde Əhmədə müsahiblik etdi. Onun adından II Bəyazidə elçi olaraq İstanbula gəldi (1496-97) və təkrar geri dönmədi. 1535-ci ildə, yetmiş yaşında vəfat etdi. (Çavuşoğlu 1981: 319; İpekten vd 1988;68; Kurnaz 1997:73)

Lətifi, Nəvainin divanını Anadoluya ilk gətirənin Bəsiri olduğunu söyləmişdir. (Lətifi 1314:101) Bu mədəniyyət elçiliyinin əhəmiyyəti böyükdür. Bəsiri saraydan və dövrünün irəli gedən adamlarından

qayğı görmüşdür. Xüsusi təqaüd alırdı. Farsca divanı vardır. Türkcə divanı (Keşfüz-zünun 1971:780) günümüzə gəlib çatmamışdır. Məcmuələrdə bəzi şeirlərinə rast gəlinir.

Şahi Əcəm və ya **Şahi Şərqi** deyə tanınan və diqqət çəkən şair, İsmail Ərdəbilin müridlərindəndir. Yavuz Sultan Səlim dövründə Osmanlı ölkəsinə gəldi. Lətifi onun tərzində "mühtəri şairi sahir və xəyali hissə qadir" olduğunu söylərdi (Lətifi 1314:201). Dövrünün tanınmış şairlərindəndir. Nəvai tərzinə yaxın, xoşagələn şeirləri vardır. (İpekten vd. 1988:462; Kurnaz 1997:73).

Təbrizdə doğulmuş şairlərdən biri olan **Şah Qasım** Şeyx Mahduminin oğludur. Yavuz Sultan Səlim Təbrizə yetişdiyi zaman müəllimi Həlimi Çələbi ilə tanış olaraq İstanbula gəldi. Qanuni vaxtında da qayğı gördü. Bu dövrdə vəfat etdi (1542). Qanuni haqqında "Şəmailnamə" adlı bir əsəri və tamamlanmamış bir tarixi vardır. (Kurnaz 1997:86).

Şirvanda doğulmuş olan **Əflatun** Elkas Mirzənin katibi olaraq onunla birlikdə İstanbula gəlmiş və saray şahnaməçisi təyin edilmişdir. Farsca və türkcə şeirləri vardır. Farsca şeirlərində Əsiri, türkcə şeirlərində Xəqani təxəllüsündən istifadə etsə də, daha çox Əflatun adıyla tanınmışdır. Nəstəliq yazıda, təzhib və təsvirdə ustad idi. (İpekten vd 1988:108; Kurnaz 1997:90)

Əcəm dünyasından gəldiyi nəql edilən **Hafizin** əsl adı Hafizəddin Muhəmməd Əhməd b Adildir. Qafqazda Aran bölgəsində yerləşən Bərdə şəhərində doğulub. Şah İsmayılın yürüşündən sonra ölkəni tərk edib qardaşı Kukla Əcəm ilə birlikdə Osmanlı ölkəsinə gəlmiş, müdərrislik və hakimlik vəzifələrində çalışmışdır. Mərzifonda müdərrislik edərkən Amasyada qışlayan Qanun Sultan Süleymana qəzəl həsr etmiş və bundan sonra İstanbulda müdərrislik vəzifəsi almış, 60 axçalıq məvaciblə təmin olunmuşdur. Dövrünün öndə gedən elm adamlarındandır. Nəvai tərzinə yaxın, xoşa gələn şeirləri vardır. Əsərləri bunlardır: Şərafəddin Yəzdinin "Təvarixi Temur" adlı əsərinin tərcüməsi, Hz. Əli Mənaqibi, "Məariqül-kitaib", "Fihristül-Ülum", "İrcaül –İlm ila Noktətin Vahidetin", "Təfənnətül- Masdur".

(İpekten vd1988: 169, Kurnaz 1997:100 Akün 1997 XV/80)

Qədri təxəllüsündən istifadə edən Mir Qədri Şirvanda anadan olub. Müxtəlif yerləri gəzdikdən sonra İstanbula gəlmişdir. Sonra Hələbdə yerləşdi. Müammada (mənzum tapmaca) istedadlı idi. 1553-də sağ olduğu bildirilir. (İpekten vd 1988:239; Kurnaz 1997:107)

Şirvanda doğulmuş başqa bir şair **Nitqi Çələbidir**. Təhsilini başa vurduqdan sonra İstanbula gəldi. Dövrün tanınmış adamlarının, xüsusi ilə Sultan Muradın qayğısını gördü, onun məclislərində iştirak etdi. Fikrini qısa anlatmaqda mahir olduğu üçün Qissə-xan ləqəbini vermişdilər. Müamma söyləməkdə mahir idi (İpekten vd 1988:353; Kurnaz 1997:116).

Feyzi: Fəzlullah Sədrəddin- zadə və ya Qassam-zadə Feyzullah Feyzi Əfəndi b. Qəssam Məhəmməd Emin Əfəndi (1600-1656) Sədrəddin Şirvani soyundandır. İrana elçi olaraq gedən İncilli Çavuşla birlikdə İstanbula gəldi. Dərs almaqla bərabər müdərrislik etdi, hakim oldu. Üsküdarda öldü və atasının yanında dəfn edildi. (İpekten vd 1988:144; Kurnaz 1997:126).

Bu yazıda qələmə alınan iyirmi bir şair arasında çox tanınmış şairlər vardır, lakin heç şübhəsiz, ən çox diqqəti çəkən şair **Saib Təbrizidir** (1601-1676). Klassik ədəbiyyatdakı ən mühüm məktəblərdən biri olan "Səbk-i Hindi"(hind üslubu) tərzinin də ən önəmli təmsilçisi olan bu böyük şairin ləqəbi Əli bəy olub, Təbriz mirzələrindəndir. Atası tacir, əmisi Şəmsəddin Təbrizi (və ya Şəmsi-Sani) adıyla tanınan məşhur bir sənətçidir. I Şah Abbas İsfahanı paytaxt etdikdən sonra tanınmış alim və sənətçiləri öz ailələriylə birlikdə Təbrizdən köçürərək burda yerləşdirmişdir. Saib də gənc bir şair olaraq tanındığı vaxtlarda ailəsiylə birlikdə İsfahana köçməyə məcbur oldu. Burda dərslərini tamamladıqdan sonra həcc məqsədiylə ölkəsindən ayrıldı. Barəsində Şah Abbasa xoşa gəlməyən xəbərlər verildiyinə görə qayıtdıqdan sonra Herata və Kabula getdi (1625). Kabulda vali naibi olan və Əhsən təxəllüsü ilə şeirlər yazan Mirzə Əhsənullah Zəfər xanın qonağı oldu. Sonralar onunla birlikdə Hindistana Agradakı Cahan şahın yanına getdilər. Cahan şah Saibə

Müstaid xan adını və Nəzari mənsəbini verdi. 1632-ci ildə İsfahana qayıdan Saib II Şah Abbas zamanında (1642-1667) çox hörmət gördü. Ona Məlikü- Şüəra adı verildi. Lakin Süleyman şah dövründə (1667-1694) yazdığı bir qəsidə ilə gözdən düşdü. Saib ömrünün sonlarında Osmanlı ölkəsinə gəldi. Bir çox şəhərlərdə yaşadı. Sonra Konyaya gələrək Bustani-Əvvəldən xeyir dua alıb Mövləvi oldu. Daha sonra xəlifə olaraq məmləkəti Təbrizə dönmüş, burada bir təkkə açaraq ölümünə qədər sakit bir həyat yaşamışdır (1670-1671).

Saibin timsalında göründüyü kimi, Anadoludan kənardakı şairləri bir istiqamətə çəkən cazibə nöqtələrindən biri də mövləvilikdir. Türk ədəbiyyatında şairlərin ən çox yönəldikləri təriqət olan mövləvilik Osmanlı ölkəsi xaricindəki müsəlman sənətçilərini dərindən təsirləndirən bir sufi hərəkatı olaraq diqqət çəkir (İpekten vd 1988:415; Kurnaz 1997:129; Diriöz 1978:277). Saib farsca və türkcə şeirlər yazmışdır. Divanından başqa, "Qəndəhar-namə" və "Mahmudu Ayaz" adlı iki məsnəvisi ilə "Bəyaz" adlı bir antologiyası (müntəxəbat məcmuəsi) vardır.

Şirvanda və ya Rəvanda doğulan **İzzi**nin (v.1693) əsl adı Məhməddir. İstanbula gələrək dərs aldı. Bəzi dövlət adamlarına nadimlik və vəzirlərə katiblik etdi. Daha sonra məmləkətinə geri döndü. Farsca və türkcə şeirləri vardır. (İpekten vd 1988:236; Kurnaz 1997:38).

Təbrizdə anadan olmuş **Lüftinin** əsl adı Rahimə olub Dərviş Rahimə adı ilə tanınmışdır. Dərviş Aydının şagirdidir. Şeirləri qalmışdır. (İpekten vd 1988:269; Kurnaz 1997:138)

Şirvanda doğulan şairlərdən biri də **İzzəti**dir. İzzəti İstanbula gələrək bəzi dövlət adamlarına katib, nədim və müsahib oldu. Ömrünün sonlarına doğru məmləkətinə döndü. (İpəkten vd 1988:235; Kurnaz 1997-142)

Təbrizdə doğulan **Sai** (d. 1804) sonralar İstanbula gəlmişdir. İncəsənətdə, xüsusilə oyma sənətində çox bacarıqlı idi. Məhməd Əli Paşanın istəyi ilə Misirə gedib qayıtmış, Mətbəəyi-Amirədə ikinci müdir olaraq çalışmışdır. 1850-ci ildə sağ olduğu bildirilir (İpekten vd 1988:401; Kurnaz 1997:151).

Əsl adı Hüseyn olan **Səbür** (v.1805) Təbrizdə doğulub. Təhsil aldıqdan sonra İstanbula gəlib. Divan katibi olaraq burada çalışdı. Gözəl xəttat olmuşdur. Bir divan təşkil edəcək qədər şeiri vardır. (İpekten vd 1988:415; Kurnaz 1997: 129)

Təbrizdə anadan olan (1823-1853) və əsl adı Həsən olan **Məhvi** 1847-ci ildə İstanbula gəlmişdir. Farsca və türkcə şeirləri vardır. Təliq xəttində ustad idi. (İpekten vd 1988:273; Kurnaz 1997:154)

Şirvanda doğulmuş **Fatih** İstanbula gələrək Divani–Humayun katibi olmuşdur. Daha sonra Misirə getmişdir. 1834-cü ildə vəfat etmişdir. Misirdə dəfn olunub. (Kurnaz 1997:157)

Rəmzi Baba və ya Dərviş Rəmzi deyə tanınan **Təbrizli Rəmzi** məmləkətində bir az oxuduqdan sonra İstanbula gəlmişdir. 1889-da vəfat edərək Ədirnə Qapısı qəbiristanlığında dəfn edilmişdir. Rəmzi Baba irticalən şeir söyləməyin ustadı idi. Şeirlərini "Məcmuai-Əşar" (1306) "Ayinei- ibrət" və "Hadiqatül – Üşşaq" adlı əsərlərində toplamışdır. (Kurnaz 1997: 159)

Bəsirinin həyatı ilə bağlı bölmədə göstərildiyi kimi, bu adlara əslində qaynaqlarda "Əcəm", "Əcəmzadə" və ya "Əcəm diyarından gəlmişdir" deyə müraciət olunan şairləri də əlavə etmək səhv olmazdı. Ən azından mən bunların əksər hissəsinin Azərbaycanlı şairlər olduğunu düşünürəm. Bu üzdən onların adlarını çəkməyə ehtiyac hiss etdim: **Süruri, Valihi, Yari, Əmirək, Haşimi, Şəmsi, Xavəri, Firaqi, Fəna, Taib, Arif, Bəliği, Nadiri, Nisari, Sərfi, Səlim, Niyaz, Həlimi.** (İpekten vd 1988:461, 520, 535, 112, 191, 476, 195, 151, 499, 38, 312, 344, 428, 433; Kurnaz 1997: 16).

Osmanlı dövlətinə gəlib burada onlar üçün yaranmış imkanlardan istifadə edərək rahatca öz sənətlərini davam etdirən bu adların yanında öz adlarını görmək istəyən və bu istəklərinə çata bilməyənlər də az deyildir. Bunların ən şöhrətlisi isə türk dünyasının diqqətini özündə cəmləmiş şair Füzulidir. Qanuni Sultan Süleymanın oğlu Şahzadə Bəyazidə yazdığı məktubunda şöhrətli şair, imkan olsa Osmanlı ölkəsinə gəlmək istədiyini bildirirdi (Mazıoğlu, 1948:140). Təbii ki, bunların yanında hakimiyyətin gətirmək istəməyinə baxmayaraq, gətirilməyən Molla Cami kimi şairlər də vardır.

Şərq və Qərb türkcəsi arasında mədəni mübadilələr, həm bu iki ləhcəni bir-birinə yaxınlaşdıran, həm də aralarına qoyulan qadağalara əngəl olan bu qəhrəmanların rolunu xüsusi qeyd etmək lazımdır. Bir qismi məcburi olaraq doğulduqları torpaqları tərk edərək başqa yerlərdə yaşamaq məcburiyyətində qalsalar da, onlar mədəniyyət tariximiz üçün son dərəcə xeyirli xidmətlər göstərmiş, mədəniyyət mozaikamızı müxtəlif rənglərlə zənginləşdirmişlər.

**(Yazı TADİV, s 1.il:1. İyul 1988-də dərc olunub).*

İstifadə olunan ədəbiyyat:

Akün Ömər Faruk "Hafiz-i Ecem" TDVİA C.XV İstanbul".

Çavuşoğlu Mehmət (1976) "Kanuni Devri Sonuna Kadar Anadoluda Nevai Tesiri Üzerine Notlar" Atsız Armağanı , İstanbul.

Çavuşoğlu Mehmet (1981), "Basiri" Kiçik Türk İslam Ensiklopediyası

Fasikül:4 İstanbul.

Diriöz Meserret (1977-78) "Saibin Türkce Şiirleri". Türk Kulturu Araşdırma ları XVI/1 Ankara.

Ərcilasun Əhməd (1993) "Türk Dünyası Üzerine Makaleler"Ankara.

Ertan Gökmən (1977) "Yavuz Sultan Selimin İrandan ve Misirden Getirdigi Sanatkarlar" Türk Kültürü 407, 15-23.

Ertalyan İsmayıll Hikmət(1949) "Külliyatı Divanı Mevlana Hamidi" İstanbul.

Ertalyan İsmayıl Hikmət (1948) "Külliyat-ı Divan-ı Kabulı", İstanbul.

İekten Haluq, Mustafa İsen vd (1988) "Tezkirelere Göre Divan Edebiyatı İsimler Sözlügü" Ankara.

İsen Mustafa (1997) "Yürü Var Gel Araptan Ya Acemden"

Ötelerdən bir ses. Ankara.
Togan Zəki Velidi (1993) “Herat” İslam Ensiklopediyası C.5/1 İstanbul.
Katib Çələbi (1971) “Keşfuz - zünun” İstanbul.
Körpülü Fuad (125) “Azeri Edebiyyatına Ait Notlar: Hasanoğlu ve Habibi” Ədəbiyyat Fakultəsi Məcmuəsi C.IV.
Körpülü Fuad (1980) “Türk Edebiyatı Tarihi”. İstanbul.
Kurnaz Camal (1997), “Anadoluda Orta Asyalı Divan Şairleri” Ankara.
Lətifi (1314) ”Tezkiretüş- şuara İstanbul”.
Mazıoğlu Həsibə (1948), “Fizulinin Bir Mektubu” DTCF jurnalı C.IV Ankara.
“Riyazi Tezkiresi” Nurosmaniye Ktp nu: 3724.
TDEA (Türk Dili ve Edebiyatı Ansiklopedisi), C.V.

ANKARALI DİVAN ŞAİRLƏRİ*

Məndən öncə yazmış olan qələm yoldaşlarımın da müxtəlif nöqtələrdən dəyərləndirdikləri kimi, Ankara Anadolunun ən qədim mərkəzlərindən biridir. Şəhər bu torpaqlarda bir-birini izləyən mədəni sivilizasiyanın mühüm mərkəzlərindən biri olduğu üçün, ədəbiyyat tarixində də özünə xüsusi yer qazanıb. Bilindiyi kimi İslami dəyərlər çərçivəsində cami, mədrəsə və təkkələr mədəni həyatın bünövrəsini təşkil edirlər. Ankara türk mərkəzinə çevrildikdən sonra bu tərzdə olan qurumlarla əhatə olunmuşdur. Bu fəaliyyət də qısa müddət ərzində öz təsirini göstərmiş, Ankara təsəvvüf və ədəbiyyat tarixinin qədim təmsilçilərindən biri olmuşdur. Ankaranın mədəniyyət tarixinin memarı olan **Hacı Bayram Vəli** bu torpaqlarda dilimizin ilk səs bayrağı olaraq dalğalanmağa başlamışdır.

Əsl adı Numan olan Hacı Bayram Vəli Ankaranın Solfasol (Zilfadl) kəndində doğulub. Şeyx Həmid Vəli ilə ilk dəfə görüşməsi bir bayram gününə təsadüf etdiyi üçün ona Bayram deyə müraciət edilmiş, sonra da bu adla tanınmışdır. Hacı Bayram ciddi bir mədrəsə təhsilindən sonra Ankarada müdərrisliyə başlamış, daha sonra da təsəvvüfə maraq göstərərək Sonuncu Baba adıyla tanınan Şeyx Həmid Vəliyə bağlanmışdır. Şeyx ilə birlikdə müxtəlif yerləri dolaşdıqdan sonra Ağsaraya yerləşmiş, onun ölümündən sonra isə Ankaraya dönərək Xəlvətiyə və Nəqşbəndiyyə təriqətlərinin birləşməsindən ibarət olan Bayramiyə təriqətini qurmuşdur.1430-cu ildə vəfat edərək bugünkü türbəsinin yerləşdiyi yerdə dəfn edilmişdir. Anadoludakı milli ədəbiyyatın və təsəvvüf həyatının inkişaf edib yayılmasında böyük rolu olan Hacı Bayram, başda Ağşəmsəddin olmaqla Əşrəfoğlu Rumi, Dədə Ömər Sikkini, Akbıyıq, Qızılca Bədrəddin kimi təsəvvüf tarixinin tanınmış adlarını yetişdirmişdir. Onun bu gün əlimizdə az sayda şeirləri vardır. Şübhəsiz ki, bizə gəlib çatanlar bunlardır. Zaman keçdikcə bunların artacağını da güman edirik.

XV əsr qaynaqlarında başqa Ankaralı şairə rast gəlinmir. XVI yüzillikdə Osmanlı dövlətinin inkişafı ilə paralel olaraq türk ədəbiyyatında da böyük inkişaf baş vermişdir. Bu yüzillikdə Ankarada doğulmuş dörd şairlə rastlaşırıq. XVII yüzillikdə isə dövlətin siyasi sahədəki uyğunsuzluğuna baxmayaraq, türk ədəbiyyatı öz yüksəlişini davam etdirmişdir. Bu mənzərənin Ankara üçün də eyni olduğunu söyləyə bilrək. Bu yüzillikdə Ankaradan olan beş şairin adı daha çox diqqəti çəkir. XVIII yüzildə Osmanlı dövlətində bütün sahələrdə geriləmə dövrüdür. Bu üzdəndir ki, XVIII əsrdə Ankarada doğulmuş cəmi bir şairin adı çəkilir. XIX əsrdə Ankaralı dörd şairə təsadüf edilir. Mənim araşdırmam klassik ədəbiyyat yaradıcılığıyla bağlı olduğu üçün, tənzimat ədəbiyyatının təmsilçiləri bu yazıdan kənarda qalıblar.

Ankara ümumilikdə yetişdirdiyi bu on altı şairlə Osmanlı ərazisində özünə layiqli bir yer tutmuşdur.[235]

Bu rəqəmlərlə Ankara Osmanlı dövləti dövründə özünün mühüm mədəniyyət mərkəzi olduğunu asanlıqla ortaya qoya bilir. Adları çəkilən bu şairlərin bir qismi Ankaranın qəzalarında, xüsusilə Ayaşda doğulmuşdur. Bunlar da tədqiqatçılar tərəfindən Ankaralı olaraq qeyd ediliblər. Bu şairlərin həyatlarındakı xarakterik detallara nəzər salaq. Şübhəsiz, bunların içində tanınmış, özünü təsdiq edərək şöhrət qazanmış adlar olduğu kimi, adi adlar da vardır. Şairləri əlifba sırası ilə təqdim edirik:

ƏVDİ. Əsl adı Lütfullahdır. Bəyzadə Dərviş Lütfullah adıyla tanınan bu şair, Bektaşi təriqətinə aiddir. Ömrünü uzun səyahətlərdə keçirmişdir. Mənbələr Əcəm və Hindi dolaşdıqdan sonra Kırım xanı Bahadır Gırayın nədimi olduğunu, 1646-cı ildə Kırımda vəfat etdiyini bildirirlər.

Dəmi. Həyatı haqqında məlumatlar çox məhduddur. XVII əsrin ikinci yarısında yaşadığı xəbər verilir. Kafzadə Faizi Ankaralı olduğunu söyləyərək bir beytini nümunə kimi göstərir. S.Müzhət Ergün, Dəmi adı altında yazılmış bəzi məcmuələrdə şeirlər tapmışdır. Ancaq bunun bizim şairimizə aid olub olmaması aydın deyil.

[235] Şairlərin şəhərlərə görə bölünməsi ilə əlaqədar olaraq kitabdakı "Osmanlı Kültür Coğrafyasına Bakışlar" adlı məqaləmizin 171-178. səhifələrinə baxın.

ƏSƏD MUXLİS PAŞA. Dövlət adamı və şair Əsəd Paşa Ayaşlı olub, Ayaş müftisi Həsən Əfəndinin oğludur. İlk təhsilini Ayaşda almış və müxtəlif məmur idarələrində çalışdıqdan sonra vəzir rütbəsi ilə Ədirnə valiliyinə təyin edilmişdir. Daha sonra vali olaraq Ərzurum, Hələb, Dimetoka, Adana, Konya və Diyarbəkirdə çalışmışdır. Son iş yeri olan Diyarbəkirdə vəfat etmişdir (1851)

Xalq arasında Ayaşlı Müftizadə ləqəbiylə tanınırdı. Əsəd Müxlis Paşa dövlət adamları içərisində XIX əsrin üzdə olan şairlərindən biri hesab olunurdu. Şeirləri divan şəklində nəşr olunmuşdur. (İstanbul 1852)

FEYZİ. Bu şair də Ankaralı şairlər içində aydın bir mərtəbəyə çatmış xüsusi yeri olan adlardandır. Əsl adı Emin olub, Vəliyüddin Rüşdi Əfəndinin oğludur. Təhsilini tamamladıqdan sonra müxtəlif təşkilatlarda katiblik etdi.

Həyatı haqında məlumat o qədər də deyil. Bahriyyə məclisi katibi işləyən zaman 1807-ci ildə vəfat etmişdir.

HATİFİ. Əsl adı Ədürrəhmandır. Mədrəsədə və Malul- Əmir Əfəndidən dərs alıb. Müxtəlif yerlərdə hakimlik edib. 1562-ci ildə ölüb. Dövrünün mənbələrində şeirlərindən çevrilmiş nümunələrə rast gəlinir.

KƏNZİ. Əsl adı Həsən olan Kənzi də Ayaşda doğulub. Məmləkətində bir müddət təhsil aldıqdan sonra İstanbula gəlmiş, təsəvvüfə maraq duyaraq Koca Mustafa Paşa Sünbüliyyə dərgahı Şeyxi Ələddin Əfəndiyə qoşulmuşdur. İrşad vəzifəsi ilə Manisaya getmiş və həyatının bundan sonrakı hissəsini burada keçirmiş və burada vəfat etmişdir. (1715) Kənzi mütəsəvvüf, şair və bəstəkar olaraq dövründə böyük şöhrət qazanmışdır. Notlar, ilahilər bəstələmiş, musiqi nəzəriyyəsi ilə bağlı kitablar qələmə almışdır. Təsəvvüfi şeirləri saf və səmimi bir ruhun ehtizazlarının ifadəsidir.

MEYLİ. Əsl adı Zəkəriyyə olub, sayılıb-seçilən Osmanlı şeyxülislamlarından biridir. 1514-cü ildə bu şəhərdə doğulub və Bayram Əfəndinin oğludur. İlk təhsilini Ankarada almış, daha sonra İstanbula gedərək Ərəbzadə və Məlul Əmir əfəndilərdən dərs almış və təhsilini tamamlayaraq müdərris təyin edilmişdir. Bursadakı Həmzə bəy mədrəsəsində işləmiş, padşah Sultan Süleymanla birlikdə ordu

hakimi olaraq İran səfərində olmuşdur. Bursa, Ədirnə, İstanbul kimi dövlətin əsas şəhərlərində müdərrislik və hakimlik etmişdir. 1851-ci ildə Anadolu qaziəsgəri oldu. 1583-də tərxis edildi. Bostanzadə Məhməd Əfəndinin yerinə şeyxülislam təyin edildi (1592). Bir il iki ay iki gün Məşhəddə qaldı. Sultan Səlim vaxtında tikdirdiyi Darül-Hadisin yanında dəfn edilmişdir.

ZƏKƏRİYYƏ ƏFƏNDİ. Böyük alim olmasıyla bərabər, böyük bir şair kimi də tanınmışdır. Şeirdə Meyli təxəllüsündən istifadə edirdi. Ərəbcə, farsca, türkcə şeirlər yazmış və bir divan tərtib etmişdir.

MƏYYAL. Ankarada doğulub, əsl adı Məhəmməddir. Atası, dövrünün savadlı adamlarından olub. Təhsilini tamamladıqdan sonra təsəvvüfə maraq göstərib, mövləviliyə qatılmışdır. Məsnəvi şairi Rüsuxi Dədənin, daha sonra da Adəm Dədənin xidmətində olub. İstanbulda vəfat edib (1669) və Galata Mövləvixanəsi bağçasında dəfn edilib. Şair türkcə yazdığı şeirlərində Şəhla təxəllüsündən istifadə etmişdir. Əlimizdə ancaq farsca yazılmış bir qəzəli vardır.

PƏRTÖV. Əsl adı Mustafadır. Şair Sədullah Əfəndinin oğludur. Təhsilini tamamladıqdan sonra hakimlik etdi. 1835-də Ankarada hakimlik vəzifəsinə təyin edildi. Abdulməcid dövrünün (1839-1861) sonlarında vəfat etmişdir.

RÜSUXİ İSMAİL ANKARAVİ. Mütəsəvvüf, məsnəvi şairi olan Rüsuxi Ankarada doğulmuş və təhsilinə bu şəhərdə başlamışdır. Ərəbcə və farscayla birlikdə dövrünün əsas ehtiyac duyulan elmlərini də öyrənmişdir. Bu arada təsəvvüfə maraq göstərərək, Bayrami təriqətinə daxil olmuşdur. Təhsilini tamamlayaraq şeyxlik icazəsini aldı. Mənbələrdə xələfindən bəhrələndiyi qeyd olunub. Bir müddət gözlərini müalicə etdirmək üçün Konyaya getdi. Burada Mövləvi şeyxi Bostan Dədə ilə tanış oldu və onun dəlaləti ilə Mövləviliyə bağlandı. Çiləsini tamamladıqdan sona İstanbula gəlib, Galata Mövləviyyəxanəsinin şeyxi oldu (1610) 1631-ci ildə vəfat etmişdir. Təsəvvüf tarixi və bütün tarixi sahələrdə də şöhrətli bir şəxs olmaqla bərabər, İsmail Ankarəvi əsl məsnəvi şərhçisi kimi tanınmışdır. Bu sahədə göstərdiyi böyük bacarığına görə, "Həzrəti-şərhi" ləqəbini qazanmışdır. Məsnəvini vəhdəti- vücud baxış bucağıyla şərh etmişdir. Bu üzdən əsəri ən yaxşı məsnəvi şərhi olaraq qəbul edilmişdir.

Rüsuxi kəlməsi əbcəd hesabıyla Galata Mövləviyyəxanəsinin qurulması tarixinə uyğun gəldiyi üçün, şair tərəfindən təxəllüs olaraq götürülmüşdür. Mənbələrə görə bir divan tərtib edəcək qədər şeiri var. Lakin bu məlumat olaraq qalmış, şeirləri gəlib bizə çatmamışdır. Məsnəvi şərhlərindən başqa "Minhacül-füqəra", "Hisab-i Mevləvi", "Zübdətül-füsus", "İzahül- hikəm", "Hədis-i ərbəin şərhi", "Cinahül-ərvah" əsas əsərləridir.

SƏDULLAH ƏFƏNDİ. Ankaralı şair və musiqişünaslardan biri də Sədullah Əfəndidir. Ankarada klassik mədəniyyətin banisi sayılan Hacı Bayram Vəlinin nəslindən olan şair Müdərriszadə Əbdulkərim Əfəndinin oğludur. Astronomiyanı öyrənmişdi. Şairliyi ilə yanaşı ustad musiqiçi kimi də tanınırdı. Divanı vardır.

SƏDULLAH PAŞA. Şair və siyasət adamı olan Sədullah Rami Paşa XIX əsr şairlərinin içində adı çəkilən Əsəd Müxlis Paşanın oğludur. Atasının vali işlədiyi Ərzurumda anadan olmuş (1838), təhsilini İstanbulda tamamlamışdır. Xüsusi seçilmiş bilikli müəllimlərinin sayəsində şərq və qərb dünyasına aid zəngin bir mədəniyyət xəzinəsinə sahib olmuşdur. Həmişə mühüm vəzifələrdə çalışmış, nazir işləmişdir. V. Muradın taxta çıxmasından sonra Mabeyn Baş katibi olmuşdur. Berlin və Vyanada səfir işləmişdir. Avropada intihar etmişdir (1891). Cənazəsi İstanbula gətirilərək Sultan Mahmud türbəsində dəfn edilmişdir. Sədullah Paşa Tənzimat dövrünün tanınmış ədiblərindən biridir. Şeir yazmaqla bərabər, həm də dövrünün tanınmış nəsr ustalarından biri idi. "XIX əsr" adlı şeiri yeni insan düşüncəsinin, həyata və insana yeni baxış formasının ən gözəl nümunəsidir.

Sədullah Paşa, Tovfiq Fikrət və Bəşir Fuadda əks olunan pozitiv formanın ölkəmizdə ilk təmsilçisi olmuşdur.

SÜHEYLİ. Ankarada doğulub. Əsl adı Mustafadır. Təhsilini başa vurduqdan sonra müdərrislik etdi. İstanbulda vəfat etmişdir. Ölüm tarixi mənbələrdə 1599 və 1602 olaraq göstərilmişdir.

TƏLƏTİ. Tələtinin əsl adı Hüseyndir. Təhsilini İstanbulda başa vurmuş və Bostanzadə Əfəndiyə mülazim olmuşdur. Həyatının bundan sonrasını hakimlik edərək keçirmiş, 1665-ci ildə vəfat etmişdir.

VƏLİ. Vəlinin əsl adı Əbdurrahman olub, Nəfəszadə ləqəbiylə tanınmışdır. Bir imamın oğludur və təhsilini başa vurduqdan sonra Minkarizadə Yəhya Əfəndiyə mülazim olmuşdur. Müxtəlif şəhərlərdə müdərris və hakim olaraq işlədikdən sonra, Anadolu Qaziəsgərliyi vəzifəsinə təyin edilmişdir. 1696-cı ildə ölmüşdür.

Xatırladım ki, türk şairi olmamasına baxmayaraq, Ankaralı şairlərdən söz açdıqda insanın ağlına gələn adlardan biri də İmrül - Qeys adıdır. Bu şöhrətli ərəb şairi də Ankara torpağının altında uyumaqdadır.

*(*Yazı "Yedi iklim" İstanbul 1994 s.56 s.72-75-də dərc olunub).*

İstifadə olunan ədəbiyyat:

"Tezkirelere Göre Divan Edebiyatı İsimler Sözlügü" Ankara 1988.

"İslam, Türk Diyanet Vakfi İslam Ansiklopedileri" ile "Türk Dili ve Edebiyatı Ansiklopedisi"nin əlaqədar maddələri.

TOKATIN OSMANLI MƏDƏNİYYƏTİNDƏ YERİ VƏ TOKATLı ŞAİRLƏR*

Hər mədəniyyətin fərqli bir şəhər anlayışı vardır. Bu yalnız üslub baxımından deyil, həyat tərzi baxımından da gözə çarpan bir faktdır. Hətta eyni şəhər bir neçə mədəniyyət növünün beşiyi olmuşsa da, bu qolları ayıran zaman hər birində bir fərqli şəhər mədəniyyəti meydana çıxır. Bu hal yalnız mədəniyyət sahəsində deyil, siyasət sahəsində də müşahidə olunmaqdadır. Mənsub olduqları fərqli mədəniyyətlərin tələb etdiyi şəkildə dəyişilərək inkişaf edən şəhərlər, bu mədəniyyət sahələrinin ehtiyac və tələblərinin azalması ilə də sıradan biri olan şəhərə çevrilir. Tokat şəhəri, xüsusilə bu son vəziyyəti özündə əks etdirən şəhərlərdən biridi. Danışməntlilər, Səlcuklular, Hakim Bürhanəddin zamanında və Osmanlıların ilk illərində olduqca önəmli mərkəzlərdən biri olan şəhər, sonralar bu əhəmiyyətli yerini itirmişdir.

Osmanlı dövlətinin ilk illərindən əmirliklə idarə olunan Tokat, II Murad dövründə bəylərbəylik, sonralar sancaq bəyliyi, 1538-ci ildə voyvodalıq oldu.

1617-ci ildə Validə Sultana aid mülk, 1863 ildə Sivasa bağlı əvvəl bucaq, sonra ayrıca vilayət olan Tokat, 1880-ci ildə mutasarriflik (sancaqla vilayət arasında olan idarəçilik) vəziyyətinə düşdü.

Tokatın siyasi baxımdan yüksəliş və enməsini eyni şəkildə mədəni həyatında da müşahidə etmək olar.

Yetişdirmiş olduğu on dörd şairlə Osmanlı mədəniyyətində tutduğu yerə görə iyirmi doqquzuncu sırada yer alan Tokat bu əlverişli yerinə İznik və İsparta kimi qədim bir mədəniyyət şəhərlərindən biri olmasına borcludur. Şəhərin yetişdirmiş olduğu bu on dörd şairdən yeddisi XVI yüzillikdən əvvəlki illərə təsadüf edir. Buna görə də XVI yüzilliyə qədərki dövr üçün tərtib edilən sıralamada Tokatın yeri birdən-birə on ikinci yerə qalxır. Bu yüksəlişin əsasında isə şəhərin XVI yüzillikdən əvvəlki dövrlərdə malik olduğu əlverişli mövqeyinin durması təbiidir.

Osmanlı dövlətinin inkişaf edən elm və mədəniyyət sahəsinə, nəzər salarkən dövrün idarəetmə sistemiylə birlikdə, genişlənib böyüyən ocaqlarından olan mədrəsələrə də xüsusi yer vermək gərəkdir.

Fatehin İstanbulu bütün sahələr üzrə islam dünyasının mərkəzinə çevirmək məqsədilə bu şəhərdə tikdirdiyi böyük mədrəsə və onun ardınca müxtəlif padşahların burada inşa etdirdikləri irili-xırdalı çoxsaylı mədrəsələr, mədəniyyətin əsas nüvəsi olan əhəmiyyətli nöqtələri kiçik və dağınıq şəhərlərdən birbaşa mərkəzə daşıdı. Buna baxmayaraq Diyarbəkir, Bağdad, Bursa, Ədirnə, Qahirə, Ərzurum, Selanik, Saraybosna kimi şəhərlərlə birlikdə Şahzadə sancağı olan Kütahya, Manisa, Amasya və Trabzon kimi şəhərlər də müəyyən vaxtlara qədər öz mövqelərini qoruyub saxlaya bildilər. Əbdürrəhman Hıbrının "Ənisül müsamir"i, Əhdinin "Gülşəni-şüəra"sı, Akifin "Mirati- şiri", Əli Mustafanın "Künhül-əxbar"ı, Arif Hikmətin təzkirəsi, Asimin "Zeyli-zübdətül-əşar"ı, Aşıq Çələbinin "Məşairüş-şüəra"sı, Bəliğ İsmailin "Nuxbətül-əsər"i və "Güldəsteyi-Riyazi- İrfan"ı, Bəyani təzkirəsi, Əsrar Dədənin "Təzkireyi- şüərayı-mevləviyyə"si, Faizinin "Zibdətül-əşar"ı, Fatinin "Xatimətül-əşar"ı, Güftinin "Təşrifətüs-şüəra"sı, Həsən Çələbinin təzkirəsi, Lətifi təzkirəsi, Mücibin təzkirəsi, Səfayı təzkirəsi, Səlim təzkirəsi, Səhinin "Həşt-behişt"i, Şəfqətin təzkirəsi və Yümninin təzkirəsindən ibarət olan 27 əsər, başqa sözlə desək, Anadolu mühiti türk ədəbiyyatında ilk yazılan Səhinin "Həşt-behişt" təzkirəsindən klassik təzkirə növünün son nümunəsi hesab olunan Fatinə qədər olan əsərlərin hamısı gözdən keçirilərkən gəldiyimiz nəticələrə görə türk ədəbiyyatına dair şair yetişdirən mərkəzlər aşağıdakı şəkildə sıralanır:

1 – İstanbul : 609
2 – Bursa : 156 (16 yy – 40)
3 – Ədirnə : 150 (16 yy - 50)
4 – Konya : 69
5 – Diyarbəkir : 40 (16 yy - 1)
6 – Kastamonu : 36 (16 yy - 23)
7 – Bağdad : 35 (16 yy - 2)
8 – Gelibolu : 30 (16 yy - 11)

9 – Kütahya : 24 (16 yy - 1)
10 – Bosniya : 26 (16 yy -)
11 – Antep : 26 (16 yy - 1)
12 – Buxara : 26
13 – Sərəz : 21 (16 yy - 10)
14 – Manisa : 20 (16 yy - 2)
15 – Vardar Yenicəsi : 20 (16 yy - 10)
16 – Bolu : 19 (16 yy - 3)
17 – İsparta : 19 (16 yy - 2)
18 – Üsküp : 18 (16 yy - 15)
19 – Amasya : 17 (16 yy - 10)
20 – Aydın : 17 (16 yy - 7)
21 – Manastır : 17 (16 yy - 6)
22 – Rumeli : 17 (16 yy -)
23 – Ərzurum : 16
24 – Filibə : 16 (16 yy - 11)
25 – Selanik : 16 (16 yy - 11)
26 – Sofya : 16 (16 yy - 3)
27 – Ankara : 16 (16 yy -)
28 – Trabzon : 15 (16 yy - 6)
29 – Tokat : 14 (16 yy - 5)
30 – Belqrad : 11 (16 yy - 5)
31 – İznik : 11 (16 yy - 10)
32 – Kayseri : 11 (16 yy - 1)

Başqa şəhərlərin üstündən keçməklə Tokatın ədəbiyyat tarixi üzərində dayanaraq bəzi araşdırmalar aparaq. Qeyd edim ki, araşdırmanın mövzusu divan şairləriylə bağlı olacaqdır. Göründüyü kimi yetişdirdiyi şair sayına görə Tokat, Türkiyənin bir çox önəmli mərkəzlərindən irəlidədir. Yaxın çevrədən yalnız Amasya ondan irəlidədir, qalan başqa şəhərlər ondan xeyli geridədir. Təzkirəçilərin Tokatlı olaraq göstərdiyi ilk şair **Məlihidir**. Təzkirələrə daxil olan Tokatlı şairlərin ən məşhuru və bacarıqlısı olan Məlihinin həyatının əsas epizodları bunlardır: XV əsr şairlərindəndir. Tokatda anadan olub. Təhsilini burada başlayıb İranda tamamlamışdır. İstanbula qayıtmış və gözəl nitqi sayəsində Fatihə müsahib olmuşdur. Padşah

onsuz keçən söhbətini düzsuz yeyilən yeməyə bənzədirdi, hər an yanında olmasını istəyərdi. Fəqət onun meyxanalarda şərab içməsi padşahın ləzzətli yeməyinin dadını qaçırdığı üçün yüksələ bilmədi. Ədəbiyyatımızda çox tanınan və Fateh Sultan Məhmət tərəfindən nəzirə yazılan "Gönül" rədifli mürəbbə Məlihinindir.

Məlihinin müasiri olan başqa bir Tokatlı şair isə **Ləalıdır**. Ədəbiyyatda şeirlərindən daha çox macəralı həyatı ilə məşhur olan Ləalı Tokatda doğulub, ancaq şair tokatlı olmağının ona xeyir gətirmədiyini anlamış və İrana getmiş, orada bir müddət qaldıqdan sonra əcəmiləşmiş şəkildə İstanbula qayıdır. Osmanlı ağsaqqallarına Molla Caminin və başqa ulların salamlarını yetirməyi də unutmur. Şeirləriylə və yaddaşında yığdığı yüzlərlə hekayə, beyt və lətifəylə diqqət çəkmiş və padşahın məclisinə qatılacaq qədər hörmət qazanmışdır. Hətta padşah yeddiqüllə yaxınlığından Kılıç Baba təkkəsisini də ona bağışlamışdır. Eləcə də, Əcəmlərə göstərilən hörmət və ənamlardan da yararlanaraq əməlli başlı zəngin olmuşdur. Amma bu qismət uzun sürmür və onun əcəm olmadığı məlum olur. Cəza olaraq təkkə də daxil olmaqla, əlindəkilər alınır və padşahın məclisindən də uzaqlaşdırılır. Bununla əlaqədar şair Mesihinin:

"Mesihi gökten insen sana yer yok
Yürü var gel Arabdan, ya acemden"

-beytilə dilə gətirdiyi şikayətləri Ləalı bu şəkildə genişləndirərək qələmə alır:

Olmak istesen itibara mahal
Ya Arabdan yahud Acemden gel

Gevhere kiymet olmaya kanda
Dür bahasın bula mı ummanda

Nafe ger etmeyeydi terki diyar
Olmaz idi cihanda kiymetdar

Söylenir nükte vü meseldür bu
Kola daim çıraq gibi karanu

Eger ademde marifetse murad
Ne fazilet verirmiş ana bilad

Taşdan sadır oldu gerçi güher
Hardan çıkmadı mı ya gül-i ter

Rumda kellelenmesin mi Acem
Buldu bu izzeti ile çün ekrem

Acemin her biri ki, Ruma gelir
Ya vezaret ya sancak ona gelir

Gitdi bu illet ile kadr-i-kemal
Oldu arada marifet pamal

Kanı merdüm-şinas ehl-i nazar
Zat-ı insanda fehm ide gevher

Məlihi və Ləalıyla müasir olan və şəxsiyyətinə görə daha maraqlı olan başqa bir şair və alim isə **Lütfidir**. Tənqidə və satiraya çox meyl edən adam olduğuna görə "Dəli Lütfi" ləqəbiylə tanınan şair Sinan Paşa və Əli Quşçunun şagirdi olmuşdur. Fatehin xüsusi kitabxanaçılığına gətirildi. Müdərrislik etdi. Açıq və satirik fikirlərinə görə edam edilmişdir. Ərəbcə və türkcə yazdığı şeirləri öz şəxsiyyətini əks etdirir.

Şəhidi bir qədər sonra söz açacağımız Valihi ilə birlikdə Yavuz Sultan Səlim dövrünün şairlərindəndir. Onunla birlikdə İstanbula gəlmişdir. Farsca və türkcə şeirləri vardır.

Valihinin Əcəmzadə ləqəbiylə xatırlanmasında ailəsinin İrandan gəlmiş olması aydın olur. Tokatda doğulmuş olan şairin yaşadığı dönəm də Yavuz Sultan Səlim dövrüdür. Nəcati məktəbi olaraq adlandıra biləcəyimiz cığırın və Nəcati heyranlarının öndə

gedənlərindən biri olan şair dükan və bazarda onun şeirlərini ucadan oxuyurmuş. Yazdıqlarının çoxu da Nəcatiyə yazdığı nəzirələrdir.

XVI əsrin başqa bir ustad şairi isə **Zaridir**. Şair təhsilini tamamladıqdan sonra dövrünün öndə gedən alimi Samsunzadəyə danişmənd olmuşdur. Xətti gözəl olduğu üçün Qanuni Sultan Süleyman oğlu Şahzadə Mustafaya divan katibi təyin edilmişdir. Şahzadənin öldürülməsi ilə dağılan şöhrəti ilə birlikdə özü də unudulub getmişdir.

XVI yüzilin son şairi yalnız Rıza təzkirəsində yer alan **Məşkidir**. Əsl adı Məhməd olan şair, təhsilini tamamladıqdan sonra Divani-Sultanidə katiblik etmiş, 1596-cı ildə İstanbulda vəfat etmişdir.

XVII yüzilliyin qaynaqlarında qarşımıza çıxan şairlər **Səbuhi** və **Sihhati**dən ibarətdir. Mövləvi təriqətinin öndə gedən şairlərindən olan Səbuhi 7 il Şam və Yeddiqapı mövliyyəxanəsi şeyxliklərində çalışmış və burada vəfat etmişdir. Məzarı mövləviyyəxanə bağçasındadır. Alim, loğman, şair və mütəsəvvüf olan Səbuhi, Əhməd Dədə, Nəfi, Fəhim və Naili kimi önəmli şairlərin yetişməsində də mühüm rol oynamışdır. Divanı və "İxtiyarati-məsnəvi" adlı əsərləri vardır.

Səhhətiyə gəlincə isə o, Tokatda doğulmuş və əsl adı Əbdüllətifdir. Gəncliyində İstanbula gələrək təhsil almışdır. Yeniçəri ağalarının himayəsində yaşayaraq onların bir qisminə müsahiblik etmiş, 1692-ci ildə vəfat etmişdir.

XVIII yüzillik Tokat ədəbiyyat tariximizə dörd şairin adıyla əlavə olunmuşdur. Bunlar **Lütfi, Emin, Mühibba** və **Kani**dir. Bunlardan Lütfi yalnız "Bəliğ təzkirəsi"ndə yer alır. Buradan əldə etdiyimiz bilgiyə görə yeniçəri, yəni əskər kökündən olan şairin əsl adı Mustafadır. Sənətinə görə Mustafa ağa ya da Musulizadə ləqəbiylə tanınır. Lütfi, Yeniçəri ocağındakı piyada əskərini təşkil edən bölük zabitlərinə verilən rütbə olan çorbacı rütbəsinə çatmış və 1718-ci ildə vəfat etmişdir.

Başqa bir təsəvvüf şairi olan **Emin** isə Diyarbəkirdən Tokata köçüb gəlmiş bir ailənin oğludur. Nəqşbəndi başçılarından olan şair, təhsilini Tokatda başa vurduqdan sonra İstanbula gəlmişdir. Zeyrək yaxınlığındakı Piripaşa mədrəsəsinə yerləşmiş, katiblik, Şahzadə Sultan Məhməd Camisində müdərrislik, Əyub Sultan türbədarlığı,

Mədinədə Hz. Peyğəmbərin türbəsində fərraşlıq etmişdir. Şeyx Əmir Buxari xanlığında şeyx olmuş və 1745-ci ildə vəfat etmişdir. Dövrünün tanınmış musiqi ustalarından hesab olunan şair türkcə, farsca, ərəbcə şeirlər yazmışdır.

"Silsilenamei-məşayixi-nəqşibəndiyyə", "Ədəb və ərkani-təriqati- nəqşbəndiyyə" kimi əsərləri və tərcümələri vardır.

Muhibba adlı şair haqqında isə yalnız Ramiz təzkirəsində məlumat verilmişdir. Çox qısa olan bu məlumat belədir: "Tokatda doğulub, əsl adı Mustafadır. Məmur işləmək üçün getmiş olduğu Selanik şəhərində vəfat edib."

XVIII yzilliyin tanınmış şairlərindən biri olan Kani isə təhsilini Tokatda tamamlamış, sonra Mövləvi təriqətinə daxil olmuş, uzun illər Tokat mövliyyəxanəsində çalışmışdır. Divan katibliyində işləmiş və İstanbulda vəfat etmişdir. Ərəb, fars və türkcə şeirlər yazan Kani daha çox nəsr əsərləriylə tanınmışdır. Öz əsrinin həcv ustası kimi məşhir idi.

Natladan kənar bütün əsərlərində həcvlər yer alır.

XIX yüzilliyin təzkirələrində yalnız **Safı** adlı bir Tokatlı şairə rast gəlirik. Əsl adı Əhməd olan bu şair Kəndxudazadə Arif Əfəndidən dərs almışdır. Caminin Əruz risaləsinə "Cami- Müzəffər" və Xoca Eyni Əfəndinin "Nəzmi-Cəvahir"inə "Ləzzi-Zəfər" adlı şərhini yazmışdır. Bu məlumatlar Fatinin "Xatimətül-əşar"ından verilmişdir.

Yekunlaşdırmalı olsaq, Tokat, Osmanlıdan əvvəl və Osmanlılar hakimiyyətinin ilk illərində olduqca əhəmiyyətli yaşayış məskənlərindən biri olmuş və bunu əyani olaraq XVI əsrin sonuna qədər yetişdirdiyi yeddi şairlə və bununla əlaqədar olaraq Osmanlı mədəniyyətindən olan şairlərin sırasına görə on ikinci yeri tutması ilə sübut etmişdir. XVII yüzillikdə şəhərin siyasi əhəmiyyətinin azalması ilə oradakı şairlərin də azalması müşahidə olunmuşdur.

XVIII yüzillikdə **Lütfi, Emin, Mühibba** və **Kani** kimi tokatlı şairlər Osmanlı şeir mozaikasının zənginləşməsində fəal iştirak etmişlər. Qeyd edim ki, bu yüzillikdə Tokat şairləri sayca çox olsalar da, keyfiyyət baxımından heç bir əhəmiyyət kəsb edə bilməmişlər. Kani istisna olmaqla, o biri şairlər bu yüzillikdə hansısa orijinal şeir ortaya qoymadan, ənənəvi klassik şeir üslubu çərçivəsinin içində

fırlanmış, özlərindən əvvəlki şairlərin yolunu təkrar etmişlər. Amma onu da bildirim ki, **Məlihi** ən yaxşı divan şairlərindən biridir.

Şəhər monoqrafiyası adlandıra biləcəyimiz belə yazılar bizdə demək olar ki, yox dərəcəsində hesab olunacaq qədər azdır. Mən bu araşdırmada şairlər təzkirəsində yer alan tokatlı şairləri bir çox xarakterik cizgiləriylə birlikdə sizlərə tanıtmağa çalışdım. Gələcəkdə bu şairlərin ayrı-ayrı əsərlərinin klassik ədəbiyyatımıza nə dərəcədə təsir göstərdiyinin şahidi olacağıq.

*(*Yazı Kültür Tarihimizde Tokat Sempozyumu, Bildiriler, Ankara 1987, s.507-513-də dərc olunub).*

İstifadə olunan ədəbiyyat:

1. "Tezkirelere Göre Divan Edebiyatı İsimler Sözlügü" Ankara, 1988.

"İslam, Türk Diyanet Vakfi İslam Ansiklopedileri" ilə

"Türk dili ve Edebiyatı Ansiklopedisi"nin əlaqədar maddələri

ƏRZURUM ŞAİRLƏRİ VƏ NƏFİ*

Anadoluda yaranmış elm və mədəniyyət sahələrinin təşəkkül və inkişafında mədrəsələrin yerini xüsusi olaraq qeyd etmək lazımdır. Əslində bu mədrəsələr Osmanlı dövründən əvvəl Səlcuqlular vaxtında bir sıra mədəniyyət mərkəzləri yarada bilmişdilər. Ancaq Fateh Sultan Məhmədin İstanbulu islam dünyasının mərkəzi etmək niyyəti ilə burada tikdirdiyi böyük mədrəsə və ondan sonrakı hökmdarların, xüsusilə Qanuni Sultan Süleymanın tikdirdiyi çoxlu sayda mədrəsələrdən sonra mədəniyyətin əsas nöqtələri ətrafdakı kiçik və dağınıq mərkəzlərdən İstanbula Ədirnə və Bursa kimi şəhərlərə daşınmağa başlanmışdır. Ancaq Konya, Diyarbəkir, Bağdad, Şam, Qahirə, Üsküp və bir sıra başqa şəhərlər öz mövqelərini qoruyub saxlaya bilmiş, öz əhəmiyyətlərini itirməmişlər. Haqqında danışmaq istədiyimiz Ərzurum da belə şəhərlərdən biridir.

Bu yazı, tarix boyu mədəniyyət mərkəzi olmaq missiyasını qoruyub saxlamağa nail olmuş Ərzurum şəhərinin ədəbiyyat tarixinə işıq salmaq, bu ədəbiyyatda divan şairlərinin necə təmsil olunmasını bir qədər açıqlamaq məqsədi daşıyır.

Doğrudan da, şeir tarixi ilə bağlı məlumatları təqdim etməzdən öncə, Ərzurumun əsl bir müsəlman-türk şəhəri olmasının ilkin səbəblərinə toxunmaq istərdim.

Ərzurumda müsəlmanlığın təşəkkül tapması bir çox Anadolu şəhərlərindən daha əvvəllərə təsadüf edir. Şəhər Xəlifə Ömərin sərkərdələrindən olan İyaz Bin Canəm tərəfindən 638-ci ildə ələ keçirilmiş və qısa bir müddətdən sonra təkrar bizans tərəfindən geri alınmışdır. Xəlifə Osman tərəfindən yenidən ələ keçirilən şəhər bu dəfə əldə saxlanıla bilməmişdir. Əməvilər zamanında yenidən işğal olunan Ərzurum, Abbasilər dövründə təkrar Bizansların əlinə keçmişdir. Bu əldən-ələ keçmələr bir müddət davam etdikdən sonra, 1071-ci il 26 avqust Malazgirt qələbəsindən sonra bütünlüklə türklərə açıq olan Anadolu ilə birlikdə Ərzurum da Səlcuqluların əlinə keçdi. Sultan Məlikşahın ölümüylə ortaya çıxan qarışıqlıq Ərzurumdan da yan keçmədi. Bir müddət Gürcüstanla müharibə aparmağa məcbur

olan şəhər, Saltuklu və Anadolu səlcuqlularının hakimiyyəti altında qaldı. Daha sonralar isə şəhər Monqolların, İlxanilərin, Cəlayirlilərin, Eratna Bəyliyinin, Qaraqoyunluların əlində qaldı. 1387-ci ildə Ərzuruma gələn Teymur, Qaraqoyunlu hegemonluğuna son qoydu. 1434-cü ildə şəhərə bu dəfə də ağqoyunlular hakim oldu. Şəhər təkrar qaraqoyunlular tərəfindən alınsa da 1468-ci ildə yenidən Ağqoyunlu hökmdarı Uzun Həsənin əlinə keçdi. 1501-ci ildə Ərzurum bir neçə dəfə də Səfəvilərin əlinə keçmişdir.

Ərzurum Yavuz Sultan Səlimin 1517-ci ildəki Misir səfərindən sonra Osmanlı torpaqlarına qatılmışdır. Türk dilinin işlədilməsi və hakim dil olması da bu dövrdən başlamışdır. Şəhər strateji mövqeyini Osmanlı hakimiyyəti dövründə gücləndirməyə davam etdirmiş və 1534-cü ildə bəylərbəylik mərkəzi olmuşdur. Belə bir titulu doğrultmaq üçün şəhər yenidən sürətlə inşa olunmağa başladı. Əhalisini artırmaq üçün mərkəzlər qurulmağa başlandı. Xalqdan alınan vergilər aşağı salındı.

Siyasi sabitlik iqtisadi inkişafa da yol açdı və şərq ilə qərb ticarət yollarının üstündə yerləşən Ərzurum çox mühüm bir ticarət mərkəzinə çevrildi. Bunu Daşpınar poetik dillə belə təsvir etmişdir. "1885-ci ildə yüz mindən çox əhalisi olan Ərzurum bu inkişafını bir iqtisadi təməl üzərində qurmuşdur. İran idxal və ixracının yarıdan çoxunu Trabzon, Təbriz karvan yoluyla daşıyırdı və bu karvan yolu Ərzurumu əsrlər boyu əşrəfiylə, əyanıyla, üləmasıyla, əsnafıyla tam bir ortaçağ şərq şəhəri olaraq qurulmuşdur. Bu tranzit yoldan hər il otuz min dəvə və bəlkə də, iki dəfə bundan çox qatır keçib gedirdi. Bunlar Ərzurumdan keçirdi. Təbrizə gəlişində, Trabzondan dönüşündə dəstəsini həmişə Ərzurumda təhciz edir, heyvanını nalladır, atını yemləyir, lazım olan hər bir ehtiyatını burda ödəyirdi"1.

Bu hal özünü mədəniyyət sahəsində də dərhal hiss etdirmişdir. Övliya Çələbi "Səyahətnamə"sində şəhərdə 110 sibyan məktəbi, yəni ibtidai məktəbin olduğunu göstərmişdir. XIX yüzillikdə isə şəhərdə 25 mədrəsənin olduğu məlumdur. Bütün bunlar Ərzurumu bir mədəniyyət mərkəzi kimi də tanıtmağa başlamışdır.

Ərzurumun yetişdirdiyi divan şairlərinə gəlincə isə qaynaqlar Səlcuqlular dövründə burada yetişmiş heç bir şairin adını çəkmirlər,

Ərzurumda doğulduğu bildirilən ilk şair İlxanilərin, Qaraqoyunlu və Ağqoyunluların şəhərə hakim olduqları illərdə yaşamış olan kadı **Dərirdir**. Əsərlərindən XIV əsrin ikinci yarısında yaşadığı bəlli olan Dəririn doğum tarixi bilinmir. "Kor" mənasını bildirən "Dərir" təxəllüsünü anadangəlmə kor olduğu üçün almışdır. Çox iti yaddaşa malik olan Dərir təhsilini başa vuraraq hakim oldu. Bəlkə də, yuxarıda göstərilən siyasi hərc-mərcliyə görə Ərzurumdan köçərək Misirə getmişdir. Sonra isə Hələbə köçmüşdür. Şairin sonrakı həyatı və harada vəfat etməsi haqqında məlumatımız yoxdur. "Yusifi u Züleyxa", "Sirətin-Nəbi", "Fütuhuş-Şam" və "Yüz Hədis" tərcüməsi kimi əsərləri olan Dəririn dili Azəri türkcəsi ilə Anadolu türkcəsi arasında olan bir dildir və bu dil incəliyi, həm də lirikliyi ilə diqqəti cəlb etmişdir.

Qaynaqlar XV və XVI yüzilliklərdə hansısa bir Ərzurumlu şair haqqında məlumat vermirlər. XVII yüzilliyin sabitlik qazanmış Osmanlı Ərzurumunda dörd şair maraq doğuraraq gələcək nəsillərə tanıdılmışdır. Bunlar doğum tarixi nəzərə alınaraq aşağıdakı şəkildə sıralanmışlar.

ZEHNİ. Riyazi və Faizi təzkirələrində adı çəkilən bu şair haqqında hər iki təzkiraçi qısa şəkildə bir məlumat vermişdir. Şairin Ərzurumda doğulduğu, Əhizadə Əbdulhəlim Əfəndinin xidmətində olub, müdərrislik etdiyi bu qısa məlumatların arasında yer alır. Zehni 1021/1612-ci ildə vəfat etmişdir. Yüzilliyin xronolji sıra ilə gələn ikinci şairi **NƏFİDİR**. Bu təsnifatda bütün tərəfləri ayrılıqda işıqlandırılan Nəfinin həyat və yaradıcılığı haqqında yeni bir şey söylənilmir.

Əsrin üçüncü şairi **ŞANİDİR**. Gufti təzkirəsində yer verilən şair haqqında təzkiraçi, o biri şairlərdə olduğu kimi qısaca məlumat vermişdir. "Ərzurumda doğuldu. Şeirləri gözəl və axıcıdır. Tarixi əks etdirməsi ilə diqqəti cəlb etmişdir. 1051/1641 tarixində vəfat etmişdir." Şair haqqında əlimizdə olan məlumat budur.

Yüzilliyin xronoloji sırasında yer alan üçüncü şair **ABİDİR**. Yümni və Əsrar Dədə təzkirələrinin verdiyi məlumatlara görə Abi, Yeniçəri şairlərindən olub Ərzurumda doğulmuşdur. Şairin 1077/1666-cı ildə vəfat etdiyi bildirilir.

XVII əsrin alim, şair və tarixçilərdən biri olan Ərzurumlu **MÜLHƏMİDİR**. Əsl adı İbrahim olan bu şair dövründə Canboladzadə xocası olaraq tanınmışdır. IV Murada şahnaməçi təyin edilmişdir. 1060/1650-ci ildə İstanbulda dünyasını dəyişmişdir. Osmanlı təzkirə müəllifləri Mülhəminin tarix əsərlərindən başqa divanının da mövcud olduğunu söyləyirlər.

Təzkirələr XVIII yüzillikdə beş Ərzurumlu şairdən söz açırlar. Bunlardan birincisi mütəsəvvüf şair İbrahim Həqqinin xocası olan **Hazik Səyyad Məhməd Əfəndi**dir. Təhsilini Ərzurumda başa vurduqdan sonra müdərris olmuşdur. Ərzurum müftiliyinə getmişdir. Bəzi dini əsərləri ilə yanaşı, mürəttəb divanı da vardır. Şair divan şeirinin klassik formasında mükəmməl nümunələr yaratmaqla bərabər, şeirlərində məişət ünsürlərinə də yer vermişdir.

Erzurum ab u tabın nev bahar olsun da gör
Çeşme-sar-ı çeşm-i pinhan aşikar olsun da gör

Və ya:

Bir az da mütedil olsa şifası Erzener-rumun
Nicə inkar olur ab u hevası Erzener – rumun

XVII yüzilliyin ən tanınmış şairi isə sözsüz ki, **İBRAHİM HƏQQİDİR** (1703-1780). Həyatı haqqında hər yerdən asanlıqla məlumat əldə etmək mümkün olan bu dəyərli mütəfəkkir, mütəsəvvüf şair haqqında bir çox diqqətçəkən xüsusiyyətlər açıqlanmışdır. İbrahim Həqqi də Nəfi kimi Həsənqalada doğulmuşdur. Mədrəsə təhsilini tamamladıqdan sonra təsəvvüfə meyl etmişdir. Elm və düşüncələrini öz üzərində təcrübədən keçirən insanın nəfsi ilə idarə olunmasının mümkünlüyünü irəli sürənlərdəndir. Tilloda ölən və orada dəfn edilən şairin ən məşhur əsəri "Mərifətnamə"sidir.

Yüzilliyin başqa bir şairi isə **ƏDİBDİR**. Səfayi, Səlim. Ramiz və Əsəd Əfəndi təzkirələrində adı çəkilən şair haqqında bu məlumatlar vardır: Ərzurumda doğulub. Əsl adı Mahmuddur. Təhsilini başa vurduqdan sonra hakimlik etmişdir.

RÜXSAT. XVIII yüzillikdə yaşamış olan bu şair də Ərzurumda doğulmuşdur. Səfayi və Səlimdə qeydə alınan məlumatlara görə, əsl adı Məhməddir. İstanbulda təhsil alıb. Yaxşı yazı qabiliyyəti olduğu üçün divan katibi təyin edilmişdir.

XVIII yüzilin təzkirələrinə daxil olmuş son Ərzurumlu şair **ƏZİZDİR**. Yalnız Səlimin təzkirələrində verilən bu şair haqqında məlumatlar çox azdır. Əsl adı Əbdüləziz olub, Ərzurumzadə ləqəbiylə tanınmışdır.

XIX əsrdə Ərzurumlu doqquz şairlə qarşılaşırıq. Bunların ilki olan **ƏSƏD AĞA** haqqında Arif Hikmət təzkirəsində "Ərzurum gömrükçüsü Əsəd Məhməd Ağadır" şəklində qısa məlumat verilir.

Yüzilin ikinci şairi **KƏMALİ ƏLİ** haqqında Fatihin verdiyi məlumatlar isə bu şəkildədir: "Ərzurumlu Timur Fənni Əfəndinin oğludur. Ərzurumda doğulub. Bəzi valilərin və dəniz kapitanı Xəlil Rifət Paşanın katibliyini etmişdir. 1234/1818-19-cu ildə vəfat etmişdir. Ədəbi şöhrətini daha çox nəsr sahəsindəki əsərlərilə qazanmışdır.

Yüzilliyin başqa bir şairi olan **MÜBARƏK** də Ərzurumda doğulub. Əsl adı Mustafadır. Yazısının gözəlliyi ilə diqqət çəkmiş bir şair olmuşdur. (A.Hikmət)

Yenə də Arif Hikmətin qeyd etmiş olduğu şairlərdən biri olan **NƏDİM** də bu yüzilin Ərzurumda doğulmuş gənc yaşlarında vəfat etmiş şairidir.

Şair **PƏRTÖV** də bu yüzilliyin Ərzurumda doğulan şairlərindəndir. Əsl adı İbrahim olub, İbrahim Ədhəm adıyla tanınan bu şöhrətli şairin gəncliyi Trabzonda keçmişdir. İstanbula gedərək sədr-i ali mərtəbəsində xəlifə və Xəlil Paşaya divan katibi olmuşdur. Valiliyə qədər yüksəlmişdir. 1289/1873-cü ildə Kastamonuda vali işlədiyi zamanlarda vəfat etmişdir.

RÜŞTİ təxəllüsü daşıyan iki Ərzurumlu şair də bu yüzillikdə rast gəldiyimiz şairlər sırasındadır. Bunlardan biri Ərzurumlu Məhməd Rüşdi Paşadır. Dövlət adamları yanında şeiri və nəsriylə tanınan şairin nəqşbənd olduğunu Fatin xəbər verir.

Eyni təxəllüsü götürmüş başqa bir şair isə Ərzurumda doğulmuş olan **İBRAHİMDİR**. Çələbizadə Məhməd adlı bir alimin oğlu

olan İbrahim Rüşdi təhsilini başa vurduqdan sonra fətva-xanədə danışməndlik etmişdir.

XIX əsrin son şairi **TAİB** haqqında məlumat verən qaynaq Arif Hikmət təzkirəsidir. Digər şairlər kimi onun haqqında da məlumat azdır. Onun Ərzurumda doğularaq əsl adının İsmayıl olması ilə bu məlumat başa çatır.

Yuxarıda adı çəkilən, başqa sözlə ifadə etsək, Ərzurumun divan ədəbiyyatına vermiş olduğu şairlərin sayı 19-dur. Daha əvvəl bu mövzuda "Ərzurum Şairləri"adlı bir əsər yazmış Z.Fəxri Fındıkoğlu bir hissəsi şifahi xalq ədəbiyyatına aid olan, bəzilərinin isə Bayburt vilayətində doğulmuş olduqlarını izah edərək on altı şairin bu ölkəyə aid olduğunu əks etdirmişdir. Bizim adlarını çəkdiyimiz **Abi, Əziz, Ədib, Əsəd Ağa, Kəmal Əli, Mübarək, Nədim, Rüxsət, Rüşdi, Şani, Taib** və **Zehni** kimi şairlər bu araşdırmada yoxdur.

Bura qədər verilmiş olan dəyərləndirmələrin nəticəsinə baxmış olsaq, belə deyə bilərik : Anadolunun başqa yerlərinə nisbətən daha erkən sayıla biləcək bir çevrədə müsəlmanların, qısa bir müddət sonra da müsəlman türk dövlətinin əlinə keçməsinə baxmayaraq, Ərzurumda XIV yüzilliyin sonuna qədər hər hansı bir türk şairinə rastlaşmırıq. Bu dövrdə qarşımıza çıxan qazi Dərir ömrünü Ərzurumdan kənarda keçirmiş, əsərlərini oralarda yazmışsa da yetişdiyi çevrənin dil özəlliklərini öz yazılarında əks etdirmiş bu ərazidən olan ilk şairdir.

XV və XVI yüzilliklərdə Ərzurumlu olduğu söylənilən şairə rast gəlinmir. Bunun səbəbi aydındır. Daha əvvəl anladıldığı kimi, bu dövrlər şəhər və ətrafının ən qarışıq bir dövrüdür. Sabitliyin olmadığı yerdə elm və mədəniyyətin inkişafının gözlənilməsi isə absurddur.

Osmanlı himayəsinə daxil olduqdan sonra dinclik əldə edən Ərzurum XVII yüzillikdə Zehni, Şani, Abi, xüsusilə də divan şairlərinin zirvəsi olan **Nəfini** yetişdirərək ədəbiyyata böyük töhfə vermişdir.

XVIII əsrdə Osmanlı mədəniyyətinin şəhərlər tərəfindən inkişafı fasiləsiz olaraq davam etmiş və güclü bir mərkəzçilik yaratmışdır. Bununla bərabər ətrafdakı ucqar bölgələrə öz içindən idarə olunmaq müstəqilliyi verilmiş və bu da orada yetişən şairlər üçün əlverişli

şərait yaratmışdır. **Hazik, İbrahim Həqqi, Ədib, Rüxsət** və **Əziz** bu yüzillikdə Osmanlı şeir dünyasının mozaikasını zənginləşdirən Ərzurum şairləridir. Bunların arasında İstanbulla əlaqə yaratmadan bölgənin yetişdirdiyi elmi və ədəbi çevrədə iki qiymətli klassik əsər vermiş olan Haziklə, klassik təsəvvüf tərənnümündən ustalıq və orijinallıqla istifadə edən İbrahim Həqqini xüsusi qeyd etmək olar.

XIX əsr Ərzurum şairləri sayca çox olsalar da, keyfiyyət baxımından əhəmiyyət kəsb etməyən bir formaya malikdirlər. Burada təəccüblü heç nə yoxdur. Hər hansı bir orijinal əsər modeli ortaya qoymadan, qaydaları əvvəlcədən bəlli olan klassik ölçüdə əsər yazan şairlər bu yüzilliyin ədəbiyyat tarixində sayca xeyli çoxdurlar. Əsəd Ağa, Kəmal Əli, Mübarək, Nədim, Rüşdilər və Taib bu formanı davam etdirən təmsilçilərdir.

Pərtöv isə XIX yüzilliyin dualizmi arasında çırpınan ziyalılarımızın bir nümunəsidir.

Burada qaynaqların işıqlandırdığı adlara nəzər salmağımıza baxmayaraq Fındıkoğlunun "Ərzurum şairləri" adlı əsərində XIX əsr divan şairləri çərçivəsində qeyd etmiş olduğu **Natiqi** və **Siraci** adlı iki şairi də nəzərə almaq istəyirik.

Bu iki ad daxil edilərsə, Ərzurum divan şairlərinin sayı 21-ə çatar. Qeyd etmək lazımdır ki, bu sayın yazının əvvəlində göstərilmiş olan Ərzurumun mədəniyyət mərkəzi olmaq baxımından onunla eyni mövqeyə sahib olan şəhərlərlə müqayisədə aşağı səviyyədə olduğu müəyyən edilir. Məsələn: Ərzuruma İstanbulla uzaqlığı baxımından və başqa xüsusiyyətlərinə görə oxşar olan Diyarbəkir hardasa Ərzurumdan on qat çox şairə sahibdir. Daha fərqli mövqelərə malik şəhərlərlə müqayisə edildikdə də bu fərq Ərzurumun əleyhinə olaraq kəskin şəkildə dəyişir.

Burada bu durumun nədən belə olmasının səbəblərini izah etməyəcəyik. Amma şəhərin Osmanlı dövlətinə gec daxil olması və sərhədlərinin sürətli şəkildə pozulması da bunun səbəblərindən biri kimi izah edilə bilər.

Yalnız heç bir izaha ehtiyacı olmayan bir fakt var ki, bu da Nəfinin adı çəkilən Ərzurum şairləri içində ən yüksək mərtəbəyə layiq olmasıdır. Doğrudan da, "Siham-ı-qəza" şairi dilinin mükəmməlliyi,

ifadə gücü, qəsidə və həcvə gətirmiş olduğu yeni ölçülərlə yalnız Ərzurumun deyil, bütünlüklə Türk divan şeirinin ən böyük ustadlarından biridir.

*(*Yazı divan şairi Nəfinin vəfatının 350-ci ildönümünə həsr olunmuş (Ərzurum, 2 may 1985), "Türk Edebiyatı"s.140(1985). s. 24-26-da dərc olunub).*

İstifadə edilən ədəbiyyat:

1. "Tezkirelere Göre Divan Edebiyatı İsimler Sözlügü". Ankara, 1988.

"İslam, Türk, Diyanet Vakfı İslam Ansiklopedileri" ilə "Türk Dili ve Edebiyatı Ansiklopedisi"nin əlaqədar maddələri.

ƏDƏBİYYAT TARİXİMİZDƏ BAĞDAD*

Dünyada mövcud olan şəhərlərdən bir qismi ərazisinin, yaxud da bağlı olduqları mədəniyyətlərin ehtiyacını ödəməsi ilə önəm qazanan, bu ehtiyacın azalmasıyla əlaqədar olaraq sıradan biri olan mərkəzlərə çevrilən şəhərlərdir. Başqa bir qrup şəhərlər isə öz əlverişli mövqelərinə görə həmişə gündəmdə olan şəhərlərdir və dəyişən fərqli mədəniyyətlər onların əhəmiyyətlərini nəinki azaltmış, əksinə onların daha da inkişaf etməsinə qaynaq olmuşdur. Dünyada bu xüsusiyyətli şəhərlərin sayı çox deyil. Belə şəhərlərə nümunə olaraq Paris, London, Qahirə və Şam kimi şəhərləri göstərmək olar. Bağdad da belə şəhərlərin siyahısına daxildir.

VIII yüzillikdə Abbasi xəlifəsi Əbu Cəfər əl-Mənsur tərəfindən qurulduğu gündən bəri Bağdad, İslam mədəniyyətinin gözü olan bir şəhərə çevrilmişdir. Bir çox sahələrdə idarəçilik mərkəzi olan bu şəhər bu özəlliyinə görə saysız-hesabsız siyasi təcavüzlərə məruz qalmış, bir neçə dəfə yandırılaraq yerlə-yeksan edilmişdir. Ancaq hər dəfə də yenidən inşa edilərək öz əvvəlki vəziyyətinə gətirilmişdir.

Bu siyasi şəraiti ilə bərabər Bağdad bir mədəniyyət mərkəzi olaraq böyük marağa səbəb olmuşdur. İslam mədəniyyətinin yaradıldığı dövrü Bağdad adı ilə adlandırsaq mübaliğəyə yer verilmiş olmaz. Hənəfi və Hənbəli məzhəbləri burada yaranmışdır. Şəhərdə erkən dönəmlərdən etibarən xeyli sayda kitab mağazaları vardır. Şairlər, alimlər, şeyxlər hesaba gəlməyəcək qədər çoxdurlar. Bu üzdən də şəhər haqqında çoxlu sayda monoqrafiyalar qələmə alınmışdır. Bunların ən məşhuru Xətib əl Bağdadinin "Tarixi- Bağdad" adlı əsəridir.

Osmanlı dövlətinin əlinə keçməzdən əvvəl də Türk tarixində önəmli yer tutan Bağdad, xüsusilə Anadolunun türkləşdirilməsi və islamlaşdırılması baxımından bu məqsədlə yola çıxan Xorasan ərənlərinin və bu torpaqlara köç edən başqa xalqların bir müddət dinclərini aldıqları şəhər olmuşdur. Aşıq Çələbi "Məşairü-şüəra"sında Buxaradan Anadoluya gəlmək üçün yola çıxan Əmir Sultanın Bağdadda babası Seyid Nəttanın qonağı olduğundan və onu da Anadoluya gəlməyə razı salıb, birlikdə yola çıxaraq Bursaya yetişdiklərindən uzun- uzadı söhbət açır.

Bizim köhnə qaynaqlarımızda tez-tez əcəm əsilli şairlərdən söz açılır. Bunlar, xüsusilə İstanbulun fəthindən sonra, buranı islam dünyasının ən önəmli mərkəzi etmək məqsədiilə çoxlu sayda intellektualı İstanbula toplayan Fateh Sultan Məhəmmədin səyi ilə İstanbula kütlə halında gəlib yerləşmişdilər. Yaratdığı əsərlərdən bunların çoxunun türk olduğu məlumdur. Buradan çıxış edərək Əcəm sözünü İranlı mənasından o tərəfdə olduğunu, bir etnik qurumu bildirmək əvəzinə, daha çox coğrafi bölgə mənasında işləndiyini deyə bilərik. Bu baxımdan da əcəm qədim İran imperatorluğunun hökmranlığı altında olan müxtəlif xalq və toplumlar mənasını daşımaqdadır. Bağdadda bir müddət dincəlib böyük bir ehtimalla Diyarbəkir üzərindən Anadoluya səpələnən, əsas hissəsi ziyalı olan bu insanların mühüm bir qismi də türkdür. Buradan Bağdad və çevrəsinin Osmanlı idarəçiliyindən əvvəl də türk dili və ədəbiyyatı bucağından mühüm bir mərkəz olduğu anlamı meydana çıxır.

Türk dilinin ən böyük bayraqdarı olan Füzuli (v. 1556) Qanuni Sultan Süleymanın Bağdadı fəth etməsi zamanında (v. 1534) o bölgədə olmuş və başda padşah olmaq üzrə dövlətin bəzi irəli getmiş adamlarına qəsidələr həsr etmişdir.

Osmanlı dövləti Bağdadı 400 ilə qədər öz idarəçiliyində saxlamışdır. Bu müddət ərzində də şəhər Osmanlı idarəçiliyinin mərkəzlərindən biri olmuşdur. Sahib olduğu təməl imkanları baxımından da şəhər mərkəzçilik statusunu daşıyırdı. Yetişdirdiyi şairlərə görə Osmanlının tanınmış şəhərləri araşdırılarsa Bağdadın xüsusi çəkisi dərhal hiss ediləcəkdir[236].

Bağdad yetişdirdiyi otuz beş şairlə birlikdə Osmanlı dövlətinə daxil olan birinci qrupa aid edilən mədəniyyət mərkəzlərindən olduğunu açıqca göstərmişdir. Burada yer alan şairlər təzkirələrində yer alan isimləridir. Bu səhifədə İbnül-Əmin Mahmud Kəmal İnalın "Son əsr türk şairləri" adlı əsəri ilə qələm yoldaşım Dr. Məhməd Akkuşun bütün elm aləminə tanıtdığı "XIX əsr Bağdad şairləri"ni

236 Mövzu ilə bağlı olaraq bu kitabdaki "Osmanlı Kültür Coğrafyasına Bakışlar" adlı məqaləmizin 171-178 səhifələrinə baxın.

ehtiva edən təzkirəsində yer alan adlar nəzərə alınmamışdır[237]. Belə bir dəyərləndirmə Bağdadın yetişdirdiyi türk şairlərinin sayını daha da artıracaqdır. Ayrıca, **Əhməd Haşim** kimi daha yaxın dövrə aid olan çağdaş şairlər və aşıq ədəbiyyatına mənsub olan şairlər də nəzərə alındığında Bağdadın mədəniyyət tariximizdəki yeri daha qabarıq şəkildə üzə çıxacaqdır.

Şairlər təzkirəsində yer alan Bağdadlı otuz beş şairi əlifba sırasına görə qısaca tanıtmış olsaq qarşımıza belə bir mənzərə çıxar:

ƏBÜLƏZİZ ƏFƏNDİ. Bağdad Mövləvixanəsi şeyxi Yəhya əfəndinin oğludur. Şeirlərini Əziz təxəllüsü ilə yazmışdır. Mövləvi mühitində yetişmişdir. Uzun zaman səyahət etdikdən sonra İstanbula, oradan da Konyaya gəlmişdir. Sonra Bağdaddakı Mövləviyyəxanədə atasının yerinə şeyx olmuşdur. Türkcə və farsca şeirləri vardır.

Əhməd Zərif isə Həkim Məhəmməd Şirazinin oğludur. O da atasının sənətini seçərək təhsilini bu sahədə almış və həkim olmuşdur.

ATƏŞİ. Əhdinin bildirdiyinə görə əsnaf şairlərindəndir. Alovlu bir təbə sahib olduğu üçün bu təxəllüsdən istifadə etdiyi söylənilir. Həyatı haqqında o qədər məlumat verilməyib.

EYŞİ. Evşinin əsl adı Hüseyndir. 1576-cı ildə Bağdaddan İstanbula gəlmiş və burada sadə şeirləriylə tanınmışdır.

BƏHAYİ. XVII yüzilin birinci yarısında yaşamış bir şairdir. Həyatı haqqında o qədər də məlumat verilməyən şairin bəzi şeir nümunələri Kafzadə Faizi təzkirəsində qeyd edilir.

BƏYANİ. Bəyaninin əsl adı Seydi Çələbidir. Əfdəli İsfəhaninin məclislərində iştirak etmişdir. Sonra Istanbula gələrək III Murada çavuş oldu. Şeirlərindən bəzi nümunələr Əhdi təzkirəsində qeyd olunub.

CÖVHƏRİ. Əhdiyə görə Cövhəri Bağdadlı bir seyid ailəsindən gəlmiş və gənc yaşlarında vəfat etmişdir. Həyatıyla bağlı məlumatlar bunlardan ibarətdir.

FÜZULİ. Füzuli təkcə Bağdad və onun ətrafında deyil, bütün türkdilli xalqlar arasında qürur mənbəyi olan şairdir. Həyatı haqqında çox yerdə məlumat verildiyi üçün onun üzərində dayanmırıq.

[237] Məhməd Akkuş, "Bağdad Civarında Yetişen Şâirler ve Hatîbi'nin Tezkiresi" ,"Yedi İklim", s.76 (Mayıs 1992) s.82.

FAİQ. Faiqin əsl adı Əbdülkərim olub, İrana gedərək orada təzhip sənətini öyrənmişdir. Fatih təzkirəsində bir qəzəli qeyd olunub.

FİKRİ. Qanuni Sultan Süleyman dövründə sarayda vəzifədə olan Tavil Sinanın oğludur. Ağalıq vəzifəsi ilə saraydan çıxıb atasının yerinə sancaq bəyi olmuş,. farsca və türkcə şeirlər yazmışdır.

HƏQQİ BƏY. Əsgər şairlərdən olub, əsl adı Mustafadır. Bağdad bəylərbəyi olan Xızır Paşa ilə anlaşa bilmədiyindən Bağdadı tərk edib Hindistana getmişdir. Türkcə və farsca şeirləri vardır. Bunlara bəzi məcmuələrdə rast gəlinir.

HALİ. Əslən Bosniyalı bir ailəyə mənsubdur. Bağdadda yetişmiş və orada yaşamışdır. Sipahi şairlərindəndir. Dövründə geniş təsəvvüf elmiylə tanındı. Türkcə və farsca şeirləri vardır.

HƏRİRİ və **Əhdi** də adları xatırlanan şairlərdəndir. Təzkirəçi onun Əfdəli İstəhaninin xidmətində durduğunu, ustad bir şair olduğunu və çağdaş şairlər tərəfindən bəyənildiyini söyləyir.

XÜRRƏMİ. Təzkirə müəllifi Əhdinin həm qohumu, həm də dostudur. Füzulinin heyranı idi. Onun şeirləri dilindən düşməzdi. Əhdi bəzi şeir nümunələrini təzkirəsində göstərmişdir.

HÜSEYNİ (v. 1577). Əhdinin qohumlarındandır. Dərviş libaslı, aramsız şəkildə gəzib dolaşan adamdı. Farsca və türkcə yazdığı şeirləri Əhdi təzkirəsində göstərilir.

İLMİ (v. 1612) Əsl adı Molla Hüseyn Fərahşaddır. Təhsilini başa vurduqdan sonra müdərrislik və naiblik etdi. İstanbula gəldi. Fateh Camisində verdiyi dərslərdə tanınmışdır. Misirə, ordan da Həccə getdi. Şamda Mövləvi şeyxi Qartal Dali Dədə ilə tanış olaraq, şeyxin ölümündən sonra onun yerinə keçdi. Ruhi, Səmti və Ünsi kimi şairlərin yetişməsində rolu vardır. Ərəbcə, farsca və türkcə şeirlər yazmışdır. Divanı, məsnəvi şərhi və başqa əsərləri vardır.

MƏDHİ. Bağdad idarəsinin yetişdirdiyi dərviş şairlərdəndir. İstanbula səyahətə gəlmiş Topxanadakı Qədiri dərgahında olmuşdur.

Muradi Əhdinin kiçik qardaşıdır. Şairliyi ilə yanaşı musiqiçi kimi də tanınmışdır.

MURTAZA. (v. 1721) Nəzmizadə ləqəbi ilə tanınmışdır. Təhsilini

başa vurduqdan sonra Bağdad dəftərxanasına ruznamə xəlifəsi təyin edilmişdir. Mürəttəb divan sahibidir. Ayrıca tarixi, "Təzkirətül-Övliya"sı və "Siyər" zeyli vardır.

RİNDİ. Əhdinin qohumlarından biri olub, Əhdinin təzkirəsində divan sahibi olduğu bildirilir.

RUHİ. (v.1605) Füzulidən sonra bu dairənin yetişdirmiş olduğu ən qiymətli şairdir. Əslən o da Bağdaddan olmayıb, Bağdad bəylərbəyi Ayas Paşanın idarəsindəki vəzifəlilərdən birinin oğludur. Əsl adı Osman olub Ruhi ləqəbli o biri şairlərdən seçilmək üçün Bağdadlı Ruhi ləqəbini götürmüşdür. Şeirləri böyük bir divan təşkil edəcək qədərdir. Bu şeirlər səmimiyyəti, sadəliyi, söz oyunlarından uzaq olması və özünəməxsus lirizmi ilə klassik şeir üslubumuzun içində özünü asanlıqla təsdiq etmişdir. Ancaq Ruhini əbədi yaşadan, onu tamamilə ifadə edən şeiri tərkibbənddir. O, bu şeirdə dünyanın keçici olduğunu, insan həyatının həmişə eyni formada keçmədiyini ortaya qoyur. Müvəqqəti olan nə varsa bunlara da tüpürərdi. "Bu gerçəyi anlamayanları, tamaha qapılanları, şöhrət ardınca qaçanları, zalımları, riyakarları, öz xeyrləri üçün ibadət edərək özlərini göstərənləri zərif bir ironiya ilə verərək, kobudluq etmədən ictimai məsələlərə toxunan bir həcv şairi kimi tanınmışdır." Bu xüsusiyyətlərə görə tərkibbənd çox sevilmiş və dövründən başlayaraq bu şeirə yüzlərcə nəzirə yazılmışdır. Ayrıca, Ruhinin bu təcrübəsi sonralar tərkibbənd formasına da təsir etmiş və artıq şairlər sosial həcv olaraq qələmə aldıqları şeirləri bu nəzm formasında yazmağa başlamışdır.

SƏDRİ. Əsl adı Məhməddir və təsəvvüf şairlərindəndir. İstanbula gələrək Xəlvəti şeyxi Məhməd Nəzmiylə dostluq etmişdir. Mihaliçdə Bülbül Xatun təkkəsinə şeyx təyin edildi. Dövrünün hörmətli vaizlərindən biri olmuşdur.II Mustafanın rəğbətini qazanıb sultan vaizi olmuşdur.

ŞEFKƏT. Əsl adı Əbdülfəttahdır. Bir müddət Krım xanlarının yanında, daha sonra da Əflak və Boğdan bəyləri katibliyində çalışmış, işdən getdikdən sonra Kuruçeşmədə tənha bir ömür sürmüş və orada ölmüşdür. Divançası, təzkirəsi və "Hədiqətül – vüzəra"ya zeyli vardır.

VALİHİ. Təhsilini tamamladıqdan sonra katib işləmişdir. Nəsr və müammada ad çıxarmış bir şairdir. Türk və fars dilində yazılmış şeirləri vardır.

VASİF (v.1806) daha çox tarixçi kimi tanınmışdır. Əsl adı Əhməddir. Bağdad alimlərindən olan Əbubəkr Əfəndinin oğludur.

Bir müddət vali şöbələrində çalışdıqdan sonra dövlət tarixçisi və onun ardınca da kitabxana rəisi oldu. Tarixi divançası və "İspaniya səfərnamə"si vardır.

ZƏMİRİ. Əhdinin məlumatına görə, Zəmiri Ağqoyunlu şairlərindəndir. Həyatının bir hissəsini Hələbdə keçirmişdir. Əhdinin başqa bir məlumatına görə məsnəvi ustası olmuş və "Yusif və Züleyxa"nı yazmışdır.

ZAYİİ. Bu şair, Əlişir Nəvai heyranlarından olmuş, çığatay dillərində şeirlər yazmışdır.

ZEHNİ. Zehni də Bağdadın tanınmış şairlərindən biridir. Əsl adı Əbdülqədirdir və Nəcəfzadə ləqəbi ilə tanınmışdır. İstanbula gələrək Qazi Giray tərəfindən bəzi vəzifələrə təyin edilmiş, bir müddət Konyada qaldıqdan sonra Bağdada qayıtmış və orada vəfat etmişdir. Türkcə və farsca şeirləri və rəvayət edildiyinə görə "Yusif və Züleyxa" adlı məsnəvisi vardır.

Bu şairlərə əlavə olaraq barələrində ancaq adları Bağdadda doğulduqlarından qeyri heç bir məlumat verilməyən başqa şairlərin də adlarını qeyd etmək istəyirəm: **Sadiq**, Əhdinin atası olan **Şəmsi**, **Vəhdəti** və Mövləvi şeyxi **Yəhya**.

Bağdad əsilli türk şairlərini Məhməd Akkuşun əsərindən başqa tanıdıb üzə çıxaran şairlər təzkirəsinə rast gəlinmir. Ancaq özü də Bağdadlı olan və bu yerin şairi kimi təqdim edilmiş Əhdinin (v. 1393) "Gülşəni-şüəra" adlı təzkirəsi daha çox Bağdadda yetişən şairlər haqqında məlumat verən bir qaynaqdır. Belə ki, yalnız Əhdinin təzkirəsində yer alan çox saylı türk şairi də onun vasitəsilə unudulmaqdan qurtarmışdır. Ayrıca başqa bir təzkirə yazarı Şevkətdə də Əhdi qədər olmasa da bu ərazidə yaşayan şairlər haqqında xeyli məlumatlar vardır. Bağdad şairləri haqqında fərqli məlumatlar verən

Arif Hikmət təzkirəsini də (1835) belə qaynaqlar sırasına əlavə etmək olar.

*(*Yazı "Yedi İklim" İstanbul 1992, s.2, s.76-78-də dərc olunub).*

İstifadə edilən ədəbiyyat:

1. "Tezkirelere Göre Divan Edebiyatı İsimler Sözlügü". Ankara, 1988.

"İslam Türk Diyanet Vakfı İslam Ansiklopedisi" ilə "Türk Dili ve Edebiyatı Ansiklopedisi"nin əlaqədar maddələri.

MƏDƏNİYYƏT TARİXİMİZDƏ ÜSKÜP VƏ ÜSKÜPLÜ DİVAN ŞAİRLƏRİ*

Şəhərlər müxtəlif səbəblər üzündən qurulur və inkişaf edirlər. Onların bəziləri mədəni yüksəlişlərlə birlikdə inkişaf edərək intibah dövrünü yaşayır və növbə ilə gah yüksəliş illərini, gah da eniş dövrünü yaşayırlar. Elə şəhərlər də var ki, əlverişli coğrafi mövqeləri, əsasən də yol ayrıcında yerləşməsi onları həmişə gündəmdə saxlayır, öz əhəmiyyətini itirməyə imkan vermir. Belə şəhərlər həmişə öz yüksəlişini qoruyub saxlayırlar. Üsküp də bu ikinci qrupa daxil olan ən xarakterik şəhərlərdən biridir. Roma, Bizans və Slav idarəçiliyi zamanında da Üsküp iqtisadi, siyasi və mədəni mərkəz olaraq tanınmışdır. Şübhəsiz ki, bunda şəhərin Balkan yarımadasının düz ortasında yerləşməsi və yolların kəsişmə nöqtəsində mövcud olması böyük rol oynamışdır.

1392-ci ildə İldırım Bəyazid dövründən türk hakimiyyətinə daxil olan Üsküp bu tarixdən Bosniyanın işğalına qədər uçbəylərinin idarəetmə mərkəzi, XV əsrin ortalarından etibarən isə sancaq olaraq ölkənin idarə mərkəzi oldu. Fəth edildikdən sonra Anadoludan gətirilən ailələrlə qısa bir müddət ərzində müsəlman-türk xüsusiyyətlərini özündə cəmləşdirərək bir şəhər formasına düşən Üsküp malik olduğu çoxsaylı cami, məscid, mədrəsə və təkkələri ilə bir mədəniyyət mərkəzinə də çevrilmişdi.

Osmanlı dövlətində mədəni həyatın inkişafında mədrəsə və təkkələrin yeri çox böyükdür. Fateh Sultan Məhməd İstanbulu fəth etdikdən sonra burada çox böyük bir məscid inşa etdirmiş və ondan sonra gələn padşahlar da bu işi davam etdirərək burada çoxlu sayda məscid və mədrəsələr tikdirmişlər. Bu çoxsaylı məscid və mədrəsələr kənar və dağınıq şəhərlərdə olan əsas mədəniyyət sahələrini özlərində cəmləşdirərək mənsub olduqları şəhərləri böyük mədəniyyət mərkəzlərinə çevirdilər. Üsküp də Diyarbəkir, Bağdad, Bursa, Ədirnə, Qahirə, Ərzurum və Saraybosna kimi belə mərkəzlərdən biri idi. Övliya Çələbinin faktlarına görə Üsküpdə, onun ziyarət etdiyi vaxtlarda 120 cami və məscid, 6 mədərəsə,

70 məktəb və 20 təkkə var idi[238]. Bu baxımdan şəhər türk elmi və mədəniyyətinə çox qiymətli adlar əlavə etmişdir.

Bu yazının məqsədi yalnız şairlər təzkirələrinə daxil olan şairlərdən söz açaraq şəhərin mədəniyyət mərkəzləri sırasında olan yerini müəyyənləşdirib göstərmək,[239] bu şairlər haqqında qısa məlumatlar verməkdir[240]. Təzkirələrin araşdırılması nəticəsində əldə olunan rəqəmlərə görə Türkiyə ədəbiyyatına şair vermiş on mərkəzin sıralanması aşağıdakı kimidir:

İstanbul 609, Bursa 156, Ədirnə 69, Konya 50, Diyarbəkir 40, Kastamonu 36, Bağdad 35, Gelibolu 30, Kütahya 24, Bosniya 26, Anter 26, Buxara 26, Serez 21, Manisa 20, Vardar Yenicesi 20; Bolu 19, İsparta 19, Üsküp 19, Amasya 17, Aydın 17, Manastır 17, Rumeli 17, Ərzurum 16, Filibə 16, Selanik 16, Sofya 16, Ankara 15, Trabzon 15, Tokat 14, Belqrad 11, İznik 11, Kayseri 11.

Yuxarıdakı sıralamadan görünür ki, Üsküp yetişdirdiyi şairlərlə, Türkiyənin mədəniyyət mərkəzləri sırasında on altıncı yerdədir. Sözsüz ki, bu sıra çox yüksək bir yerdir. Dövlətin Anadoluda yerləşən bir çox önəmli mədəniyyət mərkəzlərindən öndə olan bir yerdə yerləşən Üsküpün mədəni inkişafı göz qabağındadır. Xüsusilə də, XVI əsrin sonuna qədər olan dövr üçün müqayisə aparılarsa, Üsküp İstanbul, Bursa, Ədirnə, Konya və Kastamonudan sonra altıncı yerdə qərar tutacaqdır[241].

Mədəni inkişaf həmişə siyasi inkişafı bəlli bir məsafə ilə izləyərək təqib edir. Üsküp 1392-ci ildə türk idarəçiliyinə qatılmış olmasına baxmayaraq, burada doğulmuş bir şairdən bəhs edən qaynaqlar daha gec bir tarixi göstərirlər. Qaynaqlarda göstərilən ilk Üsküplü şair **Zari**dir. Qoca Həsənzadə adı ilə tanınan bu şair II Bəyazid (v. 1512)

---

[238] "Üsküp" İslam Ensiklopediyası, C.13, s.122-127; Pars Tuğlacı "Osmanlı Şehirleri", İstanbul, 1985, s.402.

[239] Mustafa İsen, "Tezkirelerin İşığında Divan Edebiyatına Bakışlar: I.Osmanlı Kültür Coğrafyasına Bakış", V. Millətlərarası Türkoloji Konqres, məruzələr, İstanbul 1985, s.145-152.

[240] "Tezkirelere Göre Dîvân Edebiyatı İsimler Sözlügü" Ankara, 1988.

[241] Mövzuyla bağlı bu kitabdakı "Osmanlı Kültür Coğrafyasına Bakışlar" adlı məqaləmizin 171-178 səhifələrinə baxın.

dövründə vəfat etmişdir. Bu nöqtədən yanaşsaq, deyə bilərik ki, o, XV əsrin ikinci yarısında yaşamışdır. Qaynaqların həyatı haqqında başqa bir məlumat vermədiyi Zari, öz dövrünün ən tanınmış şairlərindən olmuş Nəcatinin (v. 1508) şeirlərinə nəzirələr yazarmış. Həmin nəzirələrdən bir nümunəyə nəzər salaq:

Kemeri koçmağa ol sim-beri döne döne
Dermiyan etti nice sim ü zeri döne döne

Sözsüz ki, Zaridən əvvəl də bu ərazidə şifahi xalq ədəbiyyatı təmsilçiləri var idi. Lakin təzkirəçilər daha ciddi görünmək üçün birbaşa divan şairlərinə yer vermişlər ki, bunların da ilk nümayəndəsi Zari olmuşdur.

Zaridən sonra bu torpaqlar böyük səxavətlə şairlər yetişdirərək türk mədəniyyəti mozaikasına müxtəlif rənglər qatmışlar. Mən bu şairlərin adını xronoloji şəkildə deyil, əlifba sırası ilə verəcəyəm. Bu sırada birinci yerdə yerləşən şairin adı Atadır.

Üsküpdə anadan olan **ATA** mütəsəvvüf Əhməd Yasəvinin nəslindəndir. Təhsilini yarıda buraxaraq təsəvvüfə meyl etmiş və nəqşibəndi təriqətinə qoşulmuşdur. Yavuz Sultan Səlim (v.1520) dövründə ölən şairin divanı və "Töhfətül-üşşaq" adlı bir əsəri vardır.

Üsküpdə yetişmiş ən şöhrətli şairlərdən biri İshaq Çələbinin yaxın dostu olan **DÜRRİ** isə pula-paraya dəyər verməyən, şeirlərində dünyanı boş saymağı tövsiyə edən bir şairdir. Şeirindən bir nümunə:

Ne bilsin lezzet-i fakr u fenayu mal u can ehli
Bu zevki gel kanaat kuşesinde merd-i Haktan sor

"Fəqirliyin və yoxsulluğun dadını zəngin olanlar nə bilirlər, sən gəl bu zövqü qənaət guşəsində oturan haqq ərlərindən soruş."

Əsl adı Yusif olan **FƏNNİ**, həddi buluğa çatdıqdan sonra təhsil almaq üçün İstanbula gəlmişdir. Şeyxülislam Yəhya Əfəndidən (v.1644) dərs alırdı. Müdərrislik və hakimlik edib. Hakimlik etdiyi yerlər sırasında Məkkə və Mədinə də vardır. 1666-cı ildə ölmüşdür.

XAKİ də II Bəyazid dövründə yaşamış şairlərdəndir. Əsl adı Yusif olan bu şair bir az da dəli-dolu bir adam olmuşdu. Farsca və türkcə şeirlər yazan Xakı, yazdıqlarını dövrün tənqidçilərinə bəyəndirə bilməmişdir. Bir nümunə:

Nola cellad ise gamzen esirgemez mi insanı
Esirger göricek kafir gariplikde müselmanı

"Kafir belə bir kimsəsiz müsəlman görsə, onu qoruyar, sənin baxışın cəlladsa da bir insanı qoruya bilməzmi?"

Hərraççı Hüsam ləqəbiylə tanınan **FƏRİDİ** isə divan katibliyiylə özünü dolandırmışdı. Sonralar Ədirnə darül-hədisinə təyin olundu. Yavuz Sultan Səlim dövründə vəfat etmişdir. Məzarı Ədirnə şəhərindədir. Qaynaqlar şeirlərini tərifləməklə, özünün kübar bir şəxs olduğu məlumatını verirlər.

Qırmızı üzlü adam olduğu üçün ləl kəlməsini təxəllüs olaraq götürən başqa bir Üsküplü şair **LƏLİ** təhsilini yarımçıq buraxmışdır. II Bəyazidin karvanlarını yolda itirərək Cəm ilə birlikdə Avropaya getmişdir.. Qaynaqlar şeirlərində çoxlu xalq deyimlərinə yer verdiyini bildirirlər.

İshaq Çələbi**nin şagirdi olan** və ömrünün sonuna qədər Çələbinin yanından ayrılmayan **HƏMDƏMİ** də Üsküpün yetişdirdiyi şairlərdəndir. Çələbinin ölümündən sonra katib işləmiş və bəzi dövlət adamalrına müsahiblik etmişdir. Vodinə qəsəbəsinə gələrək orada vəfat etmişdir.

HƏVƏSİ də İshak Çələbinin yaxın dostu və müasiri olan şairlərdəndir. Qaynaqların məlumatına görə xoş xasiyyətli bir adam olmuşdur.

Məlum olduğu kimi, Üsküpdə yaşayan şairlərdən ən çox tanınan və şöhrət qazananı **İSHAK ÇƏLƏBİ** idi. On altıncı əsrin tanınmış elm adamı və şairi İshak Çələbi 1464-cü ildə Üsküpdə anadan olmuşdur. Qılınc düzəldən bir dəmirçinin oğlu olduğundan, Qılınczadə ləqəbiylə tanınmışdır. Atasının adı İbrahim idi. Ishak Çələbi gözəl bir təhsil alaraq Qara Balıdan dərs aldı. Təhsil sahəsinə üz tutaraq Ədirnə, Serez, Üsküp, Bursa Kaplıca, İznik Orxaniyyə, Ədirnə

Darül-hədis və nəhayət Səhndə müdərris oldu. Ancaq son vəzifəsi zamanı Yeganzadə Sinan Çələbi ilə yola getməyərək müdərrislikdən ayrılıb Şama hakim təyin edildi. Bu sənətə başlayarkən "Artıq ölümlü olduq" deyərək dostlarıyla halallaşdı. Belə bir psixoloji vəziyyətdə yola çıxan İshak, Şamda vəfat etmişdir. Qaynaqlar onun öz ölüm tarixini də əvvəldən müəyyənləşdirdiyi bu beyt vasitəsilə aşkara çıxarırlar:

Gelicek halet-i neza dedi tarihini İshak
Yöneldim canib-i-Hakka başı açık yalın ayak

Şair öz vəsiyyəti ilə Şamdakı Kubur-ı Salihin məzarlığında torpağa tapşırılmışdır. Ishak Çələbinin divanı, bir müddət yanında müsahiblik etdiyi Yavuz Sultan Səlimin fəthlərindən bəhs edən "Səlimnamə"si və "Risalei- imtihaniyyə" si vardır.

Həyatı haqqında verilən məlumatlara görə Çələbi elmli, nəcib və zərif bir adam olmuşdur. Eyni zamanda, belə bilikli və yüksək mövqeli olmasına baxmayaraq, sakit xasiyyətli biri idi. Xüsusilə həyatının Şamda keçən illərinə qədər olan dövrü tam bir didərgin yaşayışıdır. Bu üzdən o, xərabat şairləri arasında ilk ağlagələn bir şairdir. Şeirləri öz dövründə və ondan sonrakı illərdə kef və məclis adamları tərəfindən çox sevilər, çox zaman əyləncə və zövq-səfa məclislərində təkrar-təkrar oxunar, insanlara zövq verərdi. Yazdığı şeirlərdə öz həyatını əks etdirdiyi üçün, şerləri vasitəsilə yaşadığı dövrün adamlarının zövqləri və yaşam tərzləri ilə tanış olmaq mümkündür. İshak Çələbi köhnə ədəbiyyatımızda xüsusi yer tutmuş nəzm növlərindən biri olan tarix sahəsində də önəmli yerə malikdir.[242]

Izarı bir qədər sonra söz açacaımız Özrinin kiçik qardaşıdır. Təhsil aldığı vaxtlarda, gənc yaşlarındaykən vəfat etdi.

Miriyi- Rumi ləqəbiylə tanınan Miri, Qanuni Sultan Süleyman dövrü şairlərindəndir. Həyatını səyahətlərdə keçirən şair farscadan türkcəyə şeirlər də çevirmişdir. Xüsusilə Səlman və Xəyyamın rübailərini türkcəyə çevirmişdir.

[242] Məhməd Çavuşoğlu, "Üsküplü İshak Çelebi Dîvânı" İstanbul, 1990.

Qaynaqlardan bəzilərinin Üsküplü, bəzilərinin isə Kalkandərəli kimi təqdim etdikləri **Muıdı** Türkiyənin tanınmış xəmsə şairlərindəndir. Məlum olduğu kimi Xəmsə beş müxtəlif poemanın bir yerə toplanmasıyla yaranan əsərə deyilir. Əsl adı Məhməd olan şair, mədrəsə təhsili görərək Qəzasgər Mirim Çələbidən dərs almışdır. Daha sonra təhsilini buraxıb həccə getdi. Qayıtdığı zaman Misirə gedərək beytül-mal katibliyinə keçdi. Orada vəfat etmişdir. XVI yüzilin öndə gedən şairlərindən olan Muidinin "Vamıq u Əzra", "Şəmü Pərvanə", Gül ü Novruz", "Xosrov və Şirin" əsərləri və divanı vardır.

Benli Məmi ləqəbiylə tanınan **Nami** də XVI yüzillikdə yaşamış Üsküplü şairlərdən biridir. Nami təhsilini tamamladıqdan sonra hakimlik edərək ömrünü sürmüşdür. Həsən Çələbi şairin doğum yerini "ab u havası makbul u mergub olan medine-i bediul- üslup şehr-i Üsküptendir" şəklində şəhəri öyən vəsflərlə təsvir edir.

Şipahi şairlərindən olan **Niyazi** bir qədər sonra təqdim edəcəyimiz Riyazinin dostudur. Niyazinin özünü daha çox təsdiq etdiyi sahə musiqidir.

Özri (v.1523) Qaraca Həsən adlı birinin oğludur. Şair İzarinin qardaşıdır. Ataları Üsküp qazisi idi. Özrinin bir ayağı topal olduğu üçün bu təxəllüsü götürmüşdür.

Əsl adı Məhməd olan **Riyazi** (v.1546) farsca bilirdi.Təhsilini tamamlayan zaman, gənc yaşında vəfat etdi.Cinasları ilə məşhur idi.

Əsl adı Məhməd olan **Sehri** Ədirnə və İstanbulda hakimlik edərək ömür sürmüşdür. Elmli bir adam olmuşdur.

VALİHİnin əsl adı Əhməddir (v. 1599). Ədirnədə Sultan Bəyazidin mədrəsəsində təhsil alıb. Əxizadə Məhməd Çələbidən dərs almışdır. Təsəvvüfə marağı olduğundan bu sahədə yazılmış olan əsərləri araşdırmış və bu mövzuda olan geniş məlumatıyla diqqəti çəkmişdir. Divanı vardır.

Əsl adı Məhməd olan **VÜSULİ** (v. 1592) Üsküplü Əbdi Ağanın oğludur. Anadolu qaziəsgəri Məhməd Çələbidən dərs almışdır. İstanbulda müdərrislik etdi. Daha sonra Konya və İstanbulda hakimlik etdi. Qaziəsgər təyin edildi. Imam Tartuşinin "Siracül-vəhhac" adlı əsərini böyük sənətkarlıqla türkcəyə çevirmişdir.

Üsküp qısaca bioqrafiyaları verilmiş 19 şairlə, göründüyü kimi Bolu və İspartayla birlikdə Osmanlı mədəniyyətində on altıncı sırada yer almışdır. Yalnız bunu yenidən vurğulamaq gərəkdir ki, burada adı çəkilənlər ancaq divan ədəbiyyatına aid olan və təzkirələrdə təqdim olunan şairlərdir. Şübhəsiz, xalq ədəbiyyatı və təkkə ədəbiyyatı yaradıcılarıyla bu siyahı çox geniş olacaqdır. Əlimizdə bu mövzu üzrə şəhərləri araşdıran əsərlər çox az saydadır. Şevkət Bəysənoğlunun Diyarbəkir üçün apardığı belə bir araşdırmaya paralel olaraq bunları söyləmək istəyirəm. Təzkirələrə daxil edilmiş Diyarbəkir şairlərinin sayı qırxdır. Ancaq Beysanoğlu cümhuriyyət dövrünə qədər olan müddət ərzində bu sayı iki yüzə çatdırmışdır. Buradan hərəkət edərək müqayisə aparmış olsaq, o zaman Üsküplü şairlərin sayı ən azı yüz nəfərə çatmalıdır.

Bu yazıda yalnız öz kökü ilə Üsküpdən olan şairlərə yer verilmişdir. Aşıq Çələbi kimi Üsküpdə doğulmayan, amma bütün həyatını bu şəhərdə keçirən, əsərlərini burada qələmə alan və burada vəfat edən şairlər bu sıraya əlavə edilərsə şübhəsiz ki, bu rəqəm daha artmış olar.

Bunu da bildirmək faydalıdır ki, buradakı divan şairlərinə də ötəri bir nəzər salınmışdır. Belə götürsək, onların hər birinin üzərində kifayət qədər dayanmaq, həyatları və əsərlərini elmi şəkildə araşdırıb təhlil etmək də mümkündür. Lakin bu zaman artıq mövzu bu yazının nəzərdə tutulmuş mətninin sərhədlərini xeyli aşaraqbaşqa bir səmtə yönəlmiş olardı. Biz burada Üsküplü şairləri birlikdə qiymətləndirərək, bu şəhərin mədəni dəyərlərini o biri şəhərlərlə müqayisə edib, onun mədəniyyət tarixindəki yerini oxuculara təqdim etmək istədik.

Üskup bu gün də bu milli dəyərlərinə görə mədəniyyət mərkəzi olmaq statusunu qoruyub saxlamışdır. Şəhər Makedonya, eləcə də bütün Yuqoslaviyada mövcud olan türk millətinin nümayəndələri üçün yenə də əhəmiyyətli bir mərkəz olaraq qalır. Bir çox Üsküplü çağdaş türk şairi bu gün də ədəbiyyatımızı zənginləşdirməkdə davam edirlər.

Yazını Üsküpün yetişdirmiş olduğu ən tanınmış divan şairi İshak Çələbinin bir qəzəliylə yekunlaşdırıram:

1). Diyar-ı gürbete düştük dedik gerçi sana yahu
Sakın devletli başınçün unutma ben kulun yahu

2). Tarik-i aşkını gerçi be- gayet pür-hatar derler
Refik olursa tevfikin bana bu yolda ne korhu

3). Koma gam gerdini dilde safayı-hatır istersen
Kuduretten beri olmaz yolun pak etmeyince su

4). Beni bir vech ile bidar ediptir halet-i-aşkın
Düşüm gibi gelir oldu kaçan fikr eylesem uyhu

5). Seraser alemin halkın helak etmek mi istersin
Behey zalim behey kafir nedir bu çeşm ü bu ebru

6). Miyanınla dehanınçün dil ü can cenge düşmüştür
Heman yok yere gavgadır ne ol var ortada ne bu

7). Beğim mahbuba can verir sözüne bakma İshakın
Ne var halt-ı kelam etse aceb mi ölecek sayru

1. Gerçək, qürbət əlinə düşüncə sənə Allaha tapşırdıq dedik: dövlətli sevgilim, başın üçün əsla məni unutma.

2. Eşq yolunun təhlükəli olduğunu söylərlər. Bu yolda sənin yardımın mənimlə olarsa, qorxu nədir bilmərəm.

3. Xoşbəxt olmaq istəsən könlündən qəm tozunu sil, çünki su yolu təmizlənməzsə, bulanıqlıqdan qurtarmaz.

4. Eşqinin sıxıntısı məni elə yuxusuz qoydu ki, bu yuxunu düşünmək mənə yuxu kimi gəldi.

5. Ey zalim, ey kafir, bu gözlər və qaşlar nədir belə, dünyadakı bütün insanları qətlə yetirməkmi istəyirsən?

6. Belin və ağzın üçün can və könül müdhiş bir savaşa girişmişlər, ancaq bu davanı nahaq edirlər, ortada nə o var, nə bu.

(Divan şeirində bel qıl kimi incə, ağız isə nöqtə qədər kiçik təsvir edilir. Şair kiçik olduqlarını düşünərək onları yox hesab edir)

7. Bəyim İshakın sözlərinə fikir vermə, çünki o sevgilisi üçün can verməkdədir, öləcək xəstənin cəfəng sayıqlamalarına çaşılarmı heç.

*(*Yazı "Türk Yurdu" jurnalı, Ankara 1990, s.32, s.54-57-də dərc olunub).*

İstifadə olunan ədəbiyyat:

1. "Tezkirelere Göre Divan Edebiyatı İsimler Sözlügü" Ankara, 1988.
2. "İslam Türk Diyanet Vakfı İslam Ansiklopedileri" ilə "Türk Dili ve Edebiyat Ansiklopedisi"nin əlaqədar maddələri.

ƏDƏBİYYAT TARİXİNDƏ PRİŞTİNƏ VƏ BURADA DOĞULMUŞ DİVAN ŞAİRLƏRİ*

Tarix boyunca müxtəlif quruluşların idarəçiliyində qalan Pristina M.Ə. 168-ci ildə, Makedoniya səfəri zamanı Romalılar tərəfindən Vicianum adlı bir qonaq mərkəzi olaraq inşa edilmiş, IX yüzillikdə isə bugünkü adını almışdır. Bir müddət Serb Krallığının mərkəzi olan bu şəhər 1.Kosova müharibəsindən (1389) sonra türklərin əlinə keçmişsə də, Osmanlı dövlətinin tabeliyinə keçən Serb Krallığına verilmişdir. Musa Çələbi Priştinəni 1412-ci ildə Osmanlı torpaqlarına qatmışsa da, dövlətin daxilində olan problər üzündən şəhər təkrar Serb Krallığına tabe edilmişdir. Bunun nəticəsi olaraq Priştinənın 80 km cənub şərqində olan Üsküp, bir Osmanlı torpağı olaraq getdikcə inkişaf etdi və Priştinənin yerinə bu bölgənin idarəçilik, mədəniyyət və hərbi mərkəzi oldu. Ancaq Priştinə II Murad tərəfindən 1439-cu ildəki hərəkat zamanı bir daha Osmanlı tabeliyinə keçmişdir. Beləliklə də, şəhər Rumeli bəylərbəyliyini təşkil edən beş əyalətdən biri oldu. Bu tarixdən etibarən 1689-cu ilə qədər öz stabilliyini saxlayan Priştinə idarəetmə mərkəzi ilə yanaşı, bir elm və mədəniyyət mərkəzi olaraq türk mədəniyyətinə böyük töhfələr vermişdir. 1689-cu ildəki Avstriya ordularının Balkanlardakı yürüşləri zamanı şəhər qısa bir müddət ərzində türk tabeçiliyindən çıxmışsa da, Səlim Giray tərəfindən təkrar geri alınmışdır. 1717-ci ildə buna bənzər işğal Avlonyalı Mustafa Paşa tərəfindən gerçəkləşdirildi. Priştinə II Murad dövründə parçalanan Rumeli bəylərbəyliyindən sonra qurulan beş əyalətdən biri olan Kosova əyalətinə mərkəz oldusa da, sonradan bu mərkəzçilik də Üsküpün əlinə keçdi. Osmanlı dövlətinin son illərində, bütün Balkanlar kimi Priştinə və onun ətraf əraziləri də çoxlu sayda işğal və basqınlara məruz qalmışdır. 2 oktyabr 1912-ci il tarixində Serb ordusunun şəhərə girməsi ilə 500 illik türk tabeçiliyi sona yetdi.

Şəhər türk tabeçiliyinin bu uzun sürən zamanında çoxlu sayda mədəniyyət mərkəzləriylə əhatə olunmuşdur. Bunlar əsasən camilər, mədrəsələr və təkkələrdən ibarətdir. Şairlərin həyatları haqqında

məlumatlar verən şairlər təzkirələrindən öyrəndiklərimizə görə Priştinə Osmanlı hakimiyyəti üçün katib yetişdirən bir bölgəymiş. Özü də Priştinədə doğulmuş, ömrünün əsas hissəsini orada keçirmiş və Üsküpdə vəfat etmiş (v. 1572) olan Aşıq Çələbi Nehari haqqında məlumat verərkən bu şəkildə nəql edirdi: "Mövludi Rumelində Prizrendir. Qəsəbəyi Rumelində sərvü əməni- mərifət olan haqdan və mənbəyi- kuyi- nəzmü nəsr olan gülüstan olmaqla məşhur Sehri-şöhrəti ayindir. Rəvayət olunur ki, Prizrendə oğlan doğulan zaman adından əvvəl təxəllüsünü qoyurmuşlar. Yenicədə doğulan oğlan ata deyən zaman Farısı söylər, Pristinədə oğlan doğulanda dividi belində doğulur deyirlər. Binayi qədimdən Prizren şairlər diyarı və Yenicə Farisi ocağı, Priştinə isə katib mənbəyidir."[243]

Doğrudan da, təzkirələrin anlatdığı Priştinli şairlərin həyatları haqqında məlumatlara baxıldıqda aydın olur ki, onların demək olar ki, hamısı katibliklə məşğul olublar. Katiblik divan şairlərinin hakimlik və müdərrislikdən sonra ən çox meyl etdikləri üçüncü sənət növüdür. Təzkirələrə daxil olan 3182 divan şairinin yüzdə 12-sinin sənəti katiblikdir[244].

Osmanlı dövrünün türk şairlərinin həyat və yaradıcılıqları haqqında məlumat verən mənbələrə şairlər təzkirəsi adını vermişdik. Anadoluda meydana gələn otuz bir təzkirədə altı Priştinli şairdən söz açılır[245]. Bu saydan hərəkət edərək şəhər üçün bunları söyləyə bilərik. Bu görüntüsüylə Priştinə dövləti Ədirnə, Saraybosna, Serez, Vardar Yenicesi, Üsküp, Manastır, Filibə, Selanik, Sofya və Belqrad kimi birinci dərəcəyə aid edilən mədəniyyət mərkəzlərinin ardınca özünəməxsus bir şair nümayəndələriylə təmsil olunmaqdadır. Bölgənin yetişdirdiyi ilk şair **Məsihi**dir. Əsl adı İsa olan şair, gənc yaşlarında təhsil alaraq İstanbula gəlmiş və həyatının bir hissəsini burada keçirmişdir. Onun təhsili haqqında da əlimizdə tam məlumat

[243] Aşıq Çələbi, "Meşâirü'ş-şuarâ", Üniversitet Ktb, 2406 141a.
[244] Bkz. Bu kitabdakı "Dîvân Şâirlerinin Mesleki Konumlar" adlı məqaləmizin 194-199 səhifələrinə baxın.
[245] Osmanlı şəhərlərinin şair potansiyalı üçün bu kitabdaki "Osmanlı Kültür Coğrafyasına Bakışlar" adlı məqaləmizin 171-178 səhifələrinə baxın.

yoxdur. Belə söyləyirlər ki, Məsihi təhsilini yarıda buraxmış və xətt sənətinə meyl edərək gözəl yazı yazmağı ilə diqqəti cəlb etmişdir. Bu bacarığı ilə Xadim Əli Paşanın (v. 1511) diqqətini çəkərək ona divan katibi olmuşdur. Bir müddət çox yaxşı gedən işləri Paşanın ölümüylə öz məcrasından çıxmış və ömrünü Bosniyada ona verilən kiçik bir təzminatla başa vurmuşdur. 1512-ci ildə burada vəfat etmişdir. Öz zövqü ilə və öz istədiyi kimi sərbəst yaşamağı üstünlük verən Məsihi bir sənət adamı kimi, ancaq Əli Paşanın yanında davam gətirib işləyə bilmiş, onun etibarını qazanmışdır. Başqa dövlət adamları onun bu kaprizlərini qəbul edə bilməmişdilər və bu üzdən də həyatının son illəri sıxıntı içində keçmişdir.

Mənbələr Məsihinin XV yüzilliyin sonu və XVI yüzilliyin əvvəllərində şeir tariximizi ən dəyərli adlarından biri olduğunu təsdiq edirlər. Divan şeiri bu illərdə formalaşmağa başlamışdır. Məsihi də Əhməd Paşa, Nəcati, Şeyxi və Zati ilə birlikdə bu formalaşmanın müəlliflərindəndir.

Şair şeirlərini divanda toplamışdır. Bunların arasında Əli Paşaya həsr etdiyi nəzirə ilə "Bahariyyə"si məşhurdur. Demək olar ki, türk dilindən dünya dillərinə ən çox tərcümə edilmiş şeir "Bahariyyə"dir. Hələ 1774-cü ildə ingiliscəyə çevrilmiş, sonra İtalyanca, fransızca, rusca, almanca, serbcə və arnavutca çevrilərək nəşr olunmuşdur. Bundan başqa, bir şəhr-əngizi də vardır. Bildiyimiz kimi şərh-əngiz bir şəhərin gözəllərindən və gözəlliklərindən bəhs edən məsnəvi tərzində yazılmış şeirlərə deyilir. Klassik ədəbiyyatın bir çox növ və formasından fərqli olaraq şəhr-əngiz ədəbiyyat tarixinə bizim əlavə etdiyimiz bir növdür. Bu ona olan məlumatımıza görə bu növün ilk nümunəsini yazan şair Məsihidir. Amma bu şəhr-əngiz Priştinaya həsr olunmayıb, o dövrdə ən gözəl şəhərlərdən olan Ədirnəyə həsr olunmuşdur. Məsihidən sonra bu növ başqa şairlər tərəfindən də sevilmiş və ayrı-ayrı şəhərlərə həsr edilmişdir.

Məsihidən sonra Priştina XVI yüzillikdə klassik şeirdə üç qardaş şairlə təmsil olunmuşdur. Bunlar **Əzmi, Lövhi və Nuhidir**. Əfsuslar ki, bu qardaş şairlərin həyatları haqqında əlimizdə xüsusi bilgilər yoxdur. Adda-budda olan məlumatlar isə belədir: əsl adı Əhməd olan Nuhi təhsilini tamamladıqdan sonra İstanbula gəlib,

dövlət adamlarının yanında katiblik etmişdir. Daha sonra xəzinədar Davud Paşanın yardımıyla divan katibliyinə yüksəlmişdir. Dövrün padşahı Qanuni Sultan Süleymanın maraq və hörmətini qazanmış və Manisada vali olan şahzadə Məhmədə sirr katibi təyin edilmişdir. Şahzadənin gənc yaşda ölümü ilə əlaqədar İstanbulda vəzifəyə təyin olunmuşdur. Qanuninin Van səfərinə qoşulmuş və bu zaman Vanda vəfat etmişdir. Qaynaqlar tiryək düşgünü olduğundan söz edirlər. Ölümünün də bu üzdən olduğu bu əsərlərdən aydın olur. Şairin özündən sonra qalan əsəri yoxdur. Sadəcə qaynaqlarda bir neçə beyti nümunə olaraq verilmişdir.

Lövhi isə qardaşının əksinə olan bir həyat tərzi keçirmişdir. Mükəmməl bir mədrəsə təhsili aldıqdan sonra təsəvvüfə meyl etmiş və öz dövrünün tanınmış loğmanı Mərkəz Əfəndiyə qoşulmuşdur. Onun da şeirləri bir divana toplanmamışdır. Əlimizdə ancaq nümunə kimi tək beytləri vardır.

Qardaş şairlərin üçüncüsü olan Əzminin əsl adı Mustafadır. Ağabəyi Nuhi tərəfindən yetişdirilmiş və o da Şahzadə Mustafanın maliyyə işlərində işləmiş, sonra İstanbula gəlmişdir. Həyatının son illərində ağlını itirmiş və sərgərdan şəkildə yaşamışdır. O da öz şeirlərini kitab halına sala bilməmişdir.

Mustafa Çələbi də XVI yüzillikdə yaşamış və katiblik etmişdir. Qanuni dövründə yaşamışdır. Get-gedə öz sənətində yüksəlmiş və dəftərdar işləmişdir. Və bu vəzifədə ikən vəfat etmişdir. "Mehrü vəfa" adlı bir məsnəvisi vardır.

Bu yüzildə yaşamış başqa şair də **Hatifi**dır. Aşıq Çələbiyə görə, təzkirənin yazıldığı 1566-cı ildə böyük ümidlər verən bir şairmiş. Həyatı haqqında verilən qısa məlumatları doğrultmadığı, ya da gənc yaşlarında öldüyü üçün sonrakı təzkirələrdə ona yer verilməmişdir.

Maraqlıdır ki, XVII, XVIII hətta XIX yüzilliyin qaynaqları Priştinəli şairlərdən söz açmırlar. Tənzimatdan sonrakı illərə görə daha çox genişlənən imkanlara görə daha bir dəfə inkişaf edən Rumelidəki mədəni həyat da Priştinəyə yeni şair adlar qazandırmamışdır. Məsələn, nə Fatin təzkirəsində, nə də ki, "Son Əsr türk Şairləri"ndə bu şəhərdən olan bir şairə rast gəlinmir. Bunu bəlkə də, başqa Rumeli şəhərləri ilə birlikdə izah etmək gərəkdir.

Rumelidə siyasi tarix baxımından olduğu kimi mədəniyyət tarixində də XVII yüzildən etibarən, bir neçə şəhər istisna olmaqla, geriləmə dövrü müşahidə olunur. Bu uğursuzluq şübhəsiz ki, Priştinəyə də öz təsirini göstərmişdir. Priştinə 1950-ci illərdən etibarən yenidən gündəmə gələrək xüsusilə "Tan" qəzeti, "Çevrən" və "Quş" jurnallarıyla və yetişdirdiyi şairlərlə birlikdə türk dili və ədəbiyyatına böyük dəyərlər qazandırmışdır.

*(*Yazı "Tan" qəzetinin 8.1. 1992 tarixli nömrəsində dərc olunub).*

İstifadə olunan ədəbiyyat:

1. "Tezkirelere Göre Divan Edebiyatı İsimler Sözlügü". Ankara, 1988.

"İslam Türk Diyanet Vakfı İslam Ansiklopedileri" ilə "Türk Dili ve Edebiyat Ansiklopedisi"nin əlaqədar maddələri.

DİYARBƏKİRLİ DÜŞÜNCƏ VƏ SƏNƏT ADAMLARI*

Şəhərlərin meydana çıxıb inkişaf etməsində müxtəlif faktorların rol oynaması məlumdur. Amma şübhəsiz ki, bunların içində ən mühümü şəhərin coğrafi mövqeyidir. Cənub-şərq Anadolusunun bu gün də ən əhəmiyyətli şəhərlərindən olan Diyarbəkir də öz üstünlüyünə görə şimal tərəfdən yaylalar, cənubdan çöl mənzərəli ovalıqlar arasında yerləşən bir sahədə olmasına və böyük bölgələri bir-birinə bağlayan yol ayrıcında yerləşməsinə borcludur. Bu yollardan biri Anadolu və Suriyadan gələrək İraqa keçir. Ağdəniz sahillərini Bəsrə körfəzinə birləşdirən bu ən qısa yoldan Diyarbəkirdə ikinci bir yol ayrılaraq şimaldakı dağ silsiləsini Dəvəboynu keçidi ilə aşıb Elazığ və Sivas üzərindən Samsuna çatır və bu sürətlə orta şərq ilə Qaradəniz sahilləri arasında əlaqə yaratmış olur. İkinci başqa bir yol da şəhəri Bitlis və Van gölü körfəzi üzərindən Azərbaycan və İrana bağlayır. Bunlara şəhərin bəzi təbii imkanları və istehkam formalı şəhər divarlarının vasitəsilə asanlıqla müdafiə olunma xüsusiyyətini, eləcə də, Dəclə çayı vasitəsilə Mosula doğru hərəkət edən nəqliyyat vasitələrini də əlavə etmək olar. Bu məziyyətlərinə görə Diyarbəkir tarix boyunca mühüm bir ticarət, siyasi əlaqə mərkəzi olmuş və bunların nəticəsi olan mədəniyyət ocağına çevrilmişdir.

Diyarbəkir Anadoluda müsəlmanlar tərəfindən fəth edilən ilk mərkəzlərdən biridir. Hələ 639-cu ildə Əlcəzairin fəthi üçün göndərilən İyaz komandasındakı ordu bu şəhəri də mühasirəyə almış və ordunun sol qanadına rəhbərlik edən Xalid b. Vəlid tərəfindən ələ keçirilmişdir. Bundan sonra da bir neçə dəfə Bizans orduları tərəfindən mühasirəyə alınmasına baxmayaraq, heç bir zaman müsəlman idarəçiliyindən çıxmamışdır. Şəhər öz mədəniyyət mərkəzi yerini qorumuş və XII yüzilliyin əvvəllərinə qədər islam dünyasının dördüncü elm və ədəbiyyat mərkəzi sayılmışdır.

Şəhər dini baxımdan da bir mərkəz hesab oluna bilər. Müsəlmanların dörd böyük təriqətinin bu bölgədə fərqli təsirləri olmuş, ancaq günümüzdə bunlardan yalnız Şafii və Xənəfi təriqətləri

gəlib çatmışdır. XII yüzillikdə Diyarbəkirdə dörd sünni təriqəti bir zamanlar mövcud olmuşdur. Məsudiyyə mədrəsəsi dörd təriqətə aid fiqhin tədrisi üçün nəzərdə tutulmuşdur.

Diyarbəkir XI yüzilliyin sonlarından etibarən türk idarəçiliyinə keçmişdir. Bu tarixdən etibarən də şəhər müxtəlif türk boylarının hakimiyyəti altında qalmışdır. Bu dönəmdən başlanaraq şəhər zaman-zaman türk boylarının paytaxtı olmuşdur. Diyarbəkir bu dövrlərdə daha çox inkişaf etmiş, Anadolunun türkləşməsi və islamlaşması dövründə də mühüm bir keçid nöqtəsi olmuşdur. Xüsusilə də Ağqoyunluların paytaxtı olması onu daha da qiymətli edirdi.

Diyarbəkirin türk tarixində əhəmiyyətini artıran xüsusiyyətinin kökündə babalarımızın Anadoluya gələrkən bu torpaqlara şərqi Anadolu üzərindən deyil, cənub-şərqi Anadolu üzərindən keçib gəlmələri olmuşdur. Müsəlman ərazisi olaraq İran, Azərbaycan və Bağdad çevrəsi türklər üçün bir cazibə mərkəzi olmuş və türk boyları kütləvi şəkildə Orta Asiyadan buralara doğru axışmağa başlamışlar. Bir müddət sonra Monğol işğallarının təsiriylə bu dəfə Anadoluya doğru bir köç başlamış və bu köçlər o zaman müsəlman olmayan millətlərin nəzarətindəki şərqi Anadolu tərəfindən deyil, çox qədim dövrlərdən etibarən müsəlmanlaşmış cənub- şərqi Anadolu bölgəsindən keçməyə başlamışdır. Əgər tarixə nəzər salmış olsaq Hısn-keyfa Artukluları (1098-1231), Mardin Artukluları (1104-1407), Harput Artukluları (1185-1233), Meyyafarikiyn Əyyubiləri (1200-1259) Hisn-Keyfa Əyyubiləri (1232-1534)), Bitlis Atabəyləri (1084-1192), Əhlət Atabəyləri (1100-1207), Diyarbəkir Atabəyləri (1095-1183), Sitaylar (1312-1350) kimi çox sayda türk dövlətlərinin bu bölgədə qurulması da diqqətə çatacaqdır. Osmanlı dövlətini quran Kayı boyunun da bir müddət Hələb dolaylarında dolaşdığı və böyük ataları Süleyman şahın Pakka ətrafındakı Firat çayında boğulduğu və Caber qalasında dəfn olduğu nəzərə alınarsa, başlanğıcda bütün köçlərin Anadoluya bu bölgə üzərindən gəldiyi aydın olur. Bu köçlərin son türk dilinə böyük təsiri olmuş və XIII yüzildən etibarən bir-birindən bəlli ölçülər içində fərqli olan yazı dilləri təşəkkül etməyə başlamışdır. Diyarbəkir və çevrəsi, bu fərqli yazı dillərinin, ya da türkcənin tarixi baxımından da mühüm bir nöqtədir. Yazı

dili ilə yanaşı şifahi xalq danışıq dili baxımından da bu şəhər eyni xüsusiyyətlərə malikdir. Demək olar ki, Orta Asiyada ortaya çıxmış olan mədəni dəyərlər Anadoluya daşınarkən Diyarbəkir adətən bir vasitəçi vəzifəsini yerinə yetirmişdir. Bu əhəmiyyətli tərəfinə görə də bu bölgədə meydana gələn şifahi və yazılı dil bir tərəfdən Orta Asiya çevrəsinə xas xüsusiyyətləri, o biri tərəfdən isə Anadoluya xas ağız və özəllikləri daşımışdır. Bu gün folklorumuzun, klassik mətnlərimizin, jarqonlarımızın və yazı dilimizin yayılma sahələri xəritələrdə göstərilərsə, bu söylədiklərimizin orada əsas və qalın cizgilərlə ortaya çıxa biləcəyi qənaətindəyəm.

Yavuz Sultan Süleymanın Çaldıran döyüşü (1514) vaxtında Osmanlı torpaqlarına qatılan şəhər, bir müddət daxili çəkişmələrə məruz qaldığı üçün xarabalığa çevrilmişdi. Osmanlı tabeliyi zamanında Diyarbəkir uzun bir müddət daxili və xarici təhlükələrdən uzaq qalması, dövlətin ən mühüm və ən böyük əyalətlərindən birinin mərkəzinə çevrilməsi və İrana qarşı aparılan müharibələrdə ordunun qışlağı olması nəticəsində öz əvvəlki ehtişamını yenidən əldə etdi. Bu vəziyyətə uyğun olaraq memarlıq və mədəni quruculuq işləri başlandı. 1660-cı ildə buranı ziyarət edən səyyah Poullet, Diyarbəkiri gördüyü şəhərlərin ən gözəli hesab etmişdir. Poulletə görə şəhərin bazarları ölkədəki başqa şəhərlərdə gördüklərindən daha böyük və daha gözəldir. İran, Misir, Qafqaz, Polşa və Rusiyadan tacirlər bura gələrək ipək, pambıq, liflik və dəri alıb öz ölkələrinə aparırdılar. Bütün bu dəyərlər Diyarbəkiri mədəni cəhətdən də siyasi sahəyə uyğun bir vəziyyətə gətirdi. Şəhərin yetişdirdiyi Osmanlı şairləri başqa mərkəzlərlə müqayisə etmiş olsaq, Diyarbəkirin üstünlüyü o dəqiqə üzə çıxacaqdır[246].

Diyarbəkir Osmanlı ərazisində ən mühüm bir mədəniyyət mərkəzidir. Şəhərin bu mühüm xüsusiyyəti çox qədimlərdən bəri araşdırıcıların diqqətini çəkmiş və Diyarbəkirin bu potensialını göz önünə çıxaran yazılar yazmışlar. Bunların ən məşhurlarından biri

[246]Mövzu ilə bağlı bu kitabdakı "Osmanlı Kültür Coğrafyasına Bakışlar" adlı məqaləmizin 171-178 səhifələrinə baxın.

isə Əli Əmirinin Diyarbəkirli şairlər üçün hazırladığı "Təzkireyi -Şüərayı- Amid" adlı əsəridir.

Əli Əmiri Əfəndinin toxunduğu mövzuda başqa bir dəyərli əsər isə digər bir Diyarbəkirli araşdırıcı Şevkət Beyşanoğlu tərəfindən gerçəkləşdirilmişdir. "Diyarbəkirli düşüncə və sənət adamları" adlı üç cildlik şəklində yayımlanan bu dəyərli sənət əsərinin ilk cildi İstanbulda, 1957-ci ildə nəşr edilmişdir. Araşdırıcı bu cilddə şəhərin müsəlmanların əlinə keçməzdən əvvəlki imkanlarına dair də bilgilər vermişdir (14 nəfər). Bunlara əlavə olaraq islam dönəmində yetişmiş önəmli müəlliflər də tanıdılmışdır. (Ümunilikdə bu cilddə 81 müəllif verilir). Amma kitabın əsl diqqətçəkən hissəsini türkcə yazan müəlliflər təşkil edir. Beysanoğlu əsərinə daxil etdiyi şairləri bioqrafiya ənənəsinə uyğun şəkildə qələmə alıb dəyərləndirir. Bioqrafiyaların yazılma çərçivəsində və müəllifin yaradıcılığına uyğun şəkildə oxucuya təqdim edir. Həyat hekayələrindən sonra müəllifin əsərlərindən nümunələr verilir. Hər bioqrafiyanın sonunda isə biblioqrafiyalar yer alır. "Diyarbəkirli Düşüncə və Sənət Adamları"nın II cildində (İstanbul 1960) Tənzimatla Cümhuriyyət arasında yaşamış 81 şəxsə yer verilmişdir. Bu cilddə də izlənən metod bir başqa cürdür. Buradakı qaynaqlar yaxın dövrlərə aid olduğu üçün bəzi şəxslər haqqında daha çox məlumatlar əldə etmək mümkündür. Şəhər monoqrafiyalarının əsas əhəmiyyəti də budur. Bu üzdən Beysanoğlu Diyarbəkirli olmayan bir araşdırıcının tapa bilməyəcəyi məlumatları da taparaq əsərində dərc etmişdir. Bu da şübhəsiz ki, əsərin dəyərini artıran cəhətlərdən biridir.

Türk ədəbiyyatında şəhərləri tanıda biləcək monoqrafiyalar çox azdır. Belə olan halda Beysənoğlunun bu əsəri qiymətsiz bir əsərdir. Şairlər təzkirələrində şairlərin sayı 40-a çatırsa, bu əsər vasitəsilə onların sayının 200-ə yaxın olduğunu görürük. Bu da onu göstərir ki, bu şəhərin mədəni potensialını təsdiq etmək üçün əsər təzkirələrdən 5 dəfə artıq bir faktı ortaya qoyur. Bu kitabın işıq üzü görməsindən 40-45 il keçir və onun haqqında araşdırma aparılıb- aparılmaması haqqında məlumat yoxdur. Ancaq şəhər monoqrafiyasıyla yetərincə məşğul olan birisi olaraq deyə bilərəm ki, bu əsər hələ də dilimizin

ən mühüm şəhər monoqrafiyasıdır və qəlbimizdə əbədi olaraq Bəysənoğluna dərin bir minnətdarlıq hissi yaratmışdır. Görəsən, Diyarbakırı belə gündəmdə saxlayan bir kitabın nəşri ilə bağlı olan rəsmi təşkilatların bu kitabı təkrar çap etmək vaxtı çatmayıbmı?!

*(*Yazı"Yedi İklim"jurnalı İstanbul 1996 s.35, s.51-53-də dərc olunub).*

KLASSİK MƏDƏNİYYƏTDƏ SAKARYA VƏ ONUN ƏHATƏSİ*

Şəhər və mədəniyyət bir-biriylə ən çox bərabər düşünülən iki sözdür. Məlumdur ki, mədəniyyətin inkiaşaf etdiyi məkanlar bir qayda olaraq şəhər mərkəzlərindən ibarət olmuşdur. Burada şəhərlə dövlətin idarəetmə qurumları arasındakı əlaqəyə də fikir vermək lazımdır. Çünki şəhərin bir mənası da idarəetmə mərkəzi olmağındadır.

Başlanğıcda Şərq türklüyü və Şərq türkcəsi çərçivəsindəki təşşəkkül tapmış şəhərlər babalarımızın Anadoluya köçündən etibarən Qərb türkçülüyü üçün də gerçəkləşdi. Şübhəsiz, Şərqdən gələn bir köç nəticəsində bu torpaqlar yurd halına gəlməyə başladığı üçün ilk şəhərlər Anadolunun şərqində yaranmağa başlamışdır. Sakarya və ətrafı üçün bir tarix yazmaq gərək olsa, bu tarix Osmanlı quruluşu zamanına təsadüf edəcəkdir. Bildiyimiz kimi mədəni fəaliyyətlər siyasi fəaliyyətləri müəyyən bir məsafədən izləməkdədir. Bu üzdəndir ki, Osmanlı dövlətində elmin, sənətin və mədəniyyətin bünövrəsini təşkil edən əsas sütunlardan biri olan mədrəsələrin inşa edilməsi Orxan Qazi dövründə gerçəkləşdi. İlk mədrəsə indi Sakaryaya qonşu bir qəsəbə olan İznikdə açıldı. Mədəniyyətin yaranmasının başqa bir sütunu olan təkkələr isə bu dövrdə yenə Sakarya yaxınlığında Biləcikdə, Göynükdə inşa edilmişdi. Qələmə alınacaq başqa sahə olduğu üçün mən bu işin tarixinə toxunmaq istəmirəm. Amma bunu söyləmək istəyirəm ki, coğrafi ərazi cəhətdən Sakaryanın əvvəlcə cənub bölgələri fəth edilmişdir.

Bu, sadəcə Osmanlı dövlətinin bu tərəfə sərhəd olmasıyla bağlı deyildi. O illərdə şəhərin bu gün yerləşdiyi nöqtə və şimal tərəfləri yaşayış üçün çox əlverişli hesab edilmirdi. Bu üzdəndir ki, başlanğıcda köç etməyə uyğun bir mərkəzi axtarsaq bunu cənubda yerləşən mərkəzlər arasında axtarmaq gərəkdir. Bu mərkəzlər də təxmin ediləcəyi kimi Geyvə və Taraklı ola bilər. Əvvəlki xronolojilərdə bölgədə adı keçən başlıca mərkəzlər bunlardır. Ancaq dərhal qeyd edim ki, ilk dövrlərin iki qonşu ölkəsi olan Göynük və İznik həm təsəvvüf, həm də elm tarixində diqqəti cəlb edən

mədəniyyət mərkəzləri ikən, Taraklı və Geyvə üçün bu mənada hər hansı bir məlumata təsadüf edilmir. Haqqında danışılan ölkələr bu təsəvvüf təriqətlərinə görə iki Bayramlı şeyxi Ağşəmsəddin (v. 1459) və Əşrəfoğlu Abdullah Rumiyə (v. 1470) borcludurlar. Bununla belə demək olar ki, İstanbuldan Ankaraya və Bursadan Ankaraya doğru uzanan karvan yolunun, eyni zamanda, öz ətrafında mədəniyyəti yaratmaqda, mədəniyyəti inkişaf etdirməkdə əvəzsiz xidməti olmuşdur.

Sözsüz ki, bunların başında coğrafi mövqe dayanır. Məlumdur ki, şəhərlər müxtəlif şərtlərin təsiri altında meydana gəlir və sonradan tərəqqi edərək dəyişir, mərkəzə çevrilir. Bunlardan bəziləri mədəni ehtiyacların təmin edilməsində, eyni zamanda mədəni qurumların burada özlərini tapmaq və doğrultmaq baxımından bir əlverişli məkan olaraq əhəmiyyət kəsb edirlər, digər bir qismi isə əlverişli coğrafi mövqeyə sahib olmaları, ticarət yollarının üstündə yerləşməsi kimi faktorların nəticəsində öz mövqelərini qoruyub saxlayırlar. Geyvə və Taraklı birinci qrupa daxil olan şəhərlərin ən səciyyəvi nümunələrindəndir. Karvan yolu bu şəhərlərdən keçərkən bu şəhərlər həm siyasi, həm iqtisadi, həm də mədəni tərəqqi cəhətdən inkişaf edən bir mərkəzə çevrilmişlərsə, yeni yolun yaranması ilə bu mövqe dəyişmiş, artıq həmin şəhərlər sıradan bir yaşayış yerlərinə çevrilmişdilər.

Bayramiliyin qurucusu Hacı Bayram Vəlinin qurduğu bayramilik bu yolüstü yerlərdə yayılmış və Göynükdə Ağşəmsəddin, İzmikdə Əşrəfoğlu Abdullah Rumi, Geliboluda Yazıçızadələr bayramiliyin təmsilçiləri olmuşdular. Yekun olaraq deyə bilərik ki, Osmanlı dövründə İznik klassik şeirə 11, Göynük isə 4 şairlə qatılmışdır.

Amma Sakarya ərazisində bayramiliyin hansısa bir fəaliyyətinə rast gəlinmir. Sadəcə başda Göynük olmaq üzrə bölgədə fəthləri və əsərləri mövcud olan Orxan Qazinin oğlu Süleyman Paşaya (1317-1360) aid bugünkü Pamukovada bir, onun yaxınındakı Mərkəcədə Orxan Qazinin adına bir və Geyvədə Əlvan Bəy oğlu Sinan bəyin (v. 1478) adına olan bir zaviyə məlumdur[247]. Amma bunların hansı

[247] Cahit Baltacı, "Osmanlı Medreseleri", İstanbul 1976, s.429; Əkrəm Hakkı Ayverdi, "Osmanlı Mimarisinin İlk Devri" İstanbul 1989, C.1, s.189; C.III, s.275.

təriqətə aid olduqları haqqında qaynaqlar heç bir məlumat vermir. Eyni şəkildə bu yaşayış mərkəzlərinin heç birində Osmanlı quruluşu və Adabazarın çevrəsinin fəthi illərində mədrəsəyə təsadüf etmirik. İndiki Sapancanın köhnə adı olan Ayan kəndi adında bir Osman Qazi mədrəsəsindən söz açılırsa da bu mənə inandırıcı görünmür[248]. Sakarya bölgəsində qarşımıza çıxan ilk intellektual məlumat, Osmanlı tarixçilərinin qədim nümunələrindən olan Aşıqpaşazadənin (v. 1481 və ya 1502) "Təvarixi– Ali Osman"ında da yer alır. Aşıqpaşazadə əsərini yazarkən Osmanlı tarixinin başlanğıcından İldırım Bayazid dövrünün sonuna qədər olan dövrün qaynağının, 1413-cü ildə Geyvedə xəstəlik üzündən qaldığı Osman Qazinin İmamı İshak Fəqihin oğlu, Yahşi Fəqihin evində oxuduğu bir kitab olduğunu göstərir[249]. Bu gün əlimizdə olmayan Osmanlı tarixi haqqındakı bu kitab demək olar ki, bu mövzuda yazılmış birinci nümunədir. Amma bizi maraqlandıran əsas cəhət xanədanlığa yaxın olan Yahşi Fəqih kimi bir ziyalının bu bölgədə yaşamasından xəbər tutmağımızdır.

Daha sonrakı vaxtlarda ağla gəlməyən bir bölgədə- Ağyazinin bir kəndində başqa bir təsəvvüf hərəkatıyla rastlaşmağımızdır. Xüsusilə Bolu və ətrafında təsir gücünə malik olan Xəlvəti təriqəti demək olar ki, Ağyazı bölgəsində də öz təsirini göstərərək Karapürcək kəndində bir dərgah meydana gətirmişdir. Ətayinin Şəqayiq Zeylində həyatı ilə bağlı məlumatlar verilən Şeyx Sənan bu kənddə doğulub, təsəvvüf təhsilini Boluda tamamlamış, sonra da babası Bayram Baba və atası Şeyx Əhmədin də şeyxlik etdiyi postda əyləşmişdir[250].

Bəs bölgənin klassik şeir baxımından görüntüsü necədir? Mənbələr bölgənin yetişdirmiş olduğu tək bir şairdən söz açırlar. Təxmin etdiyimiz kimi bu bölgə də Geyvədir. Çünki divan ədəbiyyatı bir şəhər ədəbiyyatıdır və xüsusilə inkişaf edib üzə çıxacağı yer şəhər adını almış mərkəzlərdir. Daha əvvəldən də qeyd edildiyi kimi, XIX əsrin əvvəllərinə qədər də bölgədə tarixin daşıyıcısı yalnız bu qəsəbədir. Haqqında söz açılan şair isə Gülahidir.

---

[248] Əkrəm Hakkı Ayverdi, "Osmanlı Mimarisinin İlk Devri" İstanbul 1989, C.1, s.198.
[249] "Büyük Türk Klasikleri", İstanbul 1985, s.309.
[250] Atayi, "Hadâiku'l-hadâik fi Tekmileti'ş-şakâik", İstanbul 1989, s.202.

Osmanlı şair təzkirələri XVI yüzildə Gülahi adlı bir şairi Geyvəli kimi göstərmişdir[251]. Qaynaqların verdiyi məlumatlara görə Gülahi Geyvədə doğulub. Əlimizdə doğum tarixi haqqında məlumat yoxdur. Bunu da təbii qarşılamaq lazımdır, çünki şair bioqrafiyaları ənənəsinə görə verilən şair o qədər də tanınmış biri deyilsə, onun doğum tarixi haqqında məlumat verilməz. Güvahi sözü şairin təxəllüsüdür. Əsl adı Məhmətdir. Atasının adı isə Abdullahdır. Güvahinin həyatı haqqında da qaynaqlar məlumat vermirlər. Məsləkinin Sipahi olmasına görə onun mədrəsə şairi deyil, əsgər şairlərdən olduğunu yəqin etmək mümkündür. Bildiyimiz klassik şeirin 3,7 %-ni əsgər şairlər təşkil edirlər. Bunun da təxminən yarısını (ümumi sahənin 1,4%-ni) sipahilər təşkil edir[252]. Osmanlı dövlətində özünəməxsus bir əsgər soyunu daşıyan tımarlı sipahilər mülkiyyətinə verilən ərazinin bəzi gəlirlərinə görə qanunun icazə verdiyi sayda altı əsgər saxlamaq və səfər zamanı bunlarla birlikdə orduya qatılmaq məcburiyyətində idilər. Güvahi də belə bir sipahi idi və o da zaman-zaman mənsub olduğu dəstə ilə birlikdə Osmanlı dövlətinin təşkil etdiyi yürüşlərə qatılmışdır. Məsələn, Yavuz Sultan Səlimlə birlikdə 1517-ci ilə təsadüf edən Misir səfəri bunlardan biridir. Şairimizin harada nə zaman öldüyü də bizə məlum deyil. Yalnız onun 1519-20-ci illərdə sağ olduğu, 1526-cı ildən sonra vəfat etdiyi göstərilir.

Güvahinin əlmizdə üç əsəri vardır. "Pənd-namə", "Qürbət-namə" və "İbrət-namə". Son iki əsər iki kiçik məsnəvidir. Güvahinin əsl əsəri sayılan "Pənd-namə" isə üzərində dayanılması gərək olan 2133 beytlik maraqlı bir əsərdir. Xalqa dini təsəvvüf öyüdləri verən kitablar olan pənd-namələr xüsusilə toplumların yaranmasında üzə çıxan didaktik əsərlərdir. Bu növ əsərlərdə qısa və mənalı sözlər işləndiyinə görə atalar sözləri və aforizmlərdən tez-tez istifadə edilmişdir. Güvahinin sözü gedən növə aid olan bu əsərində də

[251] Lətifi "Tezkire", İst. 1314, s.287; Aşıq Çələbi, "Meşâirü'ş-şuarâ", London, 1971, v.; Həsən Çələbi (Haz. İbrahim Kutluk), Ankara, 1981, C.2, s.824; Beyânî, "Tezkire", Millet Ktb., Ali Emiri, Tarih, 757, v.; Kâtib Çələbi "Keşfü'z-zünûn", C.2, s.1514; Mehmet Hengirmen, "Pendnâme", Ankara, 1983, s.13. "Tezkirelere Göre Dîvân Edebiyatı İsimler Sözlüğü", Ankara 1988, s.165.

[252] Bkz. "Dîvân Şâirlerinin Mesleki Konumları", bu kitabda, s.190-202.

atalar sözlərinə çox yer verilmiş və əsər bir atalar sözü məcmusuna çevrilmişdir. O, əsərdə verdiyi atalar sözlərini seçərək türk atalar sözlərinin ilk yazılı nümunəsinin birini bizə yadigar qoymuşdur. Bu mənada, Sakaryalı olan Güvahinin əsəri sadə dili və səmimi təhkiyəsi ilə həm pəndnamə növünün maraqlı nümunələrindən biri olmuş, həm də Anadoluda yerli ədəbi anlamın ilk nümunələrindən biri kimi tanınmışdır. Sakarya bölgəsi qurulduğu illər ərəfəsindən sonra artıq Osmanlı coğrafiyası üçün önəmli bir siyasi mərkəz olmaqdan çıxdı. Qaynaqlar bu bölgədə doğulmuş hər hansı bir müəllifə yer verməməklə, bu mənzərəni mədəniyyət sahəsində də təsdiq etmişlər. XIX yüzillikdən etibarən sənaye dövrünün gətirdiyi yeni dəyişikliklərlə Osmanlı ölkəsində ortaya çıxan yeni quruculuq bu mənada Sakarya bölgəsinə də təsir etmiş və bu dəfə Adabazarı mərkəz olmaqla şimala doğru da bir hərəkət başlanmışdır. Bu dövrdə həm Qafqazlardan, həm də Balkanlardan gələn köçlərlə əhalisinin sayı artan bölgə sürətlə inkişaf edərək dəyişmiş və bu yeni mərhələ 1954-cü ildə şəhərin vilayət olması ilə nəticələnmişdir. Şəhərdə siyasi və iqtisadi sahələrdəki bu irəliləmə ilə əlaqədar olaraq yeni mərhələdə mədəni platformada mühüm bir inkişafın olmaması çox diqqətçəkicidir. Bu vəziyyəti mədəni inkişafın siyasi inkişafı müəyyən bir məsafədən izləməsi qanunu və mədəni təməllərin təşəkkül tapmaması ilə bağlamaq qənaətindəyəm.

Bu dövrdə şəhərin yetişdirdiyi **Sait Faiq Abasiyanık** (1906-1954), **Nəcati Mərf** (1945) kimi ədəbiyyatçılarla **Şadan Bezeyiş** (1926), **Burak Sezgin** (1935-1978) **Gürsel Hüsnü** (1925), **Özcan Vedat** (1927) kimi mədəniyyət xadimlərindən yalnız daha gənc olanları orta təhsillərini Sakaryada almışlar, digərləri İstanbul ya da Bursa kimi ətraf şəhərlərə üz tutmuşlar.

Bu mənada, Sakaryaya bir mədəniyyət atmosferi gətirsək, onu iqtisadi və mədəni mərkəzə çevirəcək, yüksək tərəqqiyə bərabər tutan ən önəmli mədəniyyət ocağı Sakarya Universitetidir. Keçmişdə mədrəsələr və təkkələr vasitəsiylə yaranan mədəniyyət qurucuları şəhərləri elm və sənət mərkəzinə çevirdiyi kimi, müasir dövrümüzdə də bu vəzifəni universitetlər yerinə yetirməkdədir. Şübhəsiz bu bünövrəni möhkəmləndirən əsas təməllərdən biri də

sivil qaydada qurulmuş bələdiyyələrdir. Sakarya Universiteti təhsil-təlim fəaliyyəti ilə yeni elmi mərkəzlər açmağa, müxtəlif sahələrdə elm və mədəniyyətin inkişafına təkan verərək Sakaryanı yeni bir tərəqqi və inkişaf meydanına çevirmişdir. Sahib olduğu müxtəlif elm və sənət adamlarına, xüsusilə sosial elmlərin təşəkkülünə əvəzsiz bir laboratoriya olan bölgə bu məqsədlər üçün açacağı araşdırma mərkəzləri ilə universitet üçün də çox gözəl bir tədqiqat sahəsi olacaqdır.

(**Yazı "I Sakarya Çevrəsi Tarix, Mədəniyyət Simpoziumu". 22-23 iyun 1998, "Bildiriler kitabı" Adapazan 1999. s.227-231-də dərc olunub).*

TÜRK BİOQRAFİYASININ ÇAĞDAŞ TƏNQİDÇİLƏRİ HAMMER VƏ BEHCƏT NECATİGİL*

İnsanla yaşıd bir elm sahəsi olan bioqrafiya bizdə ərəb və fars ədəbiyyatı ənənəsi üzərində qurulmuş, ustadan şagirdə keçən bir sənət kimi ortaq islam mədəniyyətlərinin bir növü olaraq yüzillər boyunca davam etmişdir[253].

Türkcə bioqrafiya yazmaq ənənəsi ilk əvvəl Cığatay ədəbiyyatında Nəvai ilə başlamış və qısa bir müddətdən sonra Osmanlılara keçmişdir.

Qərb türkcəsi ənənəsində də bioqrafiya əvvəl ümumi tarixlərin içində yer alırdı. Buna görə də əvvəlki illərin tarixlərinin hamısında bir bioqrafiyaya rast gəlmək mümkündür (İsen 1995. 215). Ümumi tarixlərdən ayrılaraq müstəqil şəkildə qələmə alınan ilk təzkirə kitabı nümunəsi Laminin "Nəfəhatül-üns"ünün tərcümə və zeylini ehtiva edən "Fütuhül-mücahidin li Tərvihi Qulubül-müşahidin" (1520) əsəridir. Şairlər təzirəsi olaraq ilk əsər isə Səhi bəy tərəfindən qələmə alınmışdır.(Kut 1978). Səhi bəydən sonra xüsusilə Lətifi və Aşıq Çələbi tərəfindən şair bioqrafiyalarının çox mükəmməl nümunələri ortaya qoyuldu.

XVI yüzillikdən XX yüzilliyin əvvəllərinə qədər davam edən təzkirə növü geniş zaman kəsiyi ərzində müxtəlif forma və üslub dəyişikliyi ilə qarşımıza çıxmışdır. Bu əsərlər Herat məktəbi təzkirələrindən nümunə götürməklə yanaşı, başda tərtib üsulu olmaqla bir çox dəyişikliklərə uğramışlar. Osmanlı memarlığı ona miras qalan Orta Asiya və Səlcuklu ənənəsini əlverişli bir formada inkişaf etdirdiyi kimi, buna bənzər bir inşa fəaliyyəti də bioqrafiyada özünü göstərmişdir. Herat təzkirələri təsnifatını təbəqələrə ayırırkən, bizdə Lətifi bu işi daha praktik və uğurlu bir şəklə salaraq şairləri əlifba sırası ilə qələmə almağa başlamışdır. Lətifidən sonra bu yeni

[253] Əlavə məlumat üçün Bkz. "XVI. Yüzyılın Sonuna Kadar Osmanlılar'da Biyografin Geleneyi" 3-25 səhifələrindəki məqalə.

üsul, kiçik istisnalar olmaqla, türk təzkirəçiliyinin əbədi bir tərtib forması olmuşdur. Lətifi təkcə tərtib üsulu ilə deyil, bioqrafiyalara biçim verərək artıq klassik bioqrafiyanın qəlibini yaratmışdır. Aşıq Çələbidən və antologiya tipli təzkirə yazanlardan başqa, yerdə qalan bütün təzkiraçilər onun yolunu davam etdirmişlər. Başqa bir məktəb yaradan Aşıq Çələbinin metodunu istifadə olunmamış tərtib tərzinə, ortaya qoyduğu bioqrafiyaların genişliyi və fövqəladə istedadlara maraq göstərdiyinə görə davam etdirən çox olmamışdır. Səhi və Əhdidən başqa XVI yüzilliyin təzkirəçiləri, şairləri özlərinə məxsus bir sinif kimi, sənətləri və bir çox sosial ölçülərlə müstəqil bir tam olaraq verməyə meyl göstərdilər. Bu qənaət XVIII yüzilliyə qədər davam etdi. Buna nümunə olaraq bu yüzildə Əsrar Baba və Akifi öz ətraflarının şairlərini bir zümrədə toplamağa başladı. Beləcə, Əsrar yalnız mövləvi şairlərini, Akif isə Əndərunda yetişən şairləri qələmə aldılar. Daha sonra Əli Əmiri Əfəndi "Təzkireyi-Şüərayı-Amid" və "İskodra Şairləri"ndə yalnız eyni şəhərdə doğulan şairlərdən ibarət təzkirə forması yaratdı.

XIX əsrdə türk ziyalısı yeni bir inkişaf yoluna başlayınca bir çox başqa sahələrdə olduğu kimi yeniləşən və dəyişən insan ədəbi sahədə də bir gözlənti içərisində idi. Cəmiyyətdə hiss olunan ikili tərəddüd bioqrafiyada da özünü əks etdirdi. Əsəd Əfəndi, Arif Hikmət və Fatin klassik ənənəni davam etdirirkən, Tofiq və Məhməd Tovfiq mövcud yeni formanı rəhbər tutaraq bütün Osmanlı şairlərini bir əsərdə verməyə çalışdılar. Ancaq burada uğur əldə oluna bilmədi. Doğrudur, Naci "Əsami və Osmanlı şairləri",Faiq Rəşad "Əslaf" və bir neçə əsəri, Məhməd Tahir "Osmanlı müəllifləri" və başqa nümunələri, Məhməd Sürəyya "Sicilli Osmani" ilə yeni formada öz sənət məhsullarını verdilər. Ancaq bu əsərlər böyük bir ölçüdə əvvəlki ənənənin təkrarı olaraq qələmə alınmışdır.

Daha əvvəl mövcud olan əsərlərdən çıxış edərək, toplu şəklində təhlil əsərləri də görünməyə başladı və Hammer bütün Osmanlı ədəbiyyatının 1834-cü ilə qədər olan 2200 şairinə xronoloji qaydada öz əsərində yer ayırdı. Bu əsərin də metodu təzkirə növünə oxşardır. O da əvvəlcə bioqrafik məlumatları verir, sonra şeir nümunələrinə yer ayırır. Aldığı məlumatları əsaslı bir təhlillərlə izah edib ortaya

qoymur. Bu əsər mətnlərdən ayrılaraq sonrakı modern ədəbiyyat tarixinə çevrilə bilməmişdir. Amma əsər bu şəkildə də təzkirələr təzkirəsi dəyərini daşıyır və ona bənzər nümunələr ancaq iyirminci yüzildə türkcədə yaranmışdır. Əsər dilimizə çevrilmək, hətta tənqidi təhlillərlə izah olunub üzə çıxarılmaq istənilmişsə də, bu iş həyata keçirilməmişdir.

Hammerin qərb metodu ilə həyata keçirdiyi bu iş, daha doğrusu, bu milli xəzinə müasir bir janrda qələmə alınması üçün Behcət Necatigili gözləmişdir, desək mübaliğəyə yer vermərik. Qaynaqlar Necatigilin intellektual bir ailədən olduğunu, kiçik yaşlarından oxumağa – yazmağa böyük həvəs göstərdiyini bildirirlər. Bu həvəs onu ədəbiyyat fakültəsinə gətirmişdir. Təhsilini başa vurduqdan sonra elmi tədqiqatlarla məşğul olmuş, hələ gənc yaşlarından, bu gün də öz aktuallığını qoruyub saxlayan məqalələr yazmışdır. Maraqlıdır ki, əlimizdəki bu nümunələrdən biri bioqrafiya tarixi ilə bağlıdır. Dövrünün tanınmış Türkoloji jurnalında nəşr olunan bu məqalə "İstanbul kitabxanalarında Əl Şaqaiq əl-Numaniyyə Tərcümə və Zeylləri" adını daşıyır. (Gönül 1945). Sözü gedən bu əsərlər alim bioqrafiyaları haqqındadır. Ancaq o, sonralar sənətçi kimi özünü göstərərək elmi yazılar yazmaqdan vaz keçərək daha geniş oxucu kütləsi üçün əsərlər qələmə almış, türk bioqrafiya ənənəsinin zəngin məhsullarını müasir nümunələrə çevirərək mükəmməl əsərlər ortaya qoymuşdur. Onun belə qiymətli əsərlərinə "Ədəbiyyatımızda İsimlər Sözlüyü" və "Ədəbiyyatımızda Əsərlər Sözlüyü " adlı araşdırmalarını misal göstərmək olar. Necatigil bu əsərlərində zamana və düşüncə tərzinə görə həddindən çox yüklənmiş nəsnələri vermiş, müasir bioqrafiyanın tələblərinə uyğun mətləbləri qələmə almışdır.

"Ədəbiyyatımızda İsimlər Sözlüyü" ilk dəfə 1960-cı ildə nəşr olunmuşdur. Buradan da aydın olur ki, 1945-ci illərdə başlayan bioqrafiya görüntüləri yalnız on beş il keçəndən sonra orijinal bir əsər kimi oxucu ilə görüşür. Necatigil bu əsərində türk ədəbiyyatının başlanğıcından əsərin yazıldığı tarixə qədər yaşamış olan 830 sənətçini qələmə almış və qələmə aldığı bioqrafiyaları mümkün qədər lakonik şəkildə əks etdirmişdir. O, haqqında yazdığı müəllifin

əsərlərini sıra ilə göstərmiş, ardınca da onların yaradıcılığından söz etmiş və əsərlərini ciddi şəkildə təhlil etmişdir. Təzkirələrdə göstərilməyən doğum tarixləri, əsər üzərində aparılan təhlillər müasir təzkirəni xarakterizə edən yeni xüsusiyyətlərdir.

"**Ədəbiyyatımızda Əsərlər Sözlüyü**" isə bu kitabın ardınca yazılaraq yaxın illərdə yaşamış 120 yazarın 400 əsəri haqqında məlumatlar verir. İlk nəşri 1971-ci ilə təsadüf edən bu əsər "Ədəbiyyatımızda İsimlər Sözlüyü" kitabının davamıdır. Indi isə Tacizadə Cəfər Çələbiyənin yer aldığı bir təzkirədən və Necatigildən iki nümunə göstərməklə bu növün müasirləşərək necə dəyişildiyinə nəzər salaq.

Cəfər Çələbi (Lətifi təzkirəsi)

Tac bəy oğlu adıyla tanınan nəcib və tanınmış bir nəsildən olan biridir. I Səlimin dövründə əvvəl nişancı, sonra isə qaziəsgər olmuşdur. Osmanoğullarının Osmanlı ölkəsini qurduqları gündən bəri nişancılıq məharətinə görə ona tay ola biləcək bir adam yox idi.

Şeir sahəsində dövrünün Həssanı, nəsr üslubunda isə dövrün Sübhanı idi. Başqa təzkirələrə əlavə olaraq mükəmməl divanı və "Həvəsnamə" adlı bir məsnəvisi vardır. Bu əsər gənclik həvəsiylə öz iç dünyasını dilə gətirmişdir.

Bu əsərdə öz tapıntısı olaraq, gənclik həvəsiylə yazılmışdır. Əvvəlindən sonuna qədər insanı təəccübləndirən sözlər, gözəl beytlər, zövq oyadan sənətlər, ibarə və istiarələrlə dolu bir kitabdır.

Əslində bunun tərifləməyə elə bir ehtiyacı da yoxdur. Bu kitab özü istedadlı olanların əsərlərini önə çıxartmış, Osmanlı şairlərinin üzdə olanlarını vermişdir (İsen 1999. 137).

Cəfər Çələbi (Nəcatigil)

Divan şairi olan Taci-zadə 1515-ci il 18 avqustda Amasyada doğulub və İstanbulda vəfat edib. II Bəyazid və Sultan Səlimin nişancısı olan Cəfər Çələbi, çaldıran səfərində (1514) I Səlim ordusunda qaziəsgər və padşahın müsahibi idi. Şah İsmayılın əsir

götürülən zövcəsi Taclı xanım ilə evləndirildi, amma ordu İstanbula dönən zaman yenicerlilərin Amasyada əzilməsində əli olduğu ilə iftira edilərək padşahın qəzəbinə tuş gəlmiş və edam olunmuşdur. Tacizadənin divanı və "Münşəat", "Həvəsnamə", "Fəthnameyi-İstanbul" adlı əsərləri vardır. "Həvəsnamə" İstanbulun abidələrini, gəzməli yerlərini tanıdan, milli həyatını təsvir edən bir məsnəvidir. Ancaq təzkirə sahibi Aşıq Çələbi onun nəsrinin nəzmindən, qəsidələrinin qəzəllərindən üstün olduğunu göstərmişdir. I Səlimin Şah İsmayıla göndərdiyi məktublarından bəzilərində Çaldıran zəfəri haqqında hər tərəfə yayılmış olan zəfərnamələrin müəllifi Cəfər Çələbi olmuşdur. O, eyni zamanda dövrünün ən mahir nəsr yazarı olmuşdur. (Necatigil (1967. s. 72)

Göründüyü kimi hər iki bioqrafiyada bir çox ortaq nöqtələr tapmaq mümkündür. Ön söz və oxşar mövzulardakı forma eyniliyi ilə yanaşı bioqrafiyaların əlifba sırası ilə düzülüşü də dərhal diqqəti çəkir. Buna əlavə olaraq mündəricatda da oxşarlıqlar vardır. Şairlərin doğum yeri, adı, ləqəbi, təhsil vəziyyəti, məslək və ya məqamı, əsas müəllimləri, ölümü, ölüm tarixi, məzarlarının yeri, bəzən şairlə bağlı olan bir və ya bir neçə lətifə, ədəbi yaradıcılığı ilə bağlı araşdırmalar təzkirələrdə ilk diqqəti çəkən ortaq detallardır. Lakin Necatigil doğum tarixlərinə xüsusi bir orijinallıq gətirərək Osmanlı bioqrafiyasında rast gəlinməyən bir yeniliyi meydana çıxartmışdır. Buna əlavə olaraq əsərlərinə daha çox yer vermək, onların nəşr tarixlərindən söz etmək də təzkirəçilik ənənəsində yenidir. Onun bir başqa yeniliyi də mənbələri qeyd etməsindədir.

Xülasə şəklində bildirmək olar ki, Necatigil gözəl bir şair, gözəl bir eksperimentçi, gözəl bir ssenari yazarı olması ilə yanaşı, bioqrafiya tarixinə yeni bir təkan vermiş dəyərli yazardır. O, bütün bunlarla yanaşı bu qaynaqları yüksək dəyərləndirərək, onları müasir ədəbiyyata gətirməyin yollarını da göstərmişdir.

Onun açdığı yolun doğru bir yol olması buradan bəllidir ki, "Ədəbiyyatımızda İsimlər Sözlüyü" ən çox çap olunan kitablardan biridir. Həm də bir çox araşdırıcı onun kitablarından sonra, bu mövzuda və formada yeni-yeni kitablar qələmə almışlar.

*(*Yazı Hammer və Nəcatigil haqqında yzılan iki çalışmanın birləşməsindən meydana gəlmişdir).*

İstifadə olunan ədəbiyyat:

1. Adıvar Adnan. "Tarih ve biografi" tarih jurnalı C.2,5,3-4 İstanbul, 1952 Hammer – Purgstall, "Geschichte der Osmanishen Dichtkunst bis auf unsere" Ziet 4 c. Peşte 1836-38.

2. Gönül Behcet "İstanbul kütüphanelerinde al-şakaik al – Nimaniyye tercüme ve zeylleri" Türkiyət məcmuəsi. C.7, cüz 2. istanbul 1945.

3. İsen Mustafa. "Latifi tezkiresi" Ankara, 1999.

4. İsenMustafa vd. "Şair tezkireleri". Ankara, 2002.

5. Necatigil Behcət. "Edebiyatımızda İsimler Sözlügü ". Istanbul 1967.

6. Robinson, İ.S. "The tezkere genre in İslam".

7. Robinson İ.S. "The Ottoman Poetry Bioqraphies of poests" journal of Near

Eastern Studies Vol 24. 1965.

8. Rosenthal Frans. "A History of Müslüm Historiography". Leiden 1952

“VARAYIM GİDEYİM URUMELİNE”

kitabından seçilmiş məqalələr

ÖN SÖZ

Doğulduğu torpaq istərsə ayrı-ayrı şəxslərin həyatında, istərsə də müxtəlif xalqların tarixində əhəmiyyətli yer tutan faktorlardan biridir. Bu mənada Balkanlar bütün türk xalqının həyatında olduğu kimi, keçmişdə ailəsi bu bölgədə yaşamış çoxsaylı insanlar üçün maraq göstərilən və diqqətçəkən bir ərazidir. Ailəsi 93 Hərbi (1877-1878) kimi tanınan Balkan müharibəsindən sonra Türkiyəyə köç etmiş insanlardan biri kimi, mən də kiçik yaşlarımdan ailəmin ulularından eşitdiyim Dəliorman bölgəsi, buradakı çay, dağ, şəhər, qəsəbə və kənd adları ilə həmişə maraqlanmışam. Sonrakı illərdə bu istək intellektual bir marağa döndü. 1981-1983-cü illərdə Belqrad Universitetində müəllim kimi çalışdığım vaxtlarda yetərincə gəzib gördüyüm Balkan torpağı daha da diqqətimi çəkdi. Bütün bunlar mənim Balkanlar, yaxud klassik formada Rumıniya haqqında yazmağıma vasitə oldu.

Balkanlar, çox qədim dövrlərdən türklərin sıx şəkildə yaşadığı məmləkətlərdən biridir. Hələ V əsrdə başlayan bu əlaqənin bu günə qədər uzanmasının səbəbkarı Osmanlılar olmuşdur.

Qazi Süleyman Paşanın 1350-ci illərdə Geliboluya gəlişi ilə başlayan dövr, Qazi Evrenos Bəy vasitəsilə Qərbi Trakyanın (1361) fəthi ilə davam etdi. Lakin bölgə üçün əsl türk təsiri I Muradın Kosova zəfəri ilə başlandı (1389). Qanuni dövrünə qədər davam edən fəthlərdə bölgə geniş mənada türk idarəçiliyinə keçdi. Hətta Osmanlı dövləti başlanğıcda böyük sahədə bir Avropa dövləti olaraq qurumuşdur, deyilsə səhv olmaz. Bu mənada, Osmanlı dövləti Anadolu və Rumeli olmaq üzrə iki qoldan meydana gəlmişdir. Balkanlarda uzun müddətli türk idarəçiliyi (1354-1912) nəticəsində təhsil, elm, mədəniyyət, dil və sənət sahəsində də böyük inkişaf olmuşdur. Balkan şəhərlərində Osmanlı mədəniyyətinin inkişafı ilə yanaşı təhsil, elm, mədəniyyət və sənətin bünövrəsi olan mədrəsə, məktəb, təkkə və zaviyələr qurulmuş, bir müddət sonra bu sahədən olan ilk təmsilçilər boy verməyə başlamışdır. Bölgədə elm və sənətin ilk nümunələrini sancaqbəyi, müdərris, qazi, əsgər, katib,

din adamları ya da təsəvvüf ərbabı kimi tanınan şəxslər meydana gətirdi. Get-gedə bu mədəni nümunələr burada doğulan türklər və ya islamiyyəti qəbul edən Boznak, Arnavut, Pomak, Torbeş əsilli müsəlman sənətçilər tərəfindən türkcə olaraq yaradılmağa başladı. Bu sahədəki ziyalıların sayı sonrakı illərdə sürətlə artmışdır.

XIX əsrə qədər zənginləşməkdə davam edən bu bünövrə bölgənin Türk idarəçiliyindən çıxması ilə dərin bir durğunluğun içinə düşdü. Kitabda müxtəlif bölmələrdə söz açıldığı kimi zaman-zaman bu durğunluq təkrarlansa da, əvvəlki bünövrə öz mövcudluğunu da qoruyub saxlamışdır.

Ancaq əsərdə yer verilən məqalələr, Balkanlarda türk mədəniyyətinin mövcudluğu mənim gözümün önündədir. Bunları türkiyəli oxucularla bölüşməyə çalışdım.

Hər hansı bir bölgəni öyrənmək üçün oraya tarixə istinadən nəzər salmaq çox vacibdir. Balkanlardan söz düşdüyündə isə bu xüsusilə vacib şərtdir. Bu üzdən bölgənin öz mədəniyyəti və keçmişi ilə birlikdə qələmə almaq həm əsəri zənginlədirmiş, həm də mənim əsl sahəmlə bağlı məlum bilgilərin aktuallığını saxlamış, hər bir sahəni aydın şəkildə işıqlandırmaq imkanı vermişdir.

Məqalənin əsas hissəsi akademik yazılardır. Bir qismi isə oradakı aktual inkişafla bağlı məlumat xarakterli məşhur nümunələrdir. Mətnlərdə eyni bölgəyə fərqli vaxtlardan baxıldığı və cəmiyyətin müxtəlif təbəqələrinə məlumat vermək məqsədi güddüyü üçün təkrarların olması da qaçılmazdır.

Kitabın adına gəldikdə isə qeyd edim ki, mən kitablarıma bir qədər fərqli adlar qoymağı xoşlayıram. Rumeli ilə bağlı son dövrdə çox rastlaşdığımız vida, itki, qeyb olma kimi sözlər keçmişə aid ağrılı ifadələrdir. Halbuki qloballaşan dünyada bölgə öz elastik sərhədləri ilə yenidən bizim marağımızı çəkməkdədir. Əsasən səyahətnamələr, filmlər və musiqilərlə qarşımıza çıxan Balkanlar, belə görünür ki, yaxın gələcəkdə daha çox maraq kəsb edəcəkdir. Mən bu əsər vasitəsiylə həm bölgədəki qədim və dərin Türk mədəniyyətinə diqqət çəkmək istədim, həm də adını bir Rumeli türküsündən götürdüyüm "Varayım Gideyim Urumeline" ifadəsini seçməklə, bölgənin keçmişini öyrənməkdən daha çox, gələcəyini fəth etməyə çağıran bir mesaj verməyə çalışdım.

Balkanlar, indi yeni bir dövrə hazırlaşır. Ancaq əlimizdəki yazıların əsas hissəsi 80-90-cı illərin daha ağrılı illərinə aiddir. Bu səbəbdən mətnlərdə hadisələrin içində yaşayan biri olaraq, əsərimdə bəzi emosional ifadələrə də yer vermiş ola bilərəm. Çalışmamda Balkanlarda çox qədim tarixə malik zəngin mədəni görüntünün bir hissəsinə işıq sala bildimsə şad olardım. Bu vasitəylə nəşrə kömək edən Qapı Nəşrlərinə çox təşəkkür edirəm.

BALKANLARDA ÇAĞDAŞ TÜRK ƏDƏBİYYATI

Osmanlı dövləti ilə sona çatan rəngarəng və dinamik inkişafdan sonra Balkanlarda bir durğunluq dövrü başlandı. Balkan fitnə-fəsadlarından sonra bu ərazidə qalan türklərin düçar olduqları sıxıntı ədəbiyyatda da özünü göstərdi. Xüsusilə türk ziyalılarının ana vətəni olan Türkiyəyə köçüb getmələri bölgədəki ədəbi mühit üçün böyük bir itki oldu. Yeni hakimiyyətdəkilərin burada qalan ziyalılara ögey münasibəti də vəziyyəti xeyli ağırlaşdırdı. Bunlara baxmayaraq, türk dili Balkanlarda öz yaşamını saxlaya bildi. Bəzən bu dildə danışmaq tamamilə qadağan edildi, bəzən yazılı dildə qismən ifadə olunmaq imkanı tapdı, ancaq əsrlərdən qalma gücü və qüdrəti sayəsində yenə öz mövcudluğunu saxlaya bildi. Bölgəyə daxil olan ölkələrdəki türk xalqlarının ədəbiyyatlarıına nəzər salsaq, aşağıdakı mənzərə ilə rastlaşırıq.

Makedoniya

Yuqoslaviyanı təşkil edən altı respublikadan biri olan Makedoniya 1991-ci ildə ayrılaraq öz müstəqilliyini elan etdi. Makedoniyanın 2 milyonluq əhalisinin təxminən onda birini türklər təşkil edirlər. 1945-ci ildə milli azlıqlar üçün təyin olunmuş imtiyazlar Yuqoslaviyanın bir parçası olan Makedoniya üçün də tətbiq olundu. Bu üzdən bölgədə türk dilli məktəblər (ibtidai, orta), radio-televiziya verilişləri, teatrlar açıldı və bunlarla bərabər ədəbiyyat da inkişaf etməyə başladı. 1944-cü ildən Üsküpdə "Birlik" qəzeti nəşr olunmağa başladı. 1949-cu ildə "Yeni Qadın" qəzeti, 1950-ci ildə "Pioner" qəzetinin nəşri başlandı. Mətbuatın fəaliyyəti bununla bitmədi. "Səslər" (1965) adlı sənət və mədəniyyət jurnalı, yeddi-on dörd yaşlı uşaqlar üçün nəzərdə tutulan "Sevinc" (1951) və ibtidai sinif şagirdləri üçün nəzərdə tutulan "Tumurcuq"(1957) adlı uşaq jurnallarının nəşri bu inkişafı davam etdirdi. Makedoniyadakı bu mənzərə bu gün də davam etməkdədir. Bu gün nəşrini dayandırmış "Səslər" jurnalının əvəzinə "Vardar" adlı siyasi qəzet dərc olunur. Bundan başqa bir neçə dildə çap olunan "Əl-Hilal" və "Zaman", Üsküp Universiteti

Türkoloji Şöbəsinin tələbələrinin çıxardığı "Körpü" (2002) və Resnədə nəşrə başlayan "Qızıl Alma"nı (2002) da bu mətbuat orqanlarına əlavə etmək olar. Makedoniyada türk ədəbiyyatının əsas təmsilçiləri bunlardır: Hüseyn Süleyman (1901-1963), Əbdulfəttah Rauf (1910-1963), Ənvər Duzçu (1916-1958), Şükrü Ramo (1916-1988), Mustafa Qarahəsən (1920-2002), Lütfi Seyfullah (1926), Hümaşah Vardar, Nəcati Zəkəriya (1928-1987), Mahmud Qıratlı (1929-1988), Fəxri Qaya (1930), İlhami Emin (1931), Rəcəb Murad Bugarıç (1934), Əsəd Bayram (1934), Cavid Sarac (1935), Avni Əngüllü (1947), Fəxri Əli (1948), Səbahəddin Səzair (1948), Avni Abdullah (1948), Xalisə Həsən Özgül (1948), Ələddin Tahir (1949), Suat Əngüllü (1950), Məlahət Əngüllü (1950), İrfan Büllür (1954), Ənvər İlyas (1955), Sabit Yusif (1957), Biba İsmayıl (1957), Səmra Samət (1958), Tülay İbrahim, Oqtay Əhməd, Məral Qayın, Bilal Emin, Leyla Hüseyn.

Yuxarıda adı çəkilən yazarların çoxu şairlərdir. Şeir türk ədəbiyyatının ən qədim və əsas qoludur. Balkanlarda yaşayan türk xalqlarının da əsas ədəbi nümunələrini şeir təşkil edir. Şeirdən sonra isə ən çox yayılan ədəbi növ hekayə janrıdır. Tanınmış hekayə yazarları arasında bu müəlliflərin adlarını çəkmək olar: Hüseyn Süleyman, Şükrü Ramo, Mustafa Qarahəsən, Hümaşah Vardar, Lütfi Seyfullah, Nəcati Zəkəriyya, Fəxri Qaya, Rəcəb Murad, Ələddin Tahir, Ənvər Əhməd, Ənvər İlyas, Sabit Yusif. Bu yazarların əksəriyyəti öz yaradıcılıqlarında uşaq ədəbiyyatını seçmişlər.

Bəzi qələm təcrübələri nəzərə alınmazsa, hələlik Makedoniyada roman janrı o qədər də inkişaf etməyib. Bunun əksinə olaraq, teatr, tənqid və səyahət yazılarının sayı xeyli çoxdur.

Makedoniya və Kosovada (qədim Yuqoslaviya) nəşr olunan əsərlərin əksəriyyətinin, xüsusilə də ilk dövrlərdə yazılan əsərlərin, bütün sosialist ölkələrində olduğu kimi dövlətin dəstək və nəzarəti altında olduğu da unudulmamalıdır. Bu səbəbdən də yazılan əsərlər əsasən rəsmi ideologiyaya xidmət etmişdir. Əsasən bu ideologiyaya xidmət edən əsərlərin çapına icazə verilirdi. Bütün bunlarla yanaşı dövlətin dəstəyi nəticəsində türk dili bir yazı dili olaraq bölgədə öz mövcudluğunu saxlamışdır. Balkan ölkələri arasında qədim

Yuqoslaviyada yaşayan insanlar, bölgənin başqa yerlərində yaşayan insanlara nisbətən öz dillərini daha yaxşı qoruyub saxlaya bilmişlər. Elə buna görə də, bölgədə ən çox ədəbi əsər Makedoniyada qələmə alınmışdır. Ancaq Balkan ölkələri arasında qədim Yuqoslaviyaya olan dəstək və senzuranın tədbiqi başqa sosialist ölkələri çərçivəsinə qalxmamışdır.[254]

Kosova (Yuqoslaviya)

Osmanlı dövlətinin bölgədən çəkilməsi ilə ortaya çıxan yerli hakimiyyət orqanları öz aralarındakı ixtilafları çözərək, 1918-1919-cu ildə Yuqoslaviyanı qurdular. 1946-cı ilə qədər davam edən bu idarəçilik, ərazidə türkcə əsərlərin nəşrinə imkan vermədi. Ancaq şifahi ədəbiyyat ənənəsi və Üsküp, Prizren, Yakova, İpək, Manastır, Oxri və Qalxandələn kimi şəhərlərdə fəaliyyət göstərən təkkələrdə inkişaf etmiş təsəvvüf ədəbiyyatı özünü mühafizə edə bilmişdi. Bu ədəbi məhsullar isə nəşr oluna bilməmişdi. Bunların arasından yalnız Hacı Ömər Lütfini (1870-1928) istisna saymaq olar. 1945-ci ildə qurulan sovet rejimi ölkədəki azsaylı xalqların hüquqlarını qorumaq haqqında qəbul etdiyi öhdəlikləri yerinə yetirərək müxtəlif dillərdə mətbuat orqanlarının nəşrinə və məktəblərin açılmasına icazə verdi. Makedoniyada "Birlik" qəzetinin nəşri (1944) və türkcə radio verilişlərinin yayınlanması ilə paralel olaraq türk ədəbiyyatı da dirçəlməyə başladı. Ancaq Kosova Muxtar Vilayətində yaşayan türklər Makedoniyada yaşayanlara nisbətən mədəni imkanlardan daha gec yararlandılar. Bu üzdəndir ki, Kosovadan olan şair və yazarlar ilk nümunələrini Makedoniyada çıxan mətbuat orqanlarında

[254] Sürəyya Yusif "Yugoslaviya Türk Şiiri" Priştinə 1976; Bədri Səlim "Çağdaş Yugoslaviya Hikayeleri" Priştinə 1978; Vanço Baskov "Turska Knijenost u Yugoslavije" ,"Ensiklopediye Yugoslaviye" VIII; Suat Engüllü "Türkiye dışındaki Türk Edebiyatları Antolojisi"(Yuqoslaviya və Makedoniya Türk ədəbiyyatı) s.7.Ankara 1997; Reyhan İsen-Mustafa İsen "Yugoslaviya Türk Cocuk Şiirinden Seçmeler" Ankara 1983; Mustafa İsen-Reyhan İsen-A.Esra Kireççi "Balkanlarda Cocuk Şiiri Antolojisi" Ankara 2001; Nemətullah Hafiz "Yugoslaviyada Türk Edebiyatı" "Çevrən"1/1, Priştinə 1973; Nemətullah Hafiz "Yugoslaviyada Çağdaş Türk Edebiyatı Antolojisi",2 cild, Ankara 1989; İ.Güven Kaya "Yugoslaviya Türk Halkı Edebiyatı" İstanbul 1993; Abdulkadir Hayber "Makedoniya ve Kosova Türklerinin Edebiyatı" Ankara, 2001; Ömər Turan "XX Yüzyılda Türk Toplulukları" ,"Türkler" c.20,Ankara 2002,s. 231.

çap etmiş, yalnız 1969-cu ildən etibarən Kosova türkləri özləri bu imkanlardan yararlanmağa başlamışdır. Demək olar ki, bu ərazidə yeni dövr türk ədəbiyyatı ancaq 1960-cı illərdən dirçəlməyə başlamışdır. Bu illərdən başlayaraq şeir və hekayə növü bir çox mərhələlərdən keçmiş, başqa növlərdə də əsərlər yazılmışdır. Birlik və Tan seriyalları ilə bərabər bu ərazidən olan yazarların kitabları öz kəmiyyətləri ilə birlikdə keyfiyyətlərini də saxlamış və tarixə düşmüşdür.

1991-ci ildə ölkə parçalandıqdan sonra onu Yeni Yuqoslaviya, Serbistan və Qaradağ respublikaları təşkil etdi.

Serbistan içində olan Kosova Muxtar vilayəti isə 1999-cu ildə ABŞ-ın müdaxiləsi ilə bu an statusu bəlli olmayan, lakin Yuqoslaviya ilə əlaqəsini kəsmiş bir vəziyyətə düşmüşdür. Beləcə, bu gün Yuqoslaviya torpaqlarında türk milləti qalmamışdır. Kosovada yaşayan türklərin sayının 30-40 minə yaxın olması qeyd edilir. Bölgənin paytaxtı Priştinədə "Tan" qəzeti (1969), "Çevrən" jurnalı (1973) və "Quş" uşaq jurnalı dərc olunmaqdadır. Eləcə də, Prizrendə "Əsrin" (1979), "Çığ" (1990) jurnalları çap olunur. Müharibədən sonra bunların nəşrinə fasilə verildi. İndi Prizrendə şəxsi təşəbbüslərlə "Bay" (1994), "Sufra" və "Türkçəm" jurnalları və "Yeni dövr" adlı həftəlik dərc olunur. Son vaxtlarda bu ərazidə "Demokrasi Ufku" gündəlik çıxan siyasi qəzet də fəaliyyətə başlayıb.

Kosovada doğulmayan Sürəyya Yusif (1923-1977) bölgədəki ədəbiyyatın inkişaf edərək yayılmasında bir tənqidçi kimi əhəmiyyətli rol oynamışdır. Onun irəli sürdüyü istiqamətlər bölgə ədəbiyyatının yığılıb toplu halına düşməsində böyük rol oynamışdır.

Balkanlarda olduğu kimi, Kosovada da ədəbiyyat deyən kimi ilk olaraq ağıla şeir gəlir. Bu sahədə ən çox uğur qazanan isə uşaq şeirləridir. Fəxriyə Çərkəz (1929), Nalim Şaban 1935-1961), Nüsrət Diso Ülkü (1938), Nemətullah Hafiz (doğ. 1939), Ənvər Baqi (doğ. 1943), Həsən Mərcan (doğ. 1944), Arif Bozacı (doğ. 1944), Əhməd İğçilə (1945), Sacəddin Koka (1945), Sadik Tanyol (146), Bayram İbrahim (1947), İsgəndər Muzbek (doğ. 1947), Fikri Şişko (1949), Altay Siroy (doğ. 1949), Fəxri Mərmər (1950), Agim Pifət Yerezən (doğ. 1951), Zeynal Beksaç (1952), Ədhəm Baymak (1952), Osman

Baymak (1954), Əziz Sərbəst (1954), Rəşid Xanədan (1955), Məhməd Bütüç (1955), Nuhi Marrək (1956), Rauf Kurkul (1964), Özcan Micalar (1965), Berhan Sait (1967), Rauf Virmuça, Ayla Lefkofçalı, Hüseyn Kazar, Əsin Muzbeg və Şükri Mazrek Kosova bölgəsindəki türk ədəbiyyatının əsas təmsilçiləridir.

Əslində, Makedoniya haqqında söylənilən fikirlər Kosova üçün də keçərlidir. Burada da ən çox yayılan ədəbi nümunələr şeir olmuşdur. Bunun ardınca isə hekayə növü gəlir. Sürəyya Yusif, Nüsrət Dişo Ülkü, Ənvər Baqi, Həsən Mərcan, Səcaəddin Koka, Əhməd İgcilər, İsgəndər Muzbəğ və Rəşid Xanədan bölgənin tanınmış hekayə yazarlarındandır.[255] Roman isə təcrübədən uzağa getmir. Teatr, tənqid, eksperiment və səyahət yazılarından ibarət xeyli ədəbi məhsul vardır.

Bolqarıstan

Bolqarıstandakı türk ədəbiyyatı haqqında dediyimiz fikirlər o biri sosialist Balkan ölkələrinə aid söylənilənlərdən o qədər də fərqli olmayacaqdır. Həm də bu ölkədəki türk ədəbiyyatı Rumelidəkı türk ədəbiyyatının bir bölməsidir. Yenə oxşar ölkələrdə olduğu kimi, burada da şifahi və yazılı ədəbiyyatdan söz açmaq olar. Əvvəl qeyd etdiyimiz kimi, Anadoluya yaxın olması, çox erkən vaxtlarda Osmanlı sərhədlərində daxil olması və türk əhalisinin çox olmasına görə türk ədəbiyyatı burada daha zəngindir. Şifahi xalq ədəbiyyatı baxımından bu ölkədə yaşayan soydaşlarımızın yaradıcılığı bütün Balkanlarda olduğu kimi, Anadoludakılardan fərqli deyildir. İstifadə olunan yazı dili də qismən yaşadıqları yerin xüsusiyyətini daşımaqla bərabər, əsasən İstanbul türkcəsidir.

Daha əvvəl qeyd edildiyi kimi, ölkə Osmanlı dövlətinə aid olduğu dövrdə türk ədəbiyyatına çox sayda şair və yazar vermişdir.

1877-1878 və yaxud daha çox 93 Hərbi kimi tanınan Bolqarıstan krallığı uzun illər boyunca bu bölgədən türk ədəbiyyatının axışını da saxlamışdır. 1918-1928-ci illərdə orta məktəblərə müəllim yetişdirmək üçün açılan "Darül-müəllimin" (müəllim hazırlayan

[255] Bkz 18 Diplom işi.

məktəb) ilə 1922-ci ildə din adamı və müəllim hazırlamaq üçün fəaliyyətə başlayan Nüvva, 1947-19541-ci illər arasında fəaliyyətsiz qalan köhnə Zağra, 1951-1958-ci illərdə fəaliyyət göstərən Şumnu, Razqrad, Kirçalı və Sofya Pedaqoji türk məktəbləri türk xalqını təhsil işçiləri ilə təmin etməkdə böyük yardımçı olmuşdur. Ancaq nədənsə, Balkan sözü işlədilən kimi ağıla gələn və uzun müddət davam etmiş qeyri sabitlik bunları tez-tez açılıb-bağlanan təşkilatlara çevirrmişdir. Bolqar krallığı dövründə bəzən uğurlu, bəzənsə uğursuz şəkildə öz fəaliyyətini davam etdirən türk dilli məktəblər, qəzet və kitab məhsulları, bütün maneələrə baxmadan bölgədə türk dilinin varlığını sübut edən faktiki sənədlərdir. Krallıq və şahlıq dövrü olan 1877-1944-cü illərdə bu bölgədə yaşayan türk xalqlarının mübarizəsi nəticəsində bir çox çətinliklərə baxmayaraq, öz mövcudluğunu qoruyub saxlaya bilmişdir. Burada yaşayan türklər yeni quruluşa öyrəşənə kimi şox zərbələr alsalar da, bu problemi də həll edərək təkrar ayağa durmuşlar. Sosializm dövrünün əvvəllərində (1944) rast gəlinən müsbət vəziyyəti sonradan durulması mümkün olmayan çox böyük təzyiqlər əvəz etmiş, get-gedə türkcə yazma və oxuma, hətta sonralar Bolqarıstanda türkcə danışmaq belə qadağan edilmişdir. Bununla birlikdə, bu dövrü də fərqli gözləntilər üzündən müxtəlif dövrlərə ayıraraq izah etmək gərəkdir. Sosialist hakimiyyəti ölkədə dini baxışına görə "Nüvvabı" bağlayıb (1944) yerinə türkcə təhsil verən yeni tipli məktəblər açdı. "Dostluq" (1947), "İşıq", "Yeni həyat", "Xalq gəncliyi" (1948), "Sentyabr uşağı" (1946-1960), "Əmək vuruşu", "Pioner" (1959-1980) kimi türkcə mətbuat orqanları meydana gəldi. Sofiyada türkcə əsərlər dərc edən nəşriyyatlar açıldı. Bir sıra pedaqoji məktəblər, Sofiya Universiteti nəzdində türkoloji şöbə fəaliyyətə başladı. Bir müddət sonra bu işlər öz faydasını verdi və türk ədəbiyyatı ölkədə bir partlayış yaratdı. Ana dilində təhsil alaraq yetişmiş bir ziyalı təbəqəsi, başqa sahələrdə olduğu kimi, türk ədəbiyyatında da öz təsirini göstərdi və ciddi bir ziyalı sinfi meydana çıxdı. Bunun nəticəsi olaraq o zamana qədər yalnız qəzet və jurnal səhifələrində görünən ədəbi məhsullar əvvəl almanaxlar, sonra isə müstəqil kitablar şəklində işıq üzü gördü. Buradan da hər bir ədəbi təçəbbüsün arxasında ziyalıların rolunun nə qədər böyük

olması və eləcə də təhsil olmada ziyalı yetişdirməyin mümkünsüz olması məsələsi sübut edilərək ortaya qoyuldu. Ancaq sosializm rejimi, bir müddət sonra müxtəlif formalarla türk xalqının başda təhsil olmaqla, sahib olduğu hüquqları dönə-dönə əlindən almağa başladı.

1959-cu ildən etibarən türk dilində təhsil verən litseylər bağlandı. Ardınca ibtidai və orta məktəblər də eyni qadağalara məruz qaldı. Sonra da adlar dəyişdirilməyə başlandı. Bu məhrumiyyətlərə baxmayaraq, türk dili ölkədə yaşamağa davam etdi, xüsusilə türk xalqının çox sevdiyi yanr kimi şeir başda olmaqla çoxlu sayda türk dilli ədəbi nümunələr yarandı. Bu işi hekayə yazarları davam etdirdilər.

Roman və səhnə əsərləri isə ancaq bir neçə nümunədən ibarətdir. Sosializm dövründə Bolqarıstanda nəşr olunan türkcə kitabların sayı 198 olub, bunların 112-si bölgədə yaşayan sənətçilər tərəfindən yazılan əsərlərdir. Digərləri isə sosialist baxışlı türkiyəli yazarların əsərləridir. Qısaca desək, 1961-1989-cu illərdə iyirmidən çox Bolqarıstanda doğulan türk yazarının əsəri nəşr olundu. Sosializmə qədər ölkədəki türk xalqının təhsil fəaliyyətləri türk təlim- təhsi sistemiylə aparıldığı üşün yetişmiş olan ziyalılar milli dəyərlərərə sahib olmuşlar. Sosialist rejimində yaranan əsərlər isə sistemin ideologiyasına xidmət etmilər. Sovet dövrünün əsərlərinin əsas hissəsini adətən vətəni kapitalist düşmənlərindən müdafiə etmək, Kommunist partiyası və sovet dövlətinin rəhbərlərinə minnətdarlıq, sovet rəhbərlərinə sevgi, ateizm, ölkələrin uşaqları arasında dostluq, qardaşlıq, fabrik və zavodlarda əmək qəhrəmanlarını vəsf etmək və faşizm əleyhinə bütün mübarizələri dəstəkləmək kimi mövzular təşkil edirdi.

1990-cı ildən sonra demokratik quruluşa sahib olan Bolqarıstanın məktəblərində dörd saatdan çox olmayaraq, könüllü şəkildə, məcburiyyət olmadan türk şagirdlərinə türkcə təhsil verilməkdədir. Hazırda ölkədə "Haqq və Müstəqillik" (1991) və "Güvən" (1993) qəzetləri, "Filiz" (1966) və "Balon"adlı uşaq jurnalı və "Könül" (2001) və "Qaynaq" mətbuat orqanları fəaliyyət göstərməkdədir. Bunlara "Zaman" qəzeti və "Ümid" jurnalını da əlavə etmək olar.

Bolqarıstan ədəbiyyatına türk dilində ədəbi əsərlər bəxş etmiş şair və yazarların adlarına nəzər salaq: Aşıq Hivza (XIX əsr), Raci Hüseyn Əfəndi (v. 1901), Əliosman Ayvantok (1878-1952), Məhməd Müzəkka Con (1885-1974), Məhərrəm Yumuk (1889-?), İzzət Dinc (1890-1965), Mustafa Şərif Alyanak (1890), Məhməd Behcət Perim (1896-1965), Lütfi Erçin (1902-1970), Zəki Tunaboylu (1906-1952), Osman Kəskioğlu (1907-1989), Məhməd Fikri (1908-1941), Oğuz Peltek (1910-1956), Məhməd Muradov (1941), Səbri Dəmirov (195-1988), Səlim Bilalov (1915-1987), Osman Qıcıne (1920), Rza Mollov (1920-1966), Nuri Turqut Adalı (1922), Yusif Kərimov (1922), Saleh Baklacıyev (Baklacı) (1924), Süleyman Cavazov (1924), Etem Utük (1925-1989), Həsən Qarahüseynov (1925-1990), Səbri Tatov (1925), Əhməd Tımışev (1926), Hüseyn Oğuz (1926), Əhməd Şərifov (Əhməd Şərif Şərəfi) (1926), Kəmal Bunarcıyev (Pınarcı) (1923), Məfkurə Mollova (1927), Niyazi Hüseynov (N.Hüseyn Bəxtiyar) (1927), Mülazim Çavuşçu (Çavuş) (1927-1995), Lütfi Dəmirov (1929-1990), Məhərrəm Təhsinov (1929), Məhməd Bəkirov (1930), Səbahəddin Bayramov (S.Bayram Öz) (1931), Xalid Əliosman (Əliosman Dağlı) (1932), İsak Rəşidov (1932), Məhməd Davudov (Davud Çağla) (1932-1986), Məhməd Çavuşov (Çavuş) (1933), Hüsmən İsmayılov (1933), Xeyriyı Memova – Süleymanova (Süleymanoğlu Yenisey) (1934), Nevzət Məhmədov (Məhməd) (1934), Ömər Osmanov (Osman Esendoruq) (1934), Əli Pirov (Piroğlu) (1936), Faiq İsmayılov Arda (1936), Həlin Xəlilibrahimov (1936-1976), Mustafa Çetev (Çete) (1936), Süleyman Yusifov (Yusif Adalı) (1936), Durhan Həsənov (Həsən Xətiboğlu) (1937), Osman Əzizov (1937), Səbri İbrahimov (Yalnızqalan) (1937), Alış Səidov (Səid) (1938), Fevzi Qədirov (Qədir Sevən) (1938), Şaban Mahmudov (Mahmudoğlu Qalkan) (1938), Şahin Mustafov (1938), Lətif Qaragöz (1939),Qədir Osmanov, İslam Beybullov (Beytullah Erdi) (1940), İsmayıl Yqubov (1940), Naci Fərhadov (1940), Turxan Raciyev (1940), İsmayıl Çavuşev (1940), Müqəddəs Akmanova-Baciyev (1940), Müqəddəs Akmanova-Səidova (1941), Məhməd Sarsarov, Əhməd Məhmədov (1942), İsa Cəbiyev (1942), Mustafa Aladağ (1942), Əhməd Eminov (1944), Rəhim Rəcəbov (1944),

Əhməd Abdiyev (1945), Nevzət Yakubov (1946), İsmət Bayramov (1947), Əhməd Qədirov (1948), Şükrü Mollaoğlu Esen (1948), Avni Vəliyev (1949), Saffət Eren, Hilmi Haşal (1954), Əminə Hasova, Nəbiyə İbrahimova (1948), Aysel İsmayılova (1965), Rəcəb Küpçü, Lətif Əli, Əli Bayram, Mustafa Mutlu və Əli Qədir.[256]

Bolqarıstanda yaşayan türklər üçün şeir, ədəbiyyatın ən öndə gedən sahəsi olaraq qalır. Bunun ardınca hekayə gəlir.Tanınmış hekayə yazarlarından Mustafa Qəhvəçiyev, Rza Mollov, Kamal Bunarcıyev, Saleh Bakloayev, Səbri Tatov, Əhməd Tımışev, Məhərrəm Təhsinov, Nadiyə Əhmədov, Xəlid Əliosmanov, Kazım Məmişov, Mustafa Mutlu, Əli Pirov, Lətif Qaragöz, Müqəddəs Akmanova, Əhməd Məhmədovun adlarını çəkmək olar. O biri ölkələrdən fərqli olaraq burada roman janrına da rast gəlinir. Eyni formada teatr və tənqid sahəsində də xeyli nümunələrə rast gəlinir.

Yunanıstan

Balkanlardakı türk ədəbiyyatının bir hissəsini də Yunanıstan sərhədlərində yaşayan soydaşlarımız təşkil edir. Bu ölkədəki türk dilli əhalini dörd hissəyə bölmək olar:

1) XIV əsrdən etibarən fəthedilən Qərbi Trakyaya Anadoludan gətirilib məskunlaşdırılmış ata babalarımız və onların bu gün o bölgədə yaşayan nəsilləri. Bunlar əsasən Gümülçinə və İskəçə şəhər mərkəzlərində və kənarlarda yaşamaqdadırlar. Əhalisinin 50 min olduğu məlumdur.

2) Başda Rodos olmaq üzrə Onikiadada yaşayan soydaşlarımız.

[256] Xeyriyyə Süleymanoğlu "Türkiye Dışındakı Türk Edebiyatları Antolojisi" (Bolqarıstan Türk Ədəbiyyatı) c.8.Ankara 1997; İbrahim Tatarlı "Bulgaristan Türklerinin Edebiyatı"(Antologiya) Sofiya 1964; İbrahim Tatarlı "Bulgaristan Türk Edebiyatının Bazı Kuramsal ve Praktik Sorunları üstüne", "Balkanlarda Türk Kültürü"(15-16) 1995; Niyazi Hüseyn Bəxtiyar "Çağdaş Rodor Türk Şairlerinden Esintiler"Ankara 1996; Məhməd Çavuş "XX Yüzyıl Bulgaristan Türkleri Şiiri" İstanbul 1988; İsmail, A. Çavuşev "Bulgaristan Türklerinde Cocuk Şiiri", "Türk Dünyaları Araşdırmaları"(217) ,2000.s.193-212; Nemətullah Hafiz "Bulgaristanda Çağdaş Türk Edebiyatı" c 3, Ankara 1989; Mustafa İsen -Reyhan İsen-A.Esra Kireççi "Balkanlarda Türk Cocuk Şiiri Antoloji" Ankara 2001;Grannes, Alif, Kletil Ra Hauge, Xeyriyyə Süleymanoğlu (2002). "A distionaru of Türkisms tn Bulgaristan", Oslo:Novus Verlag.

3) Şimaldan Balknlara gələrək xristianlaşan türklərlə Lozan müqaviləsindən sonra Yunanıstana köçən Karamanlı Türk Ortadokslar.

4)Türk dilindən iknci dil kimi istifadə edən İstanbul və Anadolu Rumları.

Bu xalqlar içində türkcəni ədəbi dil olaraq istifadə edənlər Qərbi Trakya türkləridir. Osmanlı dövlətinin bölgədən çəkilməsindən sonra yaranan Qərbi Trakya türk ədəbiyyatını üç yerə ayırmaq olar. Başlanğıcdan 1960-cı ilə qədər olan dövr türk milli azlığının ən sıxıntılı dövrüdür. Yunanıstan müharibəsi və II Dünya müharibəsi buradakı soydaşlarımızın həyatını daha da çox çətinləşdirmişdir. Bir başqa ifadəylə desək, soydaşlarımızın keçirdikləri sosial sıxıntılar ədəbiyyatda da əks olunmuş və bu dövr türk ədəbiyyatı, Yuqoslaviya nümunəsində olduğu kimi daha çox şifahi nümunələrlə özünü ifadə etmişdir. Yazılı ədəbiyyatın bu dövrdəki başlıca təmsilçiləri Məhməd Hilmi (1902-1931), Məhməd Arif (1906-1976) və Kamal Şövkət Batıbəydir. 1960-1980-ci illər arasındakı müddəti isə ölkədəki türk ədəbiyyatının inkişaf dövrü olaraq qəbul etmək gərəkdir. Xüsusilə Türkiyəyə gələrək təhsil alan çox sayda Qərbi Trakyalı soydaşlarımız, yenidən ölkəyə dönərək öz ədəbi əsərlərini müxtəlif mətbuat orqanlarında nəşr etdirmiş, bununla da ədəbi hərəkatı sürətləndirmişlər. "Birlik" və "Müəllim" jurnalları da mədəni sənətə aid mətbuat orqanları olaraq bu dövrdə yaranmışlar. Bu dövr əsərlərinin ilkin bünövrəsini Bolqar və Yunanlara qarşı aparılan həyat mübarizəsinin təsviri və folklor nümunələri təşkil edir. Asim Xəliloğlu (1923-1980), Tofiq Hüseynoğlu (1936), Əli Rza Saracoğlu (1938-1994), Hüseyn Əlibaboğlu (1936), Hüseyn Salehoğlu (1938-1994), Hüseyn Mahmudoğölu (1939), Qədir Yakıbaşıoğlu (1939), Rəhmi Əli (1941), Mustafa Təhsin (1942), İmam Qasım (1943), Mücahid Mömin (1944), Natim Kazım (1945), Məhməd Çolak (1946), Hüseyn Məzlum (1947), Rəfiqə Nazim (1947), İbrahim Onsunoğlu (1948), Rəşid Salim (1952), Şükran Rauf (1961) bu dövrün tanınmış yazarlarıdır. Hüseyn Əlibabaoğlu, Rəhmi Əli Mücahid Mömin və Hüseyn Mahmudoğlu kimi müəlliflər daha çox hekayə yazarı kimi tanınırlar.

1980-ci ildən sonra isə Qərbi Trakya Türk ədəbiyyatı başda Türkiyə olmaqla başqa ölkələrdə də şöhrət qazana bilmişdir. Bu zaman türk dünyasında meydana gələn yeni ədəbi inkişaf bu təşəbbüslərə bir təkan olmuşdu. Bunun nəticəsi olaraq "Şəfəq" adlı müstəqil bir ədəbiyyat jurnalı nəşrə başlamışdır.

Bütün bu inkişaflara baxmayaraq, Qərbi Trakya türklərinin ədəbiyyatı digər Balkan ölkələrində mövcud olan türk ədəbiyyatından, xüsusilə də Makedoniya, Kosova və Bolqarıstandakı türk ədəbiyyatından həm keyfiyyət, həm də kəmiyyətcə geridə qalmaqdadır. Bunun əsas səbəbi də bölgədəki türk milli azlıqlarının yaxın zamanlara qədər sənət və mədəniyyətə o qədər də diqqət verməmələri, dövlətin isə bu fəaliyyətə nəinki dəstək olması, hətta əngəl törətməsidir. Belə bir mənzərənin meydana çıxmasında rol oynayan faktorlardan biri də bölgədə yaşayan türk azlıqlarının bütünlüklə çölçü (tərəkəmə) olmasıdır. Türk xalqının demokratik bir ölkədə öz haqlarından istifadə edə bilməməsi, mədəni fəaliyyətlərdən daha çox siyasi fəaliyyətləri ön plana çıxarmışdır. Bu səbəbdəndir ki, türk ədəbiyyatının ən mühüm mövzusu qeyri sabit həyat hekayələrinin təsviridir. Ən çox inkişaf etmiş ədəbi növ şeir və bunun ardınca isə hekayədir. Uşaq ədəbiyyatı da inkişaf etmiş sahələrdəndir. Vilayət ədəbiyyatında nəzərə çarpan başqa bir xüsusiyyət də şair və yazarların siyasi və sosial təzyiqlərlə əlaqədar adlarını açıq şəkildə göstərməmələri, bunun əvəzinə təxəllüs, müştərək ad, qısaltma və XXX kimi simvollardan istifadə etmələridir.[257]

Osmanlı dövlətinin son dövründə başda Selanik olmaqla bu bölgə, türk nəşrinin çox mühüm nümunələrinə malikdir. "Gənc qələmlər", "Yeni əsr", Nətir", "Trakya", "Yeni Jiya", "Yeni yol", "İtila", "Balkan", "Yeni addım", Şeytan", "Ülkü", "Cümhuriyyət", "Müdatayı", "İslam" və "Milliyyət" bunların ən üzdə olanlarıdır. Ancaq bu diqqət ədəbiyyat sahəsində davam etdirilməmişdir.

[257] Fəyyaz Sağlam "Batı Trakya/Yunanıstanda Çağdaş Türk Edebiyatı Antolojisi",Ankara 1990- İzmir 1995; Fəyyaz Sağlam "Batı Trakya Türkleri Cocuk Edebiyatı", İstanbul 1990; Feyyaz Sağlam "Türkiye Dışındakı Türk Edebiyatları Antolojisi"(Qərbi Trakya Kipr Türk Ədəbiyyatı) c. 9. Ankara 1997; Mustafa İsen –Reyhan İsen- A.Esra Kireççi "Balkanlarda Türk Cocuk Şiiri Antolojisi" Ankara 2001.

Rumıniya

Rumıniyada hazırda 100 000 nəfərədək türk yaşayır. Osmanlı dövründə, xüsusilə türklərin sıx yaşadığı Dobruca bölgəsində bütünlüklə bir şəhər mədəniyyəti təşəkkül tapmadığı üçün ciddi bir ədəbiyyat nümunəsindən söz açmaq çətindir. Bu üzdəndir ki, bölgədə divan şeirinin təmsilçilərinə rast gəlinmir. XVII əsr Bektaşi şairlərindən Qazak Abdal, Qul Məhməd və Öysüz Aşığın bu bölgədən olduğu məlumdur. Təzkirələrdə bu bölgədən olduğu söylənilən tək şair Hələkidir (XVI əsr). Bölgədə türkcə yazılı ədəbiyyat ciddi şəkildə ancaq XIX əsrdə özünü göstərmişdir. Başlanğıcda siyasi məzmunlu türk mətbuat orqanları nəşrə başlamış, bir müddət sonra isə bunların ədəbi nümunələri də meydana gəlmişdir. Məhməd Niyazi (1912-1966), İsa Yusif Həlim (1884-1982) bu dövrdə qarşımıza çıxan ədəbiyyatçılardır. 1944-cü ilə qədər davam edən bu quruluş sosializm quruluşu ilə yeni bir forma qazanmış və bu quruluşun ilk illərində məktəblərdə türkcə təhsil verildiyi kimi, həm də türkcə kitablar nəşr edilmişdir. 1960-cı ildən etibarən isə qadağalar dövrü başlanmış və 1987-ci ilə qədər bu şəkildə davam etmişdir. Bu dövrdən sonra nəşr olunmağa başlayan "Rənglər" sənət jurnalı yenidən ümidləri doğrultdu. 1990-cı ildə ortaya çıxan siyasi dəyişikliklər nəticəsində "Rənglər" ilə bərabər "Qaradəniz"və "Hak səs" qəzetləri nəşrə başlasa da, bunlara təkan verilməmişdir. Rumıniyada o biri Balkan ölkələrindən fərqli olaraq, türk yazı dili Türkiyə türkcəsi və tatar türkcəsi kimi iki qolda aparılmışdır. Tarixi mərhələlərdə isə yalnız Türkiyə türkcəsi yazı dili kimi işlədilmişdi. "Rənglər" və "Qaradəniz" tatar türkcəsi, "Hak səs" isə Türkiyə türkcəsi ilə nəşr olunur. Bu gün Atilla Emin (1933-1996), Nəvzat Yusif (1936), Yaşar Məmmədəmin (1936), Altay Krim (1937), Əməl Emin (1938), Əkrəm Mənibay (1926), Ənvər Mahmud (1935), Acıəmin Baibəs(1939), Camal Aciaməd (1943), Gültən Abdulla (1946) bu ədəbiyyatın təmsilçiləridir. Xüsusilə Məhməd Niyazi ilə erkən sayıla biləcək bir dövrdə Rumıniya torpaqlarında ilk nümunələrini verən türk uşaq ədəbiyyatı, ziyalı mühacirəti üzündən davam edə bilməmişdir.[258]

[258] Osman Horata "Türkiye Dışındakı Türk Edebiyatları Antolojisi (Rumıniya və Qaqavuz Türk Edebiyatı) c.12 Ankara 1999

Qaqauzlar

